**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**İqtisadiyyat İnstitutu**

**İntizar Mirzəli qızı Qurbanova**

# AZƏRBAYCANDA ƏMƏK BAZARI VƏ KADR HAZIRLIĞININ SOSİAL-İQTİSADİ ASPEKTLƏRİ

**BAKI – 2025**

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun Elmi Şurasının 29 oktyabr 2025-ci il tarixli iclasının qərarı ilə çapa tövsiyə olunmuşdur.

**Elmi redaktor:** AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi
i.e.d., prof. **Şahbaz Muradov**

**Rəyçilər:** i.e.d., prof. **Gülənbər Əzizova**
i.f.d., dos. **Jalə Əliyeva**

**İntizar Mirzəli qızı Qurbanova. Azərbaycanda əmək bazarı və kadr hazırlığının sosial-iqtisadi aspektləri.** Bakı, "OPTİMİST" MMC- 2025, 220 s.

*Monoqrafiyada əmək bazarının məzmunu, məşğulluq, işsizlik, peşə-ixtisas kadr hazırlığının formalaşması məsələləri araşdırılmış, Azərbaycanda əmək bazarının mövcud vəziyyəti və kadr hazırlığı ilə bağlı göstəricilər təhlil olunmuşdur. Gənclər arasında işsizlik daha yüksək olduğuna görə onlara aid məsələlərə monoqrafiyada xüsusi yer verilmişdir. Kadr hazırlığının əmək bazarının ehtiyaclarına uyğunlaşdırılması və məşğulluğun yaxşılaşdırılması baxımından prioritet istiqamətlər müəyyənləşdirilmiş, o cümlədən peşə təhsilindən optimal istifadə imkanları göstərilmişdir.*

*Monoqrafiya elm və təhsil işçiləri, doktorantlar, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

İSBN 9 7 8 - 9 9 5 2 - 5 4 9 - 4 9 - 2

*©İntizar Qurbanova-2025*
*©ETN İqtisadiyyat İnstitutu-2025*

## Mündəricat

**Giriş**. .......................................................................................... 4

**Fəsil I. Əmək bazarının öyrənilməsinin elmi-nəzəri əsasları**

I.1. Əmək bazarının mahiyyəti və məzmunu. .................................. 7

I.2.İşsizliyin demoqrafik və sosial-iqtisadi təsirləri........................ 28

I.3.Azərbaycanda ilk kadr hazırlığı kimi peşə təhsili sisteminin formalaşması........................................................................... 41

**Fəsil II. Azərbaycanın əmək bazarında əhalinin məşğulluq vəziyyətinin təhlili və qiymətləndirilməsi**

II.1. Əmək bazarında məşğulluğun müasir vəziyyəti ..................... 55

II.2.Məşğul əhalinin peşə-ixtisas, təhsil quruluşunun təhlili ........ 82

II.3.Peşə, orta ixtisas və ali təhsil məzunlarının məşğulluq səviyyəsinin qiymətləndirilməsi .................................................. 99

**Fəsil III. Kadr hazırlığının əmək bazarının tələblərinə uyğunluğunun tədqiqi**

III.1. Kadr hazırlığında müasir meyllər ....................................... 115

III.2. Kadrlara tələbin quruluşunda baş verən dəyişikliklər......... 132

III.3. Kadr hazırlığı və işədüzəlmə problemlərinə gənclərin münasibəti (sorğu nəticələri əsasında) ........................................ 144

**Fəsil IV. Əmək bazarında məşğulluğun təmin olunmasında peşə-ixtisas təhsilindən istifadənin təkmilləşdirilməsi**

IV.1.Məşğulluğun yaxşılaşdırılmasının prioritet istiqamətləri.... 158

IV.2.Peşə-ixtisas təhsilinin məşğulluğa birbaşa və dolayı təsirlərinin qiymətləndirilməsi ......................................................... 174

IV.3.Peşə təhsilindən istifadənin yaxşılaşdırılması yolları......... 188

**Nəticə............................................................................. 211**

*1992-ci ildə I Qarabağ müharibəsində qəhrəmancasına şəhid olmuş qardaşım Natiqin əziz xatirəsinə ithaf edirəm!*

# GİRİŞ

Əmək bazarında tarazlığın olması və əhalinin məşğulluq imkanlarının yaxşılaşdırılması ən aktual məsələlərdən biri kimi daima diqqət mərkəzində olduğundan dövlətimiz tərəfindən bu istiqamətdə yeni-yeni layihələr hazırlanır, proqramlar icra olunur. Xüsusilə də yeni iş yerlərinin yaradılmasının sürətləndirilməsi, ölkənin əmək ehtiyatlarından düzgün istifadə olunması və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin 26 oktyabr 2005-ci il tarixli 1068 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının məşğulluq strategiyası (2006-2015-ci illər)" çox əhəmiyyətli layihələrdən biri kimi qiymətləndirilə bilər. Bunun davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli 602 nömrəli Sərəncamı ilə təsdiq edilmiş 2019-2030-cu illəri əhatə edən 2-ci Məşğulluq Strategiyasında məşğulluğun inkişafı və layiqli əməyin təmin olunması, aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və sosial müdafiəyə daha çox ehtiyacı olan həssas qrupların, o cümlədən gənclərin əmək bazarında möhkəm mövqe tutmasını təmin etmək məqsədləri əsas diqqət mərkəzindədir. Strategiyada məşğulluq siyasətinin başlıca istiqamətləri müəyyənləşdirilərkən "2016–2020-ci illər üzrə Azərbaycan üçün Layiqli Əmək Ölkə Proqramı"nın, milli iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin və bu qəbildən olan digər sosialyönümlü dövlət proqram-

ları və strategiyalarının, eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyaların və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin (2030) əsas məqamları da nəzərə alınmışdır.

Müasir mərhələdə məşğulluq sahəsində əsas problemlər rəqabətqabiliyyətli işçi qüvvəsi formalaşdırmaqla kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, əmək ehtiyatlarının maksimum səmərəli istifadəsi ilə bağlıdır. Qeyd edilən problemlərin həlli istiqamətində və xüsusilə də gənclərin səmərəli məşğulluğunun təşkili məqsədilə mühüm vasitə kimi peşə təhsili sisteminin inkişafı da diqqət mərkəzindədir. Milli iqtisadiyyatın 11 prioritet sahələrindən biri kimi peşə təhsili sisteminin inkişafını nəzərdə tutan strateji yol xəritəsinin hazırlanması xüsusi qeyd olunmalıdır. 2018-ci ildə Məşğulluq Qanununun yenilənməsi, Peşə təhsili haqqında Qanunun qəbul olunması, Milli İxtisas Çərçivəsinin təsdiqi həm peşə təhsili sisteminin inkişafı, həm də məşğulluğun yaxşılaşdırılmasına dair nəzərdə tutulmuş başlıca məsələlərin həlli istiqamətində atılmış müsbət addımlardır. Lakin nəzərdə tutulan məsələlərin həllinə nail olmaq üçün daha məqsədyönlü və geniş miqyaslı tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır.

Qeyd edək ki, tədqiqatlarımızda əmək bazarını yalnız ümumi göstəricilər kontekstində deyil, keyfiyyət baxımından yanaşaraq səmərəli məşğulluğun təmin edilməsi prizmasından tədqiq edirik. Mövcud şəraitdə məşğulluğun həm ölkə səviyyəsində, həm də fərdlər üçün arzuolunan keyfiyyətdə olmaması müxtəlif amillərlə əlaqədardır. Burada başlıca səbəb iş yerlərinin azlığıdırsa, ikinci vacib məsələ əmək bazarının gözləntiləri ilə kadr hazırlığının bir-birinə uyğun gəlməməsi, yəni, təhsilin

qeyri-adekvatlığı ilə bağlıdır. Hər iki halda ən çox çətinliyə məruz qalanlar gənclər olurlar. Gənclər arasında işsizlik digər yaş qruplarından demək olar ki, iki dəfə çoxdur. Nəzərə alsaq ki, işsizlik yalnız iqtisadi xarakter daşımır, öz ardınca sosial-psixoloji problemləri də gətirmiş olur, deməli, gənclərin məşğulluğunun yaxşılaşdırılması üçün daha məhsuldar tədbirlərin həyata keçirilməsi lazımdır.

Monoqrafiyanın yazılmasında başlıca məqsəd gənclərin layiqli əmək imkanlarına çıxışının təmin edilməsi yollarını araşdıraraq müvafiq təklif və tövsiyələrin hazırlanmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün əmək bazarında məşğulluğun strukturu, xüsusilə də gənclərin məşğulluq vəziyyəti kompleks araşdırılmış, kadr hazırlığının əmək bazarının tələblərinə uyğunluğunun təmin edilməsi və məşğulluğun yaxşılaşdırılması baxımından prioritet istiqamətlər müəyyən edilmişdir.

# FƏSİL I. ƏMƏK BAZARININ ÖYRƏNİLMƏSİNİN ELMİ-NƏZƏRİ ƏSASLARI

## 1.1.Əmək bazarının mahiyyəti və məzmunu

**Əmək bazarının öyrənilməsinin əsas mahiyyəti**

Əmək bzarının mahiyyəti, məzmunu, strukturu, modelləri və s. məsələləri klassik iqtisadçılardan başlamış müasir dövr tədqiqatçılarına qədər hələ də müxtəlif aspektlərdən tədqiq olunmaqdadır. Prof. Ş.M.Muradov bu sahədə dərin tədqiqatlar apararaq mövcud nəzəriyyələri təhlil etmiş və XIX əsrin sonlarında və XX əsrdə Alfred Marşal, Con Meynard Keyns, Paul Samuelson, R.C.Erenberq, R.S.Smit, A.İ.Rofe, L.A.Kostin, A.A.Nikiforova, A.E.Kotlyar, S.A.Kuzmin, L.N.Sosnovskaya və başqalarının bazar haqqında irəli sürdükləri nəzəriyyələrindən çıxan məntiqi nəticəni bu cür ifadə etmişdir: *“**əmək bazarı dedikdə**, iş qüvvəsinin təkrar istehsalı, mübadiləsi və istifadəsini təmin edən ictimai münasibətlər, sosial norma və institutlar başa düşülür”*[1].

Əmək bazarı barədə araşdırmaları yekunlaşdıraraq görkəmli alim özü haqlı olaraq belə bir qənaətə gəlmişdir ki, *“əmək bazarı dedikdə, ən ümumi halda işverənlərlə muzdlu fəhlələr, iş qüvvəsi alıcıları ilə onun satıcıları arasında birincilərin əməyə olan tələbləri ilə ikincilərin işə olan təkliflərinin ödənilməsi üzrə formalaşan iqtisadi münasibətlər sistemi başa düşülməlidir*[2].

---

[1]Muradov, Ş. M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Monoqrafiya / Ş.M.Muradov. – Bakı: Elm, – 2004. – 660 s., səh.139
[2]Yenə orada, səh. 140

Prof. G.A.Əzizovanın fikrincə, əmək bazarı işçi qüvvəsinin hazırlanmasında və əmək resurslarının bölüşdürülməsində vacib rol oynayır. Bundan başqa, əmək bazarı əməyin qiymətləndirilməsində stimulların rolunu artırır ki, bu da əmək məhsuldarlığına müsbət təsir göstərir. Əmək bazarı həm də insanları işçi qüvəsinə olan tələbin dəyişiklikləri barədə məlumatlandıraraq onların bu dəyişikliklərə uyğunlaşması prosesini sürətləndirir[3].

Sadə dildə desək, əmək bazarı da digər bazarlar kimi tələb və təklifin qarşılaşdığı bazardır. Burada təklif tərəfini canlı əmək qüvvəsi təşkil edir ki, bunların da bir qismi tələb tərəfindən istifadə olunur və məşğul əhali adlanır, digər hissəsi isə işsiz əhali kimi qeydə alınır. Bütövlükdə isə biz onları iqtisadi fəal əhali adlandırırıq. Deməli, əmək bazarının mahiyyəti iqtisadi fəal əhalini təşkil edən insanların layiqli işlə, iş yerlərinin isə müvafiq işçi qüvvəsi ilə təmin olunmasından ibarətdir. Əmək bazarı iştirakçılarının bir qismi işi təklif edənlər, digər qismi isə işi müəyyən əmək haqqı müqabilində qəbul edənlərdir.

Bütün bunlardan çıxış edərək, əmək bazarının ***mahiyyətinə*** daxil olan əsas məsələləri aşağıdakı kimi qeyd etmək olar:

1. *İqtisadiyyatın işçi qüvvəsi ilə təmin olunması:* Əmək bazarı işçi qüvvəsinin və işəgötürənlərin qarşılıqlı əlaqə qurduğu yerdir. İşəgötürənlər öz kadr bazasını yaratmaq və boş olan vəzifələri tutmaq üçün lazımi bacarıqlara malik işçi qüvvəsini əldə etmək, iş axataranlar isə öz bacarıqlarına və maraqlarına uyğun işi tapmaq üçün əmək bazarına müraciət edirlər.

---

[3]Азизова, Г.А. Рынок труда Азербайджана / Г.А.Азизова. – Баку: Элм, – 2005 . – 303 с., səh.33

2. *İqtisadi dayanıqlığın təmin edilməsi:* Əmək bazarı işçi qüvvəsinə olan tələbi və onun təklifini uyğunlaşdırmaqla ölkədə iqtisadi balansın qorunmasına da kömək edir. Əmək bazarında qiymət mexanizmi kimi çıxış edən əmək haqqı səviyyələri isə işçilərin və işəgötürənlərin gözləntilərini tənzimləyir.

3. *Əmək münasibətlərinin tənzimlənməsi:* Əmək bazarı işəgötürən və işçi arasında hüquqi və sosial münasibətlərin tənzimləndiyi əsas sahədir. Burada rəsmi qaydada işçilərin hüquqları və vəzifələri müəyyən edilir, əmək müqavilələri bağlanır və onların əmək qanunvericiliyinə uyğunluğu təmin olunur.

***Əmək bazarının məzmunu*** dedikdə, əmək bazarının fəaliyyətini və strukturunu təşkil edən əsas amillər nəzərdə tutulur. Onun ən mühüm elementləri aşağıdakılardır:

- *Əməyə tələb:* İşəgötürənlərin işçi qüvvəsinə olan ehtiyacından asılı olaraq əmək bazarında tələbin kəmiyyəti formalaşır. Əməyə tələbin xüsusiyyətləri isə iş yerlərinin təhsil, peşə, ixtisas, səriştə və bacarıqlara olan ehtiyacından asılıdır. Məhz buna görə də vakansiyalar elan olunarkən orada müxtəlif kriteriyalar yer alır.
- *Əmək təklifi:* Əmək təklifi işləməyə hazır olan və fəal şəkildə iş axtaran insanların müəyyən haqq müqabilində öz əməyini təklif etməsidir. Onların kəmiyyəti qədər keyfiyyəti də önəmlidir. İşaxtaranların keyfiyyət tərkibindən, yəni, peşə, ixtisas, təhsil, təcrübə və bacarıq səviyyələrindən asılı olaraq əmək haqqı gözləntiləri formalaşır.
- *Əməyin qiyməti:* Əmək bazarında işçilərə ödənilən əmək haqqı, bu bazarın tənzimləyici mexanizmi olub, bazarda təklif olunan iş yerlərinin sayı və xüsusiyyətləri və işçi qüvvəsinin dəyərliliyindən asılıdır. Əmək haqqının kəmiyyəti işçilərin təc-

rübə, təhsil, bacarıq səviyyəsi, məhsuldarlıq, yerinə yetiriləcək işin mürəkkəbliyinə, iş şəraitinə və həmçinin yaradılan dəyərin mahiyyətinə və başqa xüsusiyyətlərə görə fərqlənir.

- *Əmək şəraiti:* İşçilərin iş yerindəki fiziki və sosial şəraitini ifadə edir. Buraya işin təhlükəsizliyi, iş saatlarının miqdarı, asudə vaxtın və istirahətin təşkili, sosial təminatlar (sığorta, pensiya, və s.) və iş yerindəki ümumi şərait daxildir.

- *Əmək hüquqlarının qorunması:* Əmək bazarının məzmununa həmçinin buradakı fəaliyyətləri tənzimləyən qanunvericilik daxil edilir. Bu hüquqi çərçivə işəgötürən-işçi münasibətlərinə nəzarət edir, əmək müqavilələrini nizamlayır və bunula da işçilərin hüquqlarını qoruyur, onların iş şəraitini yaxşılaşdırır.

- *Əhalinin məşğulluğunun təmin edilməsi:* ***Məşğulluq*** *əmək bazarının mahiyyəti və məzmununda ən vacib komponent hesab oluna bilər.* Buna görə də əmək bazarının tənzimlənməsi ilə bağlı fəaliyyətlər əsasən məşğulluğun artırılması və yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirləri özündə əks etdirir.

- *İşsizlik:* Əmək bazarının mühüm bir komponenti də işsizlikdir. İşsizlik bir tərəfdən iş yerlərinin azlığı, işəgötürənlər tərəfindən tələb edilən kriteriyaları ödəyən keyfiyyətdə və ya sayda işçi qüvvəsinin olmaması ilə bağlıdırsa, digər tərəfdən, işçilərin ixtisasına, əmək bacarıqlarına, təhsil səviyyəsinə uyğun iş tapmaması nəticəsində yaranır. *İşsizlik səviyyəsi*, ölkədəki ümumi vəziyyəti, əmək bazarının fəaliyyətinin nə dərəcədə səmərəli və ya səmərəsiz olduğunu, iqtisadiyyatın inkişaf səviyyəsini və nəhayət əhalinin yaşayış keyfiyyətini xarakterizə edən amildir.

Beləliklə görürük ki, əmək bazarının məhsuldar şəkildə işləməsi ümumilikdə iqtisadiyyatın inkişafına müsbət təsir göstərir, insanların sosial rifahını artırır və işəgötürənlərin fəaliyyətini səmərəli formada təşkil edir. Əmək bazarında vəziyyətin sabit olması bütövlükdə dövlətin mənafeyinə uyğun olmaqla yanaşı, əhalinin hər bir fərdi üçün həyat səviyyəsinin yüksək olması baxımından da əhəmiyyətlidir.

Digər bazarlar kimi burada da ilk növbədə tələbin xüsusiyyətlərinin öyrənilməsi vacibdir ki, təklifin ona uyğunluğunu təmin etmək mümkün olsun. Söhbət tələbin həm kəmiyyət, həm də keyfiyyətcə araşdırılmasından və ödənilməsindən gedir. Buradan da təhsil sisteminin, o cümlədün peşə və ixtisas təhsilinin vacib rolu meydana çıxır, belə ki, əmək bazarının əsas mahiyyətini və komponentini təşkil edən məşğulluğun təmin edilməsi müvafiq sayda keyfiyyətli kadrların hazırlanması ilə bilavasitə bağlıdır.

Monoqrafiyada qarşımıza qoyduğumuz məqsədə çatmaq üçün öncə əmək bazarının əsas komponenti olan məşğulluğun nəzəri məsələlərini aydınlaşdıracağıq. Növbəti paraqraflarda isə onun əksi olan işsizliyin törədə biləcəyi problemləri nəzərdən keçirəcək və bu problemlərin həlli yolu kimi çıxış edən kadr hazırlığının formalaşması məsələlərinin tədqiqinə yer verəcəyik.

**Məşğulluğa dair əsas konsepsiyalara qısa nəzər**

Planlı təsərrüfat, inzibati-amirlik şəraitinə uyğunlaşmış ölkələrin demək olar ki, hər birinin bazar iqtisadiyyatının ilk illərində rastlaşdıqları ən mühüm problemlərdən biri işsizlik məsələsi olmuş və onlar əhalinin məşğulluq səviyyəsinin artırıl-

ması ilə bağlı müxtəlif çıxış yolları axtarmağa başlamışlar. Bu çıxış yollarının da demək olar ki, əsas tərkib hissəsini yüksək inkişaf etmiş peşə və ixtisas təhsili sisteminin formalaşdırılması təşkil etmişdir.

Qeyd etmək lazımdır ki, iqtisad elmində böyük iz qoymuş iqtisadçı alimlər tərəfindən əmək bazarı, məşğulluq və işsizlik məsələlərinə dair çoxsaylı tədqiqatlar aparılmışdır. Burada biz onların yalnız əsas fikirlərini konkret şəkildə qeyd etməklə kifayətlənəcəyik. Məsələn, klassik nəzəriyyəçilər (D. Rikardo, A.Marşal, A. Piqu, J. Sey) hesab edirdilər ki, iş yerləri uğrunda rəqabət əmək haqqı tarifini çox aşağı saldığına görə bu tariflər sahibkarlar üçün faydalı olur və nəticədə bütün işsiz fəhlələri işə qəbul etmək imkanı yaranır[4]. Buna oxşar fikri, daha dəqiq desək, işsizliyin qarşısının alınması və tam məşğulluğun yaradılması üçün əmək haqlarının azaldılması fikrini "azad sahibkarlar" məktəbi nəzəriyyəçiləri də dəstəkləyirlər. Maltusçuların əhali artıqlığı nəzəriyyəsinə əsasən isə əhalinin artım tempi öz sürətinə görə istehlak vasitələrinin istehsalını qabaqladığına görə əhali artıqlığı və işsizlik yaranır.

Keyns işsizliyi işçi qüvvəsinə olan tələbin çatışmazlığı ilə əlaqələndirirdi. Klassiklərdən fərqli olaraq Keyns tələbin təklifi doğurduğu faktını dəstəkləyirdi. Biz də bununla tam razıyıq ki, adətən əvvəlcə tələb mövcud olur, tələbin ödənilməsi üçün isə təklif meydana gəlir, tələb təkilifin deyil, təklif tələbin kriteriyalarına uyğunlaşmağa çalışır. Əmək bazarında da məsələ məhz bu cürdür. Keynsin fikrincə, məşğulluğun həcmi tələbin səmərəli həcmindən asılıdır, işsizliyin səbəbi isə əmtəələrə

[4]İqtisadi nəzəriyyə. Dərslik / Ə.P.Babayevin elmi redaktəsi ilə. Bakı: CBS nəşriyyatı, – 2011. – 871 s., s. 416

olan tələbin azlığından irəli gəlir, yəni, gəlirlər artdıqca əhalinin istehlaka olan meyli azalır və insanlar qənaətcil olmağa çalışırlar[5]. Keynsin bu fikirləri ilə də razılaşmamaq mümkün deyil, çünki, məhz, gəlirlərin artması insanları daha böyük tələbatlarının ödənilməsinə sövq edir, həvəsləndirir. Bu zaman isə müəyyən müddət qənaət edib arzuolunan istehlakı həyata keçirmək üçün cari istehlakı müəyyən qədər azaltmış oluruq ki, bu da əmtəə bazarında tələbin aşağı düşməsinə gətirib çıxarır və nəticədə istehsalın azaldılması iş yerlərinin ixtisarına və işsizliyin artmasına yol açmış olur.

Beləliklə də görürük ki, yuxarıda sadalananların hər biri məşğulluğa müəyyən qədər təsir göstərir. Ayrı-ayrı hallarda bu konsepsiyaların hər birinə haqq qazandırmaq mümkündür. Belə qənaətə gəlirik ki, iş axtaranların sayı ilə boş iş yerlərinin sayının uyğunluğu və müxtəlif müəssisələrdə əmək haqları arasında kəskin fərqlərin olmaması təmin edilərsə işləyənlərin sayı daha çox ola bilər. Məqsədimiz odur ki, hər kəs üçün ona halal zəhmətlə qazanc gətirən layiqli bir işi olsun.

Məsələ burasındadır ki, yuxarıda sadaladığımız nəzəriyyələrin tərəfdarları demək olar ki, kəmiyyəti əsas götürürdülər, yəni, əmək bazarında təklif olunan iş yerlərinin sayı çox olarsa məşğulluq problemi bitmiş olar. Lakin işçi qüvvəsinin ixtisas və peşə bacarıqları baxımından iş yerlərinin tələblərinə uyğunluğu problemi diqqətdən kənar qalırdı. Ümumiyyətlə, səmərəli məşğulluğun təmin edilməsi məsələsi gündəmdə deyildi. Ancaq texnologiyaların tətbiqi genişləndikcə və iş yerləri uğrunda

[5] Keyns, C.M. Məşğulluq, mənfəət və pulun ümumi nəzəriyyəsi / C.M.Keyns. Azərb. dilində. – Bakı: Qanun nəş., – 2001. – 496 s.

rəqabət artdıqca işçilərdən keyfiyyət tələb olunması daha da qabarıq şəkildə özünü göstərməyə başladı.

Buna görə də müasir iqtisadçıların böyük əksəriyyəti yeni iş yerlərinin açılması ilə yanaşı, işçi qüvvəsinin keyfiyyət tərkibinin yaxşılaşdırılması baxımından peşə-ixtisas hazırlığını, o cümlədən peşə təhsili sisteminin bazar iqtisadiyyatının tələblərinə uyğun inkişaf etdirilməsini əhəmiyyətli məsələ kimi önə çəkirlər. Belə fikirlərə Ş.M.Muradovun, T.Ə.Quliyevin, G.A.Əzizovanın, C.B.Quliyevin, R.Ş.Muradovun, R.S.Abdullayevanın, A.N.Muradovun, S.M.Seyidovanın, J.R.Əliyevanın və başqa alimlərimizin, eləcə də xarici ölkə tədqiqatçılarının əsərlərində tez-tez rast gəlmək olur. Son dövrlərdə bu cür fikirlərin artmasını onunla bağlamaq olar ki, texnika və texnologiyalar inkişaf etdikcə peşə və ixtisas təhsilinin əhəmiyyəti və ondan gözləntilər də yüksəlir.

Tədqiqat işində qarşıya qoyulmuş məsələ, iqtisadi inkişaf şəraitində respublikamızda bir tərəfdən səmərəli məşğulluğun artırılması zəruriyyəti ilə bağlıdırsa, digər tərəfdən də gənclərin müvafiq peşə-ixtisas təhsili ilə əhatəliliyinin yaxşılaşdırılması ilə bağlıdır.

Son dövrlərdə milli iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun inkişafının təmin olunması istiqamətində görülən tədbirlər əmək bazarında peşəkar kadrlara tələbatı və onlardan gözləntiləri daha da artırmışdır. Bütün bunların keyfiyyətli ödənilməsi nöqteyi-nəzərindən peşə təhsili sisteminin (PTS) inkişaf etdirilməsi və təkmilləşdirilməsi son dövrün ən vacib məsələlərdən birinə çevrilmişdir. Fasiləsiz təhsilin vacib həlqələrindən biri sayılan peşə təhsili sistemi yüksək inkişaf səviyyəsinə çatdığı dövrlərdə iqtisadi fəaliyyət sahələrinin yük-

sək ixtisaslı peşə kadrlarına olan tələbatlarının ödənilməsində və məşğulluğun artmasında müstəsna rol oynamışdır. Bu səbəbdəndir ki, cəmiyyətdə peşə təhsilinin nüfuzunun və inkişaf səviyyəsinin yüksəldilməsi dövlət səviyyəsində ən çox önəm verilən vacib məsələlərdəndir.

Ümumiyyətlə, hər bir insanın yüksək səviyyədə həyat şəraitinə malik olmaq, yaxşı təhsil almaq, layiqli işlə məşğul olmaq haqqı vardır. Bütün bunlar ölkənin ali qanunvericiliyi olan Konstitusiyamızda da öz əksini tapmışdır. 35-ci maddədə deyilir: *"Əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır."*[6]. Təhsillə, əməklə bağlı hüquqların reallaşdırılması üçün isə elə şərait yaradılmalıdır ki, insanlarımız hərtərəfli inkişaf etsinlər, yüksək səviyyədə yaşayışa halal zəhmətlə nail olsunlar və öz tələbatlarının ödənilməsini yanlış yollarda axtarmasınlar.

C.B. Quliyev, R.S. Abdullayeva, M.H. Rizayeva və A.U. Allahverdiyevanın tədqiqatlarından belə nəticə hasil olur ki, *"insan inkişafı uğurlu olduqda adamlar dəyərli hesab etdikləri yaradıcılıqla məşğul olmağa meyl göstərirlər"*[7].

İqtisadçı alim C.B. Quliyev tamamilə doğru qeyd edir ki, hər bir insanın özünün və eləcə də ailəsinin yaxşı yaşaması üçün işləməsi, işləməsi üçün münasib iş yerinin olması, eləcə

3 Azərbaycan Respublikasının Konstitusiyası // 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir (2002-ci il avqustun 24-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş dəyişikliklər, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklər). – Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, – 2016, – 85 s.

[7] Quliyev, C.B. Rəqabət qabiliyyətli iqtisadiyyatda həyat səviyyəsi və onun keyfiyyətcə yaxşılaşdırılmasının sosial-iqtisadi problemləri. Monoqrafiya / C.B.Quliyev, R.S.Abdullayeva, M.H.Rizayeva, A.U.Allahverdiyeva, – Bakı: Avropa nəş., – 2014. – 198 s., s. 35

də iş yerinin tələbatına uyğun peşə və ixtisasının olması vacibdir, əks halda gənclərin bir çoxu cinayəti özlərinə peşə seçmiş olarlar[8]. Təəssüflər olsun ki, sonuncu qeyd edilən hallarla da çox qarşılaşırıq. Məsələyə bu baxımdan yanaşdıqda işsizlik hətta təbii səviyyəsində belə yol verilməzdir. Burada əməktutumlu fəaliyyət sahələrinin genişləndirilməsi məsələsi də öz aktuallığını tapır. Bir tərəfdən texnologiyaların inkişafı işçi qüvvəsinə olan ehtiyacı azaldırsa, digər tərəfdən əməktutumlu iş yerlərinin yaradılması vacibdir ki, insanlar üçün məşğuliyyət imkanı olsun, heç kim işsiz qalmasın. Əks halda işsizliyin onları başqa məşğuliyyətlərə sövq etməsi təhlükəsi arta bilər...

Dahi mütəfəkkir N.Tusi öz ibrətamiz əsərində qeyd edirdi ki, insan öz tələbatını ödəməyə möhtacdır, əmək və istehsal fəaliyyəti onun üçün bir zərurətdir. N.Tusi sənət-peşə sahibi olmağın vacibliyini çox sadə, lakin müfəssəl şəkildə belə izah edir: *"İnsanın qidası sənət və peşə olmadan, məsələn, əkmək, biçmək, üyütmək, yoğurmaq və bişirmək olmadan mümkün deyildir, bunun üçün isə köməkçi işlər, kənd təsərrüfatı ləvazimatlarını düzəltməyi və işlətməyi bacarmaq, uzun müddət böyük əmək sərf etmək lazımdır"*[9].

Yuxarıda qeyd edilənlərdən də aydın olduğu kimi hər bir fərd üçün ən vacib məsələ – gərəkli bir sənətin, peşənin, ixtisasın sahibi olmaq və eyni zamanda da bunlardan maksimum faydalanmaqdır, yəni, insanın səmərəli məşğulluğunun olması çox zəruridir.

---

[8] Quliyev, C.B. Həyat səviyyəsi: yoxsulluğu törədən və azaldan sosial-iqtisadi amillər. Monoqrafiya / C.B.Quliyev. –Bakı: Avropa nəş., – 2011. – 240 s., s. 208

[9] Tusi, X.N. Əxlaqi-nasiri / X.N.Tusi. – Bakı: Elm nəş., – 1989. – 256 s., s. 145

Qeyd etdiyimiz kimi, əhalinin, xüsusilə də gənclərin məşğulluq problemləri müasir dövrümüzün ən aktual və vacib məsələlərindən biri olaraq qalmaqdadır. Baxmayaraq ki, ölkə rəhbərliyi bu məsələləri daima diqqət mərkəzində saxlayır və gənclərin məşğulluğunun artırılması ilə bağlı silsilə Dövlət Proqramları, strategiyalar icra olunur, yenə də gənclər arasında işsizlik faizi yüksəkdir. Başlıca çatışmazlıq isə peşə və ixtisas təhsili müəssisələri ilə əmək bazarı arasında əlaqənin hələ də zəif olması ilə bağlıdır. Hazırlanan kadrların sayı, peşə strukturu və keyfiyyəti ilə əmək bazarındakı tələbatlar çox vaxt üst-üstə düşmür. Müəyyən ixtisaslar üzrə kadr artıqlığı olduğu halda, digər vacib peşələr üzrə kadr çatışmazlığı yaranır. Təhsil müəssisələri ilə işəgötürənlərin səmərəli əməkdaşlığının formalaşdırılması lazımdır ki, gənclərin səmərəli məşğulluğu da təmin edilsin.

Digər tədqiqatlarımızda da qeyd etdiyimiz kimi, biz məşğulluqdan danışarkən, məhz, səmərəli məşğulluğun olmasını nəzərdə tuturuq. Öz peşə və bacarıqlarına müvafiq olmayan işdə çalışmaq məcburiyyətini (özü də cüzi məvaciblə çalışmaq zərurətini) səmərəli məşğulluq adlandırmaq mümkün deyil. Prof. Ş.M. Muradov haqlı olaraq qeyd edir ki, *"səmərəli məşğulluq elə məşğulluqdur ki, layiqli gəlir, sağlamlıq, şəxsiyyətin təkmilləşdirilməsi, ictimai əmək məhsuldarlığının yüksəldilməsi əsasında cəmiyyətin hər bir üzvü üçün təhsil və peşə səviyyəsinin yüksəldilməsinin təmin edilməsinə imkan versin"*[10].

Bir çox xarici tədqiqatçılar, məsələn, Y.Q. Julina, N.A. İvanova; A.İ. Rofe; E.R. Saruxanov; O.A. Kolesnikova və b. "sə-

[10] Muradov, Ş. M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Monoqrafiya / Ş.M.Muradov. – Bakı: Elm, – 2004. – 660 s., s. 181

mərəli məşğulluq" məsələsinə daha çox iqtisadiyyatın səmərəliliyi və onun inkişafı prizmasından yanaşırlar[11].

Səmərəli məşğulluğun artırılmasından danışarkən fərdlərin mövqeyini əsas götürərək bizim məqsədimiz ilk növbədə gənclərin həyat səviyyəsinin yüksəldilməsinə nail olmaqdır. Ona görə ki, işsizlik problemindən ən çox əziyyət çəkən gənclərdir, gənclər arasında işsizlik digərlərindən iki dəfə çoxdur. İşsizliyin azaldılması digər problemlərin, hətta kriminal hadisələrin də azalmasına kömək edə bilər. Buna görə də gənclərin işsizlik problemlərinin qarşısının alınması və onların həyat səviyyəsinin yüksək olması nöqteyi-nəzərindən səmərəli məşğulluğun artırılmasını vacib sayırıq. Dolayısı ilə elə bunlar da iqtisadiyyatın inkişafına gətirib çıxarır.

R.Ş. Muradov əhalinin səmərəli məşğulluq problemindən danışarkən yeni iş yerlərinin açılması ilə yanaşı, əməyin ödənilməsi mexanizminin təkmilləşdirilməsinin vacibliyini də xüsusi qeyd edir[12]. Alimin bu fikri ilə tamamilə razıyıq, əlbəttə, iş təminatının yüksək olması üçün ilk növbədə iş yerlərinin sayı çox olmalıdır, yüksək məvacibin olması isə hər kəs üçün arzuolunandır. Bütün bunlarla yanaşı, bacarıq, ixtisas və təhsil səviyyəsinə müvafiq işin olması da fərdin nöqteyi-nəzərindən yanaşdıqda çox vacibdir.

---

[11] Жулина, Е.Г., Иванова, Н.А. (2009). Экономика и социология труда. М. : Ай Пи Эр Медиа. 224 с.; Колесникова, О. А. (2010). Эффективная занятостькак основа эффективной экономики. Вестник ВГУ. Серия: Экономика и управление. № 2. С. 42-44.; Рофе, А.И. (2010). Экономика труда. М. : КНОРУС. 400 с.; Саруханов, Э.Р. (1993). Управление занятостью населения : Учеб. пособие. Санкт-Петербург. ун-т экономики и финансов. СПб. : Изд-во Санкт-Петербург. ун-та экономики и финансов. 164 с.

[12] Muradov R.Ş. Müasir mərhələdə əhalinin məşğulluq quruluşunun formalaşması və təkmilləşdirilməsi problemləri. Bakı, "Elm", 2006, 216 səh., s. 190

Özünün və ailəsinin tələbatlarını qarşılamayacaq qədər aşağı maaşla işləmək, davamlı gəlirin olmaması və yaxud aldığı təhsil səviyyəsinə və ixtisasına uyğun olmayan aşağı vəzifəni, qeyri-müntəzəm işlə məşğul olmağı səmərəli məşğulluğa aid edə bilmərik. Halbuki, belə şəraitdə çalışanların, daha doğrusu çalışmaq məcburiyyətində olanların sayı həddindən artıq çoxdur.

Yuxarıda qeyd olunanları da ümumiləşdirərək fkrimizcə, səmərəli məşğulluq dedikdə insana qazanc gətirən elə fəaliyyət növü başa düşülür ki, işçinin həm peşə və bacarıqlarına uyğun olsun, həm də maddi və mənəvi ehtiyaclarını ödəyə bilsin. Bu isə yalnız insan ixtisas və təhsil səviyyəsinə uyğun və yüksək məvacibli işdə çalışdıqda mümkündür.

Razılaşmalıyıq ki, səmərəli məşğulluğun artırılması üçün yaxşı təhsil almaqla yanaşı həm də layiqli iş yerləri olmalıdır. Prof. T.H.Hüseynovun fikrincə, *"layiqli iş yeri o deməkdir ki, işləyənin aldığı əməkhaqqı (yaxud qazandığı gəlir) onun və ailəsinin normal, ən azından minimum yaşayışını təmin etsin"*[13]. Alimin bu fikri ilə də razılaşmalıyıq ki, əgər əvvəllər kütləvi işsizliyin qarşısının alınmasından söhbət gedirdisə, indi layiqli iş yerlərindən, əsasən də onların regionlarda yaradılmasından gedir.

Gənclərin səmərəli məşğulluğunun təşkilinə və eləcə də əmək bazarında tarazlığa nail olmaq üçün regionlarımızda iş yerlərnin sayının get-gedə daha da artırılması və həmin iş yerlərinin tələblərinə uyğun kadrların hazırlanması vacib məsələdir. Prof. G.A. Əzizova ümumiyyətlə, əmək bazarında tarazlığın olması baxımından doğru qeyd etmişdi ki: *"işçi qüvvəsinə tələb*

---

[13] Hüseynov, T.H. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika / T.H.Hüseynov. – Bakı: Elm, – 2015. – 466 s., s. 114

*və təklifin uzlaşdırılmasına nail olmaq üçün yeni iş yerlərinin yaradılması prosesini stimullaşdırmaq, mövcud olanları isə qorumaq və müasirləşdirmək vacibdir"*[14]. Təbii ki, bunlar hamısı texnoloji inkişafın və zamanın tələbidir.

İstənilən halda əmək bazarındakı gələcək dəyişiklikləri öncədən proqnozlaşdıraraq tələbə qəbul planlarında nəzərə alınması vacibdir ki, insanlar aldıqları təhsilin səmərəsini görsünlər. Ona görə ki, hazırki dövrdə əksər insanlar özləri və yaxud valideynləri onların təhsilinə böyük sərmayə yatırırlar. Təbii ki, onların bundan böyük gözləntiləri var, ixtisas aldıqdan sonra daha səmərəli bir işdə çalışıb qoyulmuş sərmayəni artıqlaması ilə geri qaytarmaq gözləntisi.

Digər bir problemi də qeyd edək ki, işləyənlərin tərkibində təhsil aldığı peşə və ixtisasa uyğun olmayan sahələrdə və vəzifələrdə çalışanların sayı da çoxdur. Bu da əmək bazarında tarazlığın pozulmasına, yəni, kadrların öz ixtisaslarına və təhsil səviyyəsinə uyğun iş tapa bilməməsinə gətirib çıxarır. Nəticədə, ali təhsil diplomlu bir çox şəxslərin hətta təhsil tələb olunmayan işlərdə çalışması halları artır. III fəslin 3-cü paraqrfında baxacağımız sorğunun nəticələri də bunu göstərir. Bütün bunlar isə respublikamızda gənclərin öz potensiallarını reallaşdıra bilməməsi, səmərəli məşğulluğun olmaması və həyat keyfiyyətinin aşağı düşməsi ilə nəticələnir.

İlk dəfə iş axtaran gənclər üçün əmək bazarına daxil olmaq və səmərəli şəkildə öz karyerasının başlanğıcını qoymaq daha çətindir. Düzdür, bu yalnız Azərbaycan üçün deyil, əksər ölkələr üçün xarakterik haldır. Ancaq işəgötürənlərlə təhsil müəssi-

---

[14]Азизова, Г.А. Рынок труда Азербайджана / Г.А.Азизова. – Баку: Элм, – 2005 . – 303 с., s. 99

sələri arasında əməkdaşlığın yaxşılaşdırılması və keyfiyyətli peşə təhsilinin köməyi ilə əhalinin bu həssas qrupuna əhəmiyyətli dərəcədə kömək etmək olar.

**Məşğulluğa hüquqi prizmadan baxış**

İqtisadi mənada məşğulluq–əməkqabiliyyətli əhalinin münasib işlə təmin edilməsini və təkrar istehsal prosesində istehsal amilləri ilə işçi qüvvəsinin birləşməsini özündə əks etdirən sosial-iqtisadi proses kimi qiymətləndirilirsə, hüquqi mənada məşğulluq dedikdə – Azərbaycan Respublikası vətəndaşlarının, ölkəmizdə daimi yaşayan, lakin vətəndaşlığı olmayan şəxslərin və eləcə də əcnəbilərin Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə zidd olmayan, onlara qazanc gətirən hər hansı fəaliyyəti nəzərdə tutulur.

Əsas makroiqtisadi göstəricilərdən biri olmaqla məşğulluq ölkədə sosial-iqtisadi inkişafa əhəmiyyətli dərəcədə təsir göstərə bilir. Məşğulluq həmçinin iqtisadiyyatda məhsuldarlığın artırılması, işsizliyin və yoxsulluğun azaldılması, cəmiyyətdə sosial gərginliyin aradan qaldırılması, maddi və mənəvi baxımdan insanların yüksək həyat keyfiyyətinin təmin edilməsi, sosial müdafiənin möhkəmləndirilməsi kimi bir çox məsələlərin həllinə də dəstək verir.

Bütün bunları nəzərə alaraq Azərbaycanda 2 iyul 2001-ci ildə Məşğulluq Qanunu qəbul edilmişdir. 29 iyun 2018-ci ildə yeni Məşğulluq Qanununun imzalanması ilə həmin qanun qüvvədən düşmüşdür. Qanunvericilik barədə qeyd etmək istədiyimiz əsas mübahisə doğuran məsələ hansı şəxslərin məşğul sayılması ilə bağlıdır. Qüvvədə olan qanunun 4-cü maddəsinə baxaq.

*4.1. Məşğul şəxslərə aşağıdakılar aiddir:*

*4.1.1. muzdla işləyənlər - Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq işəgötürənlə əmək müqaviləsi bağlayaraq, müvafiq iş yerlərində əmək fəaliyyətini əməkhaqqı müqabilində yerinə yetirən şəxslər;*

*4.1.2. mülki-hüquqi xarakterli müqavilələrlə işləyənlər - Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq qarşı tərəflə müqavilə bağlayıb əmək münasibətləri yaratmadan müəyyən haqq müqabilində işləri (xidmətləri) yerinə yetirən şəxslər;*

*4.1.3. sahibkarlar, mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olanlar, ailə kəndli təsərrüfatının üzvləri;*

*4.1.4. haqqı ödənilən vəzifəyə seçilənlər, təyin və ya təsdiq edilənlər;*

*4.1.5. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edənlər;*

*4.1.6. ödənişli fəaliyyətlə məşğul olan ali və orta ixtisas təhsil müəssisələrində əyani təhsil alanlar;*

*4.1.7. Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;*

*4.1.8. Azərbaycan Respublikasının hüdudlarından kənarda qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları*[15].

Burada mübahisə doğuran əsas məsələ qanunun 4.1.3 bəndində adında pay torpağı olan şəxslərin məşğul sayılması ilə

[15] Azərbaycan Respublikasının Məşğulluq haqqında Qanunu: – Bakı, 29 iyun 2018-ci ildə qəbul edilmişdir (1 may 2020-ci il tarixdə olan dəyişiklik və əlavələr). http://www.e-qanun.az/framework/39846

əlaqədardır. Belə ki, pay torpağı olanların hamısının ondan gəlir götürüb-götürməməsi bəlli deyil (qanundan belə nəticə çıxır ki, məşğul şəxslər onlara qazanc gətirən işlə məşğul olur və gəlir götürür). Təəssüf ki, onların haqqında bu cür statistik məlumatlar yoxdur. Sahibkarlıq qabiliyyəti olan müəyyən sayda insanlar öz işini qurub torpağından gəlir mənbəyi kimi istifadə etməyi bacarır. Daha bacarıqlı sahibkarlar isə fermer təsərrüfatları yaradaraq nəinki özü gəlir götürür, həmçinin əlavə iş yerləri açmaqla digərləri üçün də gəlir əldə etmək imkanı yaradır. Yalnız müşahidələrimiz əsasında deyə bilərik ki, adında pay torpağı olduğuna görə kənd təsərrüfatında məşğul sayılan, lakin özü şəhər yerlərində digər fəaliyyət sahələrində (ticarət, tikinti, ictimai iaşə  və s.) işləyən çox sayda insanlar vardır. Ancaq ən acınacaqlısı odur ki, pay torpağı olduğuna görə məşğul sayılan, lakin heç bir işi və gəliri olmayan insanların sayı da kənd yerlərində az deyil. Onlar hətta yoxsulluq səviyyəsindən aşağı şəraitdə yaşasalar belə rəsmən məşğul sayıldıqlarına görə sosial müavinət almaq şansları da olmur.

Bəzən torpaq sahələrinin yaşayış yerlərindən çox uzaqda yerləşməsi nəqliyyat vasitəsi olmayan torpaq sahibləri üçün ondan istifadəni mümkünsüz edir. Belə olduqda elə bir mexanizm yaradılmalıdır ki, pay torpağı olan şəxslər həqiqətən minimum əmək haqqından az olmayan gəlir əldə etsinlər, bunu bacarmayanlar isə heç olmasa qanuna uyğun şəkildə dövlət dəstəyindən yararlana bilsinlər.

Təbii ki, dövlətimiz tərəfindən məşğulluğun artırılması istiqamətində yeni-yeni layihələr hazırlanır, proqramlar icra olunur, görülən işləri inkar etmək olmaz. Burada onu qeyd etmək

yerinə düşərdi ki, əmək bazarında vəziyyətin yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılmasının sürətləndirilməsi, ölkənin əmək ehtiyatlarından düzgün istifadə olunması və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin 26 oktyabr 2005-ci il tarixli 1068 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının məşğulluq strategiyası (2006-2015-ci illər)" çox əhəmiyyətli layihələrdən biridir. Strategiyanın uğurla reallaşdırılması məqsədilə 2007–2010-cu və 2011–2015-ci illər üzrə müvafiq dövlət proqramları təsdiq edilərək həyata keçirilmiş və müsbət yöndə müəyyən nəticələr əldə olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli 602 nömrəli Sərəncamı ilə əvvəlkinin davamı olaraq 2019-2030-cu illəri əhatə edən 2-ci Məşğulluq Strategiyası təsdiq edilmişdir. Burada göstərildiyinə görə 1-ci strategiyanın icrası ərzində işsizlik səviyyəsi 7,3 faizdən 5 faizə, yoxsulluq səviyyəsi isə 29,3 faizdən 4,9 faizə düşmüş, əhalinin gəlirləri 5,2 dəfə, minimum əməkhaqqı 3,5 dəfə, orta aylıq nominal əməkhaqqı isə 3,8 dəfə artmışdır[16]. Keçən dövr ərzində əmək bazarının təkmilləşdirilməsi, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması, iş tapmaqda çətinliyi olan həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də əhəmiyyətli tədbirlər yerinə yetirilmişdir.

2-ci Məşğulluq Strategiyasında məşğulluğun inkişafı və layiqli əməyin təmin olunması, aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və sosial müdafiəyə daha çox ehtiyacı olan həssas qrupların, o cümlədən gənclərin

---

[16] Azərbaycan Respublikasının Məşğulluq strategiyası (2019-2030-cu illər üçün):– Bakı, 30 oktyabr 2018-ci ildə təsdiq edilmişdir. https://president.az/articles/30514

əmək bazarında möhkəm mövqe tutmasını təmin etmək məqsədləri əsas diqqət mərkəzindədir. Bu strategiya məşğulluq siyasətinin başlıca istiqamətlərini müəyyənləşdirərkən "2016–2020-ci illər üzrə Azərbaycan üçün Layiqli Əmək Ölkə Proqramı"nın, Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin və bu qəbildən olan digər sosialyönümlü dövlət proqramları və strategiyalarının, eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyaların və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin (2030) əsas məqamlarını da özündə cəmləşdirmişdir.

Etiraf etmək lazımdır ki, birinci Məşğulluq strategiyasının həyata keçirilməsindən, yəni, 2005-ci ildən bu tərəfə ölkəmizdə yeni qanun layihələrinin təsdiqi, çoxsaylı dövlət proqramlarının, strategiyaların icrası nəticəsində işsizlik səviyyəsi əvvəlki dövrlə müqayisədə nəzərəçarpacaq dərəcədə azalmış, yeni yaradılmış iş yerləri sayəsində əhali arasında məşğulluq kəmiyyətcə artmışdır. İkinci strategiya da həmin tendensiyanı davam etdirir. Rəsmi statistikaya görə işsizlik səviyyəsi 2020-ci ilə qədər 5%-i keçmirdi, pandemiya şəraitində isə 7,2 faizədək yüksəlməsinə baxmayaraq sonrakı dövrdə tədricən azalmağa başlamışdır.

Müasir mərhələdə məşğulluq sahəsində əsas problemlər rəqabətqabiliyyətli işçi qüvvəsi formalaşdırmaqla kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, əmək ehtiyatlarının mümkün qədər səmərəli istifadəsi ilə bağlıdır. Qeyd edilən problemlərin həlli istiqamətində və xüsusilə də gənclərin səmərəli məşğulluğunun təşkili məqsədilə mühüm vasitə kimi peşə təhsili sisteminin inkişafı diqqət mərkəzindədir. Bu-

na görə də son illərə qədər peşə təhsili sisteminin normativ-hüquqi bazasının möhkəmləndirilməsi qarşıda duran əsas məsələlərdən idi ki, bu sahədə də artıq müəyyən irəliləyişlərin olduğunu qeyd etməliyik.

2016-2024-cü illərdə peşə təhsilinin inkişafı və əmək bazarı ilə əlaqələrinin yaxşılaşdırılması istiqamətində görülən işlər az deyil. Bu baxımdan iqtisadiyyatın 11 prioritet sahələrindən biri kimi peşə təhsili sisteminin inkişafını nəzərdə tutan strateji yol xəritəsinin hazırlanması xüsusi qeyd olunmalıdır. 2018-ci ildə Məşğulluq Qanununun yenilənməsi, Peşə təhsili haqqında Qanunun qəbul olunması, Milli İxtisas Çərçivəsinin təsdiqi həm peşə təhsili sisteminin inkişafı, həm də məşğulluğun yaxşılaşdırılmasına dair nəzərdə tutulmuş başlıca məsələlərin həlli yollarını da özündə birləşdirmiş oldu.

Həm əhalinin məşğulluğunun artırılmasına dəstək verilməsi, həm də onların peşə təlimi kurslarına cəlb edilməsi baxımından özünüməşğulluq proqramının xüsusi rolu vardır. Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli 1941 nömrəli "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına əsasən işaxtaran və işsiz vətəndaşların özünüməşğulluğunun təşkili məqsədilə 2016-cı ilin 17 avqust tarixindən proqram iştirakçılarının təliminə başlanılmışdır. Özünüməşğulluğa cəlb olunanların sayı hər il artırılmağa çalışılır, onlar üçün öncə peşə təlimləri keçirilir və uğurlu hesab olunan biznes layihələri üzrə vətəndaşlara öz işini qurmaq üçün lazımi aktivlər təqdim olunur. Özünüməşğulluğa cəlb edilənlərin sayının artması məşğulluq səviyyəsini qismən də olsa artırmış olur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin hesabatlarından əldə etdiyimiz məlumatlara görə özünüməşğulluğa cəlb edilənlərin sayı 2017-ci ildə 5000 nəfərə qədər idisə 2019-cu ildə 10352 nəfər, 2020-ci ildə 12000 nəfər, 2021-ci ildə 16200 nəfər, 2022-ci ildə 16100 nəfər olmuş, 2023-cü ildə 17362 nəfərə (5610 nəfəri qadınlar, 2793 nəfəri gənclər olmaqla) çatdırılmışdır. Proqram reallaşdırılmağa başladığı 2017-ci ildən 2024-cü ilədək cəlb olunanların ümumi sayının 80 min nəfərə çatdırılacağı gözlənilirdi. Lakin bunlar ilkin statistik göstəricilərdir, layihənin davamlılığı və nəticələri barədə də statistikanın hazırlanmasına ehtiyac vardır. Ona görə ki, təcrübədə proqram iştirakçılarının bəzilərinin öz bizneslərini irəlilədə bilmədiyinin şahidi oluruq. Bu baxımdan nəzarətdə saxlamaq lazımdır ki, onların neçəsi davamlı olur və bu proqramın icrası iqtisadiyyata nə cür təsir göstərir.

Hesab edirik ki, məşğulluq strategiyası, regional inkişaf proqramları, peşə hazırlığı kurslarının təşkili, əmək yarmarkaları, əmək birjaları, özünüməşğulluq, "Məşğulluğa dəstək layihəsi", "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması", "Qarabağ KOB-ları", "Kəndlərdə sahibkarlığın və özünüməşğulluğun inkişafı", "Səyyar kofe evləri" və digər bu kimi yeni-yeni sosial layihələrin həyata keçirilməsi mahiyyət etibarı ilə yaxşı düşünülmüş tədbirlərdir. Onların reallaşdırılması üçün kifayət qədər vəsait də xərclənir. Əsas məsələ isə onların icrası ilə, yəni, həyata keçirilən tədbirlərin keyfiyyətli, geniş əhatəli, əlçatar və nəticəyönümlü olması ilə bağlıdır. Bu işdə şəffaflığın,cəlbediciliyinin artırılması və müsbət son nəticəyə yönəlmiş ciddi nəzarətin olması vacibdir.

## 1.2. İşsizliyin demoqrafik və sosial-iqtisadi təsirləri

Məşğulluğun artırılması yönündə görülən tədbirlərə baxmayaraq hələ də ölkəmizdə işsizlik problemi öz aktuallığını saxlayır. İşsizlik isə iqtisadi kateqoriya olmaqla yekunlaşmır və müxtəlif səpkili digər problemlərə də yol açır...

Respublikamızda iqtisadi inkişafa nail olmaq üçün əhalinin, xüsusilə də gənc nəslin nümayəndələrinin məşğulluq səviyyəsinin yüksəldilməsi və işsizliyin minimuma endirilməsi həm də bir çox sosial-psixoloji, sağlamlıq, demoqrafik, miqrasiya, cinayətkarlıq hadisələri və başqa bu kimi problemlərin də azalması baxımından ən əhəmiyyətli məsələlərdən biridir. Buna görə də insanların məşğulluğunun təmin olunması üçün onlarda yeniyetmə yaşlarından əməksevərliyi aşılamaq, daxili maraqlarına, bilik və bacarıqlarına müvafiq gələn peşəyə, sənətə istiqamətləndirmək lazımdır. Heç şübhəsiz ki, ölkənin gələcəyi hesab olunan gənclər nə qədər keyfiyyətli və dünyagörüşünü artıran əhatəli təhsil alarlarsa, iqtisadiyyatın dayanıqlı inkişafına da bir o qədər zəmin yaranar. Bunun üçün isə təbii ki, onların məşğulluğunun səmərəli təşkili vacibdir.

İnsanın hər hansı əmək fəaliyyəti ilə məşğul olmasının vacibliyi barədə əbəs yerə deyil ki, mütəfəkkirlər çoxlu fikirlər irəli sürmüşlər (N.Tusi və s.). Hətta dinimizdə belə boş-bekar durmanın xoş qarşılanmadığı barədə səhih məlumatlar mövcuddur. Məşğuliyyətsiz qalmaq (faydalı bir işlə məşğul olmamaq) nə iqtisadi, nə dini, nə də psixoloji baxımdan müsbət bir şey sayılmır. İnsan şüurlu varlıq kimi daima düşünür, beynində ideyalar yaranır, yaradıcı fikirlər əksər insanlarda olur, bu onların daxili potensialından çox asılıdır. Biz o potensialı yaxşı

bir səmtə yönəltməyi bacarmasaq, həmin potensialı, enerjini aktiv fəaliyyət göstərərək reallaşdırmasaq içəridə üst-üstə yığılacaq enerji bir gün "partlayış" əmələ gətirəcək. Psixoloji dözümlüyü zəif olan insanlarda bu çox zaman psixoloji xəstəliklər formasında özünü büruzə verir. Biz bunların dəfələrlə şahidi olmuşuq. Məsələn, dövrümüzün bəlası nevrozlar, depressiyalar, ruh düşkünlüyü, motivasiya əskikliyi, tənbəllik, özünə inamsızlıq, ətrafa qarşı aqressiyalar, panik ataklar və s. kimi halların yaranması tez-tez rast gəlinir. Belə hallara düşmüş insan hamıdan çox özü əziyyət çəkir, lakin bütün bu problemlərin ətrafa yansıdığı hallar da çox olur. Pis vərdişlərə qurşanaraq özünə təsəlli tapmaq istəyən insanların narkomaniya, alkoqolizm aludəçiliyi və nəticədə yaxınlarına və cəmiyyətə vurduğu zərərləri buna aid etmək olar. Öz ağlının idarəsindən çıxmış insanların cəmiyyətə, hüquqa zidd hərəkətlərini də həmçinin daxili potensialını yanlış istiqamətdə reallaşdırması kimi qiymətləndirmək olar. Bütün bunları nəzərə alsaq məşğuliyyətin, sosiallaşmanın insanlar üçün nə dərəcədə mühüm olduğunu bir daha təsdiq edərik. Buna görə də qeyd edirik ki, hətta təbii işsizlik səviyyəsində belə işsizliyin olması yol verilməzdir. Baxmayaraq ki, bazar iqtisadiyyatında təbii işsizliyin olmasına əksər iqtisadçılar normal yanaşırlar, hətta bunu vacib sayırlar, biz onlarla həmfikir deyilik. Hər kəsə fərdi yanaşmaq lazımdır, iş qabiliyyəti olan və işləmək istəyən hər bir insanın öz qazancını halal zəhmətlə əldə etməsi çox önəmlidir və bunun üçün də şərait yaradılmalıdır. Məhz bu baxımdan əməktutumlu sahələrin çoxaldılmasının tərəfdarıyıq, özü də mütləq şəkildə halal və qanunauyğun iqtisadi fəaliyyət növləri, gəlir yerləri olmalıdır.

Bundan sonra isə həmin işin layiqli iş yeri olması və səmərəli məşğulluq növünə aid edilə bilməsi məsələsi gəlir.

Fikrimizcə, gənclərin işsizlik probleminin yüksək olduğu bu dövrdə istənilən sahə: istər aqrar sahə olsun, istər tikinti, metallurgiya, kənd təsərrüfatı  və s. hər birinin inkişafında işsizliyin aradan qaldırılması əldə rəhbər tutulmalıdır. Hətta adambaşına düşən ÜDM artsa və insanlara əmək sərfi ilə qazanmadığı maddi yardımı versək belə onların problemləri aradan qalxmayacaq, çünki insan sosial, bioloji, psixoloji varlıqdır, o sosiallaşmalı, əməyini müsbət yöndə sərf edə bilməli, peşə və bacarıqlarına uyğun məşğuliyyəti olmalı və bununla da cəmiyyətdə lazımlı olduğunu hiss etməlidir. Əks təqdirdə məşğuliyyətsizlik onu başqa “məşğuliyyətlərə” sövq edəcək...

**İşsizliyin kriminal hadisələrə təsiri**

Əgər kriminal hadisələrin statistikasını nəzərdən keçirsək yuxarıda deyilənlərin sübutu olaraq görərik ki, əksər cinayət və oğurluq hadisələri işsizlər tərəfindən, xüsusilə də gənclər tərəfindən törədilir. Bir faktı qeyd etmək kifayətdir ki, rəsmi statistikaya görə respublikamızda son illərdə hər il aşkara çıxarılmış cinayət törədənlərin bəzi illərdə təqribən 40%-ə qədərini 14-29 yaşlı gənclər təşkil etmişdir, onların da əksəriyyətinin nəinki peşə-ixtisas təhsili, tam orta təhsili belə yoxdur.

## Cədvəl 1.2.1. Cinayət törətmiş şəxslərin sosial-demoqrafik əlamətlərinə görə bölgüsü

| Illər | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi, nəfər** | **18689** | **16322** | **16676** | **16750** | **16727** | **17823** | **17482** | **24432** | **25006** |
| *yaşına görə* | | | | | | | | | |
| 14-15 yaş | 79 | 115 | 114 | 128 | 104 | 95 | 94 | 110 | 107 |
| 16-17 yaş | 360 | 362 | 328 | 358 | 367 | 292 | 294 | 323 | 387 |
| **14-17 yaşlılar** | **439** | **477** | **442** | **486** | **471** | **387** | **388** | **433** | **494** |
| *ümumi sayda, %* | *2,3* | *2,9* | *2,7* | *2,9* | *2,8* | *2,2* | *2,2* | *1,8* | *2,0* |
| 18-24 yaş | 3367 | 2968 | 2855 | 2741 | 2456 | 2456 | 2116 | 2524 | 2506 |
| 25-29 yaş | 3270 | 2958 | 3147 | 3022 | 2937 | 3201 | 3245 | 4076 | 3869 |
| **14-29 yaşlılar** | **7076** | **6403** | **6444** | **6249** | **5864** | **6044** | **5749** | **7033** | **6869** |
| *ümumi sayda, %-i* | *37,9* | *39,2* | *38,6* | *37,3* | *35,1* | *33,9* | *32,9* | *28,8* | *27,5* |
| 30 yaş və yuxarı | 11613 | 9919 | 10232 | 10501 | 10863 | 11779 | 11733 | 17399 | 18137 |
| *məşğuliyyətinə görə* | | | | | | | | | |
| fəhlələr | 523 | 395 | 352 | 344 | 341 | 1160 | 844 | 1290 | 1325 |
| Qulluqçular | 601 | 407 | 393 | 410 | 560 | 606 | 487 | 585 | 629 |
| təhsil alanlar | 122 | 88 | 76 | 108 | 71 | 95 | 81 | 75 | 79 |
| **əməkqabiliyyətli yaşda olub işləməyən və oxumayanlar** | **15535** | **11991** | **12751** | **12932** | **12679** | **10408** | **10474** | **14755** | **14185** |
| *ümumi sayda, %-i* | *83,1* | *73,5* | *76,5* | *77,2* | *75,8* | *58,4* | *59,9* | *60,4* | *56,7* |
| *qadınlar, %-lə* | *12,4* | *6,9* | *6,2* | *5,7* | *6,1* | *5,8* | *5,0* | *5,0* | *5,2* |

*Mənbə: Cinayətkarlıq. Statistik məcmuələr 2016-2024. səh. 35, 41, 46 məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 1.2.1.-dən göründüyü kimi, 14-17 yaşlı cinayət törədənlərin sayı hər il təxminən 400-500 nəfər (son iki ildə 400-dən aşağı) olmasına baxmayaraq cinayət törədənlərin tərkibində təhsil alanların sayı bundan 4-5 dəfə aşağıdır. Belə görünür ki, 14-17 yaşlarda, yəni, orta məktəb yaşında olan gənclərin heç də hamısı təhsilə cəlb olunmayıb. Ən yüksək göstəricilər isə 18-24 yaş qrupu üzrədir, hansılar ki, məhz peşə və ixtisas təhsili almaq yaşında olan gənclərdir. Baxdığımız dövr üzrə 14-29 yaşlı gənclər cinayət törədənlərin orta hesabla 2018-ci ildə 35 faizini təşkil edirdi, sonrakı dövrlərdə isə onların xüsusi çəkisi tədricən azalaraq 2023-cü ildə 27,5 faizə enmişdir.

Lakin cinayət törəndələrin ümumi sayında 2015-ci illə müqayisədə 8684 nəfər, başqa sözlə 53,2 %, onların tərkibində gənclərin sayında isə 466 nəfərə qədər (7,3 %) artım vardır. Təəssüflə qeyd olunmalıdır ki, belə hadisələrin iştirakçıları sırasında qadınlar da vardır (təqribən 5-6 %) və onların arasında 14-18 yaşlı gənc qızlara da rast gəlmək mümkündür.

Bütün cinayət törədənlərin ümumi sayında heç bir məşğuliyyəti olmayan əmək qabiliyyətli şəxslər üstünlük (son illər 60%-ə qədər) təşkil edir. Bu da onu bir daha sübut edir ki, faydalı bir işlə və yaxud təhsillə məşğul olanlar cinayətlərdən nisbətən daha uzaqdırlar.

Nəzərə almaq lazımdır ki, bu gənclərin əksəriyyəti oğurluq edənlərdir, onlar sanki, bunu özlərinə peşə seçmişlər. Bu da ondan irəli gəlir ki, peşə-ixtisas təhsilləri yoxdur, özlərinə münasib iş tapmaqda çətinlik çəkirlər, bəziləri bəlkə də heç əmək fəaliyyətinə də can atmayıblar və maddi ehtiyaclarını ödəməyi əyri yollarda axtarırlar. Narkotik maddələrin dövriyyəsi ilə bağlı məhkum olunanların statistikasına da baxsaq görərik ki, bu cinayətlərin böyük əksəriyyəti işləməyən və təhsildə olmayanlar tərəfindən törədilir.

Belə halları yaradan səbəblər aradan qaldırılmalı, gənclərin asan qazanc yolu axtarmasını qabaqlayan tədbirlər həyata keçirilməlidir. Əsas rol isə təhsil sisteminə məxsusdur, lap erkən yaşlarından düzgün tərbiyə, əməksevərliyin aşılanması, peşələrin tanıdılması, islam dini dəyərlərinin (orada həm tərbiyə, həm hər kəs üçün faydalı öyüd-nəsihət, həm cəmiyyət qarşısında öz borclarını, insani vəzifələrini dərk etmək, həm də halal qazanc barədə zəruri biliklər kompleks şəkildə öz əksini tapmışdır) öyrədilməsi çox vacibdir. *Elmi işin mövzusuna bila-*

*vasitə aid olmasa da qeyd etməliyəm ki, gələcəkdə gənclərin cəmiyyət qanunlarına zidd davranışlara yol verməmələri üçün islam dini dəyərlərinin orta məktəblərin təlim-tərbiyə proqramına daxil edilməsi və doğru bir şəkildə tədris olunması çox vacibdir*[17].

Bir daha aydın olur ki, insan həyatında təhsil və məşğuliyyətin rolu son dərəcə önəmlidir və cinayət hallarının daha az olmasına, beləliklə sağlam cəmiyyətin, sağlam nəsillərin formalaşmasına da bir zəmanətdir. Gənclərin peşə təhsilinə cəlb olunmsının vacib məqsədi də onlara doğru həyat yolu seçməkdə kömək göstərmək, onları əmək bazarında rəqabətə qabil kadrlara çevirmək və bununla həm vətəndaşın ictimai faydalılığını, həm səmərəli məşğulluğunu, dolayısıyla da ölkədə iqtisadi inkişafı artırmaqdır. Peşə təhsili bu baxımdan maddi imkanı zəif olan gənclərin sosial təminatçısı kimi çıxış edə bilər.

Nəzərə alsaq ki, həmin gənclər potensial işçi qüvvəsidir, onları sadəcə olaraq taleyin öhdəsinə buraxmaq doğru olmaz. Buna görə də cəzaçəkmə müəssisələrinin nəzdindəki peşə məktəblərinin fəaliyyəti yaxşılaşdırılmalı, azadlığa çıxdıqdan sonra rahat şəkildə iş tapa bilmələri üçün oradakı gənclərin müəyyən bir peşəyə yiyələnməsi üçün imkanlar artırılmalıdır. Təkrar oraya qayıtmasınlar deyə onları həm cəmiyyətə, həm də iqtisadiyyata yararlı vətəndaş və keyfiyyətli işçi qüvvəsi kimi qazandırmaq lazımdır. Bu cür gənclərin işlə təminatı barədə dövlət səviyyəsində ciddi tədbirlər görülməlidir, çünki işsizlik və maddi imkansızlıq keçmiş məhkumun yenidən əvvəlki

---

[17] Qurbanova, İ.M. İnsanların əməyə, peşəyə yönləndirilməsində islam dini dəyərlərinin əhəmiyyəti // BDU. İslam həmrəyliyi-2017: reallıqlar və perspektivlər. Respublika elmi-metodik konfransının materialları. – Bakı: 25-26 aprel 2017-ci il, – s. 13-15

əməllərinə dönməsinə səbəb ola bilər. Elə şərait yaradılmalıdır ki, məhkumluq həyatı yaşamış gənc azadlığa çıxan kimi normal həyata qayıda bilsin, cəmiyyətdə özünü faydalı insan kimi hiss etsin və tədricən bu onun həyat tərzinə çevrilsin. Bunun üçün isə onun dərhal təhsilə cəlb edilməsi və yaxud müvafiq işlə təmin olunması vacibdir.

Əmək bazarının real və potensial işçi qüvvəsini təşkil edən və eyni zamanda işsizlik problemindən daha çox əziyyət çəkən gənclərimiz olduğuna görə onlar haqqında demoqrafik göstəricilərin təhlilinə ayrıca diqqət yetirmək məqsədəuyğun olar. Məlumdur ki, təhsil alanların, iqtisadi fəaliyyət sahələrində məşğul olanların, işaxtaranların, əmək ehtiyatlarının, ümumiyyətlə əmək bazarı iştirakçılarının sayı və dinamikası demoqrafik proseslərlə əlaqədardır. Onların sayının artması və ya azalmasına ölkə əhalisinin sayı, təbii artım, doğum və ölüm göstəriciləri, əhalinin cins və yaş tərkibinin dəyişməsi, yerdəyişmə, miqrasiya və s. sosial-demoqrafik amillər də öz təsirini göstərir. Onların həm sayı, həm də keyfiyyəti önəmlidir. Sayı əsasən demoqrafik proseslərdən, keyfiyyəti isə təlim-tərbiyə və təhsil səviyyəsindən asılıdır. Hər şeydən öncə müəyyən sayda insan resurslarının mövcud olması, sonra bu resursların təhsil sistemi vasitəsilə cəmiyyətdə düzgün mövqeyə hazırlanması, yəni yüksək təhsilə, peşə bacarıqlarına və ixtisasa malik əmək ehtiyatlarına çevrilməsi, son nəticədə isə onların səmərəli məşğulluğunun təmin edilməsi məsələsi gəlir.

**İşsizliyin demoqrafik proseslərə təsiri**

Qeyd etdiyimiz kimi işsizlik probleminin mövcudluğu və səmərəli məşğulluğun olmaması bir çox demoqrafik problemlərə də səbəb olur. Belə ki, müasir dövrdə nigahların sayının azalması, boşanma hallarının artması kimi məsələlərin kökündə də çox zaman maddi problemlər dayanır. Normal işi, qazancı olan ailələrdə məişət münaqişələri daha az rast gəlinir. İşsiz olduqlarına görə maddi çatışmazlıq, daimi yaşayış yerinin olmaması, ailəsinin dolanışığını təmin edə bilməmək qorxusundan gənclərin evlənməsi yubanır. Hərdən öz maddiyatını düzəltmək istəyi onları səhv yollara da aparıb çıxarır (məsələn, ödənişli oyunlar, hansı ki, gəncləri sonradan çıxılması mümkün olmayan daha dərin bataqlıqlara salır...və onlar da çox vaxt acı nəticələrə gətirib çıxarır). Təəssüf ki, bu kimi hallarla son dövrlərdə çox üzləşirik. Statistik göstəricilərə görə gənclərin sayı onsuz da azalıb. Odur ki, gənclərimizin çox ciddi şəkildə qayğısına qalmalıyıq. Aşağıdakı demoqrafik dəyişikliklərə baxsaq görərik ki, həqiqətən də həyəcan təbilini çalmaq vaxtıdır...

Bu baxımdan ölkəmizin gələcəyi hesab olunan və əmək bazarı üçün potensial işçi qüvvəsini təşkil edən gənclərin sayı, yaşayış yeri və cins tərkibi haqqında göstəricilərin müqayisəli təhlilinə nəzər yetirək. Əvvəlki yazılarımızda da çox təəssüflə qeyd etdiyimiz kimi ölkəmizdə 14-29 yaşlı gənclərin sayında ciddi azalma müşahidə olunur.

**Cədvəl. 1.2.2. Azərbaycanda 14-29 yaşlı gənclərin sayı dinamikası** *(min nəfər)* **və quruluşu** *(%-lə)*

| | **2010** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** |
|---|---|---|---|---|---|---|---|---|
| **14-29 yaşlı gənclər, cəmi** | **2825,8** | **2574,7** | **2519,3** | **2445,3** | **2368,2** | **2328,5** | **2302,2** | **2295,1** |
| ümumi əhali sayında, % | *31,4* | *26,3* | *25,5* | *24,5* | *23,7* | *23,2* | *22,9* | *22,7* |
| *şəhər yerləri, %* | *31,3* | *25,2* | *24,4* | *23,4* | *22,7* | *22,3* | *22,0* | *21,9* |
| *kənd yerləri, %* | *31,6* | *27,4* | *26,7* | *25,8* | *25,0* | *24,4* | *24,0* | *23,6* |
| kişilər | 1418,5 | 1325,4 | 1302,4 | 1270,2 | 1200,0 | 1186,7 | 1181,6 | 1186,4 |
| qadınlar | 1407,3 | 1249,3 | 1216,9 | 1175,1 | 1168,2 | 1141,8 | 1120,6 | 1108,7 |

*Mənbə: Azərbaycan gəncləri 2023. Statistik bülleten. ARDSK, s. 16-27.*

Cədvəl 1.2.2-dən göründüyü kimi, Azərbaycanda gənclərin sayı 2010-cu ildən sonra ilbəil azalaraq, 2023-cü ildə ölkə əhalisinin cəmi 22,7 faizini təşkil edir. Belə ki, 2010-cu ilə nisbətən 2023-cü ildə ölkə əhalisinin ümumi sayında gənclərin xüsusi çəkisi 8,7 faiz bəndi azalmışdır, analoji olaraq şəhər yerlərində 9,4 faiz bəndi, kənd yerlərində isə 8,0 faiz bəndi azalma qeyd olunur. Cins tərkibinə gəldikdə isə baxılan illərin hər birində 14-29 yaş qrupunda kişilərin sayı qadınlardan çoxdur və getdikcə bu fərq daha da artmışdır, yəni, azalma tendensiyası qadınların sayında kişilərə nisbətən daha çoxdur (baxılan dövrdə 21,2 faiz azalma), xüsusilə 14-24 yaş qrupları üzrə ciddi fərqlər müşahidə olunur. 2010-cu ildə 14-29 yaşlı gənclərin 49,8 faizi qadınlardan ibarət idisə, 2023-cü ildə bu rəqəm 48,3 faiz təşkil edir.

2024-cü ilin statistik məlumatlarına əsasən 29 yaşa qədər olan istənilən yaş qrupunda kişilərin sayı qadınlardan çoxdur, yuxarı yaş qruplarında isə əksinədir.[18] Qeyd edək ki, əhalinin təkrar istehsalı ümumi göstəricilərini müqayisə etdikdə də yeni doğulanlar arasında oğlan uşaqlarının sayının üstünlük təşkil etdiyini görmək olar. Bu qeyri-mütənasiblik əsasən sosial-psixoloji səbəblərlə bağlıdır, yəni, seçim imkanı yarandıqda əhalinin əksəriyyətinin oğlan uşaqlarına üstünlük vermə ənənəsi ilə xarakterizə olunur. Xüsusilə son vaxtlar texnika və texnologiyaların inkişafının yaratdığı imkanların düzgün dəyərləndirilməməsi nəticəsində arzuolunmaz qız uşaqlarının dünyaya gəlməsini əngəlləmə halları çox rast gəlinmişdir. Əhalinin cins tərkibinin dəyişməsi gələcəkdə milli-etnik tərkibində də dəyişikliklərə səbəb ola bilər.

Ümumiyyətlə isə azalma tendensiyası yalnız 14-29 yaş arasında deyil, 10-14 yaşlı uşaqlara da aiddir. Qeyd olunan məsələlərə təbii artım səviyyəsinin dəyişməsi öz təsirini göstərir.

Yaxın keçmişə (1990-cı ildən sonra) nəzər salsaq, ən yüksək doğum və təbii artım göstəricisi 1991-ci ildə müşahidə olunmuşdur: yeni doğulanların sayı–190353 nəfər, təbii artım–145694 nəfər. Əhalinin hər 1000 nəfərinə düşən doğum sayı–26,6 nəfər, təbii artım isə 20,4 nəfər təşkil etdiyi halda, 2018-ci ildə bu nisbət müvafiq olaraq 14,2  və 8,4 nəfər olmuşdur.

Prof. Ş.M.Muradovun araşdırmalarına əsasən əhalinin təkrar istehsalının ən mühüm və ümumi göstəricisi hesab olunan ümumi nəsilvermə əmsalı 1991-2019-cu illərdə 2,9-dan 1,8-ə

[18]Azərbaycan-faktlar və rəqəmlər 2025. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/azfact_figures_2025.pdf. s.5

qədər azalmışdır[19]. 2024-cü ilin ilkin statistik məlumatlarıa görə isə bu rəqəm 1,4-ə bərabər olmuşdur[20].

Beləliklə, həm doğum səviyyəsində, həm də təbii artımda 1992-ci ildən 2002-ci ilə qədər azalma, 2002-ci ildən 2012-ci ilədək tədricən artım, son illərdə isə yenidən azalma tendensiyaları müşahidə olunmaqdadır.

Ölüm səviyyəsi isə son illərdə əvvəlki dövrə nisbətən daha yüksəkdir. Məsələn, 2010-cu ildə 165643 doğum, 53580 ölüm faktı qeydə alınmışdısa, 2018-ci ildə doğumun daha az–138982 nəfər olmasına baxmayaraq, ölüm faktı 2010-cu ildəkindən daha çox–57250 nəfər təşkil etmişdir. Bunun nəticəsi kimi təbii artım göstəricisi 2010-cu ildə 112063 nəfər (hər 1000 nəfərə 12,5 nəfər), 2018-ci ildə isə cəmi 81732 nəfər (27,1 % az) olmuşdur. Təəssüflə qeyd etməliyik ki, son illərdə ölüm faktlarının çoxalması bir tərəfdən sağalmaz xəstəliklərin artması ilə bağlıdırsa, digər tərəfdən də qəzaların, bədbəxt hadisələrin, xüsusən yeniyetmə və gənclər arasında intihar və qətltörətmə hallarının artması ilə bağlıdır.

Xalqımızın tarixinə həm qələbə, həm də üzücü hadisələr gətirən 2020-ci ildə doğumun daha az (30% aşağı) –126571 nəfər olmasına baxmayaraq, ölüm faktı 2010-cu ildəkindən 41 faiz çox, yəni, 75647 nəfər təşkil etmişdir. 2020-ci ildə ölüm faktının çox olmasının əsas səbəblərindən biri də II Qarabağ müharibəsində gənc vətən oğullarının şəhid olması (3 minə qədər hərbi şəhid, 100-dən çox mülki vətəndaş) ilə bağlıdır. Bü-

---

[19]Ş.M.Muradov. Azərbaycan Respublikasının demoqrafik inkişafı: tarixi dəyişikliklər, yeni meyllər, problemlər (1828-2020-ci illər). Bakı, "ELM və BİLİK" P.Z. – 2021. 536 səh. s.364

[20]Azərbaycan- faktlar və rəqəmlər 2025. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/azfact_figures_2025.pdf

tün bunlar isə son nəticədə əmək ehtiyatlarının tərkibində gənc nəslin, eləcə də əmək potensialının azalmasına gətirib çıxarır. Ona görə də mövcud potensialı qorumaq və ondan daha səmərəli istifadə etmək məsələsi daha qabarıq şəkildə ortaya çıxır.

Onu da qeyd edək ki, son illərdə təbii artımın nisbətən aşağı olmasına baxmayaraq ölkə əhalisinin sayında tədricən artım vardır, bu artıma əhalinin miqrasiyasındakı müsbət saldo, yəni, ölkəyə gələnlərin sayının gedənlərdən çox olması da öz təsirini göstərir. Lakin ölkəmizdə miqrasiya səviyyəsində müsbət saldo olmasına baxmayaraq, gənclər üzrə mənfi saldo müşahidə olunur. 2023-cü ildə Azərbaycana daimi yaşamaq üçün gələn 15-29 yaşlı gənclərin sayı 461 nəfər olduğu halda, gedənlərin sayı 685 (o cümlədən 519 nəfəri qadın olmaqla) nəfər olmuşdur. O cümlədən Rusiyaya-229; Türkiyə-223; Almaniya-53; ABŞ-44; Gürcüstan-31; Kanada-25; İsrail-16; Özbəkistan-12; Qazaxıstan və Türkmənistanın hər birinə-7 nəfər getmişdir[21]. Bu da gənc işçi qüvvəsinin azalması deməkdir.

Gənclərin sayındakı azalma təbii olaraq əmək bazarına da öz təsirini göstərmişdir. Apardığımız tədqiqatlardan məlumdur ki, 2012-ci ildən 2019-cu ilədək məşğul gənclərin sayında artım olmuşdur, sonrakı illərdə isə azalma müşahidə olunur[22].

Şəhər və kənd əhalisinin dinamikasına baxdıqda görürük ki, onların nisbəti cüzi olaraq dəyişmişdir, 2021-ci ildə müvafiq olaraq 53 faiz və 47 faizdir. Müqayisəli yanaşsaq 2000-ci ilə nisbətən şəhər əhalisinin sayı 1,8 faiz bəndi artmışdır. Əhalinin ümumi sayında şəhər əhalisinin xüsusi çəkisinin çoxluq təşkil

---

[21] Azərbaycan gəncləri 2024. Statistik bülleten. səh.96.

[22] Qurbanova, İ.M. (2024). Azərbaycan Respublikasında məşğul əhalinin peşə-ixtisas təhsil quruluşunun tədqiqi. *İqtisadi Artım və İctimai Rifah, xüsusi buraxılış,* 94-114.

etməsinə baxmayaraq, 14-29 yaşlı gənclərin sayı rəsmi statistikaya əsasən kənd yerlərində nisbətən daha çoxdur (2-3 faiz arası). Bu isə kənd yerlərində yeni iş yerlərinin yaradılmasının daha da sürətləndirilməsini və buna müvafiq peşə-ixtisas təhsili müəssisələrinin şəbəkəsinin genişləndirilməsini zəruri edir.

Hesab edirik ki, təbii artımın, nigahların sayının azalması, boşanmaların artması, eləcə də oğurluq, dələduzluq və digər hüquqpozuntuları problemlərinin artmasında digər amillərlə yanaşı işsizlik səviyyəsinin yüksək olması və səmərəli məşğulluğun olmaması məsələsi də bu və ya digər şəkildə özünü büruzə verir. Bir daha qeyd edək ki, bütün bunlar ən çox gənclərə təsir göstərir, ona görə də onların hər birinin keyfiyyətli peşə və ixtisas təhsili ilə əhatə olunması, səmərəli məşğulluğunun təşkili, yaşayış yeri ilə təmin olunması, həyat səviyyəsinin yüksəldilməsi istiqamətində daha məhsuldar işlər görülməlidir. Dövlət, özəl sektor, imkanlı şəxslər, eləcə də bütün ictimaiyyət səfərbər olaraq gənclərin rifahı üçün çalışmalıdır.

***2024-cü ildə Azərbaycanda demoqrafik vəziyyət aşağıdakı kimi olmuşdur:***

İlin əvvəlindən ölkəmizin əhalisinin sayı 19243 nəfər və yaxud 0,2 faiz artaraq 2024-cü il iyul ayının 1-i tarixinə 10200013 nəfərə çatmışdır. Əhalinin 54,5 faizini şəhər, 45,5 faizini kənd əhalisi; 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Hazırda orta hesabla hər 1000 kişiyə 1009 qadın düşür. Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 2024-cü ilin yanvar-iyun ayları ərzində ölkədə 48702 doğum qeydə alınmış və əhalinin hər 1000 nəfərinə bu göstərici 9,6 təşkil etmişdir. Doğulan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 53,2 faiz, qız uşaqlarının xüsusi çəki-

si isə 46,8 faiz olmuşdur. Yanvar-iyun aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən qeydə alınan nigahların sayı–22250, boşanmaların sayı–10430 olmuşdur. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,8-dən 4,4-ə düşmüş, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə (2,1) qalmışdır. 2024-cü ilin birinci yarısında daimi yaşamaq üçün Azərbaycana 1487 nəfər gələn, 1171 nəfər ölkədən gedən qeydə alınmış, miqrasiya saldosu ölkə üzrə müsbət 316 nəfər təşkil etmişdir[23].

## 1.3. Azərbaycanda ilk kadr hazırlığı kimi peşə təhsili sisteminin formalaşması

Tədqiqatlar göstərir ki, iqtisadiyyatda hansı sahədə artım və inkişaf baş verirsə həmin sahədə peşə təhsilli kadrlara ehtiyac da artır. Ümumiyyətlə bunların hər ikisi qarşılıqlı əlaqədədirlər, yəni, iqtisadiyyatdakı artım peşə təhsilinin inkişafına, peşə təhsilinin inkişafı isə iqtisadi artıma təsir göstərir. Peşə təhsilinin inkişafına nail olmaq səmərəli məşğulluğun əldə olunmasına da zəmanəti artırmaq deməkdir. İşsizliyin azaldılması, gənclər arasında sahibkarlığın artırılmasında peşə təhsilinin imkanlarından maksimum istifadə edilməsi vacibdir. Nəzərə alsaq ki, əksər tədqiqatçılar peşə təhsilini təhsildən əmək bazarına ən yaxşı keçid vasitəsi hesab edir və Azərbaycanda da peşə təhsili sisteminin böyük bir tarixi inkişaf yolu var, bu inkişaf yolunun qısa xarakteristikasına baxmaq əhəmiyyətli olar.

[23] AR Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi .https://www.stat.gov.az/news/index.php?lang=az&id=5977

Azərbaycanda peşə təhsilinin formalaşması tarixini və onun iqtisadi inkişafa təsiri mərhələlərini qısaca nəzərdən keçirək.

Tarixi mənbələrdən bəllidir ki, Rusiya hökuməti Azərbaycanın sərvətlərindən faydalanıb öz ipək sənayesini inkişaf elətdirmək üçün ölkəmizdən xammal bazası kimi istifadə etmək məqsədilə XIX əsrin əvvəllərində ipəkçilik sahəsinə kapital qoyuluşunu artırmışdı. Eyni zamanda, Rusiya ölkəmizin yeraltı sərvətlərinin aşkara çıxarılması və istismarı sahəsində gördüyü tədbirlər nəticəsində ölkənin iqtisadi inkişafına da səbəb olmuşdu[24].

Azərbaycan ipəkçiliyi XIX əsrin 30-50-ci illərində inkişaf etməkdə davam edirdi. Bu da Azərbaycanda formal olaraq ilk kadr hazırlığına – peşə təhsili müəssisəsinin yaradılmasına təkan verdi. Beləliklə də ilk peşə təhsili müəssisəsi həmin dövrdə ölkəmizdə baramaçılıq və ipəkçiliyin inkişafı ilə əlaqədar açılmış Şəki Praktiki İpəkçilik məktəbi oldu. Həmin məktəb 1843-cü ildən 1863-cü ilə qədər fəaliyyət göstərmişdir. Özünün 20 illik fəaliyyəti dövründə bu məktəbə 236 nəfər şagird qəbul olunmuş və usta kimi hazırlanmışdır.

Azərbaycanda sənətkarlığın get-gedə daha da inkişaf etməsi sonralar da yeni-yeni sənət məktəblərinin açılmasına səbəb olmuş, 1884-cü ildə Gəncədə Mixaylov sənət məktəbi, 1887-ci ildə Bakıda İmperator II Aleksandr adına sənət məktəbi, 1893-cü ildə isə Zaqatalada çilingərlik və kənd təsərrüfatı peşələri üzrə kadrlar hazırlayan sənət məktəbi açılmışdır[25].

---

[24] Qurbanova, İ.M. Azərbaycanda peşə təhsili sisteminin formalaşması: tarixi və inkişaf mərhələləri // – Bakı: Pedaqoji Universitetin Xəbərləri, – 2017. C. 65, № 4, – s. 279- 286
[25] Mərdanov, M.C. Azərbaycan təhsil tarixi: [3 cilddə] / M.C.Mərdanov. – Bakı: Təhsil, – c.1.–2011. –296 s., s. 101

Müxtəlif zamanlarda iqtisadiyyatın inkişafı və artımı ilə əlaqədar yeni növ iş yerləri yarandıqca və ixtisaslı, peşəkar fəhlə kadrlarına tələbat artdıqca çevik, qısamüddətli, lakin genişmiqyaslı təhsil növünə tələbat da çoxalmışdır. Qeyd olunan xüsusiyyətləri məhz, peşə təhsili sistemi özündə birləşdirdiyinə görə nüfuzu artdıqca bu sistemin təkmilləşdirilməsi, normativ-hüquqi bazasının möhkəmləndirilməsi, idarəetmə strukturunun optimallaşdırılması istiqamətində tədbirlərin görülməsinə də zərurət yaranırdı.

Məlumdur ki, XX əsrin əvvəllərində Azərbaycanda neft-kimya sənayesinin inkişafı ixtisaslı fəhlə kadrlarına olan tələbatı getdikcə daha da artırırdı. Bu tələbatın ödənilməsi üçün isə ilk növbədə texniki-peşə təhsilinin inkişaf etdirilməsi məsələsi dövlətin diqqət mərkəzinə gəlirdi. Texniki-peşə təhsilinə vahid rəhbərliyin həyata keçirilməsi məqsədilə 1920-ci ildə o zamanki Azərbaycan hökuməti Respublika Xalq Maarif Komissarlığının tərkibində Baş Texniki Peşə Təhsili Komitəsinin təsis edilməsi haqqında qərar verdi. Qərara əsasən ayrı-ayrı müəssisə və təşkilatların tabeliyində olan bütün texniki-peşə məktəbləri və fəhlə hazırlığı kursları Baş Texniki Peşə Təhsili Komitəsinin sərəncamına verildi. Həmin Komitənin də əsas vəzifəsi yeniyetmə və gənclərdən xalq təsərrüfatının müxtəlif sahələri üçün ixtisaslı fəhlə kadrlarının hazırlanması idi.

Sonrakı illərdə də respublikamızda ixtisaslı fəhlə və texniki kadrlara olan tələbatın get-gedə artması peşə təhsili sisteminin daha da təkmilləşdirilməsini və onun idarəetmə strukturuna yenidən baxılmasını vacib məsələ kimi ortaya çıxarırdı. Buna görə də Baş Əmək Ehtiyatları İdarəsi 1959-cu ildə ləğv edildi və onun bazasında yeni qurum – Dövlət Texniki Peşə Təhsili

Komitəsi yaradıldı. Peşə təhsili müəssisələrinin (PTM) bir sistem şəklində idarə edilməsi məqsədilə bütün PTM-lər yeni yaradılmış Komitənin tabeliyinə verildi. Bununla da ölkəmizdə ixtisaslı fəhlə kadrları hazırlayan PTM-lərin həm strukturu dəyişdi, həm də idarəetmə sistemi həmin dövr üçün daha da təkmilləşdirilmiş oldu.

Tarixi inkişaf mərhələlərinin tədqiqi göstərir ki, Azərbaycanda peşə təhsilinin həm keyfiyyət, həm də kəmiyyət baxımından daha sürətli inkişafı və nüfuzunun artması əsas etibarilə Ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrə təsadüf edir. Həmin illərdə texniki-peşə məktəbləri xeyli dərəcədə təkmilləşdirilmiş, yeni tipli komplekslər tikilmiş, yüngül sənaye, radiotexnika və elektron sənayesi üçün ixtisaslı kadrların və eləcə də kənd təsərrüfatı mexanizatorlarının hazırlanması daha da genişləndirilmişdi.

Bütün bu artımın nəticəsi idi ki, 1965-ci ildə respublikamızda texniki-peşə məktəblərinin sayı 45 olmuş, 1970-ci ildə 76-ya, təhsil alanların sayı 40,9 min nəfərə çatmışdısa, 1982-1983-cü tədris ilində artıq respublikanın 184 peşə məktəbində 230 peşə üzrə 110 min nəfər şagird təhsil alırdı. Həmin il ərzində 54,9 min nəfər ixtisaslı fəhlə hazırlanıb istehsalata göndərilmişdi[26].

Keçmiş sovet ittifaqına daxil olan respublikaların hamısında o zaman ümumdövlət texniki-peşə təhsili sistemi yaradılmışdı. Müxtəlif iqtisadi fəaliyyət sahələrinin tələbatlarına uyğun olaraq peşə kadrlarının hazırlanması üç istiqamətdə aparılırdı: şə-

---

[26] Ağamalıyev, K.Q. Azərbaycanda müasir peşə təhsili: kadr hazırlığı və idarəetmə / K.Q.Ağamalıyev, Z.H.Orucov, – Bakı: Mütərcim, –2009. – 244 s., s. 18

hər və kənd texniki-peşə məktəblərində; orta məktəblərin yuxarı siniflərində və birbaşa olaraq istehsalatın özündə.

Daha sonrakı illərdə texnologiyanın yüksək inkişaf səviyyəsinə çatması ilə əlaqədar elmi-texniki tərəqqinin tələblərinə cavab verən peşələr üzrə yüksək ixtisaslı fəhlə kadrların hazırlanması aktuallıq kəsb edirdi. Belə qabaqcıl peşələrə aşağıdakıları aid etmək olar: elektron-hesablama maşınlarının operatoru, proqramla idarə olunan dəzgahların operatoru, rəqəmli proqramla idarə olunan dəzgahların və manipulyatorların sazlayıcısı, avtomat xəttlərin sazlayıcısı, yarımkeçirici cihazların və mikrosxem yığıcısı və digər.

Ümumiyyətlə, respublikamızda texniki-peşə məktəblərinin yüksək məhsuldarlıqla fəaliyyət göstərdiyi illərdə kənd təsərrüfatı, yüngül və yeyinti sənayesi, maşınqayırma, cihazqayırma, neft və neft-kimya sənayesi, elektrotexnika və elektronika, ticarət, nəqliyyat, rabitə, informasiya, inşaat, ictimai iaşə, xidmət sektoru və xalq təsərrüfatının digər sahələrinin kadr ehtiyaclarına uyğun olaraq on minlərlə ixtisaslı fəhlə kadrları hazırlanıb istehsalata göndərilmişdir.

Lakin, 1986-cı ildə respublikamızın 185 texniki-peşə məktəbində 100 mindən artıq şagird təhsil aldığı halda, 1991-ci ildə bu məktəblərin sayı azalaraq 176-ya düşmüş, təhsil alanların sayı isə 82188 nəfər olmuşdu. Bunun əsas səbəblərindən biri planlı iqtisadiyyatın dağılması və bazar iqtisadiyyatına keçidin başlaması idisə, digər mühüm bir səbəb də Ermənistanın Azərbaycana qarşı haqsız ərazi iddiaları və 20 faiz torpaqlarımızın işğal altına alınması idi. İşğalçı Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olunmuş Laçın, Kəlbəcər, Füzuli, Şuşa, Ağdam, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarında fəaliyyət

göstərən 12 texniki peşə məktəbinin əmlakı talan edilmiş, ölkəmizə külli miqdarda ziyan dəymişdi. Müharibənin vurduğu ziyan yalnız maddi göstəricilərlə də bitməmiş, fəal işçi qüvvəsini təşkil edə biləcək minlərlə gənc vətən övladlarının da itkisinə səbəb olmuşdur.

Müstəqilliyimiz bərpa olunduqdan bir qədər sonra Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə peşə təhsili sisteminin inkişaf etdirilməsi yenidən diqqət mərkəzinə gəlmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Peşə təhsilinin təkmilləşdirilməsi haqqında" 23 avqust 1996-cı il tarixli, 116 saylı qərarını bu sahədə imzalanmış ilk mühüm sənəd hesab etmək olar. Qərara əsasən peşə təhsilinin bazar iqtisadiyyatına keçidlə bağlı əsas inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Elə həmin sənədlə peşə təhsili müəssisələrinə peşə məktəbi və peşə liseyi statusu verilmişdir.

Peşə təhsilinin inkişafı istiqamətində görülən tədbirlər XXI əsrin ilk illərində də davam etdirilmiş, normativ-hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı bir sıra sənədlər qəbul edilmişdir.

Respublika iqtisadiyyatı infrastrukturunun dəyişməsi texniki-peşə təhsili strukturunda da dəyişikliklər aparılmasaı məsələsini önə çıxarmış, fəhlə kadrlarına olan real tələbatın və tələblərin dəyişməsi isə texniki-peşə təhsili şəbəkəsinin təkmilləşdirilməsi üçün ixtisas klassifikatorunun yenidən baxılmasını zəruri etmişdi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 iyun 2002-ci il tarixli, 96 saylı "Peşə təhsili sahəsində ixtisas və ixtisaslaşma klassifikatorunun təsdiq edilməsi haqqında" qərarı ilə respublikamızın peşə məktəb və liseylərində

müxtəlif iqtisadi fəaliyyət sahələri üçün 218 peşə üzrə kadr hazırlığı nəzərdə tutulmuşdu.

Respublikamızın stabil inkişafda olan iqtisadiyyatının peşə-ixtisas kadrlarına tələbatının daha optimal və çevik ödənilməsi, gənclərimizin əmək bazarının dəyişən tələblərinə uyğun keyfiyyətli peşə təhsili ilə əhatəliliyinin artırılması məqsədilə Prezident İ.Əliyevin "Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)"-nın təsdiq edilməsi haqqında 3 iyul 2007-ci il tarixli, 2282 saylı Sərəncamı respublikamızda peşə təhsilinin inkişafına yönəldilmiş ən mühüm sənədlərdən biri kimi qiymətləndirilir.

Qeyd olunan Proqramın həyata keçirilməsində əsas məqsəd ölkə iqtisadiyyatındakı artıma və inkişafa müvafiq olaraq peşə təhsili sisteminin təkmilləşdirilməsi, təhsilin keyfiyyətinin artırılması ilə müasir tələb və tələbatlara cavab verən yüksək peşə-ixtisas təhsilli kadrların hazırlanması və bu vasitə ilə də ölkə əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsidir. Proqramın məqsədlərinin həyata keçirilməsi üçün qarşıya qoyulmuş əsas vəzifələr aşağıdakılar olmuşdur[27]:

1.Texniki peşə təhsili sistemində maddi-texniki bazanın müasirləşdirilməsi.

2.Texniki peşə təhsili sistemində yeni iqtisadi münasibətlərin formalaşdırılması və idarəetmənin təkmilləşdirilməsi.

3.Texniki peşə təhsilinin məzmununun müasir tələblərə uyğunlaşdırılması.

[27] "Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər): Bakı, 3 iyul 2007-ci ildə təsdiq edilmişdir. https://e-qanun.az/framework/13641

4.Texniki peşə təhsili sisteminin özü üçün kadr hazırlığı işinin yaxşılaşdırılması.

5.Texniki peşə təhsilinin ictimai statusunun və nüfuzunun yüksəldilməsi.

Hazırki dövrdə də peşə təhsili və təlimi sahəsində həyata keçirilən tədbirlərin mühüm məqsədi iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üçün lazım olan kadrlara tələbatın çevik və optimal şəkildə ödənilməsindən ibarətdir. Heç də təsadüfi deyil ki, iqtisadiyyatın inkişafının prioritet istiqamətləri üzrə məqsədlərin reallaşdırılması baxımından peşə təhsilinin rolunun və nüfuzunun artırılması məsələləri hökumətimizin həyata keçirdiyi sosial-iqtisadi siyasətin, o cümlədən də regionların inkişafına və gənclərin məşğulluğunun yaxşılaşdırılmasına yönəldilmiş proqram və layihələrin tərkibində əhəmiyyətli yer tutur.

**Peşə təhsilində yeni inkişaf mərhələsi**

İqtisadiyyatda gedən texnoloji inkişaf, rəqəmsallaşma, əmək bazarının dəyişən tələbləri, qlobal iqlim dəyişiklikləri ilə bağlı yaranan problemlər peşə təhsilinin məzmununa yenidən baxılmasını, klassifikatora yeni ixtisasların əlavə edilməsini zərurətə çevirmişdir. Son illərdə, xüsusilə də 2016-cı ildən başlayaraq peşə təhsili sisteminin inkişafı və məşğulluğa təsirinin yaxşılaşdırılması istiqamətində xeyli işlər görülmüşdür. Əmək bazarının tələblərinə uyğun bacarıqlara malik, peşəkar və rəqabətqabiliyyətli kadrların hazırlanmasında peşə təhsili müəssisələrinin səmərəli fəaliyyətini təmin etmək məqsədilə Prezidentimiz İ.Əliyevin 20 aprel 2016-cı il tarixdə imzaladığı Fərmanı ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında

Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılmasını bu sahədə çox əhəmiyyətli addım kimi qiymətləndirmək olar. Peşə təhsilinin sistemli şəkildə inkişaf etdirilməsi, müasir dövrün standartlarına uyğunlaşdırılması və nüfuzunun artırılması baxımından Agentliyin yaradılması mühüm əhəmiyyət kəsb edir.

2016-cı ildə ölkə iqtisadiyyatının inkişafının 11 əsas prioritet istiqamətləri müəyyən edilərək hazırlanmış strateji yol xəritələrindən biri də ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq etdiyi "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"dir ki, bunu da peşə təhsili tarixində ən mühüm sənədlərdən biri hesab etmək olar. Mövcud problemlərdən çıxış edərək həmin sənəddə peşə təhsili və təlimi sektorunun inkişafı üzrə qısa, orta və uzunmüddətli strateji hədəflər müəyyən olunmuşdur.

Azərbaycanın peşə təhsili və təlimi sektorunda 2020-ci ilədək strateji baxışı ölkədə əmək bazarının tələblərinə cavab verən mühəndis-pedaqoji heyətə, yenilənmiş təhsil proqramlarına və peşə standartlarına malik optimallaşdırılmış müəssisələrdən ibarət peşə təhsili və təlimi sisteminin formalaşdırılması təşkil edirdi. 2025-ci ilədək dövr üçün uzunmüddətli strateji baxışı isə əmək bazarının tələblərinə cavab verən peşə standartları və təhsil proqramları əsasında ixtisaslı işçi qüvvəsi hazırlayan, hər bir sektor üzrə işəgötürənlərlə sıx əməkdaşlıq əlaqələrinin qurulduğu, funksional peşə təhsili və təlimi müəssisələrinə malik olan peşə təhsili sisteminin formalaşdırılmasıdır[28].

---

[28] Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi: [Elektron resurs] / – Bakı, 6 dekabr 2016-cı ildə qəbul edilmişdir. URL: https://edu.gov.az/upload/file/serencama-elave/2016/peshe-tehsil-yolxeritesi.pdf

Qeyd etmək lazımdır ki, Strateji yol xəritəsində nəzərdə tutulmuş istiqamətlər üzrə artıq xeyli iş görülmüşdür, bunu peşə təhsilinin yeni inkişaf mərhələsi adlandırmaq olar. 2018-ci ildə "Peşə təhsili haqqında Qanun"un qəbul olunmasını da bu sahədə atılmış ən vacib addımlardan biri hesab edə bilərik. Qanuna əsasən peşə təhsili sisteminin quruluşunda müəyyən qədər dəyişikliklər edilmiş, onun səviyyələri müəyyənləşdirilmişdir. Belə ki, 9-cu maddədə peşə təhsilinin səviyyələri aşağıdakı kimi müəyyənləşdirilmişdir: ***ilk peşə təhsili*** (müxtəlif peşə istiqamətlərinə aid fəaliyyətin spesifik sahəsi üzrə sadə vəzifələrin icrasına imkan verən nəzəri, metodiki və praktiki hazırlıq)*;* ***texniki peşə təhsili*** (müxtəlif peşə istiqamətlərinə aid fəaliyyətin spesifik sahəsi üzrə sadə, xüsusi və mürəkkəb işləri yerinə yetirmək imkanı verən nəzəri, metodiki və praktiki hazırlıq)*;* ***yüksək texniki peşə təhsili*** (müxtəlif peşə istiqamətlərinə aid fəaliyyətin spesifik sahəsi üzrə həyata keçiriləcək işlərin planlaşdırılması, təşkili və idarə edilməsi daxil olmaqla sadə, xüsusi və mürəkkəb işləri müstəqil yerinə yetirməyə imkan verən yüksək nəzəri, metodiki və praktiki hazırlıq) [29].

Peşə təhsili müəssisələrinin 3 növü vardır: *peşə məktəbi; peşə liseyi; peşə təhsil mərkəzi.*

*Peşə məktəbinə* qəbul olunan şəxslərə: ilk peşə təhsili və texniki peşə təhsili almaq hüququ verilir.

*Peşə liseyinə* qəbul olunan şəxslərə: ilk peşə təhsili; texniki peşə təhsili və texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil almaq hüququ verilir.

---

[29] Azərbaycan Respublikasının Peşə təhsili haqqında Qanunu: Bakı, 24 aprel 2018-ci ildə qəbul edilmişdir (17 aprel 2020-ci il tarixdə olan dəyişiklik və əlavələr). http://www.e-qanun.az/framework/39275

*Peşə təhsil mərkəzinə* qəbul olunan şəxslərə: ilk peşə təhsili; texniki peşə təhsili; texniki peşə təhsili ilə yanaşı olaraq tam orta təhsil və yüksək texniki peşə təhsili almaq hüququ verilir.

Bundan başqa, peşə təhsil müəssisələrində 6 aylıq ixtisasartırma və yenidənhazırlanma kursları da təşkil olunur və müvafiq kadr potensialı və maddi-texniki tədris bazasına malik ümumi təhsil müəssisələrində xüsusi proqramlar əsasında ilk peşə təhsili üzrə təmayüllü siniflər yaradıla bilər.

"Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair strateji yol xəritəsi" tərtib olunduğu dövrdə ölkəmizdə peşə təhsili sistemi 118 peşə təhsili müəssisəsindən ibarət olmuşdur, hansı ki, 116-sı dövlət (o cümlədən 109-u Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindədir), 2-si özəl təhsil müəssisəsidir. Qeyd edək ki, bunlardan 6 təhsil müəssisəsi Dağlıq Qarabağ və ətraf ərazilərdə fəaliyyət göstərmiş və sonradan fəaliyyəti dayandırılmış peşə məktəbləridir.

Agentlik fəaliyyətə başladıqdan sonra strateji yol xəritəsində nəzərdə tutulduğu kimi optimallaşdırma aparılaraq 55 təhsil müəssisəsinin bazasında 24 Peşə Təhsili Mərkəzi yaradılmışdır. 2021-ci ilin əvvəlinə olan məlumata görə 24 Peşə Təhsili Mərkəzi, 1 Peşə Tədris Mərkəzi, 16 peşə liseyi, 22 peşə məktəbi və cəzaçəkmə müəssisələri nəzdində 9 peşə məktəbi olmaqla 72 peşə təhsili müəssisəsi fəaliyyət göstərir. Müsbət haldır ki, Koreya ilə birgə yeni Peşə Təhsili Mərkəzi tikilib fəaliyyətə başlamışdır. Daha 4 müəssisənin tikintisi planlaşdırılmışdır. Agentliyin verdiyi  məlumata görə 2021/2022-ci tədris ilində 72 peşə təhsili müəssisəsində 120 ixtisas üzrə ümumilikdə  24819 nəfər tələbə təhsil alırdsa, 2024-cü ildə buraya

qəbul olunanların sayı 20 mini ötmüşdür.Son dövrdə bu təhsil pilləsinə müraciət edənlərin sayı tədricən də olsa artmağa başlayıb. Buraya hətta ali təhsildən sonra da müraciət edənlər var. Yüksək texniki peşə təhsilinə maraq daha böyükdür, bu da peşə təhsilinin bu səviyyəsinin subbakalavr diplomu verməsi və bununla da ali təhsilə asan keçidi təmin etməsi ilə bağlıdır.

Lakin təhsilin istənilən pilləsinin, xüsusilə də peşə təhsilinin inkişafında dövlətlə yanaşı özəl sektorun və bütövlükdə cəmiyyətin iştirakı və köməyi mütləqdir. Ölkə əhalisinin sayı ildən ilə artır, fərdi sahibkarlıq subyektlərinin sayının artmasına və yeni-yeni iş yerlərinin açılmasına baxmayaraq hələ də işsizlik, xüsusilə də gənclər arasında işsizliyin yüksək olması ən mühüm problemlərdən biri kimi qarşıda durur. İnsanların münasib işlə təmin olunması üçün ilk növbədə onların lazımlı peşəyə mükəmməl yiyələnməsi vacibdir. Burada peşə təhsili və təlimini təşkil edən müəssisələrin bir sistem halında fəaliyyət göstərməsi lazımdır. Bunlardan birincisi Elm və Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələri, ikincisi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində yaradılmış Regional Peşə Tədris Mərkəzləri və üçüncüsü böyük istehsalat birliklərinin nəzdində fəaliyyət göstərən Peşə Təlimi və Tədris Mərkəzləridir.

İşsiz əhalinin və işaxtaranların məşğulluq problemlərinin həll olunması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində yaradılmış Bakı Regional Tədris Mərkəzi 2007-ci ildən fəaliyyət göstərir. Daha sonra Naxçıvan şəhərində, Göyçay rayonunda və Gəncə şəhərində də belə mərkəzlər açılmışdır. Əmək bazarının mövcud tələblərinə uyğun olaraq işaxtaran və işsiz vətəndaşları münasib işlə təmin etmək

məqsədilə onların peşə təlimi, yenidən hazırlanma və ixtisasartırma kurslarına cəlb olunması baxımından bu mərkəzlərin mühüm rolu vardır. Əmək bazarının real tələbləri nəzərə alınaraq ehtiyac olduqda işaxtaran və işsiz şəxslər, xüsusilə də gənclər peşənin mürəkkəbliyindən asılı olaraq 1-3 aylıq kurslara: peşə hazırlığına, yenidən hazırlığa və ixtisasartırmaya cəlb edilirlər. Sonra isə onların müvafiq işlə təmin olunması məsələsinə baxılır.

Müxtəlif ixtisasları öyrənmək, ixtisasını artırmaq və yenidənhazırlıq üçün iri istehsalat müəssisələri yanında müxtəlif ixtisaslaşmış kurslar və Peşə Təlim Tədris Mərkəzlərinin fəaliyyət göstərməsi daha çevik məqsədlərə xidmət edir. Məsələn, qabaqcıl təcrübələrə malik olan ARDNŞ-nın nəzdində 5 belə mərkəz vardır ki, həm şirkətin özü üçün ixtisaslı fəhlə kadrları hazırlayır və işçilərin ixtisasartırmasını təmin edir, həmçinin də digər müəssisələrin sifarişlərini yerinə yetirir. Burada şagirdlərin istehsalat təcrübəsinə geniş yer vermək imkanı möcvuddur, bu isə onların bilik və peşə vərdişlərini daha tez mənimsəməsinə şərait yaradır. Buradakı Peşə Təlim Tədris Mərkəzlərində təhsil alan şagirdlər təqaüd almaqla yanaşı yaşayış yeri, yemək və iş geyimi ilə də təmin edilirlər və dərslərin keyfiyyətli olması üçün ciddi nəzarət vardır. Bitirdikdən sonra məzunların şirkətdə qalıb karyera qurmaq imkanları yüksəkdir, bu səbəbdən də həmin mərkəzlərə peşə təhsili almaq üçün müraciət edənlərin arasında ali təhsilli gənclər də çoxdur.

Bütövlükdə peşə təhsilinin əmək bazarının tələblərinə daha çevik uyğunlaşa bilməsi və kiçik sahibkarlığın inkişafına dəstək vermə imkanlarını nəzərə alaraq gənclər arasında onun nüfuzunun yüksəldilməsinə və eyni zamanda da müasir tələblər

baxımından keyfiyyət göstəricilərinin arzuolunan səviyyədə artırılmasına nail ola bilsək məşğulluq səviyyəsinə də müsbət təsirlərinin şahidi olarıq.

# Fəsil II. AZƏRBAYCANIN ƏMƏK BAZARINDA ƏHALİNİN MƏŞĞULLUQ VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1.Əmək bazarında məşğulluğun müasir vəziyyəti

Məşğulluq bütün dünyada ən vacib, aktual problemlərdən biridir, dünyada milyonlarla işsiz insan var və onlar yoxsulluq həddindən aşağı vəziyyətdə yaşayırlar, işsizlərin tərkibində gənclərin sayı çoxdur, qadınların əksəriyyəti isə əmək bazarına daxil olmaqda çətinlik çəkirlər.

İnkişaf etməkdə olan ölkələrdə bütün işləyənlərin demək olar ki, yarısı kiçik kəndli təsərrüfatlarında məşğul olurlar və ya sərbəst məşğul olanlar kateqoriyasına aiddirlər, bu cür məşğulluqda isə bilirik ki, stabil əməkhaqqı və güzəştlər olmur. Belə ölkələrdə kasıbların çoxunun problemi iş yerinin ümumiyyətlə olmaması ilə əlaqədar deyil, əslində, onların əksəriyyəti uzunmüddətli işləyirlər və hətta maddi tələbatlarını ödəmək üçün bir neçə işdə çalışırlar, lakin buna baxmayaraq uşaqlarının yaxşı gələcəyini təmin edəcək qədər qazana bilmirlər.

Əhalinin iqtisadi durumunun və yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə əməyə qabiliyyəti olan hər bir şəxsin qaneedici işlə təmin olunması digər dövlətlərdə olduğu kimi ölkəmiz üçün də ən vacib məsələlərdən biridir və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi hər zaman diqqət mərkəzindədir. Bu məqsədlə müxtəlif dövlət proqramları icra edilir  və müəyyən nəticələr əldə olunmuşdur.

Əmək bazarındakı məşğulluq vəziyyətinin ümumi göstəricilərinə nəzər saldıqda görürük ki, ölkə əhalisinin sayında oldu-

ğu kimi, iqtisadi fəal əhalinin sayında da stabil artım vardır (cədvəl 2.1.1).

**Cədvəl 2.1.1. Əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri** *(min nəfər)*

| | **2010** | **2015** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** |
|---|---|---|---|---|---|---|---|---|
| **Əhalinin orta illik sayı** | 9054,3 | 9649,3 | 9939,8 | 9931,2 | 10000,1 | 10044,7 | 10095,2 | 10154,0 |
| **İqtisadi fəal əhali** | 4587,4 | 4915,3 | 5133,1 | 5037,7 | 5089,9 | 5141,6 | 5194,4 | 5249,7 |
| **Məşğul əhali** | 4329,1 | 4671,6 | 4879,3 | 4785,6 | 4721,2 | 4831,1 | 4901,1 | 4963,3 |
| **İşsiz əhali** | 258,3 | 243,7 | 253,8 | 252,1 | 368,7 | 310,5 | 293,3 | 286,4 |
| **Muzdlu işçilər** | 1382,9 | 1502,5 | 1551,7 | 1646,6 | 1698,1 | 1709,1 | 1738,7 | 1745,5 |

*Mənbə: Əmək bazarı 2022, 2023, 2024. Statistik bülleten. səh.15.*
*Qeyd: *2019-cu ildə keçirilmiş əhalinin siyahıya alınmasının yekun məlumatları əsasında 2019-2022-ci illər üzrə məlumatlar yenidən hesablanmışdır.*

Məşğul əhalinin sayı 2019-cu ilədək stabil şəkildə artsa da, 2020-ci ildə pandemiya, sərt karantin şəraiti ilə bağlı azalmış, işsizlərin sayı isə əksinə artmışdır. Pandemiya dövrünə qədər respublikamızda işsizlik səviyyəsi iqtisadi fəal əhaliyə nəzərən rəsmi statistikada 5 faiz təşkil edirdisə, 2020-ci ildə məşğul əhalinin sayı 4721,2 min nəfər, işsizlərin sayı 368,7 min nəfər olmaqla işsizlik səviyyəsi 7,2 faizə qədər yüksəlmişdi. Lakin 2021-ci ildə müsbətə doğru bir qədər irəliləyiş olmuş, məşğul əhalinin sayı artaraq 4831,1 min nəfərə çatmış, işsizlərin sayı isə nisbətən azalaraq 310,5 min nəfər və işsizlik səviyyəsi 6,3 faiz təşkil etmişdi. 2022-2023-cü illərdə məşğul əhalinin sa-

yında artım, işsizlərin sayında isə tədricən azalma müşahidə olunmuş, işsizlik səviyyəsi 5,5 faizə enmişdir.

Qeyd edək ki, 2019-cu ildə əhalinin yenidən siyahıya alınması keçirilmiş, 2019-2021-ci illər üçün ümumi ölkə əhalisinin və məşğul əhalinin sayı yenidən hesablanmışdır. Ona görə də bundan əvvəl apardığımız tədqiqatlarla siyahıya almadan sonrakı tədqiqatlarımızda həmin illər üzrə göstəricilərdə fərqlər ola bilər. Belə ki, aşağıdakı cədvəldən də göründüyü kimi yenidən hesablanma nəticəsində məşğul əhalinin sayı əvvəlki statistikalarda verilənlərə nisbətən daha azdır. Muzdlu işçilərin sayında isə müsbət dinamika saxlanılır.

Statistik seçmə müayinələrinə əsasən 15 və yuxarı yaşda olan əhaliyə nisbətdə məşğulluq səviyyəsi 2020-ci ildə 62,1% (o cümlədən şəhər yerlərində 57,7%, kənd yerlərində 67,2%), işsizlik səviyyəsi 7,2% (o cümlədən şəhər yerlərində 8,6%, kənd yerlərində 5,7%) olmuş, 2021-ci ildə isə məşğulluq səviyyəsi 1,0 faiz yüksələrək 63,1 % (o cümlədən şəhər yerlərində 58,9%, kənd yerlərində 68,0%), işsizlik səviyyəsi isə azalaraq 6,0% (o cümlədən şəhər yerlərində 7,2%, kənd yerlərində 4,6%) olmuşdur. (Əmək bazarı 2022, s. 129-131)[30].

2022-ci ildə məşğulluq səviyyəsi 62,0%, o cümlədən şəhər yerlərində 56,9%, kənd yerlərində 68,3% olmuş, işsizlik səviyyəsi isə ümumilikdə 5,6%, o cümlədən şəhər yerlərində 6,7%, kənd yerlərində 4,5% təşkil etmişdir (Əmək bazarı 2023, s. 129-131) [31].

---

[30]Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. https://www.stat.gov.az/source/labour/

[31]Yenə orada

2023-cü ilin göstəricilərinə görə məşğul əhalinin 15 və yuxarı yaşda olan əhaliyə nisbəti 61,9%, o cümlədən, şəhər yerlərində 57,0%, kənd yerlərində 67,9%; kişilər arasında 66,1%, qadınlar arasında 57,9% olmuşdur. İşsizlik səviyyəsi isə 5,5%, o cümlədən şəhər yerlərində 6,5%, kənd yerlərində 4,3%; kişilər arasında 4,7%, qadınlar arasında 6,3% təşkil etmişdir. Gender quruluşuna görə həm şəhər, həm də kənd yerlərində kişilər arasında məşğulluq qadınlara nisbətən daha yüksəkdir (Əmək bazarı bülleteni 2024, s. 129)[32].

2024-cü ildə ev təsərrüfatları üzrə aparılmış tədqiqatların yekunlarına[33] baxdıqda görürük ki, iqtisadi fəal əhalinin cins və yaş tərkibinə görə şəhər və kənd yerləri arasında ciddi fərqlər vardır (cədvəl 2.1.2). İşləyənlər və iş yeri olanların şəhər yerlərində 65,4 faizini kişilər, 34,6 faizini qadınlar təşkil etdiyi halda, kənd yerlərində kişilər üzrə bu göstərici 63,1 faiz, qadınlar üzrə isə 36,9 faiz təşkil edir. İşləyənlərin yaş həddinə baxsaq, şəhər yerlərində 41-64 yaş arası kişilərin xüsusi çəkisi 32,0 faiz olmaqla ən yüksəkdir, kənd yerlərində isə işləyən kişilərin böyük hissəsi (30,8 faiz) 21-40 yaş aralığındadır. Qadınlar arasında işləyənlərin çoxu 41-62 yaş intervalındadır, belə ki, onların xüsusi çəkisi şəhər yerləri üzrə 17,6 faiz, kənd yerlərində 18,3 faiz təşkil edir.

İşsizlərin yaş tərkibinə baxsaq həm şəhər, həm də kənd yerlərində işsizlərin böyük hissəsi 21-40 yaş qrupuna aiddir. İşsizlərin cins tərkibini araşdırdıqda məlum olur ki, işsiz kişilərin şəhər yerlərində 37,1 faiz, kənd yerlərində 34,5 faiz olmaqla

---

[32]Yenə orada

[33]Ev təsərrüfatları tədqiqatının yekunları 2025.
https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/evtes_2025.pdf

ən yüksək xüsusi çəkisi 21-40 yaş intervalındadır. Qadınlar arasındakı fərq daha böyükdür, belə ki, şəhər yelərində işsizlərin 32,3 faizini, kənd yerlərində isə 21,5 faizini 21-40 yaşlı qadınlar təşkil edir.

**Cədvəl 2.1.2. Şəhər və kənd yerlərində əhalinin cins-yaş üzrə iqtisadi fəallığı** *(%-lə)*

| | Ölkə üzrə cəmi | | | Şəhər yerləri üzrə | | | Kənd yerləri üzrə | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | İşləyənlər və iş yeri olanlar | İşsizlər | İqtisadi qeyri-fəal | İşləyənlər və iş yeri olanlar | İşsizlər | İqtisadi qeyri-fəal | İşləyənlər və iş yeri olanlar | İşsizlər | İqtisadi qeyri-fəal |
| **Kişilər** | **64,3** | **54,3** | **28,4** | **65,4** | **52,2** | **28,2** | **63,1** | **61,0** | **28,7** |
| 15-20 yaş | 0,9 | 9,7 | 9,6 | 0,5 | 6,9 | 9,6 | 1,3 | 18,7 | 9,6 |
| 21-40 yaş | 30,6 | 36,5 | 3,1 | 30,4 | 37,1 | 3,2 | 30,8 | 34,5 | 3,0 |
| 41-64 yaş | 30,4 | 7,5 | 4,0 | 32,0 | 8,0 | 3,5 | 28,7 | 5,8 | 4,7 |
| 65 + yaş | 2,4 | 0,6 | 11,7 | 2,5 | 0,2 | 11,9 | 2,3 | 2,0 | 11,4 |
| **Qadınlar** | **35,7** | **45,7** | **71,6** | **34,6** | **47,8** | **71,8** | **36,9** | **39,0** | **71,3** |
| 15-20 yaş | 0,5 | 6,4 | 10,5 | 0,2 | 5,2 | 10,4 | 0,9 | 10,4 | 10,7 |
| 21-40 yaş | 15,2 | 29,7 | 23,8 | 14,1 | 32,3 | 23,9 | 16,3 | 21,5 | 23,6 |
| 41-62 yaş | 17,9 | 9,3 | 17,7 | 17,6 | 10,1 | 18,1 | 18,3 | 6,4 | 17,0 |
| 64 + yaş | 2,1 | 0,3 | 19,6 | 2,7 | 0,2 | 19,4 | 1,4 | 0,7 | 20,0 |

*Mənbə: ARDSK Ev təsərrüfatları tədqiqatının yekunları 2025. Statistik məcmuə. Səh. 205.*

İşsizlərin tərkibində 15-20 yaş aralığındakı gənc qadınların xüsusi çəkisi şəhər yerlərində 5,2 faiz olduğu halda, kənd yerlərində bundan iki dəfə çox, yəni, 10,4 faiz təşkil edir. 15-20 yaşlı gənc kişilər işsizlərin müvafiq olaraq 9,7 və 18,7 faizini təşkil edir. Bu göstəricilər də təsdiqləyir ki, kənd yerlərində gənclər arasında, xüsusilə də qadınlar olmaqla işsizlik səviyyəsi daha yüksəkdir.

İqtisadi qeyri-fəallıq göstəriciləri isə 71 faizdən çoxu qadınlar olmaqla şəhər və kənd yerlərində bir-birinə çox yaxındır. Bu analogiya demək olar ki, bütün yaş qruplarına aiddir. İqtisadi qeyri-fəal olan qadınların ən böyük hissəsi müvafiq olaraq 23,8 faiz və 23,6 faiz olmaqla 21-40 yaş aralığındadır. Ən aşağı paya malik olan qadınlar isə 15-20 yaş qrupuna məxsusdur.

**Cədvəl 2.1.3. Məşğul əhalinin məşğulluq statusuna görə bölgüsü** *(min nəfər)*

| | 2021 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|---|
| Məşğul əhalinin sayı | **Cəmi 4988,2** | ***Yekuna görə %-lə*** | **Cəmi 4901,1** | ***Yekuna görə %-lə*** | **Cəmi 4901,1** | ***Yekuna görə %-lə*** |
| *o cümlədən* | | | | | | |
| muzdla işləyənlər | 1709,1 | *34,3* | 1738,7 | *35,5* | 1745,5 | *35,2* |
| sahibkarlar (işəgötürən) | 568,4 | *11,4* | 536,4 | *10,9* | 535,7 | *10,8* |
| fərdi əmək fəaliyyəti ilə məşğul olanlar | 1096,1 | *22,0* | 1092,5 | *22,3* | 1111,8 | *22,4* |
| ailə kəndli təsərrüfatında və ya ailə biznesində haqqı ödənilmədən çalışanlar | 1614,6 | *32,4* | 1533,5 | *31,3* | 1570,3 | *31,6* |

*Mənbə: Əmək bazarı. Statistik bülletenlər 2022, 2023, 2024. s.138.*

Cədvəl 2.1.3-ün verilənlərinə görə məşğul əhalinin 2021-ci ildə 34,3 faizini, 2023-cü ildə isə 35,2 faizini muzdla çalışanlar təşkil edir, bu isə 0,9 faiz bəndi artım olduğunu göstərir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı ildən ilə azalaraq xüsusi çəkisi  2021-ci ildə 11,4 faizdən 2023-cü ildəki 10,8 faizə enmişdir. Deməli, ölkəmizdə sahibkarlığın inkişafı istiqamətində görülən tədbirlərə baxmayaraq onların həm sayı,

həm də xüsusi çəkisi (0,6 faiz bəndi) azalmışdır. Fərdi əmək fəaliyyəti ilə məşğul olanların xüsusi çəkisi isə 0,4 faiz bəndi artaraq 2021-ci ildəki 22 faizdən 2023-cü ildə 22,4 faizə çatmışdır. Məşğul əhalinin 2021-ci ildə 32,4 faizi, 2023-cü ildə isə 31,6 faizi ailə kəndli təsərrüfatında və ya ailə biznesində haqqı ödənilmədən çalışanlardır, bu isə odeməkdir ki, onların (həmçinin də fərdi əmək fəaliyyəti ilə məşğul olanların) stabil gəliri yoxdur. Onu da nəzərə almaq lazımdır ki, kənd təsərrüfatında məşğulluq əsasən mövsümi xarakter daşıyır, ilin qalan hissəsini isə onların əksəriyyətinin gəlir əldə edə biləcəyi mənbə yoxdur.

Şəhər və kənd yerləri üzrə əhalinin adambaşına düşən gəlirləri arasındakı fərqi araşdırdıqda görürük ki, 2001-ci il istisna olmaqla şəhər yerlərində gəlirlər nisbətən daha yuxarıdır. Onların arasında böyük fərqlər olmasa da (təqribən 30 manata yaxın) kənd yerlərində gəlirlərin səviyyəsi ümumi ölkə göstəricilərindən aşağıdır (cəd. 2.1.4).

**Cədvəl 2.1.4. Ölkə üzrə adambaşına əhali gəlirləri** *(manatla)*

| | 2001 | 2005 | 2010 | 2015 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Gəlirlər – ölkə üzrə, cəmi | **29,1** | **64,4** | **144,2** | **240,5** | **292,6** | **291,4** | **300,6** | **327,6** | **343,2** | 359,2 |
| Şəhər yerləri üzrə | **27,2** | **68,0** | **149,4** | **249,4** | **303,2** | **301,4** | **311,1** | **340,0** | **356,6** | 372,6 |
| Kənd yerləri üzrə | 31,3 | 60,3 | 138,1 | 230,4 | 280,8 | 280,1 | 288,7 | 312,7 | 329,8 | 343,1 |

*Mənbə: ARDSK Ev təsərrüfatları tədqiqatının yekunları 2025.*

Statistik bülletenlərdən götürdüyümüz məlumatların təhlili göstərir ki, kənd yerlərində məşğulluq səviyyəsi daha

yüksəkdir. Bu da kənd yerlərində yaşayanların əsasən pay torpaqlarının sahibi kimi qanunla məşğul sayılması ilə əlaqədar ola bilər. Əksəriyyətin adında pay torpaqları var, lakin hər kəs ondan faydalı istifadə etməyi və gəlir götürməyi bacarırmı? məsələ bundadır. Məşğul sayılmaları üçün onların gəliri olmalıdır. Lakin torpaqlardan səmərəli istifadə edərək qazanc götürmək üçün həm bacarıqlı işçi qüvvəsi, həm sahibkarlıq qabiliyyəti, həm də texnika lazımdır, buna isə malik olanların sayı azdır. Torpaqlarını icarəyə verməklə də öz istehlak tələbatlarını ödəyəcək qədər vəsait əldə edə bilmirlər. Peşə və ixtisası olmayanlar üçün gəlir əldə etmək daha çətindir, onlar yalnız fermer təsərrüfatlarında yardımçı işlərdə məşğul ola bilərlər. Birgə təsərrüfatların yaradılması və sayının artırılması ilə regionlarda kənd təsərrüfatının və aqrar sahənin inkişafına nail olmaq və beləliklə də məşğulluğun yüksəldilməsi mümkündür. Məhz buna görə də subsidiyaların əməktutumlu sahələrə yönəldilməsi əhalinin məşğulluğunun artırılması baxımından səmərəli hesab oluna bilər.

## Regionlarda məşğulluğun vəziyyəti

Qeyd etdiyimiz kimi, regionlarda, xüsusilə də kənd yerlərində gənclər üçün iş tapmaq daha çətindir. Bu səbəbdən onların əksəriyyəti iş tapmaq məqsədilə iri şəhərlərə, əsasən Bakıya və Bakıətrafı ərazilərə üz tutmalı olurlar. Beləliklə də şəhərlərdə sıxlıq yaranır, rəqabət artır, regionlar isə boş qalır, bu isə insanların bir tərəfdən maddi rifahını müəyyən qədər yaxşılaşdırırsa, digər tərəfdən də müxtəlif çətinliklər yaradır. Evindən, ailəsindən uzaqda yaşamaq məcburiyyəti, qazancının bir hissə-

sini ev kirayəsinə sərf etmək, izafi nəqliyyat xərcləri, eləcə də sosial-psixoloji vəziyyətlə, sağlamlıqla, rahat yaşayışla bağlı digər çətinliklər əmələ gəlir. Öz yaşayış yerinə yaxın ərazidə münasib iş tapmaq üçün şərait yaradılsa təbii ki, hər kəs üçün daha yaxşı olar. Qeyd edək ki, əmək ehtiyatlarından düzgün istifadə edilməsi, onların regionlar və iqtisadi fəaliyyət sahələri üzrə səmərəli paylanması da səmərəli məşğulluq səviyyəsinin yüksək olması və bütövlükdə iqtisadiyyat üçün çox vacib məsələdir.

Belə problemlərin həlli məqsədilə dövlətimiz tərəfindən insanların layiqli iş yerləri ilə təmin edilməsi istiqamətində müvafiq tədbirlər görülür. Məsələn, 2004-cü ildən 2018-ci ilə kimi regionların sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə 3 Dövlət Proqramı yerinə yetirilmişdir. Bunların davamı kimi hazırlanmış 2019-2023-cü illəri əhatə edən 4-cü proqramda qeyd edildiyinə görə əvvəlki 3 proqramın nəticəsi olaraq, 1,5 milyonu daimi olmaqla 2 milyondan artıq yeni iş yerləri yaradılmışdır[34]. Həmin proqramda verilmiş göstəricilər əsasında hazırladığımız qrafik 2.1.1-dən görünür ki, 2004-2018-ci illərdə açılmış iş yerlərinin 72 faizə qədəri regionların payına düşür.

Məşğulluğun artırılması birinci növbədə yeni iş yerlərinin yaradılması ilə bağlıdır. Ölkəmizdə əhalinin sayı ilbəil artır, əgər əhali artımına müvafiq şəkildə iş yerlərinin sayı artmayacaqsa çox güman ki, işsizlik problemi öz aktuallığını saxlayacaq.

[34]Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı.https://e-qanun.az/framework/41320




**Qrafik 2.1.1. Dövlət Proqramları nəticəsində yaradılmış iş yerlərinin sayı**

*Mənbə: Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı.*

İşçi qüvvəsinə tələb artmalıdır ki, mövcud əmək potensialından tələbata uyğun peşə-ixtisas təhsilli kadrlar hazırlansın.

Bundan əlavə, qeyd etməliyik ki, hazırda iş yerlərinin daha çoxunun regionlarda açılması istiqamətində işlər aparılmalıdır. Yuxarıdakı qrafikin göstəricilərdən fərqli olaraq Dövlət Statistika Komitəsinin məlumatları əsasında hazırladığımız cədvəl 2.1.5 tamamilə əks mənzərə yaradır. Cədvəldəki statistik verilənlərin təhlili göstərir ki, yeni yaradılmış müəssisələrin böyük hissəsi (demək olar ki, 80%-dən çoxu) Bakı şəhərinin payına düşür. 2015-2022-ci illərdə yeni yaradılmış iş yerlərinin sayına baxsaq görərik ki, 2015-2022-ci illər ərzində respublika üzrə ümumilikdə 1294068 iş yeri açılmışdır. 2020-ci ildə yeni açılmış iş yerlərinin 69,3 faizi, 2021-ci ildə 77,1 faizi Bakı şəhərinin payına düşür. Bölgələr arasında isə 2019-cu ilə qədər Aran zonasında daha çox iş yeri açılmışdır. 2020-ci və 2021-ci ilin göstəricilərinə görə isə Lənkəran Aran bölgəsini üstələmişdir.

**Cədvəl 2.1.5. Azərbaycanda son illərdə iqtisadi rayonlar üzrə yeni açılmış iş yerlərinin dinamikası** *(2015-2022-ci illər)*

| **İllər** | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| **Respublika üzrə açılmış yeni iş yerlərinin cəmi** | **115869** | **196539** | **281446** | **238947** | **192017** | **128979** | **68991** | **71280** |
| **Bakı şəhəri** | 39365 | 49010 | 68714 | 62215 | 106557 | 89404 | 53170 | 57136 |
| **Abşeron** | 11180 | 11143 | 15222 | 11749 | 6945 | 3139 | 3220 | 2388 |
| **Gəncə-Qazax** | 13510 | 26134 | 28857 | 18296 | 13171 | 4318 | 3634 | 2069 |
| **Şəki-Zaqatala** | 5202 | 10576 | 9508 | 7160 | 6411 | 1989 | 1368 | 1816 |
| **Lənkəran** | 7723 | 12980 | 28514 | 21232 | 11395 | 8478 | 1563 | 947 |
| **Quba-Xaçmaz** | 4693 | 9542 | 8373 | 6441 | 3963 | 1775 | 1556 | 1877 |
| **Aran** | 22122 | 57104 | 95980 | 92 911 | 31265 | 4883 | 1641 | 1530 |
| **Yuxarı Qarabağ** | 3711 | 6704 | 15012 | 10515 | 4291 | 4536 | 681 | 905 |
| **Kəlbəcər-Laçın** | 775 | 1038 | 777 | 538 | 124 | - | 199 | 223 |
| **Dağlıq Şirvan** | 4680 | 9298 | 8052 | 5063 | 4675 | 1553 | 577 | 547 |
| **Naxçıvan** | 2908 | 3010 | 2437 | 2827 | 3220 | 955 | 427 | 407 |

*Mənbə: "Yeni iş yerləri". 2014-2024, səh.18-19. Statistik məcmuələrin məlumatları əsasında hazırlanmışdır.*

2022-ci ildə yeni açılmış iş yerlərinin xüsusi çəkisinə nəzər yetirsək görərik ki, onların 80,2 faizi Bakı şəhərinin, 3,3 faizi Abşeron-Xızı, 2,6 faizi Quba-Xaçmaz, 2,5 faizi Şəki-Zaqatala, 2,0 faizi Şirvan-Salyan, 1,7 faizi Gəncə-Daşkəsən, 1,3 faizi Qazax-Tovuz, 1,3 faizi Lənkəran-Astara, 1,3 faizi Qarabağ,1,2 faizi Mərkəzi Aran, 0,9 faizi Mil-Muğan, 0,8 faizi Dağlıq Şirvan, 0,3 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarının, 0,6 faizi Naxçıvan Muxtar Respublikasının payına düşmüşdür.

2023-cü ildə ümumilikdə 82318 yeni iş yeri açılmışdır, bunların da 65563-ü, başqa sözlə 79, faizi Bakı şəhərinin payına

düşür. Göründüyü kimi bu tendensiya hələ də davam edir. Bu isə o deməkdir ki, yeni iş yerlərinin Bakıda açılmasının məhdudlaşdırılması və regionlarda yaradılmasını təşviq edən səmərəli tədbirlərin həyata keçirilməsinə ehtiyac var. Nəzərə almaq lazımdır ki, paytaxtda və ona yaxın ərazilərdə yaranan sıxlıq əhalinin həyat keyfiyyətinə də mənfi təsir edir. Bakı şəhərinin ərazisi ölkə ərazisinin 2,5 faizini təşkil etdiyi halda əhalinin 22,7 faizi (bəlkə də daha çox hissəsi), məşğul əhalinin isə təqribən 24 faizi burada məskunlaşmış, əhalinin sıxlığı 1 kv.km.-də 1075 nəfərə çatmışdır. Ölkə üzrə bu rəqəm 117 nəfərdir, bəzi bölgələrdə hətta 42 nəfər təşkil edir. Bu isə əmək ehtiyatlarının bölgələr üzrə səmərəli paylanmadığının göstəricisidir.

Artıq işğaldan azad olunmuş torpaqlarımıza qayıdışın başlanılması şəhərdəki sıxlığın yaxın zamanlarda azalacağına və regionlarımızın daha da inkişaf edəcəyinə, orada iş yerlərinin sayının, beləliklə də məşğulluq səviyyəsinin artacağına ümidləri artırır. Lakin məşğulluq problemlərinin səmərəli həlli və regionlarımızın sürətlə inkişaf etdirilməsi məsələsində yalnız dövlət yox, həm də yerli işəgötürənlər, yerli icra orqanları, bələdiyyələr, təhsil müəssisələri birgə fəaliyyət göstərməlidir. Hər kəs yaşadığı regionunun inkişafı üçün çalışarsa və üzərinə düşən məsuliyyəti qəbul edərək öz vəzifələrini layiqincə yerinə yetirərsə həm iqtisadiyyatın inkişafına, həm də əhalinin, xüsusən də gənclərimizin rifah halının yüksəlməsinə nail olmaq olar.

Regionlar üzrə işsizlik göstəricilərinə baxsaq (cədvəl 2.1.6) rəsmi statistikaya əsasən ən yaxşı vəziyyət Naxçıvan Muxtar Respublikasına aiddir, belə ki, respublikamız üzrə ümumi işsizlik səviyyəsinin 2023-cü ildə 5,5 faiz olmasına baxmayaraq Naxçıvan MR-da cəmi 0,4 faiz təşkil edir.

**Cədvəl 2.1.6. İqtisadi rayonlar üzrə işsizlik səviyyəsi** (%-lə)

| | 2015* | 2017* | 2018* | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| **Azərbaycan Respublikasıüzrə, cəmi:** | **5,0** | **5,0** | **4,9** | **5,0** | **7,2** | **6,0** | **5,6** | **5,5** |
| Bakı şəhəri | 6,0 | 6,1 | 6,0 | 4,7 | 7,0 | 6,0 | 5,7 | 5,4 |
| Naxçıvan Muxtar Respublikası | - | - | - | 0 | 0,1 | 0,1 | 0,1 | 0,4 |
| Abşeron-Xızı iqtisadi rayonu | 5,2 | 5,3 | 5,3 | 4,9 | 7,4 | 6,2 | 5,8 | 5,6 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 4,6 | 4,6 | 4,8 | 4,7 | 6,8 | 5,5 | 5,1 | 5,2 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 5,3 | 5,4 | 5,4 | 5,9 | 8,6 | 7,3 | 6,8 | 6,5 |
| Qarabağ iqtisadi rayonu | 5,0 | 4,8 | 4,9 | 5,6 | 8,2 | 6,8 | 6,3 | 6,2 |
| Qazax-Tovuz iq. rayonu | 4,6 | 4,4 | 4,4 | 4,6 | 6,6 | 5,3 | 5,0 | 4,8 |
| Quba-Xaçmaz iq.rayonu | 4,4 | 4,4 | 4,3 | 6,1 | 8,8 | 7,2 | 6,7 | 6,4 |
| Lənkəran-Astara iq.ray. | 4,8 | 4,8 | 4,7 | 5,8 | 8,0 | 6,7 | 6,2 | 5,9 |
| Mərkəzi Aran iq.rayonu | 5,7 | 5,6 | 5,8 | 6,4 | 8,9 | 7,3 | 6,8 | 6,6 |
| Mil-Muğan iqti. rayonu | 4,5 | 4,4 | 4,2 | 5,4 | 7,6 | 6,1 | 5,7 | 5,4 |
| Şəki-Zaqatala iqt. rayon | 4,4 | 4,4 | 4,3 | 3,9 | 5,8 | 4,7 | 4,4 | 4,5 |
| Şərqi Zəngəzur iq.rayon | 6,0 | 6,1 | 6,3 | 6,8 | 9,9 | 8,4 | 7,9 | 7,6 |
| Şirvan-Salyan iq. rayon | 4,9 | 4,9 | 5,0 | 6,1 | 8,6 | 7,1 | 6,7 | 6,4 |

*Mənbə:Əmək bazarı 2022, 2024. Statistik bülletenlər. səh.173 - 178*

*Qeyd: *2015-2018-ci illər üzrə göstəricilər Əmək bazarı 2022 statistik bülletenindən götürülmüşdür.*

Baxmayaraq ki, son illərdə açılmış yeni müəssisələrin və iş yerlərinin böyük hissəsi Bakı şəhərinin payına düşür, burada işsizlik səviyyəsi isə bəzi illərdə respublika üzrə ümumi göstəricidən daha yüksəkdir. Təbii ki, bunu da regionlardan Bakıya iş tapmaq üçün gələn işaxtaranların sayının çoxluğu ilə əlaqələndirmək olar.

Rəsmi statistikada bölgələr üzrə ən yüksək işsizlik faizi Şərqi Zəngəzur iqtisadi rayonuna aid olmuşdur, lakin AR-nın iş-

ğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində burada vəziyyətin tez bir zamanda ən optimal dərəcədə yaxşılaşacağına ümid edirik. Qeyd edək ki, torpaqlarımız işğal olunan zaman həmin ərazilərimizdə 300 mindən artıq iş yerləri də itirilmişdi. Burada yaşayışın və infrastrukturun bərpası ilə məşğulluq səviyyəsinin həm bu bölgədə, həm də digər regionlarda əhəmiyyətli dərəcədə yüksələcəyi gözləniləndir.

Beynəlxalq İqtisadi Forumun (BİF) proqnozlarına görə, yaxın 5 ildə dünya əmək bazarında iş yerlərinin sayında 14 milyon azalma olacağı gözlənilir, yəni 69 mln. yeni iş yerləri yaradılacaq, 83 mln. iş yeri isə ləğv ediləcək. Lakin ümid edə bilərik ki, bu bədbin proqnozlar Azərbaycana aid olmayacaq, ona görə ki, işğaldan azad olunmuş bölgələrimizin perspektivində turizmin, kənd təsərrüfatının, yeyinti sənayesinin, dağ mədən sənayesinin və s. potensialından geniş istifadə imkanları çoxlu sayda iş yerlərinin açılmasına təkan verə bilər.

**Gənclərin məşğulluq səviyyəsinin qiymətləndirilməsi**

Baxmayaraq ki, bazar iqtisadiyyatının aktual problemlərindən biri olan məşğulluq məsələsi əksər ölkələrdə olduğu kimi Azərbaycanda da daima diqqət mərkəzindədir, optimal çıxış yolları daima axtarılır, işsizliklə mübarizə istiqamətində dövlət səviyyəsində çoxsaylı tədbirlər görülür, lakin sürətli dəyişikliklər hiss olunmur və səmərəli məşğulluğun təmin edilməsi problemi öz aktuallığını saxlayır. Bu problemdən ən çox əziyyət çəkənlər isə gənclərdir: həm təhsilli, həm də təhsilsiz gənclər. Təhsilsiz gənclərin iş təminatının çətinliyində başlıca səbəb kimi onların peşə və ixtisasının olmaması göstərilir, lakin

iş təminatının mürəkkəbliyi məsələsi təhsilli, yüksəkixtisaslı gənclər üçün də xarakterikdir.

Gənclər arasında işsizlik faizi dünya ölkələrində olduğu kimi Azərbaycanda da digər yaş qruplarına nisbətən daha yüksəkdir. Azərbaycan hökuməti və BƏT arasında əməkdaşlıq çərçivəsində hazırlanmış "AR-nın 2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"-nda qeyd olunur ki, müsbət dəyişikliklərə baxmayaraq, milli əmək bazarı hələ də struktur çatışmazlıqları, o cümlədən tələb və təklifin uyğunsuzluğu, 15-24 yaşlı gənclər arasında daha yüksək işsizlik səviyyəsi (25 və daha yuxarı yaşda olanlarla müqayisədə iki dəfə çox) ilə səciyyələnir[35]. Bu vəziyyət hələ də davam edir.

Tədqiqatlar göstərir ki, gənclər xüsusilə ilk dəfə əmək bazarına daxil olmaqda çətinliklərlə üzləşirlər. Təhsil səviyyəsi aşağı olanlar müvəqqəti işlərə cəlb edilməli olur, həmçinin münasib iş tapa bilməyib təhsil səviyyələrindən və bacarıqlarından daha aşağı vəzifələrdə işləməyə məcbur qalan yüksək təhsillilər tərəfindən əmək bazarından sıxışdırıla bilirlər[36]. İxtisas və peşəsinə uyğun olmayan sahələrdə və vəzifələrdə çalışanların sayının çox olması həqiqətən də əmək bazarında peşələrə dair düzgün proqnoz aparılmasına və ixtisaslar üzrə plan yerlərinin səmərəli bölgüsünə maneçilik yaradır.

Məşğulluq Xidmətindən götürülmüş sorğudan və çoxsaylı işədüzəltmə saytlarının onlayn yerləşdirdiyi iş elanlarının mütəmadi araşdırılmasından belə qənaətə gəlmək olur ki, 90%-

---

[35] Azərbaycan Respublikasının 2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı: [Elekrton resurs] / – Bakı, 2016. URL: https://www.ilo.org/wcmsp5/groups/public/---europe/---ro-geneva/documents/project/wcms_531142.pdf.

[36]Хохлова, М.Г., Хохлов, И.И. (2017). Молодежь на Европейском рынке труда. Мировая экономика и Международные отношения. 2017, т. 61, № 6, с. 48–56., s. 54

dən artıq hallarda işəgötürənlər təcrübəli işçi axtarır, eyni zamanda da yaş limiti qoyurlar (tələbləri az olan çoxsaylı elanlar sabit əməkhaqqı olmayan şəbəkə biznesinə aiddir), ancaq bu gənclərin təcrübəni harada qazanıb gələcəyi onları bir o qədər də maraqlandırmır[37]. Peşə-ixtisas təhsili sistemi və işəgötürənlər arasında lazımi əməkdaşlıq formalaşmayana qədər onların gənc kadrlara iş verməsini təşviq etmək üçün bu vəziyyətin inzibati-hüquqi qaydalarla tənzimlənməsinə ehtiyac vardır.

Cədvəl 2.1.7.-dən görünür ki, 2022-ci ilə nisbətən 2023-cü ildə həm iqtisadi fəal əhalinin, həm də məşğul əhalinin sayında artım vardır, lakin onların tərkibində gənclərin sayı azalmışdır. Apardığımız tədqiqatlardan məlumdur ki, 2012-ci ildən 2019-cu ilədək məşğul gənclərin sayında artım olmuşdur, sonrakı illərdə isə azalma tendensiyası müşahidə olunur. Məşğul əhalinin tərkibində gənclərin xüsusi çəkisi 2018-ci ildə 25,5 faiz idisə, bu rəqəm 2023-cü ildə 1,4 faiz bəndi azalaraq 24,1 faiz təşkil edir. İqtisadi fəal əhalinin isə 2023-cü ildə 25,1 faizini gənclər təşkil edir.

İşsizlər haqqında statistikaya baxsaq görərik ki, 2018-ci ildə ümumi işsizlərin 48,8 faizi gənclərdən ibarətdir. Sonrakı illərdə isə gənc işsizlərin xüsusi çəkisi tədricən azalaraq 2022-ci ildə 44,9 faiz, 2023-cü ildə isə 43,0 faiz olmuşdur.

[37]Qurbanova İ.M. Azərbaycanda peşə təhsili sisteminin inkişafı və məşğulluğa təsirinin artırılması. İqtisad üzrə fəlsəfə doktorluğu elmi dərəcəsi almaq üçün yerinə yetirilmiş dissertasiya [Elekrton resurs] / – Bakı, 2022-ci il, 163 səh.

**Cədvəl 2.1.7. İqtisadi fəal gənclərin (15-29 yaş) sayı** *(min nəfər)* **və strukturu** *(%)*

| | 2018 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| İqtisadi fəal əhalinin ümumi sayı | **5133,1** | **5252,5** | **5141,6** | **5194,4** | **5249,7** |
| İqtisadi fəal gənclərin sayı | 1368,2 | 1378,0 | 1351,9 | 1324,7 | 1317,8 |
| *xüsusu çəkisi, %* | *26,65* | *26,2* | *26,3* | *25,5* | *25,1* |
| Məşğul əhali, cəmi | **4879,3** | **4876,6** | **4831,1** | **4901,1** | **4963,3** |
| Məşğul gənclər | 1244,4 | 1223,9 | 1212,5 | 1193,0 | 1194,6 |
| *məşğul əhalinin tətrkibində xüsusi çəkisi, %* | *25,5* | *25,1* | *25,1* | *24,3* | *24,1* |
| İşsiz əhali, cəmi | **253,8** | **368,7** | **310,5** | **293,3** | **286,4** |
| İşsiz gənclər | 123,8 | 154,1 | 139,4 | 131,7 | 123,2 |
| *işsiz əhalinin tətrkibində xüsusi çəkisi, %* | 48,8 | 41,8 | 44,9 | 44,9 | 43,0 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Əmək bazarı bülletenləri: 2019, s. 118; 2021, s. 133; 2022, s.131;2023, s. 131 məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

İqtisadi fəal gənclərin yaş qrupları üzrə işsizlik səviyyəsini (cədvəl 2.1.8) araşdırarkən görürük ki, son illərdə ən yüksək işsizlik səviyyəsi 2020-ci ildə olmuşdur, belə ki, 15-29 yaş qrupunda ümumilikdə 11,2 faiz (15-19 yaş qrupunda isə 15,4 faiz) təşkil etmiş, sonrakı dövrdə tədricən aşağı düşməyə başlayaraq 2023-cü ildə 9,3 faizə çatmışdır. Lakin yaş qrupları üzrə vəziyyət fərqlidir. Belə ki, 2023-cü ildə 25-29 yaş qrupunda gənclərin işsizlik səviyyəsi 6 faizədək endiyi halda, 15-19 və 20-24 yaş qrupları üzrə bu göstərici 13,1 faiz olmaqla 25-29 yaş qrupundan 2 dəfə yüksəkdir. Təbii ki, 25-29 yaş qrupuna aid gənclərin əksəriyyəti bu yaşadək artıq peşə və ixtisas təhsili almış və ya müəyyən iş təcrübəsi toplamış olurlar. Məlum

haldır ki, əksər iş yerləri gəncləri işə qəbul edərkən təcrübə tələb edirlər. Buna görə də 25-29 yaş qrupuna aid gənclər üçün iş tapmaq 15-24 yaşlılara nisbətən daha asan olur.

**Cədvəl 2.1.8. İqtisadi fəal gənclərin yaş qrupları üzrə sayı** *(min nəfər)* **və işsizlik səviyyəsi**

| İllər | 2018 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| **İqtisadi fəal gənclər, cəmi** | **1368,2** | **1378,0** | **1351,9** | **1324,7** | **1317,8** |
| o cümlədən yaş qrupları üzrə | | | | | |
| 15-19 yaş, cəmi | **106,2** | **107,6** | **105,3** | **105,1** | **105,8** |
| onlardan işsiz,% | *14,2* | *15,4* | *14,3* | *13,6* | *13,1* |
| 20-24 yaş, cəmi | **507,1** | **500,9** | **493,9** | **502,9** | **509,2** |
| onlardan işsiz,% | *12,4* | *15,0* | *14,6* | *13,5* | *13,1* |
| 25-29 yaş, cəmi | **754,9** | **769,5** | **752,7** | **716,7** | **702,8** |
| onlardan işsiz,% | *6,0* | *8,1* | *6,9* | *6,9* | *6,0* |
| **15-29 yaşlı gənclərin ümumi işsizlik səviyyəsi, %** | ***9,0*** | ***11,2*** | ***10,3*** | ***9,9*** | 9,3 |

*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Əmək bazarı bülletenləri: 2019, s. 118; 2021, s. 133, 2024, s.131məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

15-19 yaş qrupunda işsizliyin daha yüksək olmasını həm də onunla əlaqələndirə bilərik ki, ali təhsil almış gənclərin bir qismi müvafiq iş tapa bilmədiyinə görə ixtisas tələb olunmayan işlərdə çalışmalı olurlar. Digər tərəfdən, ali məktəblərdə əyani təhsil alan tələbələrin də böyük bir qismi işləyir, bu isə o deməkdir ki, əmək bazarına çıxarılan vakansiyaların müəyyən hissəsi onlar tərəfindən tutulur. Belə olduqda 15-19 yaşlı ixtisassız işaxtaran gənclərin bir hissəsi həmin vəzifələri tuta biləcəkləri halda bundan məhrum olurlar, həm məşğulluqdan, həm də təhsildən kənarda qalırlar. Deməli, təh-

sili olmayan gənclərdənsə ali təhsil tələbələrini işə götürmək bəzi işəgötürənlər üçün daha əlverişli olur, çünki, həmin tələbələr universiteti bitirib diplom aldıqda işəgötürənlər həm ali təhsilli, həm də təcrübəli işçilərə sahib olurlar. 15-19 yaşlı iqtisadi fəal gənclərin iş tapa bilməməsini bununla izah etmək olar. Təbii ki, bu yaş limitində olan gənclər ali təhsili bitirməyiblər, əksəriyyətinin peşə-ixtisas təhsili yoxdur, lakin erkən əmək fəaliyyətinə başlamaq məcburiyyətindədirlər. Məhz həmin gənclərin peşə təhsili və təliminə cəlb olunması vacibdir ki, onlar əmək bazarına daha asan daxil ola bilsinlər.

III fəsildə cədvəl 3.1.1.-də respublikamız üzrə peşə və ixtisas təhsili müəssisələrinin ümumi mütəxəssis buraxılışının dinamikası öz əksini tapmışdır. Ümumi mütəxəssis buraxılışında 2017 və 2018-ci illər istisna olmaqla baxılan dövrdə müsbət dinamika müşahidə olunur. Peşə və orta ixtisas təhsilini bitirənlərin sayında stabil dinamika olmasa da, ali təhsili bitirənlərin sayı ilbəil artmaqdadır. Məzun sayı 2018-ci ilə nisbətən 2023-cü ildə 26,3 faiz artmışdır.

Ali təhsili bitirənlərin sayının 2018-ci ildən başlayaraq stabil şəkildə artmasına baxmayaraq, cədvəl 2.1.9-un göstəricilərindən göründüyü kimi, 2023-cü ildə məşğul gənclərin tərkibində ali təhsillilərin sayında 2018-ci illə müqayisədə cəmi 2,2 min nəfər artım vardır. Bu isə ali təhsilli gənclərin işədüzəlmə səviyyəsinin çox aşağı olduğunun göstəricisidir. Məşğul gənclərin tərkibində peşə, orta ixtisas və ali təhsili olanların ümumilikdə xüsusi çəkisi 2023-cü ildə 2018-ci ilə nisbətən 3,5 faiz bəndi çox olmaqla 38,8 faiz təşkil edir. Belə ki, ali təhsillilərin xüsusi çəkisi 1,1 faiz bəndi, orta ixtisas 1,7 faiz bəndi, peşə təhsillilərin xüsusi çəkisi isə cəmi 0,7 faiz bəndi artmışdır.

**Cədvəl 2.1.9. Məşğul gənclərin təhsil səviyyələri üzrə dinamikası** *(min nəfər)*

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Məşğul gənclər | **1177,5** | **1219,4** | **1237,1** | **1244,4** | **1250,5** | **1223,9** | **1212,5** | **1193,0** | **1194,6** |
| *Məşğul əhalidə payı, %* | *25,2* | *25,6* | *25,6* | *25,5* | *25,3* | *25,1* | *25,1* | *24,3* | *24,1* |
| Ali təhsilli | 237,2 | 247,2 | 250,7 | 255,8 | 257,6 | 254,0 | 260,6 | 246,8 | 258,0 |
| *%-lə* | *20,1* | *20,3* | *20,3* | *20,5* | *20,6* | *20,7* | *21,5* | *20,7* | *21,6* |
| Orta ixtis. təhsilli | 129,3 | 133,6 | 136,0 | 136,1 | 137,7 | 134,7 | 139,8 | 136,1 | 151,6 |
| *%-lə* | *10,98* | *10,95* | *10,99* | *10,94* | *11,0* | *11,0* | *11,5* | *11,4* | *12,7* |
| *Peşə təhsilli* | *47,0* | *45,8* | *47,4* | *47,5* | *48,7* | *47,5* | *49,3* | *47,5* | *54,0* |
| *%-lə* | *4,0* | *3,75* | *3,8* | *3,8* | *3,9* | *3,9* | *4,1* | *4,0* | *4,5* |
| Peşə-ixtisası olan. | **413,5** | **426,6** | **434,1** | **439,4** | **444,0** | **436,2** | **449,7** | **430,4** | **463,6** |
| *%-lə* | ***35,1*** | ***34,98*** | ***35,1*** | ***35,3*** | ***35,5*** | ***35,6*** | ***37,1*** | ***36,1*** | ***38,8*** |

*Mənbə: Əmək bazarı. Statistik məcmuə 2017, 2019, 2021,2024. s. 140 məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Ümumilikdə məşğul əhalinin təhsil quruluşuna baxdıqda görürük ki, peşə və ixtisas təhsili olanlar məşğul əhalinin 2018-ci ildə 33,2 faizini, 2019-cu ildə 33,5 faiz, 2020-2021-ci illərdə 33,6 faiz, 2022-ci ildə 33,7 faiz, 2023-cü ildə 34,0 faizini təşkil etmişdir. Başqa sözlə, 2018-ci ilə nisbətən 2023-cü ildə cəmi 0,8 faiz bəndi artım olmuşdur. Məşğul gənclərin tərkibində isə bu rəqəmlər bir qədər yuxarı olmaqla 2018-2023-cü illər üzrə müvafiq olaraq 35,3%, 35,5%, 36,6%, 37,1%, 36,1%, 38,8% təşkil edir.

Beləliklə də, 2018-2023-cü illərdə peşə və ixtisas müəssisələrinin ümumi mütəxəssis buraxılışı 430,5 min nəfər təşkil etməsinə, o cümlədən 253,4 min nəfər ali təhsili, 89,0 min nəfər orta ixtisas təhsilini, 88,1 min nəfər peşə təhsilini bitirməsinə (cəd. 3.1.1) baxmayaraq bütün bu saylar gənclərin işədüzəlmə

vəziyyətinin yaxşı olmaması səbəbindən cədvəl 2.1.9-dakı göstəricilərə və ümumilikdə məşğul əhalinin təhsil quruluşuna əhəmiyyətli təsir göstərməmişdir.

Regionların inkişafını nəzərdə tutan dövlət proqramlarının ardıcıl olaraq yerinə yetirilməsinə baxmayaraq, rayonlarda, kənd yerlərində yeni iş yerlərinin yaradılması məsələsi çox ləng gedir. Ona görə də kənd yerlərində yaşayan gənclər üçün yaxın ərazilərdə iş tapmaq ümumiyyətlə çox çətindir. İş tapmaq üçün bir çox gənclər öz yaşayış yerlərini tərk edib şəhərlərə, xüsusilə də paytaxta üz tutur, şəhərlərdə isə əmək bazarında yüksək rəqabətlə üzləşirlər. Birinci fəsildə qeyd etdiyimiz kimi Azərbaycanda əhalinin tərkibində 14-29 yaşlı gənclərin sayı və xüsusi çəkisi ilbəil azalmışdır. Deməli, mövcud və gələcək potensialımız olan gənclərə və onların problemlərinə daha da həssaslıqla yanaşılması lazımdır.Onların səmərəli məşğulluğunun və beləliklə də yüksək həyat keyfiyyətinin təmin olunması üçün daha ciddi və geniş miqyaslı tədbirlər görülməsinə ehtiyac vardır.

Bu istiqamətdə görülən və davam etdirilməsi vacib olan əsas tədbirləri aşağıdakı kimi təsnifləşdirmək olar:

-gənclər arasında sahibkarlıq fəaliyyətinin təşviq edilməsi yönündə görülən işlər;

-özünüməşğulluq proqramı çərçivəsində görülən işlər;

-gənclərin peşə-ixtisas təhsili ilə əhatəliliyinin artırılması istiqamətində görülən işlər;

-gənclərin səmərəli məşğulluğunu artırmaq məqsədilə məşğulluq orqanları tərəfindən həyata keçirilən aktiv məşğulluq tədbirləri;

-işəgötürənlərin gənclərin məşğulluq imkanlarının artırılmasına dəstək verməyə təşviq edilməsi (istehsalat təcrübəsinin təşkili, təcrübəçi yerlərinin açılması və s.);

-Dövlət Məşğulluq Agentliyinin (DMA) Gənclər Fondu ilə birlikdə təşkil etdiyi layihələrin ("Biznesini Yarat Marafonu", "İşəgötürənlər üçün Əməkhaqqı Subsidiyası" və "Peşəkar Gənclik" layihələri və s.) genişləndirilməsi.

Ümid edirik ki, regionların inkişaf proqramlarının davamlı icrası və işğaldan azad olunmuş doğma torpaqlarımıza Böyük qayıdışın reallaşdırılması ilə əlaqədar bölgələrdə, o cümlədən kənd təsərrüfatında yeni iş yerləri açıldıqca regionlara axın sürətlənəcək və bütün bunların nəticəsi kimi kənd əhalisinin sayı və orada məşğulluq imkanları artacaq. Bundan əlavə, özünüməşğulluq tədbirlərinin həyata keçirilməsi, ABAD layihəsinin icrasının davam etdirilməsi də bu işdə kömək olar, səmərəli məşğulluğun artmasına təkan verə bilər. Lakin yuxarıda qeyd etdiyimiz kimi bu cür fəaliyyətlərin daha da sürətləndirilməsinə və əhatə dairəsinin genişləndirilməsinə ehtiyac vardır.

## Beynəlxalq əmək bazarında gənclərin məşğulluq durumu

Dünyada milyonlarla gəncin layiqli işinin olmaması, onların təhsil, məşğulluq və təlimdən kənarda qalması və nəticədə, onların özləri və ailələri üçün daha yaxşı həyat qura bilməyəcəyi barədə məsələlər qlobal səviyyədə narahatlıq yaradır. Qlobal əmək bazarlarında pandemiyadan sonrakı bərpa işlərinə baxmayaraq, 15-24 yaşlı gənclərin işsiz qalma ehtimalı yuxarı yaş qruplarına nisbətən 2-3 dəfə yüksəkdir. Bundan əlavə, məşğulluq, təhsil və ya təlimdə olmayan gənclərin sayı (NEET (not in

education, employment or training)) artmaqda davam edir. Hətta məşğulluqda olan gənclər üçün də iş yerləri çox vaxt keyfiyyətsiz, qeyri-formallığa meylli və aşağı əmək haqqı göstəriciləri ilə xarakterizə olunur. Yüksək gəlirli ölkələrlə müqayisədə aşağı və orta gəlirli ölkələrdə gənclərin məşğulluq problemi daha kəskindir.

Beynəlxalq Əmək Təşkilatının (BƏT) yeni hesabatına əsasən 2023-cü ildə 15-24 yaşlı işsiz gənclərin sayı 64,9 milyon nəfər, işsizlik səviyyəsi 13 faiz təşkil edir. Bu son 15 ilin ən aşağı göstəricisidir. Beynəlxalq narahatçılıq doğuran məsələlərdən biri də odur ki, gənclərin 20 faizi məşğulluqla və təhsillə əhatə olunmayıb, onların isə 2/3-si qadınlardır[38]. Hesabatda məşğul gənclər üçün layiqli işlərin əldə edilməsində irəliləyişin olmadığı qeyd olunur. Qlobal miqyasda gənc işçilərin yarıdan çoxu qeyri-rəsmi məşğulluqdadır. Aşağı gəlir səviyyəsinə malik ölkələrdə təqribən, hər dörd gənc işçidən 3-ü, başqa sözlə, məşğul gəclərin 75 faizi yalnız özünüməşğuldur və yaxud müvəqqəti işlərdə çalışırlar. Yüksək və yuxarı orta gəlirli iqtisadiyyatlı ölkələrdə isə gənc işçilərin böyük hissəsi daimi işlərdə çalışırlar.

Dünya Bankının məlumatlarına görə  1991-ci ildə dünya üzrə 15-24 yaşlı gənclərin işsizlik səviyyəsi 11,6% idisə, Azərbaycanda bu göstərici cəmi 1,7% olmuşdur. Ölkədəki siyasi-iqtisadi vəziyyətlə əlaqədar davamlı şəkildə yüksələrək 2000-ci ildə ən pik həddinə - 22,1%-ə çatmış, 2002-ci ildən başlayaraq tədricən azalmaya doğru gedərək bəzi illərdə cüzi qalxıb enmələrlə 2019-cu ildə ən aşağı həddə - 11,5%-ə qədər enmiş-

---

[38]Global Employment Trends for Youth 2024https://www.ilo.org/sites/default/files/2024-09/GET_2024_EN%20web.pdf

di. Lakin pandemiya dövrü ilə əlaqədar yüksələrək 2020-ci ildə 15,1% olduqdan sonra 2021-ci ildən tədricən azalmış, 2022, 2023-cü illərdə 13,8%, 2024-cü ildə 13,7% (ümumdünya göstəricisinə -13,6% uyğun) həddinə enərək demək olar ki, son 3 ildə stabil qalmışdır (qrafik 2.1.2)[39]. Qrafikdən göründüyü kimi, əksər illərdə Azərbaycanda bu göstərici ümumdünya üzrə göstəricilərə nisbətən daha aşağı olmuşdur.




**Qrafik 2.1.2. 15-24 yaşlı gənclərin işsizlik səviyyəsi (%-lə) Dünyada və Azərbaycanda (1991-2024)**
*Mənbə: Dünya Bankının hesabatları əsasında hazırlanmışdır.*

Bəzi ölkələr üçün həmin göstərici Türkiyədə-15,6%, İran 22,8%, Rusiya 9,3%, Gürcüstan-29,9%, Qazağıstan 3,8%, Tacikistan 27,1%, Türkmənistan 9,6%, Moldova 3,3%, Rumınya 21,3%, Almaniyada 6,7% və s. olmuşdur. Göründüyü kimi, 15-24 yaşda gənclərin işsizlik səviyyəsi həmin ölkənin inkişaf

---

[39] *Unemployment, youth total (% of labor forse ages 15-24*) (modeled İLO estimate)-Azebaijan. https://data.worldbank.org/indicator/SL.UEM.1524.ZS?locations=AZ

etmiş, yaxud inkişaf etməkdə olan və yaxud az gəlirli-çox gəlirli ölkə olmasından o qədər də asılı deyil.

Avropa İttifaqına (Aİ) daxil olan ölkələrdəki vəziyyətə nəzər saldıqda görürük ki, burada 2020-ci ilə qədər ümumi məşğulluq səviyyəsində dinamika olsa da, qlobal problemlər yaradan koronavirus səbəbilə 2020-ci ilin üçüncü rübündə məşğulluq nisbəti 72,4% olmaqla, altı illik müsbət məşğulluq tərəqqisini dayandırmışdı. İqtisadi böhran nəticəsində Aİ gənclərinin (15-25 yaş arası) işsizlik səviyyəsi 2013-cü ildə 24,4%-lik pik həddinə çatmışdı, görülən tədbirlər nəticəsində bu göstərici tədricən azalaraq 2024-cü ilin sonunda 15%-ə qədər enmişdir. Sosial Hüquqlar üzrə Avropa Fəaliyyət Planı məşğulluq perspektivlərini yaxşılaşdırmaqla təhsil və məşğulluqdan kənarda qalanların nisbətini 2019-cu ildəki 12,6%-dən 2030-cu ilə qədər 9%-ə endirmək məqsədini güdür.[40]

Dünya Bankının (DB) araşdırmalarına görə əksər ölkələrdə NEET göstəricisi əvvəlki illərə görə azalmışdır. Məsələn, 2023-cü ildə Rusiyada 8,7%, Türkiyədə 22,4%, Gürcüstanda 24,9%, Moldovada 13,3% olmuşdur. Azərbaycan üçün 2009-cu ildə 9,4%, 2010-cu ildə 9,6% olduğu hesablanmış, sonrakı illərin isə göstəriciləri həmin səhifədə verilmir, digər formada BƏT təxminləri kimi təqdim olunur.[41]

DB-nın BƏT təxminlərinə əsasən təqdim etdiyi həmin göstəricilərə görə (cəd. 2.1.10) Dünya üzrə 15-24 yaşlı gənclərin NEET səviyyəsi 2023-2024-cü illərdə 20,4%-ə (qadınlar üçün

---

[40]Employment social affairs EU. https://employment-social-affairs.ec.europa.eu/policies-and-activities/european-pillar-social-rights-building-fairer-and-more-inclusive-european-union/european-pillar-social-rights-action-plan_en

[41] Share of youth not in education, employment or training, total (% of youth population) - World.
https://data.worldbank.org/indicator/SL.UEM.NEET.ZS?name_desc=true&locations=1W

28,2%, kişilər üçun 13,1%) bərabərdir. Ən pik həddi isə 2020-ci ildə 23,2% (o cümlədən qadınlar üçün 31,2%) olmuşdur. Azərbaycan üçün isə BƏT-in təxminlərinə görə 2023-2024-cü illərdə 3,6%, o cümlədən qadınlar üçün 5,4% olduğu göstərilir. Lakin bu göstəricinin ümumdünya üzrə 20,4% olduğu halda Azərbaycanda 3,6% olması inandırıcı deyil (Yaponiya və Hollandiyaya yaxın bir göstərici?).

**Cədvəl 2.1.10. İşləməyən, təhsil almayan və ya peşə təlimi keçməyən gənclərin dinamikası** *(%-lə)*

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycanda işləməyən, təhsil almayan və peşə təlimi keçməyən gənclərin xüsusi çəkisi,%-lə | 23,0* | - | - | - | - | 19,81 | 19,53 | 19,13 |
| Azərbaycan üzrə təhsildə, məşğulluqda və ya təlimdə olmayan gənclərin payı, (gənclərin %-i) (modelləşdirilmiş BƏT təxmini)[42] | 4,7 | 4,0 | 3,6 | 4,3 | 3,9 | 3,5 | 3,6 | 3,6 |
| Dünya üzrə təhsildə, məşğulluqda və ya təlimdə olmayan gənclərin payı, cəmi (gənclərin %-i) (modelləşdirilmiş BƏT təxmini)[43] | 21,5 | 21,5 | 21,4 | 23,2 | 21,9 | 21,0 | 20,4 | 20,4 |

*Mənbə: ARDSK və Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanıb.*

*Qeyd: *Azərbaycan üzrə 2017-ci ilin göstəricisi II Məşğulluq Strategiyasından götürülüb.*

[42]https://data.worldbank.org/indicator/SL.UEM.NEET.ME.ZS?name_desc=false&locations=1W-AZ

[43] yenə orada

Dünya Bankının BƏT hesablamalarına istinadən təqdim etdiyi həmin göstəricilər Azərbaycanın rəsmi sənədlərində verilənlərlə üst-üstə düşmür. Belə ki, işləməyən, təhsil almayan və ya peşə təlimi keçməyən gənclərin xüsusi çəkisi barədə ARDSK SDG saytında verilən məlumatlara görə Azərbaycanda 15-24 yaşda olan gənclərin NEET səviyyəsi: 2022-ci ildə 19,8%; 2023-cü ildə 19,5%; 2024-cü ildə 19,1% olmuşdur[44]. ARDSK-ya yazılı müraciətimizə verilmiş rəsmi cavab da buna uyğundur. II Məşğulluq Strategiyasında bu göstəricinin 2017-ci ildəki 23%-dən 2030-cuilədək 15%-ə qədər azaldılması hədəfə alınmışdır[45].

Gördüyümüz kimi Azərbaycan üzrə təhsildə, məşğulluqda və ya təlimdə olmayan gənclərin sayı haqqında daha çox il üçün müfəssəl məlumatların əldə edilməsi mümkün deyil. BƏT-in hesablamaları üzrə alınmış rəqəmlər isə reallıqdan xeyli uzaqdır. İstənilən halda biz bilirik ki, bu cür gənclərin sayı işsiz gənclərin sayından daha çox olur. Ona görə ki, bu kateqoriyaya həm işsiz gənclərin, həm də iqtisadi qeyri-fəal gənclərin təhsildə və hər hansı peşə təlimində olmayan hissəsi daxildir. Ona görə də yuxarıda baxdığımız cədvəllərdə 15-24 yaşlı gənclərin işsizlik səviyyəsinin 13 faizdən yuxarı olduğunu gördüyümüz halda NEET səviyyəsinin bundan aşağı olması mümkün deyildir. Deməli, ARDSK-nın təqdim etdiyi rəqəmlər həqiqətə daha uyğundur. Sadəcə olaraq 2021-ci ildən öncəki

[44] İşləməyən, təhsil almayan və ya peşə təlimi keçməyən gənclərin (15-24 yaşda olan) xüsusi çəkisi. https://sdg.azstat.gov.az/az/indicators/417/islemeyen-tehsil-almayan-ve-ya-pese-telimi-kechmeyen-genclerin-15-24-yasda-olan-xususi-chekisi

[45] 2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası. https://e-qanun.az/framework/40416

dövr üçün də bu cür statistikanın hazırlanaraq məlumat bazasına daxil edilməsi yaxşı olardı.

Son illərdə əmək bazarına yeni-yeni peşələr daxil olur, işçilərdən fərqli bacarıqlar gözlənilir. Bu isə gənclərin maksimum şəkildə təhsilə cəlb edilməsini və eyni zamanda əmək bazarına uyğunlaşmaq üçün kadr hazırlığının daima təkmilləşdirilməsini tələb edir.

08.01.2025-ci il tarixində Dünya İqtisadi Forumunun İşlərin gələcəyi barədə təqdim etdiyi yeni hesabatına görə 2030-cü ilə qədər 170 milyon yeni iş yerinin yaradılacağı, 92 milyon iş yerinin isə ləğv ediləcəyi gözlənilir[46]. Əvvəlki ilin bədbin proqnozları ilə müqayisədə dünya üçün bu çox müsbət gözləntilərdir. Hesabatda bildirilir ki, rəqəmsal texnologiyaların, süni intellektin geniş istifadəsi ilə əlaqədar “Big Data”, “Aİ” və həmçinin bərpaolunan eneji üzrə mütəxəssislərə ehtiyac artacaq. Digər tərəfdən isə həmin texnologiyaların əvəz etdiyi peşələrə tələbat azalacaq.

Gələcək dövr üçün kadr hazırlığı proqramları hazırlanarkən əmək bazarının ehtiyacları ilə birlikdə yuxarıda qeyd etdiyimiz məsələlərin də nəzərə alınması vacibdir.

## 2.2. Məşğul əhalinin peşə-ixtisas, təhsil quruluşunun təhlili

İqtisadiyyatı düşündürən əsas məsələlərdən biri də insanların müəyyən peşəyə və yaxud ixtisasa sahib olması və bunlara

[46] Future of Jobs Report 2025. INSIGHT REPORT. JANUARY 2025. https://reports.weforum.org/docs/WEF_Future_of_Jobs_Report_2025.pdf

uyğun işlə təmin olunmasıdır. Başqa sözlə, səmərəli məşğulluğun təmin olunması üçün əmək bazarındakı ehtiyaclara uyğun işçi qüvvəsinin olması vacib məsələdir. Bunun üçün də ixtisaslı kadrlar hazırlanarkən əmək bazarında hansı peşə və ixtisaslara nə qədər ehtiyac olduğunu araşdırıb proqnozlaşdırma aparmaq lazım gəlir. Bu hələ məsələnin kəmiyyət tərəfidir, keyfiyyət tərəfi isə təhsil sisteminin çevikliyindən və adekvatlığından asılıdır.

**Məşğul və işsiz əhalinin təhsil quruluşu**

Məşğul əhalinin təhsil səviyyələrinin hansı vəziyyətdə olduğunu bilmək üçün cədvəl 2.2.1-in və qrafik 2.2.1-in statistik göstəricilərinə nəzər salaq. Göründüyü kimi, məşğul əhalinin 66 faizə qədəri heç bir peşə-ixtisas təhsili almadan əmək fəaliyyətinə başlamışdır. Belə ki, 2023-cü ildə onların 59,3 faizi tam orta təhsilli, 5,3 faizi ümumi orta təhsilli, 0,8 faizi isə hətta ibtidai təhsil səviyyəsini bitirənlərdir. Peşə və ixtisası olanlara gəldikdə, isə 16,9 faizi ali təhsil, 11,3 faizi orta ixtisas təhsili və yalnız 5,8 faizi peşə təhsili almış şəxslərdir. Ali təhsillilərin sayın üzrə ən yüksək göstərici 2021-ci ildə olmuşdur, sonrakı 2 ildə isə onların sayı azalmışdır. Bu azalmanı həm də 2022, 2023-cü illərin statistikasının hesablanmasında 2019-cu ildə keçirilmiş siyahıyaalma nəticələrinin nəzərə alınması ilə əlaqələndirmək olar. Onların xüsusi çəkisində isə xüsusi bir dəyişiklik yoxdur, 2019-2023-cü illərdə demək olar ki, stabildir.

Tamamilə eyni vəziyyət orta ixtisas təhsillilər üçün də xarakterikdir. Peşə təhsillilərin sayında da cəmi 0,1 faiz bəndi artım vardır ki, artımın bu tempini hələlik qənaətbəxş hesab etmək mümkün deyil.

## **Cədvəl 2.2.1. Məşğul əhalinin təhsil səviyyələri** *(min nəfər)*

| Illər | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|
| İqtisadiyyatda məşğul olanların ümumi sayı | **4671,6** | **4759,9** | **4822,1** | **4879,3** | **4938,5** | **4876,6** | **4988,2** | **4901,1** | **4963,3** |
| 15-29 yaşlıların sayı | **1177,5** | **1219,4** | **1237,1** | **1244,4** | **1250,5** | **1223,9** | **1265,1** | **1193,0** | **1194,6** |
| məşğul əhaliyə nisbəti, % | *25,2* | *25,6* | *25,6* | *25,5* | *25,3* | *25,1* | *25,4* | *24,3* | *24,1* |
| | *Təhsil səviyyələrinə görə sayı (min nəfər) və xüsusi çəkisi (%)* | | | | | | | | |
| ali təhsillilərin sayı | **763,3** | **781,4** | **796,9** | **814,8** | **829,7** | **824,3** | **841,8** | **824,1** | **836,8** |
| *məşğul əhaliyə nisbəti* | *16,3* | *16,4* | *16,5* | *16,7* | *16,8* | *16,9* | *16,9* | *16,8* | *16,9* |
| orta ixtisas təhsillilər | **497,5** | **507,6** | **516,4** | **536,7** | **548,2** | **540,8** | **554,8** | **548,8** | **560,9** |
| *məşğul əhaliyə nisbəti* | *10,6* | *10,7* | *10,7* | *11,0* | *11,1* | *11,1* | *11,1* | *11,2* | *11,3* |
| peşə təhsillilər | **256.0** | **253,2** | **260,5** | **268,4** | **276,5** | **272,6** | **278,6** | **278,4** | **287,9** |
| *məşğul əhaliyə nisbəti* | *5,5* | *5,3* | *5,4* | *5,5* | *5,6* | *5,6* | *5,6* | *5,7* | *5,8* |
| tam orta məktəbi bitirənlər | **2820,5** | **2876,6** | **2892,6** | **2932,5** | **2949,3** | **2911,3** | **2975,5** | **2915,5** | **2942,9** |
| *məşğul əhaliyə nisbəti* | *60,4* | *60,4* | *59,98* | *60,1* | *59,7* | *59,7* | *59,7* | *59,5* | *59,3* |
| ümumi təhsili bitirənlər | **292,2** | **298,3** | **306,6** | **287,9** | **296,3** | **291,6** | **300,3** | **292,9** | **292,8** |
| *məşğul əhaliyə nisbəti* | *6,3* | *6,3* | *6,4* | *5,9* | *5,6* | *6,0* | *6,0* | *6,0* | *5,3* |
| ibtidai təhsillilər | **42,1** | **42,8** | **49,1** | **39,0** | **38,5** | **36,0** | **35,0** | **39,2** | **39,7** |
| *məşğul əhaliyə nisbəti* | *0,9* | *0,9* | *1,0* | *0,8* | *0,8* | *0,7* | *0,7* | *0,8* | *0,8* |

*Mənbə: AR DSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. Əmək bazarı bülletenləri 2015-2024, s. 138.*

Qeyd: *2019-cu ildə keçirilmiş əhalinin siyahıya alınmasının yekun məlumatları əsasında 2019-2022-ci illər üzrə məlumatlar yenidən hesablanmışdır. Lakin təhsil səviyyələri üzrə seçmə müayinə hər il aparıldığından onların yenidən hesablanması mümkün olmamış və yuxarıdakı cədvəldə 2022-ci ilə qədərki göstəricilər siyahıya alınmaya qədərki statistikanı əks etdirir.




**Qrafik 2.2.1. 2023-cü ildə əmək bazarında məşğul əhalinin təhsil səviyyələrinə görə bölgüsü (%-lə)**

66 faizədək təhsilsiz insanın əmək fəaliyyətinə başlaması o deməkdir ki, işəgötürənlərin tələbləri lazımınca ödənilməyəcək və sonradan onların bir çoxunun təhsilinə müəssisə tərəfindən müəyyən xərc çəkilməlidir. Baxmayaraq ki, ali təhsil müəssisələrinə qəbul olunanların sayı ilbəil artır, bu artım hələlik yuxarıdakı göstəricilərə nəzərəçarpacaq təsirini göstərməmişdir. Ümumilikdə respublikamızda peşə və ixtisas təhsili müəssisələrini son dövrdə hər il 70 mindən yuxarı gənc bitirir, onların əmək bazarına çıxışının çətin olması da əmək bazarında məşğul əhalinin təhsil səviyyələri üzrə bölgüsündə müsbət dəyişikliklərin hiss olunmamasına səbəb verir. Gənclər təhsil almaqda heç bir maneə ilə rastlaşmasalar da əmək bazarına daxil ol-

maqda böyük çətinliklərlə üzləşirlər, bu məsələdə alınan təhsilin keyfiyyətsizliyi ilə yanaşı subyektiv amillərin də rolu böyükdür. Ali təhsil alanlar bu cür çətinliklərlə daha çox üzləşirlər, çox zaman da təhsilinə adekvat olmayan işlərdə çalışmağa məcbur qalırlar. Məşğulluq xidməti idarələrində aparılan araşdırmalar göstərdi ki, fəhlə peşələri və yardımçı vəzifələr üzrə iş tapmaq daha asandır.

İndi isə işsiz əhalinin təhsil səviyyələrini analiz edək. Cədvəl 2.2.2-dən gördüyümüz kimi işsizlərin böyük hissəsi hər hansı peşə və ixtisasa yiyələnmədən əmək bazarına daxil olmaq istəyənlərdir. 2023-cü ildə işsizlərin tərkibində onların ümumi payı 67,2%, o cümlədən tam orta təhsilli 51,3%, ümumi orta təhsilli 15,8%, ibtidai təhsilli 0,1% təşkil edir. İşsizlərin 12,2%-i ali təhsilli, 12,7%-i orta ixtisas, 8%-ə qədəri isə peşə təhsillidir.

**Cədvəl 2.2.2. İşsiz əhalinin təhsil səviyyələri** *(min nəfər)*

| Təhsil səviyyələri | 2011 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | **250,9** | **243,7** | **252,8** | **251,7** | **253,8** | **252,1** | **368,7** | **310,5** | **293,3** | **286,4** |
| ali təhsil | 45,6 | 37,6 | 35,4 | 35,2 | 34,8 | 34,4 | 46 | 38,5 | 36,4 | 34,8 |
| orta ixtisas təhsili | 34,1 | 31,4 | 31,8 | 31,6 | 30,8 | 30,8 | 48,1 | 39,7 | 37,5 | 36,3 |
| peşə təhsili | 13,8 | 10,1 | 18,1 | 18,5 | 18,7 | 19 | 28,8 | 24,5 | 23,1 | 22,8 |
| tam orta təhsil | 118,4 | 129,8 | 132,3 | 131,4 | 132,4 | 131,7 | 187,6 | 158,4 | 149,6 | 146,8 |
| ümumi orta təhsil | 37,2 | 33,2 | 33,5 | 33,3 | 35,7 | 35,4 | 57,4 | 48,8 | 46,1 | 45,3 |
| ibtidai təh. | 1,8 | 1,6 | 1,7 | 1,7 | 1,4 | 0,8 | 0,8 | 0,6 | 0,6 | 0,4 |

*Mənbə: AR DSK-nın məlumatları əsasında hazırlanmışdır.*

Beləliklə də cədvəl 2.2.2-nin göstəriciləri deməyə əsas verir ki, 2023-cü ildə peşə və ixtisas sahibi olmalarına baxmayaraq 93,9 min nəfər iqtisadi fəal şəxs müvafiq işlə təmin oluna bil-

məmişdir. Xüsusilə də pandemiyanın və işsizliyin kəskin dövrlərində 2020-2022-ci illər üzrə bu rəqəmlər daha böyük idi.

**Məşğul əhalinin peşə-ixtisas tərkibi**

Əmək bazarında tarazlığın təmin olunmasından danışarkən qarşıya çıxan əsas suallardan biri odur ki, əmək bazarında hansı peşə və ixtisas sahiblərinə ehtiyac var? Bunun üçün mütəmadi sorğuların keçirilməsi və müfəssəl statistik məlumatların toplanılması zəruridir. Təəssüf ki, məşğul əhalinin tərkibində hansı peşə və ixtisas sahiblərinin nə qədər olması, öz aldığı ixtisas üzrə çalışıb-çalışmaması barədə müfəssəl məlumatların hazırlanması hələlik mümkün olmamışdır. Ancaq 2021-ci ildən başlayaraq məşğul əhalinin peşələr üzrə bölgüsünü müəyyənləşdirmək məqsədilə Məşğulluq Təsnifatına (MT) uyğun olaraq məşğul əhalinin 9 əsas qrup üzrə təsnifləşdirilməsi aparılır (cədvəl 2.2.3) və statistik göstəricilər Dövlət Statistika Komitəsinin məlumat bazasına daxil edilir.

İqtisadi fəal əhaliyə dair seçmə statistik müayinə məlumatlarına əsasən aşağıdakılar müəyyən olunmuşdur. 2023-cü ildə məşğul əhalinin böyük hissəsini, yəni, 30,1%-ni kənd təsərrüfatı, meşəçilik və balıqçılıq sahəsində çalışan ixtisaslı işçilər təşkil edir. Peşəkar mütəxəssislər 12,6%, xidmət sahələrinin və ticarət müəssisələrinin işçiləri 12,3%, mütəxəssislər və köməkçi heyət 9,4%, sənayenin ixtisaslı işçiləri və bir-birinə yaxın peşələrin fəhlələri 7,3%, sənaye qurğuları və maşınların opertaorları və quraşdırıcıları 6,9%, idarə (ofis) qulluqçuları 4,7%, idarəedici vəzifələrdə çalışanlar 1,3% təşkil edir. Məşğul əhalinin 15,5%-i ixtisassız işçilərdir.

**Cədvəl 2.2.3. Məşğul əhalinin peşələr üzrə bölgüsü** (min nəfər)

| | | 2021 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|---|---|
| | **Cəmi** | **4988,2** | **Yekuna görə, %** | **4901,1** | **Yekuna görə, %** | **4963,3** | **Yekuna görə, %** |
| 1 | İdarəedicilər | 62,4 | *1,25* | 61,7 | *1,3* | 63,2 | *1,3* |
| 2 | Peşəkar mütəxəssislər | 628,0 | *12,6* | 615,0 | *12,5* | 625,4 | *12,6* |
| 3 | Mütəxəssislər və köməkçi heyət | 468,5 | *9,4* | 457,5 | *9,3* | 466,3 | *9,4* |
| 4 | İdarə (ofis) qulluqçuları | 226,9 | *4,5* | 227,8 | *4,6* | 231,7 | *4,7* |
| 5 | Xidmət sahələr. və ticarət müəssis. işçiləri | 628,5 | *12,6* | 603,9 | *12,3* | 611,6 | *12,3* |
| 6 | K/t, meşəçilik və balıqçılıq sahəsində ixtisaslı işçilər | 1499,4 | *30,0* | 1480,9 | *30,2* | 1492,5 | *30,1* |
| 7 | Sənayenin ixtisaslı işçiləri və bir-birinə yaxın peşələrin fəhlələri | 362,3 | *7,3* | 354,9 | *7,2* | 362,3 | *7,3* |
| 8 | Sənaye qurğuları və maşınların opertaorları və quraşdırıcıları | 354,2 | *7,1* | 336,4 | *6,7* | 340,6 | *6,9* |
| 9 | İxtisassız işçilər | 758,0 | *15,2* | 763,0 | *15,6* | 769,7 | *15,5* |

*Mənbə: Əmək bazarı 2022, 2023, 2024. Statistik bülletenlər. Səh. 139.*

Məşğul əhalinin təhsil səviyyələri üzrə bölgüsü (cədvəl 2.2.1) göstəricilərinə görə məşğul əhalinin tərkibində peşə və ixtisas təhsili olanların sayı və xüsusi çəkisində müəyyən qədər artım var, lakin cədvəl 2.2.3-dəki verilənlərə görə *ixtisassız işçilərin* xüsusi çəkisi 2021-ci illə müqayisədə 0,3 faiz bəndi artmışdır. Belə ziddiyyətli göstəricilər statistik məlumatların dəqiqliyinə etimadı azaldır.

## Cədvəl 2.2.4. İqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin bölgüsü *(min nəfər)* və quruluşu *(%)*

| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019* | 2020* | 2021* | 2022* | 2023* |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Məşğul olanların sayı, *İqtisadiyyat üzrə - cəmi* | **4329.1** | **4671.6** | **4759.9** | **4822.1** | **4879.3** | **4785.6** | **4721,2** | **4831,1** | **4901,1** | **4963,3** |
| | *100* | *100* | *100* | *100* | *100* | *100* | *100* | *100* | *100* | *100* |
| Kənd təsərrüfatı, meşə təsər., balıqçılıq | 1655.0 | 1698.4 | 1729.6 | 1752.9 | 1769.3 | 1720,4 | 1696,5 | 1732,9 | 1753,1 | 1777,4 |
| *xüsusi çəkisi* | *38.2* | *36.4* | *36.3* | *36.4* | *36.3* | *36,0* | *35,9* | *35,9* | *35,8* | *35,8* |
| Mədənçıxarma sənayesi | 41.5 | 39.1 | 38.1 | 37.9 | 40.3 | 40,3 | 40,1 | 39,4 | 39,3 | 39,7 |
| *xüsusi çəkisi* | *1.0* | *0.8* | *0.8* | *0.8* | *0.8* | *0,8* | *0,9* | *0,8* | *0,8* | *0,8* |
| Emal sənayesi | 208.9 | 229.8 | 242.2 | 249.1 | 254.8 | 259,5 | 255,3 | 266,0 | 276,3 | 285,0 |
| *xüsusi çəkisi* | *4.8* | *4.9* | *5.1* | *5.2* | *5.2* | *5,4* | *5,4* | *5,5* | *5,6* | *5,7* |
| Elek.enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 30.6 | 27.1 | 27.3 | 27.5 | 27.5 | 30,5 | 28,3 | 27,2 | 27,9 | 29,1 |
| *xüsusi çəkisi* | *0.7* | *0.6* | *0.6* | *0.6* | *0.6* | *0,6* | *0,6* | *0,6* | *0,6* | *0,6* |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 25.2 | 25.4 | 30.6 | 30.8 | 41.1 | 30,2 | 29,9 | 32,7 | 33,6 | 34,6 |
| *xüsusi çəkisi* | *0.6* | *0.5* | *0.6* | *0.6* | *0.8* | *0,6* | *0,6* | *0,7* | *0,7* | *0,7* |
| Tikinti | 287.5 | 336.4 | 343.8 | 347.9 | 354.5 | 363,6 | 358,0 | 373,9 | 379,7 | 388,6 |
| *xüsusi çəkisi* | *6.6* | *7.2* | *7.2* | *7.2* | *7.3* | *7,6* | *7,6* | *7,7* | *7,7* | *7,8* |
| Ticarət, nəqliyyat vasitə. təmiri | 626.7 | 693.7 | 699.9 | 705.9 | 706.1 | 699,4 | 682,3 | 695,2 | 702,2 | 707,2 |
| *xüsusi çəkisi* | *14.5* | *14.9* | *14.7* | *14.6* | *14.5* | *14,6* | *14,5* | *14,4* | *14,3* | *14,3* |
| Nəqliyyat və anbar təsərr. | 179.1 | 197.1 | 198.4 | 201.0 | 203.2 | 198,6 | 195,6 | 199,7 | 199,8 | 202,7 |
| *xüsusi çəkisi* | *4.1* | *4.2* | *4.2* | *4.2* | *4.2* | *4,2* | *4,2* | *4,1* | *4,1* | *4,1* |
| Turistlərin yerləşdir. və ictimai iaşə | 46.9 | 61.5 | 68.4 | 73.5 | 78.2 | 77,5 | 65,5 | 76,9 | 87,9 | 95,1 |
| *xüsusi çəkisi* | *1.1* | *1.3* | *1.4* | *1.5* | *1.6* | *1,6* | *1,4* | *1,6* | *1,8* | *1,9* |
| Informasiya və rabitə | 55.8 | 60.3 | 61.2 | 61.7 | 62.8 | 60,3 | 58,6 | 59,6 | 60,2 | 59,5 |
| *xüsusi çəkisi* | *1.3* | *1.3* | *1.3* | *1.3* | *1.3* | *1,3* | *1,2* | *1,2* | *1,2* | *1,2* |
| Maliyyə və sığorta fəaliyyəti | 24.4 | 33.0 | 27.1 | 26.9 | 27.4 | 28,0 | 28,9 | 31,9 | 35,1 | 37,2 |
| *xüsusi çəkisi* | *0.6* | *0.7* | *0.6* | *0.6* | *0.6* | *0,6* | *0,6* | *0,7* | *0,7* | *0,8* |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 69.6 | 89.7 | 88.0 | 88.8 | 90.8 | 87,5 | 84,4 | 85,2 | *85,8* | *84,9* |
| *xüsusi çəkisi* | *1.6* | *1.9* | *1.9* | *1.8* | *1.9* | *1,8* | *1,8* | *1,8* | *1,7* | *1,7* |
| Peşə, elmi və texniki fəaliyyət | 45.6 | 59.6 | 68.4 | 73.5 | 74.3 | 62,4 | 61,1 | 61,6 | 62,9 | 66,7 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| *xüsusi çəkisi* | *1.1* | *1.3* | *1.4* | *1.5* | *1.5* | *1,3* | *1,3* | *1,3* | *1,3* | *1,3* |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 46.5 | 55.2 | 57.1 | 58.0 | 59.5 | 70,4 | 90,3 | 94,9 | 97,1 | 96,8 |
| *xüsusi çəkisi* | *1.1* | *1.2* | *1.2* | *1.2* | *1.2* | *1,5* | *1,9* | *2,0* | *2,0* | *2,0* |
| Dövlət idarəetməsi və müdafiə; sos. təminat | 279.1 | 287.3 | 285.4 | 284.2 | 281.5 | 242,6 | 238,1 | 236,7 | 234,9 | 230,5 |
| *xüsusi çəkisi* | *6.4* | *6.1* | *6.0* | *5.9* | *5.8* | *5,1* | *5,0* | *4,9* | *4,8* | *4,6* |
| Təhsil | 349.8 | 373.5 | 374.8 | 377.8 | 380.2 | 370,6 | 369,9 | 373,8 | 375,5 | 376,1 |
| *xüsusi çəkisi* | *8.1* | *8.0* | *7.9* | *7.8* | *7.8* | *7,7* | *7,8* | *7,7* | *7,7* | *7,6* |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 170.3 | 180.8 | 185.6 | 189.0 | 190.0 | 188,2 | 187,1 | 186,3 | 188,7 | 189,7 |
| *xüsusi çəkisi* | *3.9* | *3.9* | *3.9* | *3.9* | *3.9* | *3,9* | *4,0* | *3,8* | *3,8* | *3,8* |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 59.6 | 69.6 | 77.4 | 80.6 | 81.5 | 66,6 | 63,1 | 64,3 | 62,5 | 65,4 |
| *xüsusi çəkisi* | *1.4* | *1.5* | *1.6* | *1.7* | *1.6* | *1,4* | *1,3* | *1,3* | *1,3* | *1,3* |
| Digər sahələr *xüsusi çəkisi* | *2.9* | *3.3* | *3.3* | *3.2* | *3.1* | 4,0 | *4,0* | *4,0* | *4,0* | *4,0* |

*Mənbə: Əmək bazarı 2017, 2021, 2022, 2023, 2024. Statistik məcmuələrin 2.1 və 2.2 saylı cədvəllərinin bazasında (s. 23-24) müəllif tərəfindən tərtib edilmişdir.*
*Qeyd: *2019-2023-cü ilin məlumatları 2019-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasının yekun məlumatları əsasında hesablanmışdır.*

Əmək bazarında məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə dinamikasındakı (cədvəl 2.2.4) dəyişikliklərə və açılmış yeni iş yerləri barədə göstəricilərə (cədvəl 2.2.5) baxsaq son illərdə hansı sahələrdə kadrlara daha çox ehtiyac olduğunu müəyyən qədər aydınlaşdırmaq mümkün olar. Cədvəl 2.2.4-dən göründüyü kimi məşğul əhalinin 36 faizədək hissəsi kənd təsərrüfatında çalışır.

Ticarət; nəqliyyat vasitələrinin təmiri iqtisadi fəaliyyət növü ilə məşğul olanların xüsusi çəkisi 14 faizdən yuxarıdır. Emal sənayesində çalışanların həm sayı, həm də xüsusi çəkisi (5,7%) artmışdır. Tikinti sahəsində məşğul olanların sayı (7,8%) artım tempi ilə gedir. Məşğul əhalinin 7,7 faizi təhsil

sektorunda çalışır. İnzibati və yardımçı xidmətlərin göstərilməsi ilə məşğul olanların və Maliyyə və sığorta fəaliyyəti sahəsində çalışanların sayında stabil artım hiss olunur.

Təhlillər göstərir ki, boş iş yerlərinin sayı buraxılan mütəxəssislərin sayından çox azdır, baxmayaraq ki, yeni açılmış iş yerlərinin sayı barədə statistikada bu göstəricilər barədə rəqəmlər daha yüksəkdir. Ən çox boş iş yerləri əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, sonra digər xidmətlərin göstərilməsi sahələrinə (55,7%) aiddir. Peşə, elmi və texniki fəaliyyət sahəsində baxılan dövr üzrə ən yüksək göstərici 2018-ci ilə (411) aiddir, lakin 2020-ci ildə 43,6 faiz azalmışdır. 2016-2018-ci illərdə sənaye sahələrində, xüsusilə də mədənçıxarmada vakant yerlərin sayı kəskin azalmışdı, 2020-ci ildə isə 6 dəfə artmışdır. Emal sənayesində isə vakant yerlərin sayı daha çoxdur. Kənd təsərrüfatında 2014-2015-ci illərə nisbətən vakansiyaların sayının artması onu göstərir ki, burada da iqtisadi artımın nəticəsi olaraq işçi qüvvəsinə, o cümlədən də peşə təhsilli kadrlara tələbat artır. Nəqliyyat və anbar təsərrüfatı sahəsində isə 2017-ci ildən başlayaraq artım vardır (Əmək bazarı 2022, səh. 124)[47].

Cədvəl 2.2.5-də iqtisadi fəaliyyət növləri üzrə açılmış yeni iş yerlərinin bölgüsü verilmişdir. Cədvəldəki məlumatların təhlili göstərir ki, son illərdə açılmış iş yerlərinin böyük hissəsi (ortalama 24 faizi) tikinti sahəsinə aiddir. Ticarət, nəqliyyat vasitələrinin təmiri – 18,2 faiz, emal sənayesi – 10,6 faiz, daha sonra peşə, elm və texniki fəaliyyət – 8,8 faiz, turistlərin yerləşdirilməsi 6,8 faiz, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi – ortalama 5 faiz, nəqliyyat və anbar təsərrüfatı –6

[47]Azərb. Res. Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi. https://www.stat.gov.az/source/labour

faizə yaxın təşkil edir. Bu isə həmin sahələr üçün kadrlara tələbatın artmasını göstərir.

**Cədvəl 2.2.5. İqtisadi fəaliyyət sahələri üzrə açılmış iş yerlərinin dinamikası** (%-lə)

| | Kənd təsərrüfatı, meşə | Mədənçıxarma sənayesi | Emal sənayesi | Elektrik enerjisi, qaz və buxar istehsalı, | Su təchizatı, tullantıların təmizlənməsi və emalı | Tikinti | Ticarət; nəqliyyat vasitələrinin təmiri | Nəqliyyat və anbar təsərrüfatı | Turistlərin yerləşdirilməsi və ictimai iaşə | İnformasiya və rabitə | Maliyyə və sığorta fəaliyyəti | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | Peşə, elmi və texniki fəaliyyət | İnzibati və yardımçı xidmətlərin göstərilməsi | Dövlət idarəetməsi və müdafiə; sosial təminat | Təhsil | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | Digər sahələrdə xidmətlərin göstərilməsi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2019 | 3,1 | 1,2 | 6,4 | 1,2 | 0,4 | 14,2 | 8,9 | 2,1 | 2,8 | 1,1 | 0,8 | 1,0 | 2,6 | 45,8 | 3,3 | 2,2 | 1,0 | 0,8 | 1,1 |
| 2020 | 5,2 | 0,7 | 7,1 | 0,1 | 0,3 | 22,2 | 12,8 | 2,1 | 1,7 | 1,5 | 1,3 | 1,0 | 3,6 | 29,0 | 1,4 | 2,9 | 5,0 | 0,6 | 1,5 |
| 2021 | 4,6 | 1,2 | 11,2 | 0,5 | 1,2 | 21,7 | 18,8 | 3,4 | 4,9 | 2,3 | 2,3 | 2,4 | 6,5 | 5,8 | 0,6 | 3,5 | 5,6 | 1,3 | 2,2 |
| 2022 | 3,0 | 0,9 | 10,7 | 0,5 | 0,8 | 23,7 | 16,6 | 4,4 | 8,0 | 2,4 | 2,3 | 1,4 | 7,2 | 4,7 | 0,7 | 4,1 | 5,0 | 1,4 | 2,2 |
| 2023 | 2,5 | 1,1 | 10,6 | 0,2 | 0,4 | 25,7 | 18,2 | 6,4 | 6,8 | 2,5 | 1,9 | 1,5 | 6,7 | 3,9 | 0,7 | 4,1 | 4,0 | 1,1 | 1,7 |

*Mənbə: Yeni iş yerləri 2019-2024-cü illər statistik bülletenlərinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Beləliklə də yuxarıdakı cədvəllərin təhlilinə görə tikinti, emal sənayesi, turizm, səhiyyə, sosial xidmət və iaşə, kompüter texnologiyası, inzibati və yardımçı xidmətlərin göstərilməsi, nəqliyyat vasitələrinin təmiri sahələri üzrə daha çox mütə-

xəssis tələb olunduğunu demək olar. Belə tendensiyanın yaxın illərdə də davam edəcəyini gözlənilləndir, deməli, bu sahələr üçün peşəkar kadr hazırlığını diqqətdə saxlamaq lazımdır. Regional inkişaf proqramlarının həyata keçirilməsi sayəsində kənd təsərrüfatı üçün aqronomluq, bitkiçilik, bağçılıq, heyvandarlıq, arıçılıq, eləcə də kənd təsərrüfatı texnikasının istismarı və təmiri üzrə mütəxəssislərə tələbatın daha da artacağı mümkündür. Hər bölgənin tələbatları ayrıca öyrənilərək onların yerli səviyyədə həll edilməsinə çalışmaq daha effektiv olar.

**Əmək bazarında peşə və ixtisaslara tələbatın müəyyənləşdirilməsi üçün iş elanlarına və sorğulara əsasən aparılmış təhlilin nəticələri**

Əmək bazarının tələbləri ilə kadr hazırlığı arasında uzlaşmanın olması üçün müntəzəm olaraq işəgötürənlər arasında sorğu keçirilməsi, vakant yerlərin araşdırılması çox vacibdir. Qeyd edək ki, əmək bazarının monitorinqi və eləcə də bu cür sorğular keçirilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya yaradılmışdır.

Bundan başqa çoxsaylı iş elanı saytları da vardır ki, onlarda yerləşdirilmiş vakansiyaların təhlili əsasında əmək bazarında işçi qüvvəsinə olan tələbatların peşə strukturu və tələb olunan bacarıqlar barədə müəyyən təsəvvürlərin əldə edilməsi mümkündür. Bu cür təhlillər tərəfimizdən yerinə yetirilmiş və 2022-ci ildə müdafiə olunmuş dissertasiyada da öz geniş əksini tapmışdır.

İşədüzəltmə saytlarındakı vakansiya elanlarının təhlilinə əsasən son illərdə (pandemiyaya qədərki dövr) ən çox işçi tələb olunan peşələr İKT sahəsi üzrə olmuş, məsələn, *kompüter operatoru, proqramçı, vebdizayner, kompyuter təmiri ustası, daha sonra, mühasiblər, insan resursları üzrə mütəxəssislər*, müxtəlif xidmət sahəsinə aid peşələrdən: *ofisiant, aşpaz, inzibatçı, mehmanxana işçiləri, bərbər, tikişçi, şirniyyatçı, çörəkçi, satıcı, kassir, mühafizəçi, sürücü, ekspeditor, qablaşdırıcı, bağban, arıçı və s.*, həmçinin də ixtisaslı fəhlə peşələri üzrə: *quraşdırıcı çilingər, elektrik-qaz qaynaqçısı, avtomobil təmiri üzrə çilingər, santexnika işləri üzrə ustalar, rəngsaz, qəlibçi, dülgər-xarrat, mebel ustası və s.* peşələr olmuşdur.

İşəgötürənlər tərəfindən daha çox hansı peşələrə və vəzifələrə kadr axtarıldığını müəyyənləşdirmək məqsədilə Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın əməkdaşları tərəfindən 2020-ci ilin may ayından 2022-ci ilin fevral ayınadək olan dövrdə iş elanları saytlarında yerləşdirilmiş 25 min iş elanı toplanmış, onlardan 21 mini kodlaşdırılmış, onların arasındakı təkrar vakansiyalar təmizləndikdən sonra 18600-dən çox unikal məlumatdan ibarət baza ilə təhlil aparılmışdır[48]. Həmin vakansiyalara müvafiq tələb olunan peşələr Məşğulluğun Beynəlxalq Standart Təsnifatına uyğun olaraq kodlaşdırılmışdır. Təhlilin nəticələrinə əsasən qeyd olunan dövrdə onlayn iş elanlarında yerləşdirilmiş vakansiyalar üzrə ən çox işçi tələb olunan peşələrin 64%-i demək olar ki, üç iqtisadi fəaliyyət sahəsinə aiddir, o cümlədən: 1) ticarət; nəqliyyat

---

[48]Ələkbərov, E., Tağızadə, Ə. Azərbaycanın əmək bazarında prioritet peşələrin müəyyənləşdirilməsi (iş elanları saytları əsasında). elnur.alakbarov@sosial.gov.az, ali.taghizade@sosial.gov.az

vasitələrinin təmiri sahısində – 23,4 faiz; 2) maliyyə və sığorta fəaliyyəti sahəsində – 19,7 faiz; 3) emal sənayesində isə – 10,9 faiz təşkil edir. İqtisadiyyatın müxtəlif fəaliyyət sahələrində topdan və pərakəndə ticarətlə məşğul olan subyektlərlə yanaşı nəqliyyat vasitələrinin təmiri ilə məşğul olan subyektlərdə yaranan və onlayın iş elanlarında yerləşdirilmiş vakansiyalar hamısı "*ticarət; nəqliyyat vasitələrinin təmiri"*iqtisadi fəaliyyət növünün tərkibində hesablanmışdır..

Təhlil olunan vakansiyaların tərkibində *maliyyə və sığorta fəaliyyəti* üzrə vakansiyaların xüsusi çəkisi ümumilikdə 19,7% təşkil edir, hansı ki, bu sahədə tələb olunan peşələrin böyük əksəriyyəti bank sektoruna aiddir və təhlildə yer almış bütün vakansiyaların 8%-ni təşkil edir. Burada bank olmayan kredit təşkilatları, maliyyə və investisiya şirkətlərinin də payı az deyil. Üçüncü say çoxluğu *emal sənayesinə* aiddir və ümumi vakansiyaların tərkibində xüsusi çəkisi 10,9% olmuşdur. Həmin dövr üçün ən az işçi tələbatı 0,3% olmaqla *mədənçıxarma sənayesi* üzrə qeydə alınmışdır.

Təhlil edilmiş vakansiya məlumatları Məşğulluq Təsnifatına (MT) uyğun olaraq 9 əsas qrup üzrədə kodlaşdırılmışdır (cədvəl 2.2.6). Cədvəldən göründüyü kimi, baxılan dövrdə MT-nın əsas qrupları üzrə ən çox tələb olunan peşələr 3 əsas qrupa aid olmuşdur: *peşəkar mütəxəssislər qrupu* – 37,8 %; *mütəxəssislər və köməkçi heyət* – 25,5%; *idarə (ofis) qulluqçuları* – 11,3%.

**Cədvəl 2.2.6. Məşğulluq Təsnifatının əsas qrupları üzrə vakant iş yerlərinin sayı** (*may 2020-ci il - fevral 2022-ci il*)

| MT kodu | Əsas qruplar | Vakansiyaların sayı | Ümumi vakansiyalarda payı, % |
|---|---|---|---|
| 1 | İdarəedicilər | 1581 | *9.0* |
| 2 | Peşəkar mütəxəssislər | 6652 | *37.8* |
| 3 | Mütəxəssis. və köməkçi heyət | 4482 | *25.5* |
| 4 | İdarə (ofis) qulluqçuları | 1986 | *11.3* |
| 5 | Xidmət sahələrinin və ticarət müəssisələrinin işçiləri | 1156 | *6.6* |
| 6 | Kənd təsərrüfatı, meşəçilik və balıqçılıq sahəsində ixtisaslı işçilər | 23 | *0.1* |
| 7 | Sənayenin ixtisaslı işçiləri və bir-birinə yaxın peşələrin fəhlələri | 624 | *3.5* |
| 8 | Sənaye qurğuları və maşınlarının operatorları və quraşdırıcıları | 377 | *2.1* |
| 9 | İxtisassız işçilər | 727 | *4.1* |
| Cəmi | | **17608** | ***100%*** |

*Mənbə: Mənbə: Onlayn iş elanları məlumatları əsasında tərtib edilmişdir* [48].

Təbii ki, əmək bazarının dəyişən tələblərinə uyğun təkmilləşmiş peşəkar işçilərin olması bütün müəssisələr üçün ən əhəmiyyətli məsələlərdən biridir. Yuxarıdakı cədvəldən də belə kadrlara ən çox ehtiyac olduğunu görürük, lakin həmin iş yerlərinin tələb etdikləri kriteriyalara uyğun gələn kadrları tapa bilib bilmədikləri təəssüf ki, araşdırılmamışdır.

Yuxarıda verilmiş məlumatların təhlili baxılan dövrdə Azərbaycanın əmək bazarında aşağıdakı peşələrə tələbatın daha çox olduğunu göstərir (cəd. 2.2.7).

## Cədvəl 2.2.7. İbtidai qruplar üzrə bütün vakansiyalar üçün ən çox tələb olunan peşələr

| MT-nin ibtidai qrupları | İbtidai qruplar üzrə peşələrin adları | Vakansiyaların sayı | Bütün vakansiyalarda payı, % |
|---|---|---|---|
| 2411 | Mühasiblər | 1329 | *7.5* |
| 3322 | Kommersiya satışları üzrə agentlər | 1079 | *6.1* |
| 2431 | Reklam və marketinq üzrə peşəkar mütəxəssislər | 1021 | *5.8* |
| 3323 | Tədarük üzrə agentlər | 862 | *4.9* |
| 2512 | Proqram təminatı yaradıcıları | 619 | *3.5* |
| 3312 | Kreditlərin verilməsi üzrə işçilər | 541 | *3.1* |
| 2166 | Rəssam-tərtibatçılar və multimediya dizaynerləri | 477 | *2.7* |
| 1420 | Topdansatış və pərakəndə ticarətdə rəhbərlər (idarəedənlər) | 431 | *2.4* |
| 3313 | Mühasibat işində köməkçi heyət | 422 | *2.4* |
| 5223 | Mağaza satıcıları | 417 | *2.4* |
| 4226 | Qəbul otaqlarının katibləri (resepşn işçiləri) | 366 | *2.1* |
| 1221 | Satış və marketinq üzrə xidmətlərin rəhbərləri | 346 | *2.0* |
| 4321 | Anbarda idarə qulluqçuları | 312 | *1.8* |
| 1219 | Digər ibtidai qruplara daxil edilməyən biznes və inzibati xidmətlərin rəhbərləri | 297 | *1.7* |
| 4416 | İnsan resursları üzrə qulluqçular | 292 | *1.7* |
| 8322 | Minik avtomobillərinin, taksilərin və furqonların sürücüləri | 259 | *1.5* |
| 9312 | Tikintidə çalışan ixtisassız fəhlələr | 242 | *1.4* |
| 4223 | Telefonçular | 235 | *1.3* |
| 2611 | Hüquqşünaslar | 221 | *1.3* |
| 2413 | Maliyyə təhlilçiləri | 219 | *1.2* |
| 3341 | Ofis nəzarətçiləri | 217 | *1.2* |
| 2421 | İdarəetmə və təşkilati işlər üzrə təhlilçilər | 211 | *1.2* |
| 3343 | İnzibati və icraçı katiblər | 203 | *1.2* |
| | **Sütun üzrə cəmi** | **10618** | ***100*** |
| | ***Bütün vakansiyalar*** | ***17608*** | ***60%*** |

*Mənbə: Onlayn vakansiyaların təhlil nəticələri əsasında tərtib edilmişdir* [48].

Burada iş elanlarından toplanılmış vakansiya adları MT-nın 4 rəqəmədək genişləndirilmiş ibtidai qrupların adlarına uyğunlaşdırılmışdır. MT-na uyğun olmayan qeyri-müəyyən vakansiya adları da vardır ki, onların kodlaşdırılmasında işəgötürənin

fəaliyyət sahəsi əsas götürülmüşdür. Cədvəldə peşələrə olan tələbat ən yüksək göstəricidən başlayaraq azalan sıra ilə verilmişdir. Onu da qeyd edək ki, burada təhlili aparılmış vakansiyalarda tələb olunan peşələrin hamısı yox, yalnız 60 faizi haqqında məlumatlar cədvəldə öz əksini tapmışdır. Əmək bazarında daha tələbatlı olan 23 peşə burada sıralanmışdır.

Gördüyümüz kimi işə götürənlər baxılan dövrdə ən çox mühasib vəzifəsi üzrə kadrları axtarmışdılar. Belə ki, mühasib peşəsi 7,5 faiz olmaqla sıralamada birinci yerdədir, ikinci yerdə kommersiya satışı üzrə agentlər – 6,1 faiz, daha sonra reklam və markentiq üzrə mütəxəssislər – 5,8 faiz, tədarük üzrə agentlər – 4,9 faiz, proqram təminatı üzrə mütəxəssislər – 3,5 faiz, kreditlərin verilməsi üzrə mütəxəssislər – 3,1 faiz olmaqla bu peşələrə tələbat ən çox olmuşdur. Sıralamada sonuncu yerdə inzibati və icraçı katiblər yerləşir.

Təhlillərdən belə məlum oldu ki, işəgötürənlər baxılan dövrdə daha çox mühasib vəzifəsinə işçi axtarmışlar. Həqiqətən də iş elanları saytlarını araşdırarkən ən çox qarşımıza çıxan vakansiyalar mühasib vəzifələrinə aid olmuşdu və bu tendensiya hələ də davam edir. Təhlili aparmış tədqiqatçılar E. Ələkbərov və Ə. Tağızadə bunu son illərdə vergi yoxlamalarının sayının artması ilə əlaqələndirirlər. Təbii ki, bunu da səbəblərdən biri kimi qiymətləndirmək olar. Lakin bizim fikrimizcə, bu məsələni ilk növbədə, əmək bazarının yeniləşən tələbatlarına uyğun olaraq müasir proqramlarla işləməyi bacaran peşəkar mütəxəssislərin axtarışı ilə əlaqələndirmək daha düzgün olardı. Çünki, istər kollec səviyyəsində, istərsə də ali təhsil müəssisələrində mühasib ixtisası üzrə kifayət qədər kadr hazırlanır. Problem onların kəmiyyəti ilə yox, keyfiyyəti və iş təcrübəsi

ilə bağlıdır. Məşğulluq xidməti orqanlarında və işəgötürənlərlə keçirilmiş sorğuların nəticələri, eləcə də onlayn yerləşdirilmiş iş elanlarındakı tələb olunan kriteriyaların təhlili bunları deməyə əsas verir. Belə ki, hazırda kadrlardan yeni texnologiya və kompüter proqramlarına uyğun texniki biliklərlə və müvafiq ixtisas səviyyəsi ilə yanaşı bir çox fərqli bacarıqlar da tələb olunur. Bu məsələ barədə növbəti fəsildə danışacağıq.

## 2.3. Peşə, orta ixtisas və ali təhsil məzunlarının məşğulluq səviyyəsinin qiymətləndirilməsi

### Peşə və orta ixtisas məzunlarının məşğulluğu barədə sorğunun nəticələrinin təhlili

Dövlət Statistika Komitəsi tərəfindən 2021-ci ildə seçmə statistik müayinə aparılaraq 2016-2020-ci illərdə orta ixtisas və peşə təhsili müəssisələrdən məzun olmuş şəxslər arasından iqtisadi fəal olanların və işçi qüvvəsinə aid olmayan potensial işçi qüvvəsinin sayı müəyyənləşdirilmişdir. Həmin göstəricilər qrafik 2.3.1-də əks olunmuşdur. Gördüyümüz kimi 2016-2020-ci il məzunlarından 109,5 min nəfəri iqtisadi fəaldır, o cümlədən onların da 92,0 min nəfəri (84 %-i) məşğul, 17,5 min nəfəri (16 %-i) isə işsizdir. İqtisadi fəal əhaliyə aid edilməyən məzunların sayı 26,7 min nəfərdir, onların da 15,5 min nəfəri potensial işçi qüvvəsi hesab olunur.




**Qrafik 2.3.1. Orta ixtisas və peşə təhsilli işçi qüvvəsinin məşğulluğu**
*Mənbə: Peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının məşğulluğuna dair statistik müayinənin nəticələri. Səh.10* [49].

Beləliklə də, 2016-2020-ci illərdə peşə və orta ixtisas təhsili müəssisələrini bitirənlərin iqtisadi fəallıq səviyyəsi 80,4 faiz, məşğulluq səviyyəsi 67,5 faiz olduğu müəyyənləşdirilmişdir. Məşğul olanların (92001 nəfərin) 47,7 faizi (43884 nəfəri) orta ixtisas, 52,3 faizi (48117 nəfəri) isə peşə təhsilini bitirmişlər. Peşə təhsilini bitirmiş və məşğul sayılan məzunların 88,5 faizini, başqa sözlə, 42584 nəfərini ilk peşə təhsili olanlar, 5533 nəfərini (11,5 faizini) isə texniki peşə təhsili olanlar təşkil etmişdir[49].

[49] AR DSK. Peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının məşğulluğuna dair statistik müayinənin nəticələri.




**Qrafik 2.3.2. Orta ixtisas və peşə təhsili məzunlarının *(2016-2020-ci il məzunları)* iqtisadi fəaliyyət sahələrinə görə bölgüsü**
*Mənbə: Peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının məşğulluğuna dair statistik müayinənin nəticələri. Səh.10* [49].

Qrafik 2.3.2-dən göründüyü kimi peşə və orta ixtisas təhsili müəssisələrindən məzun olmuş məşğul əhalinin 19,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq; 16,3 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri; 8,7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi; 8,6 faizi təhsil; 7,6 faizi tikinti sahələrində çalışırlar.

Kənd təsərrüfatında çalışanların 57,4 faizi peşə təhsili məzunlarıdır. Ümumiyyətlə, həm peşə təhsili alanların, həm də orta ixtisas təhsili məzunlarının xüsusi çəkisi müvafiq olaraq

21 faiz və 22,4 faiz təşkil etməklə bu sahə üzrə daha yüksəkdir.

**Cədvəl 2.3.1. Orta ixtisas və peşə təhsilini bitirənlərin məşğulluq statusu üzrə strukturu** *(%-lə)*

| | Orta ixtisas məzunları | Peşə təhsili məzunları |
|---|---|---|
| Muzdlu işləyənlər | 55,4 | 54,3 |
| Sahibkarlar (işəgötürənlər) | 3,5 | 5,3 |
| Fərdi əmək fəaliyyəti ilə məşğul olanlar | 21,6 | 26,3 |
| Ailə kəndli təsərrüfat-larında və ya ailə bizne-sində haqqı ödənilmədən çalışanlar | 19,5 | 14,1 |

*Mənbə: Peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının məşğulluğuna dair statistik müayinənin nəticələri. Səh.10* [49].

Cədvəl 2.3.1.-in göstəricilərinə görə sözü gedən məzunların əksəriyyəti, belə ki, kollec bitirənlərin 55,4 faizi, peşə təhsillilərin isə 54,3 faizi muzdlu işləyənlərdir. Bu məzunların az bir qismi, müvafiq olaraq 3,5 və 5,3 faizi isə sahibkarlıq fəaliyyəti ilə məşğuldurlar. Göründüyü kimi peşə təhsilli məşğul məzunların tərkibində sahaibkarların xüsusi çəkisi 5,3 % olmaqla daha yüksək, yəni, orta ixtisas təhsillilərdən 1,8 faiz çoxdur.

Sorğu zamanı verilən suallara cavab olaraq məşğul məzunların 51,4 faizi maddi vəziyyətini yaxşılaşdırmaq üçün, 12,9 faizi karyerada yüksəlmək, 8,7 faizi peşə biliklərini artırmaq, 2,4 faizi isə başqa ixtisasa yiyələnmək üçün gələcəkdə təhsillərini davam etdirmək istədiklərini qeyd etmişlər. Onların 24,6 faizi isə ümumiyyətlə təhsillərini davam etdirmək fikrində olmadıqlarını bildirmişlər.

Yuxarıda qeyd etdiyimiz kimi, məzunlar arasında işsizlik səviyyəsi 16,0 faiz olmuşdur, o cümlədən orta ixtisas məzunları arasında 17,2 faiz, peşə təhsili məzunları üçün isə 14,8 faiz təşkil etmişdir. Ümuilikdə işsiz məzunların 57,5 faizi (10,1 min nəfəri) şəhər yerlərində, 42,5 faizi (7,4 min nəfəri) kənd yerlərində yaşayanlardır. Beləliklə, məzunlar arasında işsizlik səviyyəsi şəhər yerlərində 16,9 faiz, kənd yerlərində isə bundan 2 faiz az, yəni, 14,9 faiz olmuşdur.

İşsizlərin ümumi sayında orta ixtisas məzunlarının xüsusi çəkisi 52,2 faiz, peşə təhsili məzunlarınınkı isə 47,8 faiz təşkil edir. Peşə təhsili olan işsizlərin tərkibinə baxdıqda görürük ki, ilk peşə təhsilli işsizlərin sayı 7,7 min nəfər, başqa sözlə 91,7 % olmaqla texniki peşə təhsili almış işsizlərin sayından (0,7 min nəfər) xeyli dərəcədə çoxdur. Bu isə, texniki peşələrə yiyələnmiş məzunların məşğul olma imkanlarının ilk peşə təhsillilərə nisbətən daha yüksək olduğunu göstərir.

Bu təhlillər, yəni, məşğulluq və işsizlik səviyyəsi üzrə məzunların bölgüsü göstəriciləri belə deməyə əsas verir ki, peşə təhsili ilə iş tapmaq orta ixtisas təhsili ilə iş tapmağa nisbətən daha asandır. Eləcə də peşə təhsili sahibkarlıq subyektlərinin yaradılmasına daha yaxındır.

Bu cür statistik məlumatların müntəzəm toplanılması əmək bazarının ehtiyacları ilə kadr hazırlığı arasında uzlaşmanın yaxşılaşdırılmasına kömək edə bilər. Yaxşı olardı ki, belə müayinələr mütəmadi təşkil olunsun və hansı ixtisas kadrlarına nə qədər ehtiyac olduğunu müəyyənləşdirmək üçün sorğu nəticələrinə görə müxtəlif ixtisaslar üzrə təsnifləşdirmə aparılsın.

**Ali təhsil məzunlarının işədüzəlmə vəziyyətinin qiymətləndirilməsi**

Möhtərəm Prezidentimiz İ.Əliyev cənabları hələ 20 il öncə buyurmuşdu: ”Biz qara qızılı insan kapitalına çevirməliyik”. Bu da baş verdi, yəni, etiraf etməliyik ki, həmin istiqamətdə çox işlər görülmüşdür. İstər dövlət hesabına, istər özəl təhsil alma imkanları daha da genişlənməkdə davam edir. İndi isə yetişdirilmiş və yetişdirilməkdə olan insan kapitalının səmərəli istifadəsi, gənclərin iş təminatının yaxşılaşdırılması məsələsi daha önə çıxır. Çünki, təhsil almış insan öz yaradıcı potensialını faydalı işdə reallaşdırmalıdır, bunun üçün ona münbit şərait yaradılmalıdır. Baxamayaraq ki, ali təhsil alanların sayı ilbəil artır, məşğul əhalinin təhsil səviyyələrini təhlil etdikdə görürük ki, onların tərkibində ali təhsillilərin xüsusi çəkisi heç də artmayıb. Onu da nəzərə alsaq ki, həmin sayın müəyyən hissəsi ümumiyyətlə ali təhsilə ehtiyac olmayan işlərdə çalışanlardır, deməli, vəziyyət daha ciddidir. Belə çıxır ki, insan kapitalından səmərəli istifadə edə bilməmişik. Ali təhsil almış insanlar müvafiq işlə təmin edilməlidir ki, həm onlara qoyulmuş sərmayəni geri qaytarsınlar, həm əlavə dəyər yaradaraq ÜDM-in artımında iştirak etsinlər, eləcə də özlərinə yaxşı həyat qura bilsinlər. Düzdür, son illərdə gənclərin problemlərinin həlli istiqamətində ardıcıl addımlar atılır, silsilə proqramlar həyata keçirilir, lakin bunların əhatə dairəsi azdır. Biz çalışmalıyıq ki, bir nəfər gəncimiz belə diqqətdən kənarda qalmasın. Ona görə ki, işsizlik öz ardınca maddi çətinliklərlə yanaşı, bir çox daha təhlükəli məsələlərə (sağlamlıqla, psixoloji zəifləmələrlə, cinayət halları ilə bağlı problemlər) də yol açır. Nəticədə iqtisadiy-

yat potensial işçi qüvvəsini və onun yarada biləcəyi əlavə dəyəri, cəmiyyət isə öz ləyaqətli üzvünü itirmiş olur...

Bir məsələni də xüsusi qeyd etməliyik ki, ali təhsil almış şəxslərin böyük bir qismi ali təhsil və hətta heç bir ixtisas səviyyəsi tələb olunmayan işlərdə çalışırlar. Ali təhsil tələbələri və məzunları ilə aparılmış sorğular da bunu göstərir.

Hazırda səmərəli məşğulluq və layiqli iş yerləri məsələləri daima diqqət mərkəzində olmalıdır ki, insanların həyat keyfiyyəti daha da yüksək olsun. Müasir gənclərin əksəriyyəti üçün bunlar öz qüvvəsi ilə sərbəst həll olunmayacaq qədər ciddi problemlərdir.

Son illərdə Dövlət Məşğulluq Agentliyinin rəsmi saytında ali təhsil məzunlarının işədüzəlməsi üzrə reytinq göstəriciləri yerləşdirilir. Saytda 2018-2021 illərdə 340 ixtisas üzrə ali təhsili bitirənlərin işədüzəlməsi haqqında verilmiş göstəricilərin təhlili əsasında aldığımız nəticələri aşağıda təqdim edirik[50]. Həmin dövr üçün reytinqi hesablanan məzunların ümumi sayı 77947 nəfərdir, onların da cəmi 44349 nəfəri, başqa sözlə 56,9 faizi işlə təmin edilmişdir. Burada 30 universitetin məzunları barədə məlumat yer almışdır ki, bunların da 93,3 faizi dövlət, 6,7 faizi isə özəl univesitetlərdir. Qeyd edək ki, statistik məlumatlara əsasən həmin illərdə ali təhsilin təkcə bakalavr səviyyəsini bitirənlərin ümumi sayı 158911 nəfər olmuşdur, burada təhlil olunanlar isə yalnız 30 universitetin göstəricilərini əks etdirir. Beləliklə, respublikamızın 30 universitetini bitir-

[50] Məzunların məşğulluq reytinqi. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin saytı https://dma.gov.az/layiheler/mezunlarin-mesgulluq-reytinqi (müraciət tarixi 28.07.2024)

miş məzunların işə düzəlməsi ilə bağlı göstəricilərin təhlilinə baxaq:

*Universitetlər üzrə reytinq* göstəricilərinə görə təhlildə iştirak edən univerisitetlər arasında məzunların işədüzəlmə sayına görə ilk beşlikdə Bakı Musiqi Akademiyası, Bakı Ali Neft Məktəbi, ADA Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti yerləşir.

*İxtisaslar üzrə reytinqə baxsaq*: İnstrumental ifaçılıq (fortepiano, orqan), solo oxuma, drijorluq, bəstəkarlıq, musiqişünaslıq, musiqi müəllimliyi, daha sonra isə biznesin təşkili və idarə edilməsi (tədris ingilis dilində), elektroenergetika mühəndisliyi, biznesin idarə edilməsi (mühasibat uçotu, maliyyə), müalicə işi, neft-qaz mühəndisliyi (tədris ingilis dilində), proseslərin avtomatlaşdırılması mühəndisliyi (tədris ingilis dilində), əyani təhsil üzrə reytinqi irəlidə olan ixtisaslardır. Son beşlikdə isə jurnalistika (tədris ingilis dilində), neft-qaz yataqlarının işlənməsi və istismarı, dil və ədəbiyyat müəllimliyi (ingilis dili üzrə), regionşünaslıq (Polşa üzrə), xarici dil və ədəbiyyat (ingilis dili və ədəbiyyatı üzrə) ixtisasları göstərilmişdir.

*İxtisaslar üzrə cəmi məzun sayı:* Top 10-luqda yer alan ixtisaslar üzrə hesabladıqda burada məzun sayı ümumilikdə 20553 nəfərdir. Qrafik 2.3.3-dən gördüyümüz kimi, Top 10-luqda birinci yerdə 3515 nəfər məzunla (cəmi məzun sayının 17,1 faizi) iqtisadiyyat ixtisası yerləşir.

Top 10-luğun sonunda isə 1324 nəfər məzunla (cəmi məzun sayının 6,4 faizi) tarix müəllimliyi ixtisası yerləşir. Ümumiyyətlə götürdükdə isə reytinq cədvəlinə başçılıq edən bu 10 ixtisas demək olar ki, ilk növbədə iqtisadiyyat və idarəetmə yö-

nümlü və daha sonra isə müəllim peşəsi üzrə olan ixtisaslardır. Son illərin tələbə qəbulu üzrə məlumatlarını araşdırdıqda da görürük ki, müəllim peşəsinin nüfuzu xeyli yüksəlmişdir, abituriyentlər arasında müəllimliyə tələbatın artması isə keçid ballarının da hər öncəki ilə nisbətən artmasına səbəb olmuşdur.




**Qrafik 2.3.3. İxtisaslar üzrə reytinq**
*Mənbə: Dövlət Məşğulluq Agentliyinin məlumatları əsasında hazırlanmışdır* [50].

*İxtisaslar üzrə işə qəbul olunmuş məzun sayına* baxdıqda Top 10-luqda yer alan ixtisaslar üzrə cəmi 11499 nəfər muzdlu işlə təmin olunmuş məzunlardır (qr. 2.3.4). Burada da siyahıya 2045 nəfər məzunla iqtisadiyyat ixtisası başçılıq edir, xüsusi

çəkisi isə Top 10-luğun 17,8 faizinə bərabərdir. İxtisaslar üzrə reytinqdə 10-cu yerdə tarix müəllimliyi yer almışdı, işədüzəlmə reytinqində isə həmin sırada hüquqşünaslıq ixtisası yerləşir. Belə məlum olur ki, muzdlu işlə təmin olunmuş məzunların böyük hissəsi iqtisadiyyat, maliyyə, mühasibat uçotu və audit, menecment ixtisasını bitirənlərdir.




**Qrafik 2.3.4. İxtisaslar üzrə işə qəbul olunmuş məzun sayı reytinqi**
*Mənbə: Dövlət Məşğulluq Agentliyinin məlumatları əsasında hazırlanmışdır* [50].

İşəgötürənlərin 87,2 faizi qeyri-dövlət bölməsinə, yalnız 12,8 faizi dövlət sektoruna aiddir. Beləliklə muzdla işləyənlərin böyük hissəsi – 74,3 faizi qeyri-dövlət bölməsində çalışırlar.

*İşəgötürənin iqtisadi fəaliyyət növü üzrə işə qəbul olmuş məzun sayına* diqqət yetirək. Aşağıdakı qrafikdə (qr. 2.3.5)

13660 nəfər məzunu işlə təmin etmiş top 10-luğa düşən iqtisadi fəaliyyət sahələri göstərilmişdir. İşə qəbul olunmuş məzunların ən çox hissəsi Mərkəzi Bankın fəaliyyəti üzrə yerləşmişlər, Top 10-luqda xüsusi çəkisi 18,7 faizə bərabərdir. İkinci yerdə İxtisaslaşmış mağazalar, üçüncü yerdə ümumi xarakterli dövlət idarəetməsi, dördüncü yerdə ümumi orta təhsil, beşinci yerdə İxtisaslaşdırılmış topdansatış, səkkizinci yerdə İxtisaslaşmış mağazalarda pərakəndə satış və digər sahələr üzrə işə qəbul olumuş məzunların sayı çoxluq təşkil edir. Deməli, məzunların böyük bir qismi *İxtisaslaşmış mağazalar sahəsində* çalışırlar.




**Qrafik 2.3.5. İşəgötürənin iqtisadi fəaliyyət növü üzrə işə qəbul olmuş məzun sayı**

*Mənbə: Dövlət Məşğulluq Agentliyinin məlumatları əsasında hazırlanmışdır* [50].

İndi isə Top 10-luqdakı *işəgötürənlər üzrə məzun sayına* baxsaq (qr. 2.3.6) görərik ki, işəgötürən müəssisələrin daha çoxu bank sektoruna və mağazalar şəbəkəsinə aiddir. Burada siyahıya 711 nəfər məzunu işlə təmin etmiş Kapital Bank başçılıq edir, 2-ci yerdə isə 700 nəfər məzunu işə götürmüş Araz suprmarketlər şəbəkəsi yerləşir.




**Qrafik 2.3.6. İşəgötürənlər üzrə məzun sayı reytinqi**

*Mənbə: Dövlət Məşğulluq Agentliyinin məlumatları əsasında hazırlanmışdır* [50].

Yuxarıdakı qrafiklərdən görünür ki, baxılan dövrdə təhlili aparılmış 2018-2021-ci il ali təhsil məzunlarının əksər hissəsi ticarət-satış sahəsində çalışırlar. İşəgötürənin iqtisadi fəaliyyət növü üzrə işə qəbul olmuş məzun sayına görə top 10-luğa düşmüş sahələrin 13660 yerdən 4160-ı ticarət-satış bölməsinin payına düşür, yəni bu, yuxarıdakı cədvəl göstəricilərinə görə işlə

təmin olunmuş ali təhsilli məzunların təqribən 30,4 faizi deməkdir. Başqa sözlə, məzunların əksər hissəsi heç də öz ixtisası və təhsil səviyyəsi üzrə işləmir. Belə olduqda onların məşğulluğunun nə dərəcədə səmərəli olduğunu demək çətindir.

Məlumat üçün qeyd edək ki, reytinq göstəriciləri hər il yenilənir. Cari dövrdə yuxarıda qeyd etdiyimiz kimi 30 universitet üzrə 2022-ci il məzunlarının da sayı (24 min) əvvəlki sayın üzərinə gəlmiş və 2018-2022-ci il üzrə cəmi 102749 nəfərin reytinq göstəricilərinə yenidən baxılmışdır. Həmin məzun sayından 59911 nəfərin işlə təmin olunduğu göstərilmişdir. Məzunların işədüzəlmə reytinqinə görə 2022-ci ildə 30 universitet arasında siyahıya 68,8 faiz işədüzəlmə göstəricisi ilə Bakı Ali Neft Məktəbi (BANM) başçılıq edir. Növbəti sıralarda ADA Universiteti – 56,6 %; Bakı Musiqi Akademiyası (BMA) – 53,6 %; Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) – 53,3 %; Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) – 52,6 %; Milli Aviasiya Akademiyası (MAA) – 52,1 %; Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) – 51,1 %; Xəzər Universiteti 50.6 % göstəricilərlə yer alıblar. Qalan 22 universitet üzrə işədüzəlmə faizi 50 faizdən aşağıdır.

Ümumilikdə 2018-2022-ci illər üzrə cəmi məzunların işədüzəlməsi göstəricilərinə baxsaq ilk beşlikdə sıralama bü cürdür: BANM – 67,3 %; ADA – 53,5 %; ADNSU – 51,7 %; UNEC – 51,6 %; DİA – 49,2 %. Göründüyü kimi BANM ümumi göstəricilər üzrə də birincidir, elə həmin səbəbdəndir ki, orada təhsil almaq istəyənlərin də sayı çoxluq təşkil edir, bu isə oraya qəbul ballarını artırmış olur. Bu da təbiidir, insanları hər hansı

təhsil müəssisəsinə cəlb edən əsas məsələ işədüzəlmə şanslarının çox, gəlirlərinin yüksək olmasıdır.

**İşləyən ali təhsil məzunları ilə aparılmış sorğunun nəticələri**

Ali təhsil pilləsinin bakalavr səviyyəsinə qəbul balının karyeraya təsirini öyrənmək məqsədi ilə Məşğulluq Agentliyinin Karyera Mərkəzi filialı tərəfindən sorğu keçirilərək 2 saylı əmək bazarı bülleteni hazırlanmışdır[51]. AR DSK-nın məlumatlarına əsasən 2003-2014-cü illərdə bakalavr pilləsində təhsilə başlayanların sayı 355.093 nəfər olmuşdur. Ali təhsili bitirib ən tez işə başlayanlar 17 il, ən geci isə 5 ildir ki, əmək bazarına daxil olmuşdurlar. Onlardan 1670 nəfər sorğuya cəlb edilmiş və yalnız 1583 nəfərinin məlumatları təhlilə uyğun hesab edilmişdir. Sorğuda iştirak edənlərin 58 faizi bakalavr, 37 faizi magistr, 5 faizi isə doktoranturanı bitirənlərdir. Tutduqları vəzifələrə görə təsnifləşdirdikdə onların tərkibində mütəxəssis heyəti- 65,1 faiz; idarəçi heyət- 16,9 faiz; yardımçı heyət- 15,2 faiz; ali rəhbər heyəti- 2,8 faiz təşkil edir.

Məzunların təhsil səviyyələrinin əməkhaqlarına təsirinin qiymətləndirilməsindən belə nəticə çıxmışdır ki, magistratura pilləsini bitirənlərin orta aylıq gəliri bakalavr təhsillilərə nisbətən 65 faiz, doktoranturanı bitirənlərdən isə 13 faiz çoxdur. Doktoranturanı bitirənlərin orta aylıq gəliri bakalavr təhsil səviyyəsini bitirənlərdən 46 faiz yuxarı olduğu halda magistr təhsillilərdən isə 11 faiz aşağı olmuşdur.Harada təhsil almağın da gəlirə müəyyən qədər təsiri olduğu müəyyənləşdirilmişdir,

---

[51]Əmək bazarı bülleteni N:2. https://dma.gov.az/storage/m-k-bazar-blleteni-2.pdf(Bülleten ali təhsil pilləsinin bakalavr səviyyəsinə qəbul balının karyeraya təsirini öyrənmək məqsədi ilə hazırlanıb).

belə ki, magistr təhsilini xaricdə davam etdirən şəxslərin orta aylıq gəliri Azərbaycanda davam etdirən şəxslərin orta aylıq gəlirindən 45 faiz çoxdur.

Qəbul balının əmək haqlarına təsirinə gəldikdə isə, 0-300 arası bal toplayanların maaş ortalaması 301-450 bal toplayanlara nisbətən 17 faiz, 451-600 bal toplayanlardan isə 42 faiz aşağı olmuşdur. Bundan başqa təcrübə proqramlarında iştirakın da gəlirlərə təsiri müsbətdir. Belə ki, sorğuların qiymətləndirilməsi zamanı müəyyən olunmuşdur ki, təcrübə proqramlarında iştirak etmiş şəxslərin aylıq gəlirləri digərlərinə nisbətən 11 faiz çoxdur.

İxtisas seçiminin də karyeraya böyük təsiri vardır. Respondentlərdən yalnız 65 faizi ixtisas seçimini özü etmişdir, onların 41 faizi daha yüksək bal toplasaydı belə başqa ixtisas seçməyəcəyini bildirdiyi halda, 46 faizi bunun əksini qeyd etmişdir, 13 faizinin isə fikri dəqiq deyil.

Gördüyümüz kimi düşünülmüş peşə seçiminin olmaması başlıca problemlərdən biri olaraq qalır. Təəssüflə qeyd etməliyik ki, hazırda gənclərin əksəriyyəti konkret ixtisası yox, ixtisas qrupunu seçirlər.

Əmək bazarındakı uyğunsuzluğa səbəb olan problemlərdən biri də öz ixtisasına müvafiq olmayan işlərdə çalışanların sayının çox olmasıdır. Keçirilmiş sorğu bu fikrimizi bir daha sübut edir, belə ki, respondentlərin yalnız 51 faizi çalışdıqları işin təhsil aldığı ixtisasla üst-üstə düşdüyünü və yalnız 47 faizi hazırki iş yerinin bakalavr təhsili müddətində planladığı karyerasına uyğun olduğunu bildirir. Karyeranın uğurluluğunda hansının önəmli olması barəsindəki suala respondentlərin 88,7 faizi

universitetin, 91,09 faizi isə ixtisasın daha önəmli rolu olduğunu bildirmişlər.

Aylıq əməkhaqqı göstəriciləri aşağıdakı kimidir: gəliri yoxdur-4%; 1-500 man.-24,7%; 501-1.000 man. - 33,9%; 1.001-1.500 man.-13,6%; 1.501-2.000 man. -9,3%; 2.001-2.500 man.-4,9%; 2.501-3.000 man.-2,9%; 3001-5.000 man.-4,7%; 5.001-10.000 man.-1,2%; 10.000 man. və yuxarı-0,6%. Onların 59,1 faizi gəlirlərinin bazar dəyərlərinə uyğun olmadığını, 37,3 faizi uyğun olduğunu, 3,6 faizi isə bazar dəyərlərindən yuxarı gəliri olduğunu qeyd etmişlər. Burada diqqət çəkən məqam odur ki, respondentlərin 59% faizdən çoxu qazancının bazar dəyərlərindən daha aşağı olduğu fikrindədir. Bu da onların gəlirlərinin tələbatlarını tam şəkildə ödəmədiyini və eləcə də məmnunluq hissinin aşağı olduğunu göstərir.

Yuxarıda baxdığımız sorğu nəticələri əsasında ali təhsil məzunlarının məşğulluq keyfiyyətinin heç də qənaətbəxş səviyyədə olmadığı qənaətinə gəlmək mümkündür. Yaşayış səviyyəsinin yüksək olması üçün insanlara ilk növbədə yüksək gəlir lazımdır, orta aylıq gəlirləri bazar dəyərinə uyğun və yuxarı olanlar 41 faiz təşkil edirsə, eləcə də işləyən ali təhsillilərin yalnız 51 faizi ixtisasına uyğun işdə çalışırsa onların məşğulluq keyfiyyətini təqribən 50 faiz kimi qiymətləndirə bilərik.

# FƏSİL III. KADR HAZIRLIĞININ ƏMƏK BAZARININ TƏLƏBLƏRİNƏ UYĞUNLUĞUNUN TƏDQİQİ

## 3.1. Kadr hazırlığında müasir meyllər

Hər bir müəssisə yaradılarkən əsas məqsəd mənfəət əldə etmək olur. Mənfəətin yüksək olması isə müəssisədə məhsuldarlığın yüksək olmasından bilavasitə asılıdır, öz növbəsində məhsuldarlıq da peşəkar, ixtisaslı işçi qüvvəsinin olmasından çox asılıdır. Məhz buna görə də işəgötürənlər onları razı salacaq işçi qüvvəsini əldə etmək üçün Məşğulluq mərkəzləri ilə, eləcə də təhsil müəssisələri ilə sıx qarşılıqlı əlaqə saxlamalıdırlar. Təhsil müəssisələri də təbii ki, işəgötürənləri qane edən kadrların hazırlanması üçün işlərini səmərəli təşkil etməlidirlər. Yalnız bu 3 tərəfin (təhsil müəssisələri–məşğulluq mərkəzləri–işəgötürənlər) məqsədyönlü qarşılıqlı əməkdaşlığı sayəsində əmək bazarında səmərəli məşğulluğun təmin olunması mümkündür.

Hər şeydən öncə kadr hazırlığında kəmiyyət və keyfiyyət göstəricilərinin əmək bazarının tələblərinə müvafiq olması məsələsi gözlənilməlidir. Cədvəl 3.1.1-də respublikamız üzrə peşə və ixtisas təhsili müəssisələrinin ümumi mütəxəssis buraxılışının dinamikasına baxdıqda görürük ki, peşə və orta ixtisas təhsilini bitirənlərin sayında stabil dinamika olmasa da, ali təhsili bitirənlərin sayı (2018-ci il istisna olmaqla) ilbəil artmaqdadır. Ümumi mütəxəssis buraxılışında isə 2017 və 2018-ci illər istisna olmaqla baxılan dövrdə müsbət dinamika müşahidə olunur. Hazırlanan kadrların sayı 2023-cü ildə 82 mini ötmüş-

dür ki, bunların da 60 faizə qədərini ali təhsil hazırlığı təşkil edir.

**Cədvəl. 3.1.1. Ümumi mütəxəssis buraxılışının sayı və quruluşu**

| | 2010 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | **58641** | **68419** | **64973** | **65503** | **69152** | **73806** | **74997** | **82033** |
| Peşə təhsili müəssisələrini bitirənlərin sayı, nəfər | 13011 | 14614 | 15496 | 15516 | 14304 | 14233 | 13865 | 14657 |
| *Xüsusi çəkisi,%* | *22,2* | *21,2* | *23,8* | *23,7* | *20,7* | *19,3* | *18,5* | *17,9* |
| Orta ixtisas təhsili müəssisələrini bitirənlərin sayı, nəfər | 14559 | 16299 | 12361 | 12425 | 14024 | 16164 | 15093 | 18955 |
| *Xüsusi çəkisi,%* | *24,8* | *23,8* | *1,.0* | *19,0* | *20,3* | *21,9* | *20,1* | *23,1* |
| Ali təhsilin bakalavr səviyyəsini bitirənlərin sayı, nəfər | 31071 | 37506 | 37116 | 37562 | 40824 | 43409 | 46039 | 48421 |
| *Xüsusi çəkisi,%* | *53,0* | *54,8* | *57,1* | *57,3* | *59,0* | *58,8* | *61,4* | *59,2* |

*Mənbə: Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuə 2017, 2019, 2021, s. 41, 42, 123, 138,162 məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 3.1.2-də ali və orta ixtisas müəssisələrinin, onlarda təhsil alanların sayı və əhalinin hər 10000 nəfərinə düşən tələbələrin sayı verilmişdir. Orta ixtisas təhsili müəssisələrinin sayı illər üzrə 59-61, ali təhsil müəssisələrinin sayı isə 51-52 arasında dəyişir. Təhsil alanların sayı hər iki təhsil pilləsi üzrə artmışdır. Ali təhsil tələbələrinin artımı dinamik olsa da, yalnız 2018/2019 və 2019/2020-ci illərdə orta ixtisas təhsili alanların

sayında dinamika pozulmuşdur. Ümumilikdə isə hər iki göstərici üzrə dinamika müsbətdir.

Əhalinin hər 10000 nəfərinə düşən tələbə sayına gəldikdə isə orta ixtisas təhsili alanlar üzrə göstəricidə nəzərəçarpacaq qədər artım yoxdur, dövrün başlanğıcında 59 nəfər, son iki ildə 64 nəfər təşkil edir. Ali təhsil alanların sayındakı müsbət dinamika bu göstəriciyə də yaxşı təsir göstərmiş, baxılan dövrdə onların sayı 45 faiz artaraq 2023-cü ildə əhalinin hər 10000 nəfərinə 227 ali təhsil alan tələbə düşmüşdür.

**Cədvəl 3.1.2. Orta ixtisas və ali təhsil müəssisələrinin ümumi göstəriciləri** *(nəfər)*

| | 2010/ 2011 | 2015/ 2016 | 2018/ 2019 | 2019/ 2020 | 2020/ 2021 | 2021/ 2022 | 2022/ 2023 | 2023/ 2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Orta ixtisas təhsil müəssisələrinin sayı | 62 | 61 | 56 | 59 | 61 | 59 | 59 | 59 |
| Onlarda tələbələrin sayı | **53451** | **56427** | **51741** | **56000** | **59984** | **63060** | **64623** | **65640** |
| əhalinin hər 10000 nəfərinə tələbələrin sayı | 59 | 59 | 52 | 56 | 60 | 63 | 64 | 64 |
| Ali təhsil müəssisələrinin sayı | 51 | 54 | 52 | 52 | 52 | 52 | 51 | 51 |
| Onlarda tələbələrin sayı | **140241** | **161234** | **176723** | **187654** | **198707** | **212173** | **222809** | **231437** |
| əhalinin hər 10000 nəfərinə tələbələrin sayı | 156 | 168 | 179 | 189 | 199 | 211 | 220 | 227 |

*Mənbə: Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuə 2019-2024, səh. 127, 138, 149, 164 göstəriciləri əsasında hazırlanmışdır.*

Yuxarıdakı cədvəllərin təhlilindən gördük ki, son illərdə ölkəmizdə ali təhsil alanların sayında müsbət dinamika vardır. Lakin cədvəl 3.1.3-ə diqqət yetirdikdə əhalinin hər 10000 nəfərinə düşən ali təhsillilərin sayına görə Azərbaycan hələ də

MDB dövlətlərindən geri qaldığının şahidi oluruq. Əgər 2000-ci ildə ölkəmiz Özbəkistan və Tacikistandan irəlidə idisə, 2005-2021-ci illərdə Tacikistandan, 2021-2023-cü illərdə isə Özbəkistandan daha aşağı göstəricilərə malikdir.

**Cədvəl 3.1.3. MDB ölkələri üzrə ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayı** *(əhalinin hər 10000 nəfərinə)*

| Ölkələr | 2000 | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 150 | 154 | 156 | 168 | 179 | 189 | 199 | 211 | 220 | 227 |
| Belarus | 282 | 393 | 467 | 354 | 298 | 290 | 282 | 276 | 259 | 254 |
| Ermənistan | 189 | 304 | 353 | 322 | 271 | 253 | 269 | 265 | 267 | 268 |
| Qazaxıstan | 297 | 510 | 378 | 260 | 295 | 324 | 307 | 303 | 293 | 298 |
| Qırğızıstan | 384 | 447 | 441 | 346 | 268 | 245 | 325 | 355 | 323 | 344 |
| Moldova | 217 | 351 | 303 | 230 | 171 | 215 | 227 | 229 | 226 | 233 |
| Özbəkistan | 74 | 106 | 102 | … | 108 | 130 | 165 | 229 | 289 | 361 |
| Rusiya | 324 | 493 | 493 | 325 | 284 | 277 | 277 | 278 | 282 | 296 |
| Tacikistan | 127 | 191 | 202 | 206 | 232 | 249 | 256 | 244 | 218 | … |
| Türkmənistan | 31 | ... | ... | … | … | … | … | ... | 289 | … |
| Ukrayna | 285 | 470 | 465 | 322 | 314 | 302 | 275 | 254 | … | … |

*Mənbə: Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuələr 2021-2024. səh. 294.*

Nəzərə alaq ki, biz burada ancaq kəmiyyət fərqlərini görə bilirik, keyfiyyət isə daha önəmlidir, onu da məzunların əmək bazarındakı vəziyyətinə görə qiymətləndirə bilərik.

**Ali təhsil müəssisələrində ixtisas qrupları üzrə kadr hazırlığı**

Cədvəl 3.1.4.-dən də göründüyü kimi ali təhsil müəssisələrinə qəbul olunanların sayı ilbəil artır, belə ki, baxılan dövrdə onların sayında 76,8 faiz artım vardır. Bu artım əvvəlki göstəricilərlə müqayisədə 2019-cu ildən özünü daha çox büruzə verir, bunu isə, həmin ildən subbakalavrların ali təhsilə güzəştli qəbulu ilə əlaqələndirmək olar. Qəbul olunanların ixtisas qrupları üzrə strukturuna baxsaq, son 2 ilin müqayisəsində ən çox artım kənd təsərrüfatı ixtisas qrupu üzrədir (19,1 %). Humanitar və sosial, təbiət ixtisasları qrupları və sonuncu ili nəzərə almasaq səhiyyə, rifah və xidmət ixtisas qrupu üzrə qəbulda da stabil artım olmuşdur. Baxmayaraq ki, dünyada baş verən sürətli texnoloji inkişaf texnika kadrlarına ehtiyacı get-gedə artırır, texniki və texnoloji ixtisası seçənlərin sayında son illərdə stabil, lakin aşağı artım tempi müşahidə olunur. Bununla yanaşı həmin ixtisas qrupu üzrə 2010/2011-ci illə müqayisədə 2020/2021-ci tədris ilində 38 faiz, 2023/2024-cü tədris ilində isə 64 faiz artım vardır. Mədəniyyət və incəsənət ixtisas qrupuna qəbul olunanların sayı baxılan dövrdə qeyri-stabil dinamika ilə artmışdır.

Qlobal əmək bazarında gözlənilən dəyişikliklər ixtisas qruplarına, xüsusilə də kənd təsərrüfatı və texnika və texnoloji ixtisaslar qrupuna daxil olan ixtisaslara daima yenidən baxılmasını, yeni müasir ixtisasların açılmasını diqtə edir.

**Cədvəl 3.1.4. Ali təhsil müəssisələrinə qəbul olunan tələbələrin ixtisas qrupları üzrə sayı** *(nəfər)*

| Illər | 2010-2011 | 2015-2016 | 2019-2020 | 2020-2021 | 2021-2022 | 2022-2023 | 2023-2024 |
|---|---|---|---|---|---|---|---|
| **Bakalavriatura üzrə ixtisas qrupları-cəmi** | **29904** | **33645** | **44324** | **45003** | **45986** | **50522** | **52880** |
| təhsil ixtisasları qrupu | 8233 | 9026 | 11612 | 11740 | 10985 | 11251 | 11357 |
| humanitar və sosial | 3258 | 4539 | 5843 | 5991 | 6480 | 6964 | 7074 |
| mədəniyyət və incəsənət | 988 | 931 | 1433 | 1590 | 1645 | 1755 | 1692 |
| iqtisadiyyat və idarəetmə | 6174 | 6663 | 9182 | 8324 | 8367 | 8932 | 10031 |
| təbiət ixtisasları qrupu | 1390 | 1436 | 1993 | 2163 | 2232 | 2404 | 2408 |
| texniki və texnoloji | 7094 | 7614 | 9066 | 9169 | 9747 | 11916 | 11700 |
| kənd təsərrüfatı | 471 | 571 | 1090 | 1207 | 1438 | 1655 | 1748 |
| səhiyyə, rifah və xidmət | 2296 | 2865 | 4105 | 4819 | 5092 | 5645 | 4833 |

*Mənbə: Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuələr 2021-2024. səh.156-158.*

Cədvəl 3.1.5.-də ali təhsil müəssisələrində bakalavr pilləsi üzrə təhsil alan tələbələrin sayı və quruluşundakı dinamika verilmişdir. Ümumilikdə onların sayı 2015/2016–2023/2024-cü tədris illərində 43,5 faiz artmışdır.

**Cədvəl 3.1.5. Ali təhsil müəssisələrində təhsil alan tələbələrin ixtisas qrupları üzrə sayı** *(nəfər)*

| | 2010-2011 | 2015-2016 | 2019-2020 | 2020-2021 | 2021-2022 | 2022-2023 | 2023-2024 | 2015/16 tədris ilinə nisb. 2023/24 |
|---|---|---|---|---|---|---|---|---|
| Bakalavriatura üzrə ixtisas qrupları-cəmi | **140241** | **161234** | **187654** | **198707** | **212173** | **222809** | **231437** | **143,5** |
| təhsil ixtisasları qrupu | 16976 | 40863 | 46085 | 47733 | 47304 | 47919 | 47941 | 117,3 |
| *% - lə* | *12,1* | *25,3* | *24,6* | *24,0* | *22, 3* | *21,5* | *20,7* | *-4,6* |
| humanitar və sosial | 6945 | 19589 | 24407 | 25669 | 27387 | 29493 | 29562 | 139,8 |
| *% - lə* | *4,95* | *12,1* | *13,0* | *12,9* | *12,9* | *13,2* | *12,8* | *0,7* |
| mədəniyyət və incəsənət | 1951 | 4840 | 6310 | 6688 | 7124 | 7425 | 7637 | 147,2 |
| *% - lə* | *1,4* | *3,0* | *3,7* | *3,4* | *3,4* | *3,3* | *3,3* | *0,3* |
| İqtisad. və idarəetmə | 12976 | 36439 | 39852 | 41940 | 43378 | 44505 | 49252 | 135,2 |
| *% - lə* | *9,25* | *22,6* | *21,2* | *21,1* | *20,4* | *19,97* | *21,3* | *-1,3* |
| təbiət ixtisasları qrupu | 2654 | 8423 | 8423 | 9223 | 10163 | 10646 | 11121 | 132,0 |
| *% - lə* | *1,9* | *5,2* | *4,5* | *4,6* | *4,8* | *4,8* | *4,8* | *-0,4* |
| texniki və texnoloji | 12876 | 35867 | 40503 | 42434 | 46603 | 49696 | 50473 | 140,7 |
| *% - lə* | *9,2* | *22,2* | *21,6* | *21,4* | *21,96* | *22,3* | *21,8* | *-0,4* |
| kənd təsərrüfatı | 879 | 1997 | 4144 | 4734 | 5457 | 6013 | 6642 | 332,6 |
| *% - lə* | *0,6* | *1,2* | *2,2* | *2,4* | *2,6* | *2,7* | *2,9* | *1,7* |
| səhiyyə, rifah və xidmət | 4605 | 13216 | 17930 | 20286 | 24757 | 27112 | 17854 | 135,1 |
| *% - lə* | *3,3* | *8,2* | *9,5* | *10,2* | *11,7* | *12,2* | *7,7* | *-0,5* |

*Mənbə: Azərbaycanda təhsil, elm və mədəniyyət 2021- 2024. Statistik məcmuələr. səh.150.*

İxtisas qrupları üzrə 2015/2016–2023/2024-cü tədris illərinin müqayisəsinə baxsaq görərik ki, ən yüksək artım kənd təsərrüfatı ixtisas qrupu üzrədir (232,6 %), bunu isə son illərdə kənd təsərrüfatının inkişafının diqqət mərkəzində olması ilə

əlaqələndirmək olar. Ümumilikdə ali təhsil alanların tərkibində isə onların xüsusi çəkisi 2,9 faiz təşkil edir ki, bu da 2015/2016-cı illə müqayisədə 1,7 faiz bəndi artım deməkdir.

Səhiyyə, rifah və xidmət sahəsi də abituriyentləri ən çox cəlb edən qruplardandır. Belə ki, 2015/2016-cı ilə nisbətdə bu ixtisas qrupunu seçənlərin sayı artmışdır, bu artım 2021/2022-ci tədris ilində 87,3 faiz, 2023/2024-cü tədris ilində isə hansı səbəbdənsə azalma baş verdiyinə görə 35,1 faiz olmuşdur. Onların xüsusi çəkisi son ildə bütün təhsil alanların tərkibində 7,7 faiz olmuşdur ki, bu da 2015/2016-cı ilə nisbətən 0,5 faiz bəndi azalma deməkdir.

Texniki və texnoloji ixtisaslar üzrə təhsil alanların sayında 40 faiz artım olmasına baxmayaraq, onların xüsusi çəkisi isə bütün təhsil alanların cəmi 22 faizə qədərini təşkil etməklə 2015/2016-cı illə müqayisədə 2023/2024-cü tədris ilində 0,4 faiz bəndi aşağı göstəriciyə malikdir.

Ali təhsil səviyyəsində tədris ingilis dilində olmaqla informasiya təhlükəsizliyi, kompüter mühəndisliyi, proseslərin avtomatlaşdırılması mühəndisliyi, iqtisadiyyat, maliyyə, hüquqşünaslıq, tibb ixtisasları ən yüksək balla qəbul göstəricilərinə malikdir. Yüksək bal toplayan abituriyentlər arasında mühəndislik ixtisaslarına maraq xeyli artmışdır, kənd təsərrüfatına aid ixtisasları isə əsasən aşağı bal toplayanlar seçirlər.

Yuxarıda qeyd etdiyimiz kimi ali təhsilə cəlb edilənlərin sayı hər il artır. Bunun səbəbləri kimi əvvəlki illərin orta məktəb məzunlarının yenidən imtahan verməsi, kollec təhsilini bitirmiş subbakalavrların güzəştli qaydada imtahansız qəbulu, qəbul ballarının aşağı salınmasını və s. göstərmək olar. Lakin kəmiyyət artımı əmək bazarına müsbət təsir göstərmirsə, məsə-

lən, bəzi hallarda gənclər qazandıqları ali təhsil diplomu ilə işə düzəlmək mümkün olmadığından ARDNŞ-nin Peşə Təlim Tədris Mərkəzlərinə müraciət edərək peşə təhsili almaq məcburiyyətində qalırsa bu cür artım bizi qane etməməlidir. Ali təhsil proqramlarında, onun məzmununda keyfiyyət baxımından müəyyən dəyişikliklərin olması, onun əmək bazarına daha da uyğunlaşdırılması vacibdir. Həm də problem təkcə ali təhsildə deyil, bütövlükdə təhsil sistemində məqsədyönlü islahatların aparılmasına ehtiyac var, ona görə ki, nəticəyönümlülük baxımından get-gedə repetitor sistemi təhsil sistemini, qeyri-formal təhsil də formal təhsili üstələyir...

**Orta ixtisas təhsil müəssisələrində ixtisas qrupları üzrə kadr hazırlığı**

Həm qlobal səviyyədə, həm də yerli əmək bazarındakı araşdırmalar göstərir ki, texnologiyanın inkişafı, rəqəmsallaşmanın genişlənməsi yeni-yeni peşələr üzrə kadrlara tələbatı artırır. Bu tələbatların ödənilməsi üçün ölkəmizdə yeni ixtisas standartları hazırlanır və əvvəllər bizim üçün qeyri-ənənəvi olan sahələrin və həmçinin də əvvəllər inkişaf etmiş pambıqçılıq, tütünçülük, baramaçılıq kimi əməktutumlu sahələrin yenidən inkişafda olduğunu nəzərə alaraq həmin sahələr üçün ixtisaslı kadr hazırlığı məsələsi də aktuallaşır. Bu ehtiyacları ödəmək üçün orta ixtisas və peşə təhsili pilləsinin rolu böyükdür.

Orta ixtisas təhsili müəssisələrinə qəbul olunanların sayı 2010/2011-ci tədris ili ilə müqayisədə 2023/2024-cü tədris ilində 40,3 faiz artmışdır (cəd. 3.1.6). İxtisas qrupları üzrə verilmiş son 3 ilin göstəricilərinə baxsaq səhiyyə, rifah və xidmət ixtisas qrupunda artım müşahidə olunur.

**Cədvəl 3.1.6. Orta ixtisas təhsili müəssisələrinə qəbul olunan tələbələrin ixtisas qrupları üzrə sayı** *(nəfər)*

| | 2010-2011 | 2015-2016 | 2019-2020 | 2020-2021 | 2021-2022 | 2022-2023 | 2023-2024 |
|---|---|---|---|---|---|---|---|
| İxtisas qrupları üzrə-cəmi | **15884** | **13845** | **18917** | **19229** | **20583** | **21073** | **22284** |
| təhsil ixtisasları qrupu | 5181 | 2731 | 3640 | 3581 | 2585 | 2329 | 2547 |
| humanitar və sosial | 312 | 328 | 570 | 616 | 686 | 776 | 827 |
| mədəniyyət və incəsənət | 1952 | 1351 | 1158 | 1464 | 1454 | 1405 | 1556 |
| iqtisadiyyat və idarəetmə | 2994 | 2814 | 4065 | 3913 | 4245 | 4380 | 4567 |
| texniki və texnoloji | 2774 | 3018 | 4367 | 4579 | 5419 | 5889 | 6445 |
| kənd təsərrüfatı | 126 | 358 | 1254 | 1251 | 1494 | 1454 | 1482 |
| səhiyyə, rifah və xidmət | 2545 | 3245 | 3863 | 3825 | 4700 | 4840 | 4860 |

*Mənbə: Azərbaycanda təhsil, elm və mədəniyyət 2021, 2022. Statistik məcmuələr. səh.135.*

Kənd təsərrüfatı ixtisaslarında artım vardır, xüsusilə də 2021-2022-ci tədris ilində öncəki ilə nisbətən 19,4 % artım olmuşdur. Texniki və texnoloji ixtisaslar üzrə həmin göstərici 18,3 % təşkil etmişdir. Bu göstərici ali təhsildəki artıma nisbətən demək olar ki, 3 dəfə yüksəkdir. 2015/2016-cı tədris ili ilə müqayisə etsək kolleclərə texniki və texnoloji ixtisaslar üzrə qəbul olunanların sayı son ildə 2,1 dəfə artmışdır. Ümumiyyətlə, araşdırılan dövrdə orta ixtisas təhsili müəssisələrinə qəbulda ən yüksək və stabil artım tempi texniki və texnoloji ixtisas-

lar üzrə müşahidə olunur. Bu isə əmək bazarının tələblərinə uyğunlaşmaq meylinin götəricisidir.

Məşğulluğun artırılmasında peşə təhsilinin çox önəmli rolu olduğu fikrini həm yerli, həm də xarici ölkə tədqiaqatçıları dəstəkləyir. Bunu nəzərə alaraq peşə təhsilinin inkişafı və məşğulluğa təsirinin artırılması barədə növbəti fəsildə ətraflı məlumat veriləcək. Burada isə peşə təhsili üzrə kadr hazırlığının ümumi göstəriciləri ilə tanış olacağıq.

**Peşə təhsili üzrə kadr hazırlığı**

Peşə təhsili müəssisələrinə hazırda aşağıdakı peşə istiqamətləri üzrə tələbə qəbulu aparılır: iqtisadiyyat, xidmət, avtomatika və idarəetmə; energetika, elektrotexnika, cihazqayırma və optik texnika, radiotexnika, rabitə və informasiya texnologiyaları; aviasiya, kosmik raket, dəniz texnikasi və nəqliyyat vasitələri; ilkin tələbat və ərzaq mallarının texnologiyası; sənətşünaslıq, mədəniyyət və incəsənət; kənd təsərrüfatı, balıq və meşə təsərrüfatı; metallurgiya, maşınqayırma və metal emalı; kimyəvi və biokimyəvi texnologiya; inşaat və arxitektura[52].

Bir faktı qeyd etmək lazımdır ki, Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılmasından keçən illər ərzində peşə təhsilinə maraq tədricən də olsa artmaqdadır. Cədvəl 3.1.7.-dən göründüyü kimi baxılan dövrdə peşə təhsili müəssisələrinə qəbul olunanların sayında 2017-ci ildən başlayaraq tədricən artım müşahidə olunur. Buraya qəbul olunanların sayı artıq 20 mini keçmişdir, son illərin ən yüksək göstəricisi 2023-cü ilə aiddir. Təhsil alanların ümumi sayına baxsaq 2000-ci ildən bu tərəfə ən yüksək kontingent sayı 2023-cü ildə olmuşdur. Bitirənlərin

[52] https://vet.edu.gov.az/professions

sayında isə stabil dinamika yoxdur, ona görə ki, qəbul olunduqdan sonra müxtəlif səbəblərə görə tələbələrin bir qismi təhsilini davam etdirə bilmir. Həmin səbəblərin araşdırılıb aradan qaldırılması istiqamətində müvafiq tədbirlərin görülməsinə ehtiyac vardır.

**Cədvəl 3.1.7. Peşə təhsili müəssisələrinin göstəriciləri** *(nəfər)*

| | Peşə təhsili müəssisələrinin sayı | Onlarda təhsil alanların sayı | Qəbul olunanların sayı | Bitirənlərin sayı |
|---|---|---|---|---|
| 1991 | 176 | 82188 | 45030 | 49092 |
| 2000 | 108 | 22696 | 12946 | 12052 |
| 2005 | 110 | 21563 | 12935 | 11095 |
| 2010 | 108 | 25562 | 15743 | 13011 |
| 2015 | 113 | 25414 | 15354 | 15222 |
| 2018 | 111 | 24024 | 17393 | 15496 |
| 2019 | 111 | 23965 | 17124 | 15516 |
| 2020 | 110 | 23193 | 17140 | 14304 |
| 2021 | 103 | 22012 | 18289 | 14233 |
| 2022 | 103 | 22749 | 21046 | 13865 |
| 2023 | 99 | 25926 | 22194 | 14657 |

*Mənbə: Azərbaycanda təhsil, elm və mədəniyyət 2021- 2024. Statistik məcmuələr. s.121-123.*

Peşə təhsili üzrə Dövlət Agentliyinin saytında yerləşdirilmiş məlumatlara görə, hazırda 72 peşə təhsili müəssisəsində 136 ixtisas üzrə təhsil alanların səviyyələr üzrə bölgüsü belədir: 1580 nəfər ilk peşə təhsili səviyyəsində; 27511 nəfər texniki-

peşə təhsilində; 2415 nəfər isə yüksək texniki-peşə təhsili səviyyəsi üzrə hazırlanır[53].

Peşə təhsilinə müraciət edən abituriyentlər ən çox kompüter operatoru, veb dizayner, aşpazlıq kimi peşələri seçirlər.

**Peşə təhsili kadrlarının istehsalatda hazırlanması**

Peşə təhsili müəssisələrinin tarixindən məlumdur ki, Azərbaycanda sənayenin inkişaf etdiyi və fəhlə kadrlarına geniş tələbat olduğu dövrlərdə iri istehsalat birliklərinin nəzdində çox sayda peşə təhsili müəssisələri fəaliyyət göstərmişdir. Bu tip müəssisələrdə praktika imkanlarının geniş olması işə daha tez adaptasiya olunma və iş təminatı baxımından gənclər üçün çox əlverişlidir.

Hazırda bu imkanlar ən optimal şəkildə işçilərinin sayı 50 min nəfərdən yuxarı olan ARDNŞ-də mövcuddur. Məhz iş təminatı imkanları yüksək olduğuna görə bu şirkətin nəzdində fəaliyyət göstərən Peşə Təlim, Tədris Mərkəzlərində təhsil almaq istəyən gənclərin sayı çoxdur və onların arasında ali təhsilli gənclər də az deyil. Şirkətin nəzdində Təlim Tədris və Sertifikatlaşdırma İdarəsi, onun tabeliyində isə 5 belə Mərkəz fəaliyyət göstərir. Bunlar aşağıdakılardır: Sumqayıt Təlim, Tədris Mərkəzi; Qala Təlim, Tədris Mərkəzi; Qobustan Regional Təlim Mərkəzi; Kadrların Hazırlığının Təşkili Mərkəzi və Dənizdə insan həyatının mühafizəsi üzrə Təlim Mərkəzi.

Neft sənayesi üçün yüksək ixtisaslı mütəxəssislərin və fəhlə kadrlarının hazırlanması, yenidən hazırlanması və peşəkarlığının artırılması məqsədi ilə şirkət təlim-tədrisi beynəlxalq stan-

[53]Peşə Təhsili üzrə Dövlət Agentliyi. https://edu.gov.az/vocational-education/umumi-melumat_321

dartlara uyğun təşkil etməyə çalışır. Tam orta təhsil bazasından qəbul olunan (hərbi xidmət keçmiş) şagirdlər bu mərkəzlərdə 1 il ərzində istəklərindən asılı olaraq aparatçı, qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər, çilingər santexnik, plastmas qaynaqçısı, polad və dəmir-beton kostruksiyaların quraşdırılması üzrə quraşdırıcı, karotaj stansiyasının maşinisti, takelajçı, defektoskopçu və s. fəhlə peşələrinə yiyələnirlər. Buradakı peşə təhsilinin üstünlüyü ondan ibarətdir ki, istehsalat təcrübəsi üçün geniş imkanlar mövcuddur, bu da şagirdlərin bilik və vərdişləri daha tez mənimsəməsinə şərait yaradır.

2014-cü ildə SOCAR-ın təlim mərkəzlərinə 415 nəfər (SOCARın illik hesabatı 2014, s. 81), 2015-ci ildə 293 nəfər (İllik hesabat 2015, s. 70), 2016-cı ildə 219 nəfər şagird qəbul olunmuşdur. Maraqlıdır ki, 2016-cı ildə müsabiqədə iştirak edən 1129 nəfərin 242 nəfəri ali təhsilli, 131 nəfəri orta ixtisas təhsilli, 55 nəfəri ilk peşə ixtisas təhsilli, yalnız 701 nəfəri tam orta təhsilli gənclərdir (İllik hesabat 2016, s. 65).

2017/2018 tədris ilində Təlim mərkəzlərinə 15 ixtisas üzrə 175 yerlik qəbul üçün elektron ərizə ilə müraciət edən 2038 nəfərin içərisindən seçilərək müsabiqədə iştirak edən 1768 nəfərdən 473 (26,8%) nəfəri ali təhsilli, 196 nəfəri (11,1%) orta ixtisas, 119 nəfəri (6,7%) peşə-ixtisas təhsilli, 980 (55,4%) nəfəri tam orta təhsilli olmuşdur. Yüksək bal toplamış 171 nəfər qəbul olunmuşdur. Deməli, bir yer uğrunda 10 nəfər mübarizə aparmışdır (İllik hesabat 2018).

Şagird qəbulu 15 peşə ixtisası üzrə aparılmışdır: "Avtomobil təmiri çilingəri", "Elektrik avadanlıqlarının təmiri və xidməti üzrə elektrik montyoru", "Elektrik qaz qaynaqçısı", "Əl

ilə qaynaqda elektrik qaynaqçısı", "Qaz paylayıcı stansiyanın operatoru", "Qazla kəsən", "Neft və qaz hasilatı üzrə operator", "Polad və dəmir-beton konstruksiyaların quraşdırılması üzrə quraşdırıcı", "Təmirçi çilingər", "Tornaçı, frezerçi", "Aparatçı", "Kompressor qurğularının maşinisti", "Nasos qurğularının maşinisti", "Nəzarət ölçü cihazları və avtomatika üzrə çilingər" və "I-II dərəcə iş qrupu üzrə IV dərəcəli dalğıc" peşələri.

Məzunların işlə təmin olunma statistikasının yüksək olduğunu Sumqayıt Peşə Təlim Tədris Mərkəzinin timsalında görə bilərik. Belə ki, Mərkəzi 2013-cü ildə 100 nəfər, 2014-cü ildə 85 nəfər, 2015-ci ildə 95 nəfər, 2016-cı ildə 65 nəfər, 2017-ci ildə 38 nəfər, 2018-ci ildə 61 nəfər şagird bitirmiş və hamısı şirkət tərəfindən işlə təmin olunmuşdur[54].

Ali və orta ixtisas təhsilli gənclərin daha sonra peşə təhsili alması faktı bir tərəfdən peşə təhsilinin üstünlüyünü göstərən müsbət hal kimi qiymətləndirilə bilərsə, digər tərəfdən isə, alınmış ali təhsilin və yaxud da ixtisasın gərəksizliyi, iş təminatı yaratmaması faktı kimi təəssüf doğurur. Praktikada belə hallarla tez-tez rastlaşırıq: ixtisasına uyğun olmayan peşələrdə çalışanları, aldığı ixtisasa görə iş tapa bilməyənləri, ali təhsilli olduğu halda ixtisas tələb olunmayan işlərdə çalışanları və s. kimi misalları çox göstərmək olar. Təəssüflə qeyd olunmalıdır ki, burada həm keyfiyyətsiz təhsil amili, digər hallarda isə diplomlu gənclərin müvafiq işlə təmin olunmasında müxtəlif subyektiv maneələrin mövcudluğu özünü göstərir. Nəticədə əmək

---

[54] Azərbaycan Respub. Dövlət Neft Şirkətinin iqtisadi və statistik göstəriciləri üzrə hesabatlar. https://www.socar.az/socar/az/economics-and-statistics/economics-and-statistics/socar-reports

ehtiyatlarının potensialından səmərəli istifadə oluna bilmir, təhsil ilə karyeranın vəhdəti pozulur, gənclərin həyat səviyyəsi qənaətbəxş səviyyədə olmur.

**İşsiz və işaxtaranların peşə təlimi**

Əmək bazarının kadr ehtiyaclarının ödənilməsində Məşğulluq Agentliyinin nəzdində fəaliyyət göstərən Regional Peşə Tədris Mərkəzlərinin də əhəmiyyətli rolu vardır. Hazırda Azərbaycanda belə mərkəzlərin sayı dörddür, Bakı, Naxçıvan, Gəncə, Göyçay şəhərlərində fəaliyyət göstərirlər.

İşsiz və işaxtaranların məşğulluğunun təmin edilməsi məqsədilə adı çəkilən mərkəzlərdə 70-dən artıq peşələr üzrə kurslar təşkil olunur. Onlardan ən çox tələb olunan peşələr bunlardır: ofisiant, katibə-referent, bərbər, xalçaçı, tikişçi, toxucu, qənnadçı, sürücü, tornaçı, qaynaqçı, mebel quraşdırıcısı, çilingər, presləyici, inşaatçı-rəngsaz, ərzaq malları satıcısı, satıcı-nəzarətçi kassir, dülgər, frezerçi, suvaqçı, zərgər, videooperator, kompüterçi dizayner, geniş profilli dəzgahçı, elektrik montyoru və s.

Məşğulluq Xidməti tərəfindən 2022-ci ildə peşə təlimi kurlarına cəlb edilənlərin sayı cəmi 4575 nəfər olmuşdur. Məlumatların yerləşdiyi dövrdə onlardan 2827 nəfər kursu bitirmiş, cəmi 1752 nəfər işlə təmin olunmuşdur. 2022-ci ildə peşə hazırlığına cəlb olunanlar əsasən informasiya texnologiyaları üzrə texniki dəstək mütəxəssisi, insan resursları mütəxəssisi, xarici dil, ərzaq və qeyri-ərzaq malları satıcısı, nəzarətçi- xəzinədar, bağban, aşpaz, qənnadçı, şirniyyatçı, ofisiant, dayə, dərzi peşələri üzrə hazırlanmışlar.

2023-cü ildə peşə təliminə cəlb edilənlərin sayı 2190 nəfərdir və əsasən aşağıdakı peşələr üzrə kurslar təşkil olunmuşdur: elektrik maşın, aparat və cihazların sazlayıcısı; elektrik avadanlıqlarına xidmət və təmiri üzrə elektrik montyoru; bərpa olunan enerji avadanlıqlarının quraşdırıcısı; qrafik dizayner; tikiş avadanlıqlarının operatoru, tikişçi; dərzi; aşpaz; ofisiant; informasiya texnologiyaları üzrə texniki dəstək mütəxəssisi; ərzaq və qeyri-ərzaq malları satıcısı, nəzarətçi- xəzinədar[55].

İşsizlərin sayı ilə müqayisədə yuxarıdakı rəqəmlər çox aşağıdır, daha çox işsiz şəxsin tələbatlı peşələrə yiyələnməsinə və həmçinin onlarda sahibkarlıq qabiliyyətinin formalaşdırılmasına çalışmaq lazımdır. Belə qənaətə gəlmək olar ki, Regional Peşə Tədris Mərkəzlərinin sayının artırılmasına ehtiyac vardır. Hər iqtisadi rayonda belə mərkəz fəaliyyət göstərərsə daha çox işsiz və işaxtaranın peşə təlimi, ixtisasartırma və yenidənhazırlanma kurslarına cəlb edilməsi ilə yerli əmək bazarının kadr ehtiyaclarının səmərəli şəkildə ödənilməsinə və regionların inkişafına da nail olmaq olar.

Digər bir məsələni qeyd edək ki, aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsindən sonra onların nə qədər özünü doğrultduğunu bilmək üçün hər bir layihənin icra vəziyyəti, davamlılığı və nəticələri barədə statistik məlumatları hazırlayaraq ictimaiyyətə təqdim etmək və özünü doğruldan layihələrin əhatə dairəsini getdikcə genişləndirmək lazımdır. Uğurlu nəticələri görən iqtisadi fəal şəxslər üçün bu həm motivasiya rolunu oynayar, həm də həmin təcrübələrdən bəhrələnmiş olarlar.

Beləliklə, bu paraqrafda təqdim olunan təhlillər əmək bazarına lazım olan kadrların kəmiyyət tərəflərini əks etdirir. Gö-

[55] Peşə və ixtisaslar üzrə hesabat. *Dma. gov.az/peshe-ve-ixtisaslar*

ründüyü kimi ixtisaslı kadr hazırlığında kəmiyyətcə artım vardır. Daha da vacib məsələ odur ki, hazırlanan kadrların bacarıqları işəgötürənləri qane edirmi? Həmin məsələlərə növbəti paraqrafda baxacağıq.

## 3.2. Kadrlara tələbin quruluşunda baş verən dəyişikliklər

**Əmək bazarında tələb olunan bacarıqların təhlili**

Maddi iqtisadiyyatdan bilik iqtisadiyyatına keçid, yeni texnologiyaların sürətlə həyatımıza daxil olması əmək bazarında təklif olunan iş yerlərinin kadrlara qarşı yeni tələblər ortaya qoyması ilə nəticələnmişdir. Yeni tipli iş yerləri yaradıldıqca işçilərdən daha fərqli səriştələr tələb olunur. Tələb olunan səriştə və bacarıqların öyrədilməsi üçün onların tədqiq edilərək tədris proqramlarının məzmununa daxil edilməsi lazımdır. Ona görə ki, yaşadığımız yüksək texnoloji inkişaf əsrində məhz bu səriştə və bacarıqlar ölkələrin iqtisadi artımının başlıca amilini təşkil edə bilər.

Dünya Bankının 2019-cu ilə olan hesabatında qeyd edilir ki, hətta ən aşağı gəlir səviyyəli ölkələrdə belə insanlar 30 il qabaq mövcud olmamış işlərdə çalışırlar, 2018-ci ildə məktəbə gedən uşaqlar böyüyəndə hələ mövcud olmayan peşələr üzrə işləyəcəklər[56].Yeni peşələrin yaranması ilə yanaşı bacarıqlar baxımından işçilərdən gözləntilər də dəyişir. Əmək bazarında inkişaf etmiş koqnitiv (kritik düşünmə, problem həlletmə,

---

[56]The changing nature of work. World development report 2019. https://documents1.worldbank.org/curated/en/816281518818814423/pdf/2019-WDR-Report.pdf

kreativlik) və sosial-davranış (ünsiyyət qurma, komandada iş, çevik uyğunlaşma, liderlik,) bacarıqlarına tələbat yüksəlir, dar çərçivəli peşə bacarıqlarına isə tələbat azalır.

Araşdırmalar, müşahidələr və həmçinin işəgötürənlərlə keçirilmiş sorğular onu göstərir ki, işəgötürənlər daha çox hallarda hansısa peşə və ixtisas üzrə kadr çatışmazlığından deyil, təhsilin keyfiyyətsizliyindən, xüsusilə də hazırlanan kadrlarda bacarıq çatışmazlığının olmasından narazıdırlar.

Dünya Bankının 2013-cü ildə azərbaycanlı sahibkarlarla keçirdiyi sorğuda onların böyük əksəriyyəti lazımi bacarıqlara malik işçi tapmaqda çətinlik çəkdiklərini bidirmişdilər[57]. Sorğuda iştirak edən işəgötürənlərin 40%-i ümumi təhsilin onların tələbatlarına cavab vermədiyini, həmçinin peşə və texniki təhsilin praktiki bacarıqlar baxımından onları qane etmədiyini bildirmiş, kadrlarda yalnız sərt bacarıqların deyil, yumuşaq bacarıqların da çatışmazlığını tənqid etmişdilər. Təhsil sistemi işəgötürənlərin əksəriyyətinin, əlaxsus da müasir innovasiyalı firmaların ehtiyaclarını qarşılaya bilmir, əsasən də gənc iş axtaranları iş yerlərində ehtiyac duyulan praktiki bacarıqlarla təmin etmir və ümumiyyətlə müasir biliklər vermir. İşəgötürənlər yalnız texniki və iş bacarıqları deyil, həm də qavrayış bacarıqları və sosial-davranış keyfiyyətləri tələb edirlər.

Əmək bazarında çoxlu sayda işaxtaranın mövcudluğuna baxmayaraq işçi tapmaqda çətinliyin olmasının müxtəlif səbəbləri vardır, lakin ən başlıcası bacarıq çatışmazlığıdır. Sorğuda iştirak edən firmaların 70-80%-i mütəxəssis və texnik,

---

[57]Rutkowski, J. J. Demand for skills: [Electronic resource] / Main results of the Azerbaijan STEP employer survey (English). – Washington, D.C. World Bank Group. – 2015. –10 p. https://openknowledge.worldbank.org/bitstream/handle/10986/22508/Demand0for0ski0STEP0employer0survey.pdf?sequence=1&isAllowed=y

60%-ə qədəri maşın (dəzgah) operatoru və montajçılarda tələb olunan bacarıqların çatışmadığını qeyd edirlər. Mütəxəssisləri işə götürərkən bacarıq qıtlığı ilə ənənəvi firmaların 34%-i rastlaşırsa, innovasiyalı firmaların 60%-i qarşılaşır. Qeyd edək ki, sorğuda iştirak edən 316 iri firmanın əksəriyyəti ticarət (42%), istehsal və İKT (hərəsi 16%), inşaat (9%), qalan 17 % digər sektorlara aiddir.

Beləliklə də, nəticələrin təhlili işaxtaranlarda bacarıq çatışmazlığı probleminin olduğunu və işəgötürənlərin təhsilin keyfiyyətinə tənqidi münasibət bildirdiyini göstərir. Onların fikrincə, Azərbaycanın gənc kadrlarında əsasən 3 qrup bacarıqlar çatışmır: müvafiq texniki bacarıqlar, yüksək koqnitiv bacarıqlar (əsasən problemçözmə), sosial davranışla bağlı bacarıqlar (liderlik, komanda işi, effektiv ünsiyyət). Buna görə də onlar təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına və təhsil sisteminin fəaliyyətinin əmək bazarının ehtiyacları ilə daha yaxşı uzlaşdırılmasına ehtiyac olduğunu bildirirlər.

Oxşar nəticələr 2013-cü ildə rusiyalı işəgötürənlərlə aparılmış sorğuda da özünü göstərmişdir. Sorğu iştirakçıları əsas bacarıqlara strateji və cari planlaşdırmanı, qeyri-standart qərarlar vermək və yaranmış problemləri çevik həll etmək, liderlik keyfiyyətlərini və s. aid etmişlər. Kadrı işə qəbul edərkən işəgötürənlər onların peşəkar bacarıqları ilə yanaşı vicdanlılıq, müstəqillik, problem həlletmə və əməkdaşlarla səmərəli qarşılıqlı münasibətlər qurmaq kimi qabiliyyətlərinə də diqqət yönəldirlər. İnnovasiyalı və ənənəvi şirkətlərin tələbləri koqnitiv və sosial bacarıqlara görə fərqlənir, innovasiyalı müəssisələrdə

kadrlardan daha çox qeyri-standart qərarlar qəbul etmək, yeni ideyalara açıq olmaq, liderlik keyfiyyətləri tələb olunur[58].

Qeyd olunan keyfiyyətlər yalnız yüksək ixtisas təhsilli işçilərə deyil, fəhlə peşələrinə də aiddir. Kreativ düşünmə qabiliyyətli, vicdanlı, problem həll etməyi bacaran, liderlik və müstəqil işləmə bacarıqlarına malik müasir kadrlara həm Azərbaycan, həm də Rusiya şirkətlərində böyük tələbat vardır.

Beləliklə də, işəgötürənlər tərəfindən işəqəbul zamanı rəhbərlikdən tutmuş inzibati heyətə qədər bütün kateqoriyalardan olan müasir kadrlarda koqnitiv və sosial- davranış bacarıqlarının olmasına üstünlük verilir.

Təhsil sisteminin müxtəlif səviyyələri yuxarıda sadalanan ayrı-ayrı bacarıqlar qrupuna cavabdeh olmalıdır. Sosial-davranış qabiliyyətləri hələ lap erkən yaşlardan formalaşdırılmağa başlamalı və get-gedə daha da inkişaf etdirilməlidir. Koqnitiv bacarıqlar yuxarı siniflərdə aşılanmalıdır, peşə və ixtisas təhsilinin vəzifəsi isə hazırlanan mütəxəssislərə ixtisasın öyrədilməsi və bununla yanaşı onlarda lazımi texniki bacarıqların inkişaf etdirilməsidir.

Lakin işəgötürənlərin istədikləri kadrları tapa bilməməklərinin səbəblərindən biri də odur ki, onlar tələb etdikləri bacarıqların müqabilində qeyri-adekvat əməkhaqqı təklif edirlər və bir neçə işçinin yerinə yetirməli olduğu vəzifə öhdəliklərini bir ştatda cəmləşdirmək istəyirlər. Deməli, məsələ yalnız təhsilin qeyri-adekvatlığında deyil, həm də işəgötürənlərin özlərinin

---

[58]Дудырев, Ф.Ф. Система профессионального образования: как научиться слышать сигналы рынка труда? / Ф.Ф.Дудырев, О.А.Романова, А.И.Шабалин // Национальный исследовательский университет «Высшая школа экономики», Институт образования (Серия: Современная аналитика образования № 1 (18)). –М.: НИУ ВШЭ, – 2018, –44 с., s. 33

yanaşma tərzindədir. Onların tələbləri peşələrdən daha çox bacarıqlara, özü də peşə bacarıqlarından da çox şəxsi bacarıqlara (ünsiyyət, stresə davamlılıq, basqı altında işləmə, problem həlletmə, eyni vaxtda bir neçə işi görmə, idarəetmə və s.) qarşı yönəlib.

2024-cü ildə Dövlət Məşğulluq Agentliyi tərəfindən işəgötürənlərlə keçirilmiş sorğu nəticələrinə əsasən onlar işə qəbul zamanı ali təhsilli kadrlara üstünlük verməlᴇrinə baxmayaraq, ixtisasın vakansiyaya uyğunluğuna o qədər də əhəmiyyət vermir, yüksək bacarıqların olmasını daha önəmli hesab edirlər.[59]Yaxşı olardı ki, işəgötürənlər hansı peşələrə və bacarıqlara ehtiyacları varsa, ümumi şəkildə öncədən bildirsinlər və onlara lazım olan kadrların hazırlanmasında bilavasitə iştirak edərək təhsil sisteminə hərtərəfli dəstək olsunlar.

**Peşələrlə bağlı dəyişən tələbin və proqnozların təhlili**

Gələcəkdə hansı peşələrə tələbatın artacağı və hansı peşələrə ehtiyacın azalacağı barədə dəqiq proqnoz vermək mümkün olmasa da iqtisadiyyatdakı inkişaf meylləri, qlobal trendlərin araşdırılması və sorğular müəyyən mülahizələr irəli sürməyə imkan yaradır. Elektronikanın və robototexnikanın inkişafı, rəqəmsallaşmanın artması, internetin get-gedə iqtisadiyyatın daha da ayrılmaz hissəsinə çevrilməsi bu sahələrdə həm tənzimləyici, həm idarəedici, həm də mühafizəedici kadrların, özü də get-gedə daha təkmilləşdirilmiş kadrların hazırlanmasını tələb edir.

[59] Əmək bazarı bülleteni №1. Əmək bazarında tələb olunan əsas bacarıqlar. https://dma.gov.az/storage/m-k-bazar-blleteni-1.pdf

Azərbaycan da dünya iqtisadiyyatının bir üzvüdür, dünyada baş verən dəyişikliklər ölkəmizdən də yan keçməyəcək. Buna görə də beynəlxalq əmək bazarında baş verən trendlərin öyrənilməsinə ehtiyac vardır. Bu məqsədlə Dünya Bankının və Dünya İqtisadi Forumun (DİF) hesabatlarının və ekspert yanaşmalarının təhlilindən faydalanmaq olar.

DİF tərəfindən 2023-cü ildə şirkətlərlə keçirilmiş "İşlərin gələcəyi" sorğuları əsasında 2023-2027-ci illərdə ən çox tələbat artacaq peşələr proqnozlaşdırılmışdır. Bunlar aşağıdakılardır: süni intellekt və maşın öyrənmə mütəxəssisləri; davamlılıq mütəxəssisləri; biznes kəşfiyyatı analitikləri; informasiya təhlükəsizliyi analitikləri; FinTech mühəndisləri; DevOps mühəndisləri; robototexnika mühəndisləri; böyük məlumat mütəxəssisləri (*big data*); verilənlər bazası yaradıcıları (*database architects*); məlumat analitikləri və alimlər; rəqəmsal transformasiya mütəxəssisləri; proqram təminatı və tətbiqlər tərtibatçıları; elektron-ticarət, rəqəmsal marketinq, strategiya mütəxəssisləri; dizaynerlər; biznes inkişafı mütəxəssisləri; texniki mütəxəssislər; inşaat işçiləri; risklərin idarə edilməsi üzrə mütəxəssislər; proseslərin avtomatlaşdırılması mütəxəssisləri; memarlar və tədqiqatçılar; layihə menecerləri; bərpa olunan enerji mühəndisləri; günəş enerjisi quraşdırma və sistem mühəndisləri; elektrotexnologiya, sənaye və istehsalat mühəndisləri; kimya mühəndisləri; inşaat mühəndisləri; metalkonstruksiya işçiləri; qəlibçilər; qrafik dizaynerlər; təchizat zənciri və logistika mütəxəssisləri; əşyaların interneti mütəxəssisləri; maliyyə və investisiya məsləhətçiləri; ağır yük maşınları və avtobus sürücüləri; reklam və ictimaiyyətlə əlaqələr mütəxəssiləri; kənd təsərrüfatı avadanlıqları operatorları; ali təhsil müəllimləri; peşə

təhsili müəllimləri; xüsusi təhsil müəllimləri; elektrik avadanlıqlarının quraşdırıcıları və təmirçiləri; kulinarlar və s.[60].

Qeyd edək ki, Dünya İqtisadi Forumu 2023-cü il İşlərin Gələcəyi Sorğusunda BƏT-in 820 milyon işçidən ibarət qlobal məlumat dəstindən istifadə edərək 673 milyon iş yerinin əmək bazarı perspektivlərini təhlil etmişdir. Təhlil nəticələrinə görə, 2023-2027-ci illər ərzində 69 milyon yeni iş yeri yaradılacaq, mövcud iş yerlərinin isə 83 milyonu ləğv ediləcək. Bu isə dünya əmək bazarında iş yerlərinin sayının 14 milyon azalması və məşğulluq səviyyəsinin 2% aşağı düşməsi deməkdir.

Sorğunun nəticələri (cədvəl 3.2.1.) göstərir ki, 2023-2027-ci illərdə iş yerlərinin ən yüksək artımı *kənd təsərrüfatı avadanlıqları operatorları, ağır yük maşınları və avtobus sürücüləri* və *peşə təhsili müəllimləri* üçün olacaq.

Cədvəlin ikinci sütununa nəzər salsaq, *məlumatların daxil edilməsi üzrə məmurlar, inzibati və icraçı katiblər, mühasibat uçotu və əməkhaqqı işçilərinin* məşğulluqda ən çox azalmaya məruz qalacağı gözlənilir. Ləğv eidləcəyi gözlənilən iş yerlərinin yarısından çoxunu məhz, bu üç iş növləri təşkil edir.

Qlobal əmək bazarında baş verən dəyişikliklərə Azərbaycan da uyğunlaşmalıdır. Lakin yuxarıda proqnozlaşdırılan iş yerləri itkisi və məşğulluq səviyyəsinin aşağı düşəcəyi barədəki bədbin proqnozları respublikamıza aid etmək düzgün olmazdı. İşğaldan azad olunmuş ərazilərimizin potensialını nəzərə alsaq, əksinə Azərbaycanda iş yerlərinin sayının artacağı və bununla da məşğulluq səviyyəsinin yüksələcəyi gözləniləndir.

---

[60]Future of jobs report 2023. – World Economik Forum. May 2023. https://www3.weforum.org/docs/WEF_Future_of_Jobs_2023.pdf., s. 28

**Cədvəl 3.2.1. 2023-2027-ci illərdə iş yerləri barədə proqnoz**

| Aşağıdakı peşələr üzrə iş yerlərinin sayı artacaq: | Aşağıdakı peşələr üzrə iş yerlərinin sayı azalacaq: |
|---|---|
| ♦*Kənd təsərrüfatı avadanlığı operatorları;*<br>♦*Ağır yük maşınları və avtobus sürücüləri;*<br>♦*Peşə təhsili müəllimləri;*<br>♦*Mexanika və maşın təmirçiləri;*<br>♦*Biznesin inkişafı üzrə mütəxəssislər;*<br>♦*Tikinti karkasları və əlaqəli peşələr işçiləri;*<br>♦*Universitet və ali təhsil müəllimləri;*<br>♦*Elektrotexnologiya mühəndisləri;*<br>♦*Metal konstruksiya işçiləri, qəlibçilər və qaynaqçılar;*<br>♦*Xüsusi təhsil müəllimləri;*<br>♦*Yüngül yük maşını və ya çatdırılma xidmətləri sürücüləri ;*<br>♦*Rəqəmsal transformasiya mütəxəssisləri;*<br>♦*İnşaat işçiləri;*<br>♦*Davamlı inkişaf üzrə mütəxəssislər;*<br>♦*Rəqəmsal marketinq və strategiya mütəxəssisləri.* | ♦*Məlumat daxil edən işçilər;*<br>♦*İnzibati və məsul katiblər;*<br>♦*Mühasibat uçotu, mühasibatlıq və əmək haqqı işçiləri;*<br>♦*Mühafizəçilər;*<br>♦*Bina baxıcıları və xadimələr;*<br>♦*Kassirlər və bilet işçiləri;*<br>♦*Materialların uçotu və anbarların saxlanması üzrə işçilər;*<br>♦*Montaj və fabrik işçiləri;*<br>♦*Poçt xidmətinin işçiləri;*<br>♦*Bank işçiləri və əlaqəli işçilər;*<br>♦*Mağaza satıcıları;*<br>♦*Telemarketlər;*<br>♦*Müştəri məlumatları və müştəri xidməti işçiləri;*<br>♦*Biznes xidmətləri və idarəetmə menecerləri;*<br>♦*Qapıdan qapıya satış işçiləri, xəbərlər və küçə satıcıları və əlaqəli işçilər.* |

*Mənbə:Dünya İqtisadi Forumunun"İşlərin Gələcəyi Sorğusu 2023". səh. 31.* [60].

Azad olunmuş kənd və şəhərlərimizdə yaşayışın və infrastrukturun bərpası iqtisadiyyatın əksər sahələri üçün, xüsusilə, kənd təsərrüfatı, inşaat, tikinti, emal sənayesi, nəqliyyat, turizm, ictimai iaşə və digər xidmət sahələri üçün işçi qüvvəsinə tələbatı yüksəldəcək.

Burada əsas məsələ ondan ibarətdir ki, azad olunmuş ərazilərdə yaşayacaq insanların potensialından səmərəli istifadə olunsun. Əgər həmin regionlarda yaşayanlar oranın əmək bazarının kadr ehtiyaclarını qarşılamayacaqsa, kadrlar kənar regi-

onlardan gətirilməli olacaq. Bu isə ümumilikdə ölkədə məşğulluq səviyyəsinin artması üçün müsbət haldır, lakin bu bölgədə yaşayanların işsiz qalması deməkdir. Bunları öncədən nəzərə almaq və yeni yaradılacaq iş yerləri barədə məlulmatları toplayaraq, məhz həmin ərazidə yaşamağa hazırlaşanların arasından gələcək kadrlar seçilməli, lazım gəldiyi təqdirdə onlar üçün peşə təlimi, ixtisasartırma, yenidənhazırlanma kursları təşkil edilməlidir. Təbii ki, işğaldan azad olunmuş ərazilərdə Məşğulluq Mərkəzləri fəaliyyət göstərəcək və Azərbaycan Respublikasinin İşğaldan Azad Edilmiş Ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramında nəzərdə tutulduğu kimi, Regional Peşə Tədris Mərkəzləri, ali, orta ixtisas və peşə təhsil müəssisələri yaradılacaq. Ondan sonra yerli əmək bazarının ehtiyaclarına uyğun kadrların böyük hissəsinin elə orada hazırlanması da mümkün olacaqdır.

Kadr hazırlığı planlaşdırılarkən nəzərə alınması mühüm olan digər məsələlər də vardır. Son dövrün ən aktual məsələlərindən biri iqlim dəyişiklikləri nəticəsində yaranan problemlərin aradan qaldırılması ilə bağlıdır. İqlim şəraitinin belə bir vəziyyətə çatması, yəni qlobal istiləşmə, parnik effekti adlanan şəraitin formalaşması həm də insan fəaliyyəinin nəticəsidir. Belə ki, texnoloji inkişaf, artan texnikalar, maşınlar, internet bir tərəfdən həyatımıza asanlıq gətirirsə, digər tərəfdən də bunlar  hamısı təbiətə və ətraf mühitə, eləcə də sağlamlığımıza öz mənfi təsirlərini göstərir. Yaranmış vəziyyətdən çıxış yolu tapmaq üçün tərəfdaş ölkələr araşdırmalar aparır, birgə tədbirlər həyata keçirirlər. Ancaq bu vəziyyətin nə qədər davam edəcəyi məlum deyil, istənilən halda vəziyyəti idarə etməyi bacarmalıyıq.

Qlobal problemə çevrilmiş iqlim dəyişiklikləri ilə bağlı yaranmış məsələlərin həllində təhsilin də böyük rolu vardır. Təhsilin rolu əsasən yaranmış vəziyyətə uyğunlaşmağı bacaran və baş verə biləcək fəsadların qarşısını alacaq kadrların hazırlanmasından, xüsusilə də belə bir şəraitdə insanların rifahına töhfə verən peşəkarların yetişdirilməsindən ibarətdir.

Dünyada baş verən sürətli texnoloji inkişafı, iqtisadi həyatın bütün sahələrində rəqəmsallaşmanın genişlənməsini, əhali artımını, bu artımın ərzaq təminatının qarşılanması üçün süni qidaların, eləcə də geni dəyişdirilmiş məhsulların çoxalmasını, qlobal ekoloji problemləri və bütün bunların həyatımıza gətirdiyi mənfi dəyişiklikləri nəzərə alsaq, aydın məsələdir ki, gələcəkdə bu səpgidən problemlərlə məşğul olacaq peşəkar kadrlara tələbatın daha da artacağı gözlənilləndir. Dünyanı düşündürən ən vacib məsələ ilk növbədə insanların sağlamlığı, ərzaq təminatı, ekoloji təhlükəsizliyi, bir sözlə, həyat səviyyəsinin yaxşı olması ilə bağlıdır. Texnoloji inkişaf və rəqəmsallaşma əlbəttə ki, iqtisadi inkişafa təkan verir, bunlar öz yerində, lakin insanların normal yaşaması üçün ilk növbədə keyfiyyətli ərzaqlarla qidalanması gərəkdir, hansı ki, hazırki dövrdə çox ciddi problemə çevrilmişdir. Hətta belə demək olar ki, bir çox qidalar elə özləri insanların həyatı üçün təhlükə mənbəyini təşkil edir.

Ona görə də kənd təsərrüfatının və qida sənayesinin inkişafı müasir şəraitdə xüsusi diqqət tələb edir. Ölkə daxilində əhalinin ərzaq təminatını ödəyəcək qədər orqanik məhsulların yetişdirilməsi, təmiz və keyfiyyətli ərzaq məhsullarının hazırlanması çox vacib məsələlərdəndir. Bu baxımdan indiki dövr üçün ən aktual və lazımlı peşələrdən bitkiçilik, heyvandarlıq mütəxəssisləri, qida təhlükəsizliyi üzrə mütəxəssislər, qida mühən-

disləri, ümumiyyətlə, qida sənayesi üçün istənilən təhsil səviyyəsində peşəkar kadrların hazırlanması çox vacibdir.

Bundan başqa, ekoloji vəziyyətin, ətraf mühitin, təbiətin qorunması və yaxşılaşdırılması ilə məşğul olacaq kadrlara ehtiyac vardır. İnternet həyatımızın vacib və ayrılmaz hissəsinə çevrildiyindən bu sahəni daha yaxşı bilən kadrlara ehtiyac getgedə daha da artır. Eyni zamanda internetin, rəqəmsallaşmanın sayəsində baş verməsi mümkün olan fəsadların qarşısını ala biləcək kadrlara (həmin texnologiyaların təbiətə və insanlara bu və ya digər mənada vuracağı zərərlərin, kiber hücumların qarşısını ala biləcək mütəxəssislər və s.) tələbat indi də var və daha da artması mümkündür. Maraqlıdır ki, abituriyentlər dünya iqtisadiyyatında və əmək bazarında baş verən dəyişikliklərdən xəbərdardırlarmı və peşə-ixtisas seçimi edərkən bunları nəzərə alırlarmı?

Əmək bazarı və kadr hazırlığı arasında müvafiqliyin möhkəmlənməsi üçün və eləcə də təhsil almış gənclərin ixtisas diplomu üzrə işlə təmin oluna bilməsi üçün ixtisas üzrə plan yerləri təklif olunarkən yerli vəziyyətlə yanaşı dünya əmək bazarında baş verən əsas trendlərin araşdırılaraq öncədən nəzərə alınması çox vacibdir. Bu, yalnız ali təhsil alanlara deyil, orta ixtisas və peşə təhsili alanlara da aiddir. Peşə və ixtisas təhsili alan hər kəsin məqsədi öz uğurlu karyerasını təmin etmək, daha yaxşı yaşamaqdır. Buna görə də çalışmalıyıq ki, gənclər dəyişən dövrün tələblərinə uyğun olan ixtisaslara yiyələnsinlər.

Beləliklə də texnoloji inkişaf, iqlim dəyişiklikləri şəraitində fəaliyyət göstərən iqtisadiyyatımızın inkişafı, əhalinin yüksək həyat səviyyəsinin təmin edilməsi üçün bu dəyişikliklərə uyğun olan kadrların hazırlanması vacibdir. Lakin texnologiyaları bilən, internetlə işləməyi bacaran, rəqəmsallaşama ilə ayaq-

laşan kadrlarla yanaşı, kənd təsərrüfatının və qida sənayesinin inkişafı üçün də peşəkar kadrlar hazırlanmalıdır. Texnologiyanın yeniliklərindən bəhrələnək deyərkən insan sağlamlığını və həyat keyfiyyəti, işləmək ehtiyacları, işsizliyin mənfi nəticələri ilə bağlı məsələləri də diqqətdən kənarda qoymamalı, məşğulluğu artırmaq üçün əməktutumlu sahələri inkişaf etdirmək və genişləndirmək məsələsi gözardı edilməməlidir. Bundan əlavə, bərpa olunan enerjidən istifadə imkanlarımızın həyata keçirilməsi üçün bu sahəyə uyğun ixtisaslı kadrların hazırlanması da çox vacib məsələlərdəndir.

08.01.2025-ci il tarixində Dünya İqtisadi Forumunun İşlərin gələcəyi barədə təqdim etdiyi yeni hesabatına görə 2030-cü ilə qədər 170 milyon yeni iş yerinin yaradılacağı, 92 milyon iş yerinin isə ləğv ediləcəyi gözlənilir[61]. Əvvəlki ilin bədbin proqnozları ilə müqayisədə bu çox müsbət gözləntilərdir. Hesabatda bildirilir ki, rəqəmsal texnologiyaların, süni intellektin geniş istifadəsi ilə əlaqədar “Big Data”, “AI” və həmçinin bərpaolunan eneji üzrə mütəxəssislərə ehtiyac artacaq. Digər tərəfdən isə həmin texnologiyaların əvəz etdiyi peşələrə tələbat azalacaq.

Gələcək dövr üçün kadr hazırlığı proqramları hazırlanarkən əmək bazarının ehtiyacları ilə birlikdə yuxarıda qeyd etdiyimiz məsələlərin də nəzərə alınması böyük əhəmiyyət kəsb edir.

[61] Future of Jobs Report 2025. INSIGHT REPORT. JANUARY 2025. https://reports.weforum.org/docs/WEF_Future_of_Jobs_Report_2025.pdf

## 3.3. Kadr hazırlığı və işədüzəlmə problemlərinə gənclərin münasibəti

***Ali təhsil alan gənclər arasında keçirilmiş sorğunun nəticələri.*** Gənclərin səmərəli məşğulluğunuun təşkil edilməsinin aktual məsələlərdən biri olduğunu nəzərə alaraq tərəfimizdən 2024-cü ilin may-iyun aylarında ali təhsilli gənclər arasında onlayn şəkildə məşğulluq sorğusu keçirilmişdir. Sorğunun keçirilməsində məqsəd ali təhsil alan gənclərin məşğulluğunun mövcud vəziyyətinin qiymətləndirilməsi, problemlərin kökünün aşkar olunması və onların aradan qaldırılmasına dair təklif və tövsiyələrin hazırlanmasıdır. Sorğu respublikamızın ali təhsil müəssisələrinin sonuncu kursunda əyani təhsil alan tələbələr arasında könüllülük prinsiplərinə uyğun keçirilmişdir.

Qeyd edək ki, bu sorğunun ölkəmizin ali məktəblərinin sounucu kurs tələbələri ilə aparılması ona görə nəzərdə tutulmuşdur ki, məhz onlar potensial işçi qüvvəsi kimi əmək bazarının astanasında olan gənclərdir. Hətta onlardan bir çoxu artıq əmək bazarına daxil olmuş və orada özünə müəyyən mövqe tutmuşdurlar.

Sorğuda respublikamızın 10-dan artıq dövlət və özəl aparıcı ali təhsil müəssisəsinin tələbələri iştirak etmişlər. Burada iştirak edənlər, iqtisadiyyat, pedaqoji, texniki, sosial və s. istiqamətlərdə  müxtəlif ixtisaslar üzrə təhsil alanlardır. Qeyd edək ki, sosial bir məsuliyyət hesab olunan sorğuda qadın cinsindən olan tələbələr daha aktiv olmuşlar. Belə ki, sorğuda iştirak etmiş 334 nəfərin 64,1 faizini qızlar təşkil etmişdir[62].

[62]Ali təhsil alan gənclər arasında məşğulluq sorğusu. May-iyun ayları 2024-cü il. https://forms.gle/E85vv3k3dnZMm3Nt9

Tədqiqatlarımız və müşahidələrimiz əsasında qeyd edə bilərik ki, səmərəli məşğulluğun olmamasının əsas səbəblərindən biri ilk növbədə gənclər arasında peşə seçiminin düzgün olmaması ilə bağlıdır. Bütün bunları daha öncəki yazılarımızda da dəfələrlə vurğulamışıq. Buna görə də bu sorğuda gənclərin peşə seçimini sərbəst edib etməmələrini, ali təhsil almaq meyllərini, gələcək iş həyatına, karyera quruculuğuna nə dərəcədə hazır olduqlarını aydınlaşdırmaq yönündə suallara yer vermişik. Sorğunun nəticələri aşağıdakı kimi olmuşdur.

*Ali təhsil almaqda əsas məqsədiniz nədir?* sualına 34,4% respondent “yüksək vəzifə tutmaq”, 33,5% “indiki karyeramda irəliləmək”, 21,6% “yüksək əmək haqqı ala bilmək” cavabını vermişlər. Digər cavab bölümü sərbəst cavablar üçün nəzərdə tutulmuşdur, burada: öz karyeramı düzgün qurmağı bacarmaq; öz işimi layiqincə yerinə yetirmək; professional olmaq; həyat imkanlarımı yaxşılşdırmaq; istədiyim ixtisasda işləmək; diplom almaq; sevdiyim peşəyə sahib olmaq; insanlığı, öz dünyamızı sevgi ilə gözəlləşdirmək; gələcəyə ümidli baxışlarla baxan insanların olmasına çalışmaq, cəmiyyəti inkişaf etdirmək; sosial iş üzrə ixtisaslaşmış mütəxəssis olmaq; sevdiyim fənni tədris etmək, gələcəyə savadlı şagirdlər yetişdirmək; ölkəmə və millətimə ali təhsilli bir insan kimi xidmət etmək; yüksək savadlı, istedadlı kadr olaraq yaxın gələcəkdə istədiyim karyeranı qurmaq; elmi biliklərimi daha da möhkəmləndirmək; ali təhsilli olmaq; gələcəkdə istədiyim səviyyədə ola bilmək; magistr təhsili alıb Universitetdə müəllim işləmək; özünü təkmilləşdirmə; dünyagörüşlü bir şəxsiyyət olmaq; savadlı, bilikli olub daha yaxşı işlərdə çalışmaq, yaxşı gələcəyə sahib olmaq; bəzi iş yerlərində orta ixtisas bitirmiş namizədlərin işə qəbul

edilməməsi kimi çox fərqli və bəzən də çox düşündürücü cavablar yazmışlar.




**Qrafik 3.3.1. Ali təhsil almaq məqsədləri**

Cavablardan göründüyü kimi düşünülmüş bir məqsədi olmadan ali təhsil alan gənclərimizin sayı az deyil, lakin cəmiyyətin inkişafını düşünən və konkret olaraq nə istədiyini bilən, vətənpərvərliyi yüksək olan gənclərimiz də vardır. Hətta əsgərlik problemi ilə bağlı ali təhsil aldığını açıq etiraf edənlər də olmuşdur ki, həqiqətən bu da günümüzün reallığıdır. Məhz bu məsələ ilə bağlı dövlətimiz tərəfindən qanunvericiliyə yenidən baxılmasına və məqsədyönlü tədbirlərin görülməsinə ehtiyac vardır. Məsələn, əsgərlikdən möhlət hüququnu digər təhsil pillələri üçün (peşə və orta ixtisas təhsili) də tətbiq etmək olar ki, oraya da oğlan abituriyentlərin marağı artsın.

*İxtisasınızı nəyə əsasən seçmisiz?* sualına 53,6% “Sevdiyim ixtisasdır”, 18% “Valideyinlərimin məsləhətinə əsasən seçmişəm”, 16,2% “Gəlirli ixtisasdır”, 12,3% isə “Nüfuzlu ixtisasdır” cavabını seçmişlər (qr. 3.3.2).




**Qrafik 3.3.2. İxtisas seçimi məqsədləri**

*Təhsilinizi magistraturada davam etdirmək istəyirsinizmi?* sualına cavab olaraq 45,5% respondent hazırki ixtisası üzrə davam etmək istədiyini; 23,4% digər peşə üzrə davam etmək istədiyini; 18,6% təlimlərdə iştirak edib sertifikat almaq istədiyini, 12,6% respondent isə təhsilini ümumiyyətlə davam etdirmək fikrində olmadığını bildirmişdir (qr. 3.3.3).




**Qrafik 3.3.3. Təhsilin davam etdirilməsi istəkləri**

*Əmək bazarı barədə məlumatlısınızmı?* sualına 29,9% müntəzəm maraqlanıram; 20,8 % məlumatım çox azdır; 10,5% seçdiyim ixtisasa tələbatın çox olduğunu düşünmürəm; 31,7% isə seçdiyi ixtisasa tələbatın çox olduğunu araşdırdığını bildirir (qr. 3.3.4). Deməli, tələbələrin əksər hissəsi əmək bazarı haqqında məlumatlıdırlar, çünki buna həm tədris prosesində yer verilir, həm də internet vasitəsilə lazımi informasiyaları əldə etmək mümkündür.




**Qrafik 3.3.4. Əmək bazarı ilə tanışlıq göstəriciləri**

*Özünüz üçün karyera planı qurmusunuzmu?* sualına 74,6% respondent bəli; 9,6% xeyr; 10,2% hələ buna hazır deyiləm; 5,7% plana ehtiyac duymuram cavablarını seçmişlər (qr. 3.3.5).




**Qrafik 3.3.5. Karyera planı qurulması göstəriciləri**

*Gələcək karyeranızı necə görürsünüz?* sualına 81,7% uğurlu olacağıma inanıram; 8,4% kənar dəstəyə ehtiyacım var; 7,8% şansa güvənirəm; 2,1% uğurlu olacağıma inamım azdır cavablarını vermişlər (qr. 3.3.6).




**Qrafik 3.3.6. Gələcək karyera gözləntiləri**

*Uğurlu karyera üçün nələr lazımdır?* sualına təqdim olunan cavablardan 65,9% bacarıq, peşəkarlıq; 60,8% davamlı özünü inkişaf; 50,3% yaxşı təhsil; 38% qətiyyət, təşəbbüskarlıq; 31,1% şans; 27,8% tanışlıq, dəstək; 37,4% bunların hamısı cavablarını vermişlər (qr. 3.3.7).




**Qrafik 3.3.7. Uğurlu karyera üçün lazım olan kriteriyalar**

Yuxarıdakı suala verilən cavabların içərisində "bunların hamısı" cavabını verənlər azlıq təşkil edir, əslində isə təqdim etdiyimiz cavabların hər birinin karyera quruculuğunda əhəmiyyəti vardır. Sadəcə olaraq ayrı-ayrı şəxslər üçün bunların yeri fərqli olacaq. Bacarıq və peşəkarlıq məsələsinə daha çox üstünlük verilmiş, yaxşı təhsilin olması isə 3-cü sırada yerləşir, bu onu göstərir ki, tələbələrin əksəriyyəti bazar iqtisadiyyatı şəraitində bacarıqlar daha önəmli rol oynadığını anlayır. Yaxşı təhsil alsaq, ancaq bacarıqlarımız olmasa potensialımızı reallaşdırmaqda çətinlik çəkəcəyik. Bu isə o deməkdir ki, karyera quruculuğunun uğurlu olması üçün emosional zəka intellektual zəkadan önə keçir. Deməli, biz gənclərə yalnız bilik verməklə kifayətlənməməli, onlarda emosional zəka inkişafına da çalışmalıyıq.

*Hal-hazırda işləyirsinizmi?* sualına 4,8% ixtisasım üzrə işləyirəm; 12% işləyirəm, ancaq ixtisasım üzrə çalışmıram;

63,2% ümumiyyətlə işləmirəm; 20,1% əvvəllər işləmişəm cavabını vermişlər (qr. 3.3.8).




**Qrafik 3.3.8. Ali təhsil alanların məşğulluq göstəriciləri**

Deməli, respondentlərin 36,8%-i tələbə olmalarına baxmayaraq artıq əmək bazarına daxil olmuş gənclərdir, lakin onların az bir qismi ixtisası üzrə işləyir. Sorğuda iştirak edən tələbələrin ən çox çalışdıqları vəzifələr aşağıdakılardır: satıcı, təcrübəçi, müştəri xidmətləri üzrə mütəxəssis, ofisiant, təlim və inkişaf üzrə kiçik mütəxəssis, təşkilati işlər üzrə təmsilçi, sosial işçi, assistent, qrafik-dizayner, təlimçi, repetitor, qarson köməkçisi, Sətəm uzrə muhəndis, nəzarətçi, kargüzar, fəhlə, yükvuran, armaturçu, proqramlaşdırıcı, inspektor, Fullstack developer, operator və s.

İşləyən tələbələrin əksər qismi ticarət mərkəzlərində, bank sektorunda, restoran şəbəkələrində, təlim kurslarında, usta və ya fəhlə işlərində, ASAN xidmətdə, Azercell MMC-də və müxtəlif dövlət idarələrində çalışdıqlarını qeyd etmişlər, onların arasında şəxsi və ya ailə biznesində çalışanlar da vardır.

*Hansı mənbələrə müraciət edərək iş tapmısınız?* sualına 1,8% respondent Məşğulluq xidməti vasitəsilə; 15% dostlarım tapıb; 18,9% internet elanı vasitəsilə tapmışam; 14,4% iş axtarmışam, ancaq tapmamışam; 50% isə hələlik iş axtarmamışam cavabını seçib (qr. 3.3.9).




**Qrafik 3.3.9. Gənclərin işədüzəlmə mənbələri**

*Gənclərin istədiyi işi tapa bilməməsinin səbəbi sizcə nədir?* sualına respondentlərin 65,3%-i işəgötürənlərin təcrübə tələb etməsi; 11,4% ixtisas üzrə bilik səviyyəsinin aşağı olması; 10,2% iş axtarışında kifayət qədər aktiv olmamaq; 8,4% bacarıq çatışmazlığı; 4,8% subyektiv amillərin olması kimi cavablar vermişlər (qr. 3.3.10).

Cavablardan gördüyümüz kimi gənclər ilk növbədə işəgötürənlərin əksəriyyətinin təcrübə tələb etməsini qınayırlar və haqsız da sayılmazlar. Qeyd edək ki, Məşğulluq idarəsindən götürdüyümüz sorğu zamanı da eyni cavablarla rastlaşmışdıq.




**Qrafik 3.3.10. Gənclərin iş tapa bilməməsinin əsas səbəbləri**

*Gənclərin məşğulluğunun artırılması yollarını necə görürsünüz?* sualına təqdim edilən cavablardan 57,8% iş yerlərinin sayını artırmaq vacibdir; 54,5% şirkətlərdə tələbələr üçün praktika keçmək imkanı yaradırmalı, təcrübəçi yerləri açılmalıdır; 36,8% gənclər özləri fəal və təşəbbüskar olmalıdır; 34,7% hər kəs öz sevdiyi peşəyə və bacardığı işə yönəlsə iş tapması daha asan olar; 34,7% ali təhsil alan gənclərə eyni zamanda hər hansı peşə (sənət) öyrənmək üçün şərait yaradılması əhəmiyyətli olar; 33,5% təhsilin keyfiyyətinin daha da artırılmasına ehtiyac var; 27,8% gənclərdə sahibkarlıq qabiliyyəti formalaşdırılmalıdır; 12,9% qəbul ballarının artırılması yaxşı olar (daha savadlılar ali təhsil alsın); 19,2% bunların hamısı cavablarını dəstəkləmişlər (qr. 3.3.11).




**Qrafik 3.3.11. Gənclərin məşğulluğunun artırılması yolları**

Məşğulluq problemlərinə gənclərin nöqteyi-nəzərindən yanaşmaq məqsədi ilə onların açıq cavablar yazması üçün yuxarıdakı suala digər cavablar bölümü nəzərdə tutulumuşdur. Bu bölümdə gənclər öz şəxsi düşüncələrinə uyğun maraqlı cavablar qeyd etmişlər. Bunlardan bəziləri aşağıdakılardır:

-Təlimlər zamanı həvəsləndirmə və maarifləndirmə işləri daha yüksək səviyyədə həyata keçirilməlidir. Gələcəkdə keçdikləri təlimlərin onlara necə yararlı olacağı və bu işlərin əmək haqqları barədə məlumatlar daha geniş olmalıdır.

-İş yerlərinin təcrübə istəməsi gənclərin işsiz qalmasına səbəb olur. Universiteti bitirən gənc hansı müəssisəyə müraciət edirsə staj tələb edirlər. İş yerlərində təcrübəçi kimi işə götürüb sonra da daimi işlə təmin etsələr daha effektiv olar.

-Bacarıqlı, öz üzərində işləyən gənclərə şans yaradılmalıdır, görüb keçirlər,  ya da məsləhət verirlər ki, savadlısan çox yaxsı yerlərə gələ bilərsən, heç kəs özü gəncləri qabağa çəkmir.

-Ümumiyyətlə tələbələri əzbərçi sistemdən çıxarıb, ixtisasının inkişafı istiqamətində yetişdirmək lazımdır, praktiki və sosial biliklər önəmlidir.

-Rayonlarda yeni iş yerlərinin açılması vacibdir, çünki Bakıya iş axtarmaq üçün gələn rayon əhalisi çoxluq təşkil edir, Bakıda sıxlıq yaranır. Ali təhsil müəssisələri də rayonlarda açılsa orada insanların həm təhsil, həm iş ehtiyacı qarşılanar.

Belə rasional və əsl iqtisadçı kimi düşünmə tərzinə malik, eyni zamanda düzgün nəticə çıxarmağı bacaran gənclərimizin olması qürurvericidir. Həqiqətən, istedadlı gənclərə şərait yaradılmalıdır, onların potensialından düzgün və səmərəli istifadə olunmalıdır. Bu təkcə gənclərin özləri üçün deyil, həm də dövlətimizin və cəmiyyətimizin inkişafı üçün çox vacibdir.

**Sorğudan çıxan yekun nəticə, təklif və tövsiyələr**

İşəgötürənlərlə keçirilmiş sorğular göstərdi ki, onların nöqteyi nəzərincə təhsilin keyfiyyətinin artırılmasına və təhsil sisteminin əmək bazarının ehtiyacları ilə uzlaşdırılmasına ehtiyac var. Məşğulluq xidmətini işəgötürənlərin əksəriyyətinin göndərilən kadrlara biganəliyi, qoyduqları hədsiz kriteriyalar narahat edir. Gənc kadrlar isə işəgötürənləri onlara təcrübə üçün şərait yaratmamaqda qınayırlar. Gördüyümüz kimi Məşğulluq xidməti, işəgötürənlər və işaxtaranlar hər biri qarşı tərəfi günahlandırır.

Ali təhsil tələbələri ilə keçirdiyimiz sorğunun xüsusilə sonuncu sualını qoymaqda məqsədimiz məşğulluq problemlərini gənclərin gözü ilə görmək, çıxış yollarını bilavasitə onların özündən eşitmək idi. Belə cavablarla da az rastlaşmadıq, bu isə onu göstərir ki, gələcəyin tədqiqatçıları, analitikləri yetişir.

Onların fikirlərini nəzərə alaraq təsnifləşdirilmiş şəkildə aşağıdakı təklif və tövsiyələri irəli sürmək olar:

***-Təhsil sisteminin üzərinə düşən vəzifələr:*** tələbələrlə tədris zamanı həvəsləndirmə və maarifləndirmə işləri daha yüksək səviyyədə həyata keçirilməlidir. Aldıqları təhsilin və təlimlərin gələcəkdə gənclərə nə dərəcədə gərəkli və faydalı olacağı barədə məlumatlar daha ətraflı çatdırılmalı, tələbələrdə öz ixtisaslarına həvəs oyadılmalıdır. Tələbələri əzbərçiliyə öyrətmək yox, əmək bazarına tam hazırlıqlı olmaları üçün ixtisasının inkişafı istiqamətində yetişdirmək lazımdır, praktiki və sosial biliklərin aşılanması çox önəmlidir.

***-İşəgötürənlərin üzərinə düşən məsuliyyət:*** Təhsil müəssisəsini yenicə bitirib iş axtarışına çıxan gənclərin hər dəfə təcrübə tələbi ilə rastlaşması onlara mane olur və ruhdan salır. Yaxşı olardı ki, gənc kadrlar iş yerlərində təcrübəçi kimi işə cəlb olunub sonra da daimi işlə təmin edilsinlər. Xüsusilə də bacarıqlı, öz üzərində işləyən gənclərə şans yaradılmalıdır, özlərinin də qeyd etdiyi kimi sadəcə görüb keçməklə, ya da məsləhət verməklə kifayətlənmək olmaz.

***- Dövlətin və işəgötürənlərin birgə məsuliyyəti:*** Rayonlarda yeni iş yerlərinin açılması vacibdir, çünki Bakıya işləmək məqsədilə gələn rayon əhalisinin çoxluğu səbəbindən şəhərdə sıxlıq yaranır, bu, insanların həyat keyfiyyətinə də təsir edir. Ali təhsil müəssisələrinin rayonlara köçürülməsi orada insanların həm təhsil, həm də iş ehtiyacının qarşılanmasına kömək edər. Burada peşə təhsilinin də imkanlarından faydalanmaq nəzərdən qaçırılmamalıdır. Belə ki, sorğu zamanı 34,7 faiz respondent *“ali təhsillə yanaşı hər hansı peşə öyrənmək imkanı yaradılması”* barədə fikrimizi dəstəkləmişdi.

***-Gənclərin məsuliyyəti:*** Sorğuda iştirak edənlərin 36,8 faizi "*gənclər özləri fəal və təşəbbüskar olmalıdır*" cavab variantı ilə razılaşmışdı. Əlbəttə ki, gənclər özləri də çalışqan və axtarışçı, eyni zamanda təşəbbüskar olmalı, sevdikləri və bacardıqları peşə və ixtisasa yönəlməkdə qətiyyətli davranmalıdırlar. İxtisas üzrə qəbul olunduqdan sonra isə öz işlərinin peşəkarı olmaq üçün çox səy göstərməlidirlər. Sonrasında isə doğru karyera planı qurmalı, əlçatan hədəflər qoymalı, iqtisadi fəaliyyət sahəsini düşünülmüş şəkildə seçməli, karyera yolunda həm şəxsi, həm də ictimai mənafeləri uzlaşdırmağı bacarmalı, əzmkar olmalıdırlar.

# FƏSİL IV. ƏMƏK BAZARINDA MƏŞĞULLUĞUN TƏMİN OLUNMASINDA PEŞƏ-İXTİSAS TƏHSİLİNDƏN İSTİFADƏNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

## 4.1. Məşğulluğun yaxşılaşdırılmasının prioritet istiqamətləri

1990-cı ildən 2021-ci ilədək dünyanın müxtəlif ölkələrində Dünya Bankı və BƏT tərəfinədən gənclərə yönəlik 220-dən çox aktiv əmək bazarı proqramları icra olunmuşdur. Bu proqramlar sayəsində aşağı və orta gəlirli ölkələrdə gənclərin məşğulluğu və əmək haqqları nəzərəçarpacaq dərəcədə artmışdır.[63]

Dünya Bankı ekspertlərinin araşdırmalarına görə müəyyən olunmuşdur ki, məşğulluq xidmətinə və subsidiyalaşdırılmış məşğulluğa yönəldilmiş investisiyalarla müqayisədə bacarıqların öyrədilməsi və sahibkarlıq qabiliyyətinin artırılması ilə bağlı tədbirlər gənclərin məşğulluğuna daha effektiv təsir göstərir. Yüksək gəlirli ölkələrdə ixtisasartırma və əməkhaqqlarının subsidiyalaşdırılması əhəmiyyətli təsirə malik olduğu halda, aşağı və orta gəlirli ölkələrdə sahibkarlığın və məşğulluğun dəstəklənməsi daha yaxşı təsirə malikdir. Aşağı və orta gəlirli ölkələrdə yumuşaq bacarıqlarla bağlı sertifikat aldıqdan sonra gənclərin əmək bazarında vəziyyəti daha yaxşıya doğru dəyişir.

---

[63]Susana Puerto, Jonathan Stöterau, Michael Weber, and Chiara Curcio. Active Labour Market Programs Improve Employment and Earnings of Young People. 2024 May. https://doi.org/10.54394/YRZF8613
https://www.ilo.org/publications/active-labour-market-programs-improve-employment-and-earnings-young-people (müraciət olunub 22.06.2024)

Dünya üzrə məşğulluqdan və təhsildən kənarda qalan gənclərin sayı da çoxdur, onların yaşayış vəziyyətinin düzəldilməsi üçün təhsilə cəlb olunmaları və bacarıqlarının artırılması istiqamətində beynəlxalq fondlar tərəfindən yüksək miqdarda maliyyə vəsaitləri ayrılır. Gənclər arasında işsizliyin və təhsildən kənarda qalma hallarının azaldılması Avropa İttifaqı üçün də mühüm məqsədlərdən biridir. Avropa Komissiyası üzv dövlətlərini gənclərin məşğulluğuna əsaslı sərmayə qoymağa çağırır.

Uzun illərdir ki, gənclərin məşğulluğunun dəstəklənməsi üçün üzv dövlətlərdə müxtəlif layihə və proqramlar icra olunur. 2013-cü ildə yaradılmış və 2020-ci ildə gücləndirilmiş Gənclər Zəmanəti (The Youth Guarantee) proqramı gənclərin işsizliyi və fəaliyyətsizliyi ilə mübarizə üçün Aİ-nin istinad siyasəti çərçivəsini təşkil edir. Proqramın prioritet məqsədi gənclərin ixtisaslarının artırılmasına şərait yaratmaqla əmək bazarında tələb olunan peşə bacarıqları ilə təchiz etmək və bununla da məşğulluq vəziyyətinin yaxşılaşdırılmasıdır.[64]

Beynəlxalq təcrübələr də göstərir ki, gənclərin məşğulluğunun yaxşılaşdırılması onların təhsil alma imkanlarının artırılması ilə bilavasitə bağlıdır, başqa sözlə əmək bazarı və kadr hazırlığı bir-biri ilə sıx vəhdətdə fəaliyyət göstərməlidir. Bu baxımdan məşğulluğun səmərəliliyinin artırılması üçün bir tərəfdən əmək bazarının fəaliyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər görülməlidirsə, digər tərəfdən də əmək bazarının səmərəli fəaliyyətinə nail olmaq üçün onun ehtiyaclarına uyğun kadr hazırlığının təşkili vacibdir.

[64]Youth employment support.https://employment-social-affairs.ec.europa.eu/policies-and-activities/european-employment-strategy/youth-employment-support_en

Məşğulluq problemi demək olar ki, Azərbaycanda artıq əvvəlki dövrlərdəki qədər kəskin deyildir, yəni, sadə dildə desək iş tapmaq mümkündür, lakin səmərəli məşğulluğun olması üçün layiqli işi tapmaq lazımdır. Bu isə hazırki vəziyyətdə ilk növbədə regionların inkişafı, oradakı potensial imkanların istifadəsi ilə mümkündür. Yalnız əmək ehtiyatlarının regionlar üzrə, oradakı iqtisadi inkişaf nisbətində optimal bölgüsünü həyata keçirmək buna imkan yaradar. Təkcə Bakı və Abşeron iqtisadi rayonunda iş yerlərinin artması ilə biz istədiyimiz iqtisadi inkişafa və əhalinin səmərəli məşğulluğunun təmin olunmasına nail ola bilmərik. Rayonlardan, kəndlərdən əhalinin mərkəzə axını hələ də davam edir, evlər boşalır, kənd təsərrüfatı üçün yararlı torpaqlar istifadəsiz qalır. Buna görə də stimullaşdırıcı tədbirlərlə investisiya qoyuluşları rayonlara, kəndlərə yönəldilməlidir ki, geriyə axın baş versin.

Bu baxımdan *ali təhsil müəssisələrinin mümkün olanlarının regionlara köçürülməsi* reallaşarsa qeyd edilən məsələdə böyük irəliləyişə səbəb ola bilər. Eləcə də *Regional Peşə Təhsil Mərkəzlərinin sayının artırılması* vacibdir. Əgər rayonlarda gəlir əldə etmək üçün şərait yoxdursa biz insanları gedib orada yaşamağa məcbur edə bilmərik. Lakin qeyd etdiyimiz kimi, *regionlara yüksək investisiya qoyuluşları* və orada peşə və ixtisas təhsili müəssisələrinin yerləşdirilməsi baş verərsə, bu, elə regionlarda iş yerlərinin artması və insanların könüllü şəkildə oraya axını deməkdir. İnsanların Bakıya miqrasiya etməsinin səbəblərini aydınlaşdırsaq görərik ki, onları öz rahat ev şəraitlərini, qoyub şəhərdə ailəsindən uzaqda yaşamağa məcbur edən səbəb ilk növbədə qazanc əldə etməkdir.

Sorğular və reytinq göstəriciləri sübut etdi ki, ali təhsil alanların heç də hamısı aldığı ixtisas və təhsil səviyyəsinə uyğun işlərdə çalışmırlar. Lakin ali təhsil üçün böyük vəsait sərf olunur, həm dövlət, həm də vətəndaşlar tərəfindən investisiyalar yatırılır. Fikrimizcə, ali təhsil almış şəxs öz təhsil səviyyəsindən aşağı və hətta bəzən heç bir ixtisas tələb olunmayan işdə çalışırsa onun təhsilinə qoyulmuş investisiya özünü doğrultmayıb. Həmin investisiyanı daha səmərəli şəkildə istifadə etmək olardı. Lakin bu o demək deyil ki, biz ali təhsilin əleyhinəyik, ona investisiya qoyulmamalıdır. Lakin keyfiyyətsiz və nəticə verməyən, sadəcə olaraq diplomla məhdudlaşan təhsilin heç bir faydası yoxdur. Ölkəyə savadlı ali təhsilli kadrlar lazımdır, ancaq onlar həm də əmək bazarının tələbatlarına uyğun saylarda və keyfiyyətdə olmalıdırlar. Təhsil alanın özü üçün də vacib son nəticə müvafiq iş təminatının əldə edilməsidir.

III fəsildə baxdığımız kimi, ali təhsil alanların sayı ilbəil artsa da onların sayına görə MDB ölkələri ilə müqayisədə Azərbaycan hələ də aşağı yerlərdədir. Buna görə də keyfiyyətli peşə təhsili alanların sayını artıra bilsək (təbii ki, ilk növbədə peşə və ixtisas təhsilindən kənarda qalan gənclərin cəlb edilməsini nəzərdə tuturuq) və onlara güzəştlər tətbiq etsək, bu gənclərin arasından sonradan ali təhsil pilləsində davam edənlərin də sayı çox olacaq. Necə ki, subbakalavr diplomu ilə ali təhsilə güzəştli keçid tətbiq olunduqdan sonra kollec məzunlarının get-gedə daha çox hissəsi ali təhsil almağa həvəs göstərirlər. Müsbət haldır ki, 2018-ci ildən peşə təhsili pilləsində yüksək texniki peşə təhsili səviyyəsi müəyyən olunub və oranı bitirən məzunlara subbakalavr dərəcəsi verilir, indi artıq yüksək texniki peşə təhsilini bitirənlərin böyük hissəsi ali təhsil

pilləsində davam etməyə üstünlük verir. Bütün bunlar bir tərəfdən peşə təhsilinə marağı artırırsa, digər tərəfdən də ali təhsil alanların sayında dinamikanın hələ davam edəcəyini göstərir.

Lakin bu artım təkcə kəmiyyətdə yox, keyfiyyətdə də özünü göstərməlidir, əks halda onların sayının artmasının iqtisadiyyat üçün və yaxud gənclərin özləri üçün böyük bir əhəmiyyəti olmayacaq, hətta bir çox hallarda bunu sərmayə və vaxt itkisi hesab etmək olar.

Ayrı-ayrı ixtisaslar üzrə dövlət sifarişi ilə ölkəmizin ali təhsil müəssisələrində hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı 2100-9000 manat arası dəyişir[65]. Məsələn, iqtisadiyyat, menecment, maliyyə ixtisasları üzrə illik xərclər 2200 manat təşkil edir. Bu, 4 il ərzində 8800 manat deməkdir, hansı ki, dövlətin qoyduğu investisiyadır, əgər onun üzərinə gəlsək valideynlərin repetitor xərclərini, məsələn, 2-3 il ərzində 3-6 fəndən 3-6 repetitor yanında hazırlaşan şəxs üçün hər fənni orta hesabla 100 manatdan hesablansa təqribən 10000-20000 manat edər. Beləliklə ən aşağı hədlə götürsək: 8800 manat dövlət xərci +10000 manat şəxsi xərclər =18800 manat alarıq. Hələ burada dəqiq hesablanması mümkün olmayan yol xərcləri, itirilmiş vaxt, həmin vaxt ərzində qazanılmamış gəlir və s. amillər də vardır. Ödənişli təhsil alanlar üçün həmin xərclər yalnız ailələrin üzərinə düşür. Gənc kadr əgər ona uğur gətirməyən ali təhsili alıb ixtisas tələb olunmayan vəzifədə çalışırsa təhsilinə qoyulmuş həmin sərmayələr boşuna xərclənmiş olacaq. Halbuki bu məbləğlə

[65]Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi haqqında Azərbaycan Respublikasi Nazirlər Kabinetinin qərari https://e-qanun.az/framework/20015

gəlir gətirən daha faydalı yatırımlar etmək olardı. Diplom sahibi olub iş tapa bilməyən və yaxud ixtisassız vəzifələrdə çalışan gənclər elə həmin vəziyyətdədirlər və belələrinin sayı heç də az deyil.

Bir məsələni də qeyd etmək lazımdır ki, ***formal təhsilin qeyri-adekvatlığı nəticəsində qeyri-formal təhsilin rolu artır***. Xüsusilə də özəl sektorda vakansiya tələbləri içərisində xüsusi təlimlərdə iştiraka və sertifikatlara bəzən rəsmi dövlət sənədindən – diplomdan daha çox önəm verilir. Əmək bazarında tələb olunan bacarıqların təhlili məqsədilə Dövlət Məşğulluq Agentliyinin 138 şirkətlə keçirdiyi sorğuda məlum olmuşdur ki, işəgötürənlərin 51,5 faizi rəhbərlər üçün, 41,3 faizi mütəxəssislər üçün, 30,6 faizi inzibati və yardımçı heyət üçün müvafiq sahə üzrə təlim və sertifikasiyaların olmasını yetərli təhsil bazası kimi qəbul edirlər.[66]

Ali təhsilə 4-6 il sərf edən tələbə əmək bazarında tələb olunan bacarıqlara yiyələnmək və işə düzələ bilmək üçün bir neçə aylıq əlavə kurslara getmək məcburiyyətində qalır. Buna görə də həmin aktual bacarıqların bəzilərinin ali təhsil müəssisələrində öyrədilməsi mümkün olmasa da, tələbələrin nəzəriyyə ilə yüklənməsi əvəzinə mümkün olan digər praktiki bacarıqların öyrədilməsinə gaha çox çalışılmalıdır. Müasir əmək bazarının tələbləri bizə diqtə edir ki, nəzəriyyə və praktika bir-biri ilə yanaşı öyrədilməlidir (peşə təhsilində tətbiq olunan dual təhsil kimi). Tələbələrin özlərinin də istəyi budur. Ali təhsil tələbələri ilə apardığımız sorğu zamanı bir çox tələbələr universitetlərin tələbələri əzbərçi rejimdən çıxarıb daha lazımlı bacarıqların öyrədilməsinə fikir vermələrinin vacib olduğunu bildirmişdi-

---

[66] Əmək bazarı bülleteni №1. https://dma.gov.az/storage/m-k-bazar-blleteni-1.pdf

lər. İşəgötürənlərlə keçirilmiş sorğular isə göstərdi ki, onlar istədikləri səviyyədə işçilər tapa bilmədiklərini hansısa peşə və ixtisas üzrə kadrların olmaması ilə əlaqələndirməmiş, hazırlanan kadrların əksəriyyətində əsasən bacarıq çatışmazlığının olduğunu qeyd etmişdilər.

Ali təhsilli kadr hazırlığı peşə hazırlığına nisbətən uzunmüddətli olduğuna görə əmək bazarının dəyişən tələblərinə çevik uyğunlaşması, sürətlə inkişaf edən texnika və texnologiyalarla ayaqlaşa bilməsi çox çətindir. Burada təhsil proqramlarında çevik dəyişikliklər edilməsi və şirkətlərin dəstəyi olmadan praktiki bacarıqların öyrədilməsi və yaxud müəyyən kursda ixtisasını dəyişmək istəyən tələbələrin maraqlarının yerinə yetirilməsi üçün çox mürəkkəb mexanizm və gərgin iş tələb olunur. Buna görə də biz ali təhsildən qeyri-adi sıçrayışlar gözləyə bilmərik, ancaq ciddi təkmilləşdirmə işləri aparılarsa tədricən o çeviklik və variativlik formalaşa bilər.

Fikrimizcə, gənclər ümumi orta təhsildən sonra ilk olaraq peşə təhsili ilə hazırlanmağa başlasalar həm karyeralarında, həm də təhsil pillələri üzrə keçidi daha planlı şəkildə təmin edərlər. Belə olarsa müəyyən iş təcrübəsinə malik olan, əmək bazarı ilə tanışlıq əldə etmiş gənclər öz maraqlarına və qabiliyyətlərinə uyğun və gələcəkləri üçün daha uğurlu karyeranı təmin edən ixtisası seçə bilərlər, beləliklə də yanlış ixtisas seçimi və yuxarıda göstərdiyimiz sərmayə itkisi kimi uğursuzluqlara məruz qalmazlar. Ona görə ki, düşünülməmiş peşə-ixtisas seçimi etmiş gənclərin uğurlu karyera qurmaq şansları daha aşağı olur, dəqiq məqsədləri olmadığına görə plansız hərəkət edirlər, müvafiq sektorun, iqtisadi fəaliyyət sahəsinin və yaxud vəzifənin düzgün seçimində də çətinlik çəkirlər. Peşə seçimini

məqsədyönlü şəkildə, nə istədiklərini bilərək və sevərək etsələr və yaxud müəyyən işlərdə özlərini sınadıqdan sonra artıq əmək bazarında təcrübəyə və geniş məlumata malik şəxs kimi seçim etsələr ixtisası bitirdikdən sonra onlar üçün işədüzəlmə və karyera quruculuğu daha asan və səmərəli olar.

Hazırki halda ali təhsil sahəsinin təkmilləşdirilməsi üçün bir sıra islahatlar və inkişafyönümlü addımlar atılmalıdır. Sınaqdan çıxmış yaxşı təcrübələrin isə qorunub saxlanılması və yayılması vacibdir.

**Ali təhsilin keyfiyyətinin artırılması istiqamətləri**

*Tədris planı və proqramlarının yenilənməsi:* Ali təhsil müəssisələri üzrə təhsil proqramları məzmun və keyfiyyətcə müntəzəm şəkildə müasir əmək bazarının tələblərinə uyğunlaşdırılmalıdır. Yeni texnologiyalar, proqram paketləri, dil bilikləri, qabaqcıl tədqiqat sahələri və peşəkar bacarıqların tədris edilməsinə xüsusi diqqət yetirilməlidir. Bu proqramlar həm nəzəri, həm də praktiki bacarıqları özündə birləşdirməli və müasir iş dünyasının, həmçinin də qlobal əmək bazarının ehtiyaclarına çevik cavab verməlidir. Burada bir qədər uzağı görməyə, gələcək işlər və bacarıqlar haqqında verilmiş proqnozlardan istifadəyə ehtiyac vardır.

*Praktik yönümlü təhsil:* İstər ali təhsil, istərsə də peşə və orta ixtisas təhsili alan tələbələrdə həm nəzəri, həm analitik, həm də praktiki bacarıqları formalaşdırmaq vacibdir. Bunun üçün tələbələrin təhsil aldıqları müddət ərzində praktiki təcrübə əldə etmələri, fərdi və komanda şəklində layihə işləri hazırlamaları, müvafiq iş yerlərində təcrübə proqramlarına qoşulmaları istiqamətində işlər aparılmalıdır. Elə etmək lazımdır ki, onlar kur-

su bitirib diplom aldıqda artıq işləməyə tam hazır olan mütəxəssis kimi yetişsinlər. Nəzəriyyə ilə praktikanın vəhdətdə öyrədilməsini təşkil etmək üçün mümkün olan sahələrdə dual təhsil modelinin tətbiqi bu məsələdə faydalı ola bilər.

*Tələbə yönümlü təhsil:* Tələbələrin ehtiyaclarına və maraqlarına uyğun təhsil yanaşmaları inkişaf etdirilməlidir. Tələbələrə müxtəlif öyrənmə üsulları, fərdi tədris planları və daha çox interaktiv təhsil təcrübəsi təqdim olunmalıdır. Modul tipli təhsil proqramlarının geniş tətbiqi bu baxımdan əhəmiyyətli ola bilər.

*Texnologiyanın inteqrasiyası:* Rəqəmsal texnologiyaların tədris prosesinə inteqrasiya edilməsi önəmlidir. Onlayn dərslər (hibrid daha yaxşı olar), elektron tədris materialları və rəqəmsal alətlərdən istifadə genişləndirilməlidir. Bu, həm tədris keyfiyyətini artırır, həm də tələbələrin məlumat əldə etməsini asanlaşdırır. Lakin lazım gəldiyi təqdirdə ənənəvi üsullar da istifadə oluna bilər.

*İşəgötürənlərlə sıx əməkdaşlıq:* Ali təhsil müəssisələri iş dünyası ilə təkcə formalizm xatirinə yox, yaxından əməkdaşlıq etməli, tələbələrin istehsalat təcrübəsi qazanması və təhsili bitirdikdən sonra asanlıqla işə düzələ bilməsi üçün işəgötürənlərlə daha effektiv əlaqələr qurmalıdırlar. Müəssisələrdən peşəkar mütəxəssislərin cəlb olunması ilə tədris proqramları birlikdə hazırlanmalı, onların kadr ehtiyacları ətraflı araşdırılaraq buna müvafiq bacarıqlar tələbələrə öyrədilməlidir. Ekspert qismində dəvət olunmuş peşəkar mütəxəssislərin öyrətmə potensialından tədris prosesində və eləcə də iş yerlərində təcrübə zamanı maksimum faydalanmaq lazımdır.

*İnteqrasiyalı təhsil:* Təhsilin daha aşağı pillələrində keyfiyyəti artırmadan sdəcə olaraq ali təhsilin inkişafı mümkün de-

yildir. Prof. N.M.İmanovun qeyd etdiyi kimi *“Təhsilin müxtəlif səviyyələri və sahələri bir-birinə elə sıx bağlıdır ki, bütün sistem eyni vaxtda, sinxron şəkildə təkmilləşdirilməlidir. Ali məktəblərdə yüksək səviyyəli mütəxəssislər yetişdirə bilmək üçün orta məktəblərdən gələn abituriyentlərin səviyyəsi daha yüksək olmalıdır”.*[67] Fikrimizcə, təhsil pillələri və səviyyələri arasında, eləcə də ixtisaslar arasında keçidin asanlaşdırılması lazımdır. Bu baxımdan subbakalavr diplomu ilə ali təhsil müəssisəsinə güzəştli qəbulun aparılması müsbət addımdır. Bu güzəşt artıq yüksək texniki peşə təhsilinə də aid edilmişdir. Əgər ilk peşə təhsili və texniki peşə təhsili səviyyəsindən yüksək texniki peşə təhsilinə keçid təşkil edilərsə, oradan da ali təhsilə asan keçid mümkün olar. Beləliklə də gənclərimizin ali təhsil almaq imkanları daha da genişlənmiş olar, həm də təhsilin aşağı pilləsindən başlayaraq yuxarıya doğru bilik və təcrübələrini hər səviyyədə artırmaqla peşəkar kadrlar kimi yetişə bilərlər.

*Müəllimlərin daimi təkmilləşməsi:* Təhsil müəssisələrində akademik müstəqilliyin təmin edilməsi və elmi-pedoqoji heyətin peşəkar inkişafı üçün xüsusi proqramlar hazırlanmalı, imkanlar artırılmalıdır. Müəllimlərin həm tədris metodları, həm də elmi tədqiqat sahələrində mütəmadi olaraq yeniliklərə yiyələnməsi həm təhsil müəssisələrinin özləri tərəfindən təmin edilməlidir, həm də onlar özləri də daimi inkişafa təşəbbüs göstərməlidirlər. Məhsuldar əməyin ayrıca qiymətləndirilməsi vasitəsilə pedaqoji heyəti daha çox motivasiya etmək olar. Unutmayaq ki, rəqabət inkişafı təşviq edir.

---

[67]İmanov, N.M. İqtisadiyyatın sosialyönlüyü sağçı və solçu sistemlərdə / N.M.İmanov. – Bakı: Şərq-Qərb,– 2014. –272 s., səh. 241

*İnfrastrukturun gücləndirilməsi:* Ali təhsil müəssisələrinin maddi-texniki bazası, laboratoriyalar, təcrübə sahələri və digər tədris resursları müasir standartlara uyğunlaşdırılmalıdır. Bütün bunlar tələbələrə keyfiyyətli təhsil və tədqiqat imkanları təmin edir. Qeyd edək ki, bəzi təhsil müəssisələrində bunlar var və həmin universitetlərə abituriyentlərin marağı da böyük olur, bu isə həmin ali məktəblərə qəbul ballarını artırmış olur.

Digər təhsil müəssisələrin də texnoloji təminat baxımından yüksək səviyyəyə çatması üçün maliyyənin artırılması tələb olunur. Bütün bu yükün dövlətin üzərinə qoyulması düzgün olmazdı. Özəl sektor və sosial tərəfdaşlar tərəfindən də təhsilə maliyyə dəstəyi göstərilməlidir. Bu, həm təhsil müəssisələrinin inkişafını sürətləndirər, həm də təhsil haqqı, tələbə təqaüdləri və elmi-pedaqoji heyətin işinin layiqincə qiymətləndirilməsi ilə bağlı sosial ədaləti təmin edə bilər. Onların daha məhsuldar işləməyə həvəsləndirilməsi məqsədilə diferensiallaşdırılmış əmək haqqı sistemi tətbiq edilə bilər. Son nəticə olaraq da təhsil müəssiəsinin keyfiyyət göstəriciləri yüksələr. Burada həm tələbələrə keyfiyyətli təhsil verilməsini, həm də onların səmərəli iş təminatını nəzərdə tuturuq.

*Beynəlxalq əməkdaşlıq və mübadilə proqramlarının genişləndirilməsi:* Ali təhsil müəssisələri beynəlxalq aləmdə özünü doğrultmuş qabaqcıl təcrübələri öyrənib tətbiq etməli, həmçinin də xarici universitetlərlə əməkdaşlıq və mübadilə proqramlarını inkişaf etdirməlidir. Bağlanmış müqavilələr sadəcə sənəd üzərində qalmamalı, faydalı şəkildə istifadə edilməlidir. Burada həm təhsil, həm də elmi əməkdaşlıqdan söhbət gedir. Bu cür fəaliyyət daha çox tələbəyə qlobal təhsil təcrübəsi qazandıra bilər və yerli təhsil sistemi beynəlxalq standartlara uy-

ğunlaşar, bundan əlavə, müəllim və tədqiqatçıların mobilliyi yüksələr və beynəlxalq elm, təhsil sahələri ilə məhsuldar qarşılıqlı əlaqələr yaratmış olarlar.

Bu tədbirlərin həyata keçirilməsi ali təhsilin keyfiyyətini artırmaq və onu müasir əmək bazarının tələblərinə uyğunlaşdırmaq üçün vacib addımlardır. Bu islahatlar tələbələrin daha yüksək keyfiyyətli təhsil almaqla daha uğurlu karyera qurmalarına şərait yaradacaq.

Qeyd etməliyik ki, Azərbaycan universitetləri arasında da yaxşı təcrübələrə malik olanları vardır. Onların ən qabaqcıl hesab olunanları müxtəlif sahələrdə əldə etdikləri uğurlara, beynəlxalq reytinqlərdə qazandıqları mövqelərinə, tədrisin, elmi tədqiqatların sayına, tədqiqatın keyfiyyətinə və eləcə də tələbələrin üşədüzəlmə göstəricilərinə görə seçilirlər. Bu universitetlər həmçinin beynəlxalq əməkdaşlıqlarını genişləndirərək təhsil sahəsindəki yenilikləri özlərində müntəzəm tətbiq etməyə çalışırlar.

Azərbaycanın ali təhsil müəssisələri arasında ən qabaqcıl təcrübəyə malik olanları əsasən təkmilləşdirilmiş proqramları, müasir tədris və tədqiqat metodlarını tətbiq edən, beynəlxalq əlaqələrini genişləndirən və tələbələrə hərtərəfli imkanlar təqdim edən universitetlərdir. BDU, UNEC, BANM, AzTU, ADA Universiteti və digər qabaqcıl təhsil müəssisələri, həm akademik təhsil, həm də tədqiqat sahəsində ölkənin liderləri hesab olunur. Bu universitetlər müntəzəm olaraq beynəlxalq reytinqlərdə öz mövqelərini yaxşılaşdırmağa və əmək bazarının ehtiyaclarını nəzərə alaraq təhsildə müasirliyi tətbiq etməyə çalışırlar. Qeyd edilən universitetlər məzunlarının işədüzəlməsi statistikasına görə də daha yaxşı nəticələrə malikdirlər.

Peşə və ixtisas kadrlarının hazırlanması ilə məşğul olan təhsil müəssisələrinin və eləcə də digər təlim kurslarının başlıca keyfiyyət göstəricisi oranı bitirənlərin əmək bazarındakı mövqeyi, karyera imkanları və məşğulluq səviyyəsi ilə ölçülür. Bu baxımdan kadr hazırlığı sahəsində bir sıra yeniliklərin tətbiqi, ölkənin əmək bazarının tələblərinə uyğun ixtisaslı peşəkar kadrların yetişdirilməsinə kömək edə bilər. Kadr hazırlığını daha effektiv və müasir tələblərə uyğun səviyyəyə çatdırmaq üçün aşağıda göstərdiymiz istiqamətlərdə işlər genişləndirilməlidir.

**Kadr hazırlığının əmək bazarına uyğunlaşdırılması**

*Təhsil və əmək bazarı arasında səmərəli əlaqə.* Ali təhsil müəssisələri və eləcə də peşə təhsili və təlimi qurumları, özəl sektor ilə yaxından əməkdaşlıq etməli və təhsil proqramlarının əmək bazarının real ehtiyaclarına uyğunluğunu daima diqqətdə saxlamalıdır. Bu məqsədlə, təhsil müəssisələrində işəgötürənlər və peşəkar mütəxəssislər ilə birgə işgüzar təcrübə və karyera inkişaf proqramları təşkil edilməlidir. Son illərdə bu qəbildən işlər görülsə də onların çoxu sadəcə formallıq xarakteri daşıyır. Daha məsuliyyətli yanaşma və bu tədbirlərin genişləndirilməsi tələbələrin əmək bazarına uyğun bacarıqlara malik olmalarını və onların  iş tapma şanslarını yüksəldər.

*Praktik təcrübələrin genişləndirilməsi.* Tələbələrə nəzəri biliklərlə yanaşı praktik təcrübə qazandırmaq üçün müxtəlif sahələrdə ödənişli və ya ödənişsiz iş təcrübəsi proqramları tətbiq edilməlidir. Həm ali təhsil müəssisələri, həm də peşə təhsili müəssisələri, dövlət qurumları, şirkətlər birgə əməkdaşlıq edərək, tələbələrə təhsil aldıqları müddətdə iş yerində təcrübə əldə etmək imkanı təşkil etməlidir. Bu cür fəaliyyət, peşə təhsilində

tətbiq olunan dual təhsil modeli kimi ali təhsil müəssisələrində təhsil alan tələbələrin də nəzəri biliklərini praktikada tətbiq etmələrinə şərait yaratmaqla onların əmək fəaliyyətinə başlamağa daha hazırlıqlı olmalarını dəstəkləyər.

*Rəqəmsal bacarıqların artırılması.* Rəqəmsallaşmanın sürətlə artdığı bu dövrdə müasir texnologiyalar və proqramlaşdırma dillərinin yüksək səviyyədə tədrisi kadr hazırlığı proqramlarının tərkibinə daxil edilməlidir. Əmək bazarının ehtiyaclarını nəzərə alsaq rəqabətqabiliyyətli kadrların hazırlanması üçün universitetlərdə və peşə təhsili müəssisələrində rəqəmsal bacarıqların inkişafı istiqamətində kursların və proqramların təşkilinə ehtiyac var (əks halda qeyri-formal kurslarda bunları öyrənmək zərurəti artmaqda davam edəcək). Bu cür bacarıqların tədrisi işçi qüvvəsinin rəqəmsal dünya ilə uyğunlaşmasını təmin edər, texnologiya və innovasiya sahələrinin yüksək bacarıqlara malik peşəkar kadrlarla təminatına şərait yaradar.

*Təhsildə innovativ yanaşma.* Hazırki dövrdə onlayn və hibrid təhsil modellərinin tətbiqi labüddür, bunların daha geniş istifadəsi ilə təhsil proqramlarının çevikliyini və əhatə dairəsini artırmaq mümkündür. Tələbələrə daha çox seçim imkanı təqdim edən, interaktiv və multimedia vasitələri ilə zənginləşdirilmiş təhsil metodları tətbiq edilməlidir. Bu yanaşma həm müəllimlər, həm də tələbələr  üçün əlverişli olar, xüsusən də işləyən və yaxud müxtəlif səbəblərdən təhsil müəssisələrinə əyani şəkildə qatılmaqda çətinlik çəkən şəxslər üçün təhsil imkanlarını artırar.

*Beynəlxalq əməkdaşlıq və mübadilə proqramlarına qoşulma və bu imkanlardan səmərəli istifadə.* Azərbaycan universitetləri və digər təhsil müəssisələri beynəlxalq təcrübələri öyrənmək və tələbələrə qlobal təhsil imkanları yaratmaq üçün mübadilə

proqramlarını genişləndirməlidir. Xarici universitetlərlə birgə tədqiqat layihələri, təlimlər və praktikaların təşkili daha geniş spektrdə davam etdirilməlidir. Bütün bunlar tələbələrə çox mühüm təcrübə qazandırır, beynəlxalq əmək bazarının tələblərinə uyğun bacarıqlar əldə etmələrini və dünya əmək bazarına çıxışı təmin edir.

*Tədris materiallarının müasir tələblərə uyğunlaşdırılması.* Kadr hazırlığına yeni yanaşmalar tətbiq edərkən tədris materialları da müasir tələblərə uyğun olmalıdır. Tələbələrdə müstəqil irəliləmək yolları axtarmaq, sahibkarlıq qabiliyyətləri formalaşdırmaq, gələcək planlarında işaxtarandan çox işəgötürən olmağı düşünmək kimi və s. qavrayışların inkişaf etdirilməsi yönündə tədris prosesinin qurulması vacibdir. Bu, tələbələrin və dinləyicilərin öyrənmə prosesinin maraqlı, praktiki və daha effektiv olmasına şərait yaradar.

*Karyera xidmətlərinin yaxşılaşdırılması.* Kadr hazırlığı prosesi yalnız təhsil prosesi ilə bitmir. Tələbələrin və işçilərin iş dünyasına uyğunlaşmalarına və uğurlu karyera qurmalarına kömək etmək üçün Karyera mərkəzləri səmərəli fəaliyyət göstərməlidir. Karyera inkişafı üzrə müntəzəm tədbirlər, əmək bazarının tələblərinə uyğun məlumatlandırma və işəgötürənlərlə məhsuldar əlaqələrin yaradılması müasir kadr hazırlığının ayrılmaz tərkib hissəsi olmalıdır. Bu məqsədlə vaxtaşırı olaraq tələbələrin iş yerlərinə ekskursiyasını təşkil etmək, uğurlu iş adamları ilə görüşlər keçirmək əhəmiyyətlidir. Bu tədbirlərin davamlı olması tələbələri motivasiya edər və onların işə düzəlmə və davamlı peşəkar inkişaf proseslərini asanlaşdırar.

Müəssisələrin özlərində də mütəmadi olaraq təlim və inkişaf proqramları təşkil edilməsi işçilərin bacarıqlarının, əmək məh-

suldarlığının artırılması və müəssisə daxilində karyera yüksəlişinə nail olması baxımından əlverişli mühitin formalaşmasına zəmin yaradır.

Kadr hazırlığı sahəsində həyata keçirilməli olan bu tədbirlər, həm təhsil alanların, həm də işçilərin daha müasir, rəqabətə davamlı və innovativ bacarıqlarla təchiz edilməsini təmin edir. Bu yanaşmalar hazırlanmış kadrların yalnız yerli əmək bazarına deyil, həm də beynəlxalq əmək bazarına çıxışına və daha uğurlu karyera qurmalarına imkan yaradır.

Kadr hazırlığının təkmilləşdirilməsi, gənclərin peşə və ixtisas təhsili ilə əhatəliliyinin artırılması, onların beynəlxalq əmək bazarına çıxışının təmin edilməsi Azərbaycan hökumətinin də maraq dairəsindədir. Əmək bazarının peşə təhsilli kadrlara yüksələn ehtiyaclarını nəzərə alaraq müasir dövrün tələblərinə müvafiq surətdə peşə təhsili sisteminin inkişaf etdirilməsi və nüfuzunun yüksəldilməsi istiqamətində görülən işlərin əhəmiyyətini qeyd etmək lazımdır. Bu baxımdan, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji yol xəritəsində 11 prioritet sahələrindən biri kimi diqqət mərkəzində olan peşə təhsilinin təkmilləşdirilməsi ilə bağlı formal təhsillə yanaşı informal və qeyri-formal peşə təhsili kursları vasitəsilə əldə edilmiş səriştələrin tanınması metodikasının hazırlanması və tətbiqi nəzərdə tutulmuşdu və artıq fəaliyyətə başlanmışdır.

Peşə təhsili sisteminin inkişafı və təkmilləşdirilməsi üzrə dövlət səviyyəsində görülən işlər: 2018-ci ildə qəbul olunmuş "Peşə təhsili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi, "Ömürboyu Təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin təsdiqi, "İlk peşə-ixtisas təhsili üzrə ixtisasların təsnifatı"nın əmək bazarında yaranan ehtiyaclarla uzlaşdırılması, qey-

ri-dövlət sektorunun peşə və ixtisas təhsili ilə əməkdaşlığa cəlb olunması istiqamətində normativ hüquqi bazanın formalaşdırılması, peşə təhsilində modul sisteminin tətbiqini təmin edən sənədlərin hazırlanması peşə təhsili sisteminin normativ hüquqi bazasının daha da təkmilləşdirilməsinə böyük kömək olacaqdır. Nəzərdə tutulan tədbirlər ardıcıl şəkildə həyata keçirilərsə, peşə təhsili sisteminin inkişafına nail oluna bilər və bunların sayəsində məşğulluq səviyyəsi müsbət yöndə dəyişər.

Əmək bazarının sürətlə dəyişən tələblərinə daha çevik uyğunlaşmaq iqtidarında olduğuna görə dünya ölkələrinin əksəriyyətində məhz peşə təhsilinə böyük önəm verilir. Hesab olunur ki, peşə təhsili bilavasitə əmək bazarının yüksək ixtisaslı peşəkar işçi qüvvəsi ilə təmin edilməsi, bütövlükdə ölkənin rəqabətqabiliyyətinin, əhalinin gəlirlərinin və eləcə də həyat səviyyəsinin artırılmasına xidmət edir. İnkişaf etmiş ölkələrdə orta məktəb məzunlarının orta hesabla 40-60 faizi peşə təhsili müəssisələrində təhsillərini davam etdirərək müvafiq peşə öyrənməklə öz karyeralarının əsasını qoyurlar.

Bu baxımdan ölkəmizdə peşə təhsili sisteminin inkişafı və əhatə dairəsinin genişləndirilməsi məşğulluğun həm kəmiyyətcə, həm də keyfiyyətcə yaxşılaşmasına təsir göstərə bilər.

## 4.2. Peşə-ixtisas təhsilinin məşğulluğa birbaşa və dolayı təsirlərinin qiymətləndirilməsi

Son illərdə həyata keçirilən dövlət proqramları və strategiyalar sayəsində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir, məşğulluq artır. Məşğul əhalinin sayının artmasına səbəb olan

amillərə baxsaq, onların sayı çoxdur: ölkə əhalisinin, o cümlədən əməkqabiliyyətli yaşda əhalinin sayının artması, ümum daxili məhsulun (həm ölkə üzrə, həm də adambaşına), milli gəlirin, orta aylıq nominal əmək haqqının, əhali gəlirlərinin artımı, yeni sahibkarlıq subyektlərinin, fermer təsərrüfatlarının yaradlması ilə yanaşı yeni iş yerlərinin açılması, sənaye, kənd təsərrüfatı, turizm və digər sahələrdəki inkişaf və artım, əhalinin təhsil alma imkanlarının genişlənməsi və s. Həmin göstəricilərin artması ölkəmizdəki iqtisadi inkişafı və artımı bir daha sübut edir.

Müxtəlif yerli və xarici tədqiqatçılar tərəfindən məşğulluğa təsir edən makroiqtisadi amillər, onların arasında qarşılıqlı asılılıq və bir-birinə təsir səviyyələri araşdırılmışdır. Bu paraqrafda müxtəlif təhsil pillələrində kadr hazırlığının, xüsusilə də peşə təhsilinin məşğulluğa təsiri qiymətləndirilmişdir.

Bildiyimiz kimi amil əlamətinin müəyyən kəmiyyətinin dəyişilməsi nəticə əlamətinin kəmiyyətinin dəyişilməsinə tam uyğun olarsa, belə əlamətlər arasında olan əlaqə funksional əlaqə adlanır. Sosial-iqtisadi hadisələrin əlamətləri arasında isə funksional əlaqədə olduğu kimi, ciddi uyğunluq olmur. Burada amil əlamətinin eyni qiymətinə nəticə əlamətinin müxtəlif qiymətləri uyğun gələ bilər. Məsələn, eyni iş stajına və yaxud eyni ixtisas səviyyəsinə malik olan fəhlələrin əmək məhsuldarlığı müxtəlif ola bilər[68].

Həmin fikirləri eynilə peşə təhsili və məşğulluq arasındakı qarşılıqlı asılılığa da aid edə bilərik. Belə ki, bütün peşə təhsili alanlar eyni dərəcədə peşəkar və məhsuldar deyildirlər. Bu on-

[68] Hacıyev, S.M. Statistikanın ümumi nəzəriyyəsi. Dərslik / S.M.Hacıyev. – Bakı: İqtisad Universiteti nəşriyyatı, – 2005. – 366 s., s. 195

ların aldığı təhsilin keyfiyyətindən, həmin peşənin tələbatlılığından, şəxsin özünün xüsusi bacarıqlarından, fiziki imkanlarından asılıdır. Bundan başqa, peşə-ixtisas təhsillilərin hamısının iş tapacağını və müvafiq şəkildə məşğul əhalinin sayını artıracağını qətiyyətlə deyə bilmərik. Əgər planlı iqtisadiyyatda bu mümkün idisə, bazar iqtisadiyyatı şəraitində məsələ daha fərqli və mürəkkəbdir. Yalnız o halda bu mümkün olardı ki, açılacaq iş yerləri və mövcud vakansiyalar haqqında dəqiq və hərtərəfli məlumatlar toplanılaraq müqavilə əsasında hazırlanan kadrların sayı, peşə tərkibi və keyfiyyəti əmək bazarının tələblərinə müvafiq olsun. Bu mütənasiblik təmin edilə bilsəydi peşə təhsili ilə məşğulluq arasında funksional asılılıq mövcud olardı. Lakin qeyd olunan tərəflər arasında (peşə təhsili sistemi və əmək bazarı, işəgötürənlər) belə bir mükəmməl iş birliyi hələlik olmadığına görə, biz müvafiq göstəricilər arasındakı korrelyasiya əlaqələrinə baxacağıq.

Onu da qeyd etmək lazımdır ki, məşğulluğa birbaşa və dolayısı ilə təsir edən amillər vardır. Əhalinin daha çox hissəsinin peşə və ixtisas təhsili ilə əhatə olunmasını da birbaşa təsir amillərindən biri hesab etmək olar. Belə ki, əmək bazarında daha artıq sayda işçi qüvvəsinin peşə-ixtisas təhsilli olması (söhbət keyfiyyətli və tələbatlı təhsildən gedir) məhsuldar əməyin, səmərəli məşğulluğun artması deməkdir. Səmərəli məşğulluğu artırmaq üçün çoxlu sayda diplomlu kadr yetişdirmək yox, müvafiq sayda, lazımi peşələrə uyğun və geniş ixtisas profilli, rəqabətqabiliyyətli kadrlar hazırlamaq lazımdır. Bunun üçün isə əmək bazarı – peşə-ixtisas təhsili vahid sistem halında sıx qarşılıqlı əlaqədə elə fəaliyyət göstərməlidir ki, hansı peşələr üzrə, hansı sayda kadr hazırlanacağı (bölgələr üz-

rə) öncədən bəlli olsun. Bu ehtiyacları öyrənmək əmək bazarının vəzifəsi, ehtiyacları kəmiyyətcə və keyfiyyətcə ödəmək isə peşə təhsili sisteminin vəzifəsidir. Təbii ki, bu işdə istər təcrübə yeri, istər avadanlıq, istərsə də mütəxəssis sarıdan işəgötürənlərin dəstəyi mütləqdir. Burada sistemli, vəhdətli, bir-birini tamamlayan təşəbbüskar və məhsuldar qarşılıqlı fəaliyyətlərin olması vcibdir[69].

**Peşə-ixtisas təhsilinin məşğulluğa birbaşa təsirinin qiymətləndirilməsi**

Peşə-ixtisas təhsilinin məşğulluğa birbaşa təsirini hesablamaq üçün korrelyasiya-reqressiya təhlilinin köməyi ilə iqtisadi-riyazi modelin qurulmasında cədvəl 4.4.1-in göstəricilərindən istifadə edilmişdir.

**Cədvəl 4.4.1**. **Reqressiya tənliyi üçün göstəricilər**

| | PTM-ni bitirənlərin sayı, nəfər | Orta ixtisas təhs.bitirənlər , nəfər | Ali təhsili bitirənlər, nəfər | Cəmi mütəxəssis bur., nəfər | Məşğul əhalinin sayı, min nəfər |
|---|---|---|---|---|---|
| 2000 | 12052 | 11309 | 24488 | 47849 | 3855,5 |
| 2001 | 13104 | 11428 | 23903 | 48435 | 3891,4 |
| 2002 | 12213 | 12897 | 27795 | 52905 | 3931,1 |
| 2003 | 10654 | 15100 | 28460 | 54214 | 3972,6 |
| 2004 | 11091 | 14409 | 31232 | 56732 | 4016,9 |
| 2005 | 11095 | 15796 | 32508 | 59399 | 4062,3 |
| 2006 | 11860 | 16385 | 28141 | 56386 | 4110,8 |
| 2007 | 13156 | 17007 | 31279 | 61442 | 4162,2 |
| 2008 | 11927 | 17278 | 32580 | 61785 | 4215,5 |
| 2009 | 12485 | 15863 | 34591 | 62939 | 4271,7 |
| 2010 | 13011 | 14559 | 31071 | 58641 | 4329,1 |

[69] Qurbanova, İ.M. Peşə təhsili və təliminin məşğulluğa təsirinin qiymətləndirilməsi // – Bakı: AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, – 2020 (1), – s. 98-106

| | | | | | |
|---|---|---|---|---|---|
| 2011 | 13789 | 14673 | 30812 | 59274 | 4375,2 |
| 2012 | 15246 | 15880 | 35128 | 66254 | 4445,3 |
| 2013 | 16708 | 12591 | 33758 | 63057 | 4521,2 |
| 2014 | 15329 | 14768 | 32826 | 62923 | 4602,9 |
| 2015 | 15222 | 16432 | 33705 | 65359 | 4671,6 |
| 2016 | 15135 | 17093 | 36951 | 69179 | 4759,9 |
| 2017 | 14614 | 16299 | 37506 | 68419 | 4822,1 |
| 2018 | 15496 | 12361 | 37116 | 64973 | 4879.3 |
| 2019 | 15516 | 12425 | 37562 | 65503 | 4785,6 |
| 2020 | 14304 | 14024 | 40824 | 69152 | 4721,2 |
| 2021 | 14233 | 16164 | 43409 | 73806 | 4831,1 |
| 2022 | 13865 | 15093 | 46039 | 74997 | 4901,1 |
| 2023 | 14657 | 18955 | 48421 | 82033 | 4963,3 |
| Cəmi, nəfər | **326.762** | **358.789** | **820.105** | **1.505.656** | **106.098.900** |

*Mənbə: AR DSK-nin məlumatları əsasında hazırlanmışdır.*

Aşağıdakı dəyişənlər üzrə aldığımız korrelyasiya əmsallarına baxsaq (cəd. 4.4.2) görərik ki, məşğul əhalinin sayı ilə ən sıx əlaqə ali təhsili bitirənlərin sayı ilədir, ikinci yerdə gözlədiyimiz kimi peşə təhsilini bitirənlərdir, orta ixtisas təhsilini bitirənlərin sayı ilə isə çox zəif əlaqə vardır. Təbii olaraq ümumi mütəxəssis buraxılığı ilə məşğul əhalinin sayı dinamikasında çox güclü əlaqə vardır.

*Excel* proqramında peşə təhsili müəssisələrini bitirənlər ilə məşğul əhalinin sayı arasında reqressiya əlaqəsi hesablanmışdır. Burada ilk növbədə diqqət yetirəcəyimiz determinasiya əmsalı $R^2=0,612$ peşə təhsili müəssisələrini bitirənlərin sayı ilə məşğul əhalinin sayı arasında 61,2% asılılıq (nəzərəçarpan) olduğunu göstərir. Alınmış cədvəlin məlumatlarından istifadə edərək model quraq.

**Cədvəl 4.4.2. Reqressiya tənliyinin qurulması üçün dəyişənlər cədvəli**

| Dəyişənlər | Amillər | Ölçü vahidləri | Korrelyasiya əmsalları |
|---|---|---|---|
| Y | Məşğul əhalinin sayı | nəfər | |
| $X_1$ | Peşə təhsilini bitirənlərin sayı | nəfər | 0,804535 |
| $X_2$ | Orta ixtisas təhsilini bitirənlərin sayı | nəfər | 0,488638 |
| $X_3$ | Ali təhsili bitirənlərin sayı | nəfər | 0,848812 |
| $X_4$ | Peşə, orta ixtisas, ali təhsil müəssisələrinin cəmi mütəxəssis buraxılışı | nəfər | 0,901127 |

Korrelyasiya əmsalının (R=0,8045) əhəmiyyətliliyini bilmək üçün Styudent paylanmasından istifadə edərək, $t_{statistika} > t_{cədvəl}$ olduğunu yoxlayaq:

$$t_{statistika} = R \cdot \sqrt{\frac{n-2}{1-Rkv}} = 0{,}804 \cdot \sqrt{\frac{16}{0{,}353}} = 0{,}804 \cdot \sqrt{42{,}66} = 0.804 \cdot 6{,}54 = 5{,}26 > t_{krit}$$

Determinasiya əmsalının əhəmiyyətliliyini Fişer paylanmasına görə hesablayaq:

$$F = \frac{R_{kvadrta}}{1-R_{kv}} \times \frac{n-m-1}{m} = \frac{0{,}647}{1-0{,}647} \cdot \frac{18-1-1}{1} = 1{,}8 \times 6 = 28{,}8 > F_{krit.}$$

olduğundan determinasiya əmsalı ($R^2$) əhəmiyyətli sayılır.

Burada, n–müşahidələrin, m–izahedici dəyişənlərin sayını göstərir.

Fişer kriteriyasının F-cədvəldən böyük olması reqressiya tənliyinin statik əhəmiyyətli olduğunu xarakterizə edir.

Düzxətli əlaqə tənliyinin düsturu $\overline{Y}_x = a_0 + a_1 x$; parametrlər $a_0$=2417,110; $a_1$=0,142 olduğundan, aşağıdakı reqressiya tənliyini alarıq:

$$\overline{Y}_x = 2417{,}110 + 0{,}142 \times x \qquad \textbf{(4.2.1)}$$

Məsələn, 2017-ci ilin göstəricilərinə görə hesablasaq:

$\overline{Y} = 2417{,}110 + 0{,}142 \times 15135 = 2417{,}110 + 2149{,}170 = 4566{,}280 \approx 4566{,}3$ (min nəfər)

Elastiklik əmsalı: $E = a_1 \times \frac{\overline{x}}{\overline{y}} = 0{,}142 \times \frac{13615}{4.420.787} = 0{,}000437$

Belə nəticəyə gəlmək olar ki, peşə təhsilini bitirənlərin sayı 1% artarsa, məşğul əhalinin sayı cəmi 0,000437 % artar.

Peşə təhsilini bitirənlərin sayının azlığı məşğul əhalinin sayına əhəmiyyətli dərəcədə təsir göstərə bilmir. Daha yaxın göstəricilər almaq (proqnozlaşdırma üçün) 2 halda mümkün ola bilər: 1) ayrı-ayrı iqtisadi fəaliyyət növləri üzrə işləyənlərin sayının artmasına peşə təhsili bitirənlərin təsirini tapmaq; 2) ayrı-ayrı peşə istiqamətləri üzrə bitirənlərin sayının uyğun iqtisadi fəaliyyət növləri üzrə təsirini hesablamaqla. Yəni, belə yaxın göstəricilərlə qurulmuş model daha əhəmiyyətli olar. Bu cür statistikanın toplanması isə çətindir, ona görə ki, respublikamızda aldığı ixtisasa uyğun olmayan sahələrdə işləyənlərin sayı çoxdur.

Qurduğumuz reqressiya tənlikləri əsasında hesablama apararkən aldığımız göstəricilər Y-in faktiki qiymətlərindən kiçik olur. Ona görə ki, məşğul əhalinin tərkibində ümumi orta və tam orta təhsili bitirib hər hansı bir peşə və ixtisas təhsili almadan işə başlayanların sayı çoxdur (məşğul əhalinin təqribən 64 %-i qədər). Keyfiyyətli peşə və ixtisas təhsili ilə əhatə olunma səviyyəsi də hələlik çox yüksək deyil, bu səbəbindən ali, orta ixtisas və peşə təhsilini bitirənlər məşğul əhalinin sayını əsaslı dərəcədə artıra bilmir. Digər tərəfdən isə məşğulluq səviyyəsinə təsir edən başqa növ amillər də mövcuddur.

## Peşə, orta ixtisas və ali təhsil məzunlarının məşğul əhalinin sayına təsirinin ARDL(1,2,3,3) modelinin qurulması

Tədqiqat işində peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrini bitirən məzunların və Məşğul əhalinin sayı arasındakı əlaqə cədvəl 4.4.1-in göstəriciləri əsasında Eviews proqramı vasitəsilə yenidən hesablanmışdır.

Peşə və ixtisas təhsil məzunlarının məşğul əhalinin sayına təsiri EViews-12 ekonometrik paketində dəyişənlərin loqarifmlənmiş qiymətləri əsasında ARDL çərçivəsində modelləşdirilmişdir (Cədvəl 4.4.3).

**Cədvəl 4.4.3. Peşə, orta ixtisas, ali təhsil müəssisələrini bitirənlərin sayının məşğul əhalinin sayına təsirinin ARDL(1,2,3,3) modeli**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: L_EMPLOYMENT | | | | |
| Method: ARDL | | | | |
| Date: 04/14/25 Time: 15:47 | | | | |
| Sample (adjusted): 2003 2023 | | | | |
| Included observations: 21 after adjustments | | | | |
| Maximum dependent lags: 3 (Automatic selection) | | | | |
| Model selection method: Akaike info criterion (AIC) | | | | |
| Dynamic regressors (3 lags, automatic): L_PT L_KT L_AT | | | | |
| Fixed regressors: C | | | | |
| Number of models evalulated: 192 | | | | |
| Selected Model: ARDL(1, 2, 3, 3) | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob.* |
| L_EMPLOYMENT(-1) | 0.575179 | 0.141578 | 4.062632 | 0.0036 |
| L_PT | 0.051872 | 0.030230 | 1.715905 | 0.1245 |
| L_PT(-1) | -0.018056 | 0.044785 | -0.403174 | 0.6974 |
| L_PT(-2) | 0.119685 | 0.052983 | 2.258950 | 0.0538 |
| L_KT | -0.001953 | 0.023709 | -0.082391 | 0.9364 |
| L_KT(-1) | 0.036777 | 0.020538 | 1.790733 | 0.1111 |
| L_KT(-2) | 0.048861 | 0.030342 | 1.610372 | 0.1460 |
| L_KT(-3) | -0.065876 | 0.025442 | -2.589257 | 0.0322 |
| L_AT | -0.038392 | 0.033069 | -1.160973 | 0.2791 |
| L_AT(-1) | 0.058551 | 0.029888 | 1.958981 | 0.0858 |

| | | | | |
|---|---|---|---|---|
| L_AT(-2) | 0.022597 | 0.032565 | 0.693910 | 0.5074 |
| L_AT(-3) | 0.085616 | 0.057432 | 1.490733 | 0.1744 |
| C | 3.546589 | 1.371156 | 2.586568 | 0.0323 |
| R-squared | 0.997223 | Mean dependent var | | 15.31622 |
| Adjusted R-squared | 0.993057 | S.D. dependent var | | 0.073074 |
| S.E. of regression | 0.006089 | Akaike info criterion | | -7.091754 |
| Sum squared resid | 0.000297 | Schwarz criterion | | -6.445145 |
| Log likelihood | 87.46342 | Hannan-Quinn criter. | | -6.951424 |
| F-statistic | 239.3948 | Durbin-Watson stat | | 2.129472 |
| Prob(F-statistic) | 0.000000 | | | |
| *Note: p-values and any subsequent tests do not account for model selection | | | | |

Burada dəyişənlər aşağıdakı kimidir:

Peşə təhsilini bitirən məzunların sayı –**PT,**

Orta ixtisas (kollec) təhsilini bitirən məzunların sayı –**KT,**

Ali təhsil (bakalavr) bitirən məzunların sayı –**AT,**

Məşğul əhalinin sayı isə **Employment** kimi işarə edilmişdir.

Cədvəl 4.4.3-də alınmış göstəricilərin təhlili əsasında aşağıdakı nəticələri qeyd etmək olar:

1) Peşə təhsili üzrə məzunların t-ilində 1% artımı t; t+1; t+2 illərində məşğul əhalinin sayının 0,0519%; 0,0338% və 0,1535%-lik artımına səbəb olur.

2) Orta ixtisas təhsili məktəblərini bitirən məzunların sayının t-ilində 1% artımı t ilində məşğul əhalinin sayının 0,0019 % azalmasına gətirsə də, növbəti t+1; t+2; t+3 illərində bu göstəricinin 0,0348%; 0,0837% və 0,01785%-lik artımına gətirib çıxarır.

3) Ali təhsil məzinlarının t-ilində 1% artımı məşğul əhalinin sayının t ilində 0.0384 % azalmasına səbəb olduğu

halda, sonrakı t+1, t+2, t+3 illərində məşğul əhalinin sayının 0,0202%; 0,0428% və 0,1284% artımı ilə müşahidə edilir.

Yuxarıda aldığımız nəticələrdən belə qənaətə gəlmək olur ki, peşə təhsilini bitirənlərin sayı birbaşa olaraq məşğul əhalinin sayına müsbət təsir göstərmiş olur. Düzdür bu təsirlər azdır, ancaq digər iki təhsil pilləsi ilə müqayisədə daha yüksəkdir. Deməli, həqiqətən də peşə təhsili əmək bazarına daha yaxındır, onun tələblərinə daha çevik uyğunlaşmağa qabildir. Həm də əmək fəaliyyətinə daha erkən yaşda başlamaq üçün peşə təhsili almaq əlverişlidir. Bu da onu sübut edir ki, təhsildən kənarda qalan gəncləri peşə təhsilinə cəlb edə bilsək yuxarıdakı göstəricilər əsaslı şəkildə yaxşılaşar və eləcə də gənclərin məşğulluq səviyyəsi yüksələr.

İndi isə peşə təhsilinin əmək bazarına və məşğulluq səviyyəsinə dolayı şəkildə necə təsir göstərdiyinə baxaq.

### Müəssisə timsalında peşə təhsilinin məşğulluğa dolayı təsirinin qiymətləndirilməsi

Hər bir müəssisə üçün önəmli məsələlərdən biri işçilərin əmək məhsuldarlığının yüksək olmasıdır. Təcrübələr sübut edir ki, elmi-texniki tərəqqinin nailiyyətlərinə və işçilərin ümumtəhsil və peşə səviyyəsinin artmasına əsaslanan əmək məhsuldarlığı istehsalın inkişafında və təkmilləşdirilməsində böyük rol oynayır[70]. İxtisaslı kadrların yaratdığı maddi və mənəvi dəyərlə ixtisas təhsili olmayan işçilərin yaratdığı dəyər

[70] Mehbalıyev, S.S. Əmək bazarı və əhalinin sosial müdafiəsi / S.S.Mehbalıyev, R.K.İsgəndərov. –Bakı: Çaşıoğlu nəş., –2002. –544 s., s. 133

arasında ciddi fərq vardır və həmçinin əməyin keyfiyyəti baxımından da onlar bir-birindən fərqlənirlər[71].

Peşə təhsilinin keyfiyyətcə yaxşılaşdırılması və peşə təhsili alanların sayının artırılmasının əhəmiyyətini aydınlaşdırmaq üçün SOCAR-ın Etilen-Polietilen zavodundan götürülmüş göstəricilər əsasında müəssisədə kadrların təhsil səviyyəsi ilə əmək məhsuldarlığı arasındakı asılılıq qiymətləndirilmişdir.

Cədvəl 4.4.4-dən göründüyü kimi 2015-ci ildən 2018-ciilədək əmək məhsuldarlığı müntəzəm olaraq artmışdır. İşçilərin ümumi sayının azalması məhsuldarlığa mənfi təsir göstərməmişdir. Bu da ali və peşə təhsillilərin sayının artması ilə əlaqədar ola bilər, belə ki, 2018-ci ildə işçilərin 24,1%-ini peşə,38,65%-ini ali təhsillilər təşkil edir. Lakin 2015-ci ildə işçilərin cəmi 11,1%-i peşə, 24,2%-i ali təhsillilər idi.

**Cədvəl 4.4.4. Etilen-Polietilen zavodunun kadrlar üzrə əsas göstəriciləri**

| Amillər | Ölçü vahidi | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| İşçilərin ümumi sayı | nəfər | 2234 | 2132 | 1835 | 1781 | 1717 | 1682 | 1706 | 1697 |
| *o cümlədən* | | | | | | | | | |
| orta təhsilli | nəfər | 1112 | 1046 | 884 | 768 | 615 | 528 | 473 | 496 |
| peşə təhsilli | nəfər | 173 | 125 | 143 | 162 | 190 | 215 | 414 | 409 |
| orta ixtisas təhsilli | nəfər | 484 | 535 | 372 | 431 | 496 | 483 | 137 | 136 |
| ali təhsilli | nəfər | 465 | 426 | 436 | 420 | 416 | 456 | 682 | 656 |
| Bir nəfərə düşən orta aylıq əmək haqqı | man | 400 | 532 | 581 | 624 | 605 | 664 | 697 | 736 |
| Əmək məhsuldarlığı | min man. | 62,85 | 57,47 | 76,63 | 102,81 | 92,46 | 128,24 | 158,24 | 170,98 |

*Mənbə: SOCAR-ın Etilen-Polietilen zavodunda 2019-cu ildə aparılmış sorğu.*

71 Abdullayeva, R.S. Sosial sferanın iqtisadiyyatı. Dərs vəsaiti / R.S.Abdullayeva, A.N.Muradov – Bakı: MEGA-H nəş., – 2009. – 237 s., s. 152

Cədvəldən o da görünür ki, peşə təhsilli kadrların sayı 2012-ci ildən, ali təhsillilərin sayı isə 2015-ci ildən müntəzəm olaraq artmışdır, digər təhsil səviyyələri üzrə göstəricilər isə fərqlidir, xüsusilə orta təhsillilərin sayı baxılan dövrdə demək olar ki, ildən-ilə azalmışdır. Orta ixtisas təhsillilərin sayı isə hansı səbəbdənsə 2016-cı illə müqayisədə 2017, 2018-ci illərdə 3,5 dəfə azalmışdır.

**Cədvəl 4.4.5. Müəssisədə peşə təhsilli personalın məhsuldarlığa təsirini hesablamaq üçün dəyişənlər cədvəli**

| Dəyişənlər | Amillər | Ölçü vahidləri | Korrelyasiya əmsalı |
|---|---|---|---|
| Y | Əmək məhsuldarlığı | min manat | |
| $X_1$ | Peşə təhsillilərin sayı | nəfər | 0,918255 |
| $X_2$ | Orta ixtisas təhsillilərin sayı | nəfər | -0,83124 |
| $X_3$ | Ali təhsillilərin sayı | nəfər | 0,830411 |
| $X_4$ | Orta təhsillilərin sayı | nəfər | -0,90445 |
| $X_5$ | Bir nəfərə düşən orta aylıq əmək haqqı | Manat | 0,881702 |

Dəyişənlər cədvəlindən (cəd. 4.4.5) göründüyü kimi müəssisədə təhsil səviyyələri üzrə əmək məhsuldarlığı arasında ən yüksək korrelyasiya əmsalı (güclü əlaqə) peşə təhsillilərin sayı ilədir. İkinci sıx əlaqə işçilərin bir nəfərinə düşən orta aylıq əmək haqqı və məhsuldarlıq arasındadır. Ali təhsillilərin sayı ilə də əmək məhsuldarlığı arasında sıx korrelyasiya əlaqəsi vardır.

Orta ixtisas təhsillilərin və tam orta təhsillilərin sayı ilə isə tərs əlaqə mövcuddur. Təbii ki, müəssisədə ali təhsil və peşə təhsili alanların sayının artması öz növbəsində burada peşə və ixtisas təhsili olmayanların sayının azalmasına səbəb

olmuşdur. Baxdığımız dövrün sonuncu illərində orta ixtisas təhsilli işçilərin sayında azalma olduğuna görə tam orta təhsillilər kimi bu göstərici ilə də müəssisədəki əmək məhsuldarlığı arasında tərs əlaqənin olduğunu müşahidə edirik.

Tədqiqat işimizin məqsədinə uyğun olaraq müəssisədə çalışan peşə təhsilli işçilərin sayının əmək məhsuldarlığı ilə asılılığının reqressiya tənliyini quraq.




**Qrafik 4.2.1. Müəssisədə peşə təhsilli personalın sayının əmək məhsuldarlığına təsiri**

Determinasiya əmsalı $R^2$=0,843. Deməli müəssisədə çalışan peşə təhsilli işçilərin sayı ilə əmək məhsuldarlığı arasında güclü asılılıq (84,3%) mövcuddur. Parametrlər: $a_0$= 28,975; $a_1$=0,337. Reqressiya modeli aşağıdakı kimi olacaqdır:

$$\bar{Y}_x = 28{,}975 + 0{,}337 * X_1 \quad (4.2.2)$$

$\bar{x}$=228,875; $\bar{Y}$=106,21

Elastiklik əmsalı:

$$E = a_1 \times \frac{\bar{x}}{\bar{y}} = 0{,}337 \times \frac{228{,}875}{106{,}21} = 0{,}337 \times 2{,}155 = 0{,}7262$$

Elastiklik əmsalı onu göstərir ki, müəssisədə peşə təhsilli işçilərin sayı 1% artarsa, məhsuldarlıq 0,73 % arta bilər[72].

Cədvəl 4.4.4.-dən görünür ki, ali təhsil alanların sayı ilə də əmək məhsuldarlığı arasında sıx əlaqə (r=0,830411) vardır, əgər bu göstəricilər arasındakı elastikliyi hesablasaq təqribən 0,6-ya yaxın bir rəqəm alınacaq.

Təhlillərdən belə nəticəyə gəlmək olar ki, əgər tam orta təhsilli işçilərin sayı peşə təhsillilərin xeyrinə azalarsa, yəni, onlar da peşə təhsili alsalar müəssisədə əmək məhsuldarlığı əhəmiyyətli dərəcədə arta bilər. Bu da iqtisadi inkişafda peşə təhsilinin əhəmiyyətli rolu olduğunu bir daha sübut edir. Xüsusilə də sənaye müəssisələrində çalışan ixtisassız fəhlələrin peşə təlimlərinə cəlb edilməsi, artıq böyük iş təcrübəsinə malik olanlarının isə sertifikasiyası çox vacibdir. Bu həm də işçilərin əmək haqqına təsir edərək motivasiya rolunu oynaya bilər.

Xarici ölkə alimlərinin hesablamalarına görə müəssisədə personalın təhsilinə çəkilən xərclərin 10 faiz artırılması əmək məhsuldarlığını 8,5 faiz artırdığı halda, kapital qoyuluşunun eyni həddə artırılması məhsuldarlığı yalnız 3,8 faiz artıra bilir[73].

Əmək bazarında fəaliyyət göstərən müəssisələrin məhsuldarlığının artması həm də istehsalın genişləndirilməsinə, eləcə də yeni iş yerlərinin artırılmasına yol açır, nəticədə əhalinin iş

[72]Gurbanova, I.M. Effect of vocational education on labor productivity in the context of increasing employment / XV Международная научно-практическая конференция профессорско-преподавательского состава «Актуальные проблемы экономической деятельности и образования в современных условиях». Оренбургский филиал РЭУ им. Г.В. Плеханова. – 14 май 2020. – p. 223-228
[73]Кязимов, К. Г. Регулирование рынка труда и содействие занятости молодежи // Профессиональное образование и рынок труда, – 2017. № 4, – с. 68-75., s. 71

təminatı yüksəlir. Beləliklə də peşə təhsilinin məşğulluq səviyyəsinə müsbət təsiri özünü göstərir. Yəni, peşə təhsili sisteminin inkişaf etdirilməsi vasitəsilə məşğulluq səviyyəsinin həm kəmiyyət, həm də keyfiyyət baxımından yaxşılaşdırılması mümkündür.

### 4.3. Peşə təhsilindən istifadənin yaxşılaşdırılması yolları

Beynəlxalq təcrübədə peşə təhsilinə hər şeydən öncə, gənclər mühitində sosial gərginliyin azaldılması imkanı kimi baxılır. Bu cür təhsil sosial yüksəliş rolu oynadıqda daha cəlbedici olur, dövlətin də bu sahəyə diqqət və qayğısı daha çox hiss olunur. Peşə təhsili müəssisələrinin idarə edilməsində və başlıca olaraq peşə təhsilinin inkişafına nail olunmasında bütün əmək bazarı subyektlərinin rolu yüksəlmişdir. Ona görə ki, peşə təhsili bilavasitə əmək bazarı ilə əlaqəlidir, öz nüfuzunu artırmaq üçün orada baş verən dəyişikliklərə, gözləntilərə və tələblərə çevik uyğunlaşmağı bacarmalıdır.

Təcrübələr göstərir ki, müasir PTS-nin inkişafinda sosial dialoqun rolu və əhəmiyyəti böyükdür. Avropa ölkələrində sosial tərəfdaşlar peşə təhsilinin maliyyələşdirilməsi və inkişaf etdirilməsində fəal şəkildə iştirak edirlər, bu da həmin ölkələrdə qəbul olunmuş əmək bazarının tənzimlənməsi strategiyasının əsas tərkib hissəsini təşkil edir. Avropa ölkələrinin təcrübəsində sosial tərəfdaşlar peşə təhsili sistemi ilə əməkdaşlıq etmək, onun inkişafına nail olmaq üçün öz təkliflərini irəli sürürlər. Məsələn, aşağıdakıları göstərmək olar:

-peşə təhsilinin inkişafı üçün mütləq vergi tətbiqi;

-ödənişli təhsil məzuniyyətinin tətbiqi;

-kollektiv müqavilə mexanizmləri ilə xüsusi sənaye fondlarının formalaşdırılması və s.[74].

Dünya iqtisadyyatının qeyri-sabit inkişaf etdiyi şəraitdə rəqabətqabiliyyətli milli iqtisadiyyatın yaradılmasının əsas şərti onun yüksəkixtisaslı işçi qüvvəsi ilə təmin edilməsi olsa da, bunu yalnız ayrı-ayrı müəssisələrin çərçivəsində etmək mümkün deyil. PTS qarşısında duran problemlərin miqyası məsələnin həm təşkilati, həm də maliyyə baxımından həlli səlahiyyətlərinin və məsuliyyətin dövlət, özəl sektor və şəxslər arasında bölüşdürülməsini tələb edir. Tədqiqatlar sübut edir ki, bu cür işdə sahibkarların az iştirak etməsi bəzi ölkələrdə səmərəli fəaliyyət mexanizminin formalaşmasına mane olur.

Bir sıra ölkələrdə dövlət təhsil müəssisələrində işçilərin ixtisasartırmasına sərf olunan dövlət xərclərini örtmək üçün xüsusi vergilər tətbiq olunur və həmin vəsait təhsilin inkişafına yönəldilir. Məsələn, Fransada sahibkarlar əmək ödəniş fonduna 2 cür vergi ödəyirlər. Birincisi, şagirdliyə görə tutulan vergidir, hansı ki, bir hissəsi tədris mərkəzlərinə qrant üçün verilir, qalan hissəsi isə dinləyicilərin təqaüdünə sərf olunur. İkincisi, alternativ təhsil ehtiyacları üçün tutulan vergidir, bu da işçilərin təhsil haqqlarına sərf olunur. Əgər müəssisə il ərzində öz vəsaiti hesabına şagirdləri hazırlayıbsa həmin vergini ödəməkdən azad olunur. Qeyd edək ki, buna bənzər model Danimarkada da tətbiq olunur.

Bəzi ölkələrdə işəgötürənlərin iş yerlərində şagirdlərin hazırlanmasına çəkdiyi xərcləri dövlət tərəfindən kompensasiya

---

[74] Qurbanova, İ.M. Peşə təhsili sistemində qlobal inkişaf meylləri // Strateji iqtisadi islahatlar: qabaqlayıcı vergi siyasəti. Beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı: AMEA 12 oktyabr 2017, – s.138-142, s.140

olunur. Özhesabına işçilərə təhsil verən firmalar vergilərdən azad oluna və bununla yanaşı digər güzəştlər də əldə edə bilərlər. Ona görə ki, bu problemin həllinin tamamilə firma və müəssisələrin üzərinə qoyulması həm biznesin səmərəliliyinin, həm də investisiya fəallığının aşağı düşməsinə səbəb ola bilər.

Peşə təhsili sisteminin iqtisadi inkişafdakı rolunu nəzərə alaraq, bir çox ölkələr bu sahənin inkişafı üzrə müxtəlif proqramlar hazırlayırlar. Bundan əlavə, peşəkar işçi qüvvəsinə olan tələbatı ödəmək üçün peşə təhsilinin təkmilləşdirilməsi və işsizliyin azaldılması istiqamətində müvafiq normativ-hüquqi qaydalar tətbiq edir, sosial və iqtisadi sahədə islahatlar həyata keçirirlər. Peşə təhsilinin inkişafı istiqamətində həyata keçirilən islahatlar əsas etibarilə orta və kiçik sahibkarlığın üstünlük təşkil etdiyi iqtisadiyyatda əmək bazarının dəyişən tələblərinə müvafiq  kadrların hazırlanması məqsədini daşıyır. Burada dövlət və özəl sektor əməkdaşlığının rolu böyükdür.

Sürətlənən texnoloji inkişaf, rəqəmsallaşma, yaşıl iqtisadiyyat, qida təhlükəsizliyi, alternativ enerjidən istifadənin önəminin artması və bütün bunların kadrlara olan tələbləri dəyişdirməsi təhsil siteminin, o cümlədən peşə təhsili və təliminin yüksək səviyyədə inkişafını və çevikliyini tələb edir. Lakin nəzərə almaq lazımdır ki, yalnız təcrübədə özünü doğrultmuş keçmiş ənənələrin üzərində yeni mütərəqqi ideyaları tətbiq etməklə ən optimal təhsil sisteminə nail olmaq mümkündür.

Bu baxımdan peşə təhsilinin inkişafı və onun məşğulluğa təsirinin optimallaşdırılması üçün dünyada özünü doğrultmuş, ölkəmiz üçün münasib olanlardan istifadə məqsədilə bir sıra ölkələrin təcrübələrinin nəzərdən keçirilməsi faydalı olar.

**Peşə təhsili üzrə xarici ölkə təcrübələrinin ölkəmizdə tətbiqi imkanları**

Azərbaycanda tətbiqini ən məqsədəuyğun hesab etdiyimiz təcrübələrin konkretləşmiş xülasəsini aşağıda təqdim edirik:

*Almaniyada* peşə təhsili sisteminin əsas üstünlüklərini ümumiləşdirsək demək olar ki, təhsil prosesində iştirak edən bütün təşkilatların səmərəli əməkdaşlığı, tədris metodlarının müxtəlifliyi və nəticəyönümlüyü, fasiləsizlik, mobillik, nəzəri və praktiki dərslərin kombinasiyası, tədris şəraitinin müasir texniki tələblərə müvafiqliyi, tərəfdaş ölkələrdə təcrübə artırmaq imkanlarının mövcudluğu keyfiyyətli peşə təhsili almağa şərait yaradan başlıca amillərdir. Almaniyada fəhlə kadrların hazırlanması əsasən müəssisələrin şagirdlik sistemi vasitəsilə həyata keçirilir, nəzəri məşğələlər üçün isə şagirdlər xüsusi məktəblərə gedirlər. Bu zaman məsuliyyət bölüşdürülmüş olur, belə ki, tədrisə dövlət, istehsalatda hazırlığa isə biznes birlikləri nəzarət edir.

*Yapon* təcrübəsindən də faydalanmaq olar, burada müsbət yanaşma odur ki, Yaponiyada orta məktəb proqramı ümumtəhsil və peşə fənlərinə bölünür. Peşə istiqamətinə kənd təsərrüfatı, sənaye, istehsalat, ticarət, balıqçılıq və evdarlıq fənləri daxil edilir, bundan əlavə, hər məktəb yerli şəraitdən asılı olaraq elektrotexnika, rabitə, İKT və s. sahələr üzrə ixtisaslaşır. Ən önəmlisi də odur ki, bütün peşə dərsləri xüsusi hazırlanmış və istehsalat təcrübəsi keçmiş pedaqoqlar tərəfindən aparılır. Məhz həmin peşəkar pedaqoqların sayəsində şagirdlər orta məktəbdə elə bilik və peşə vərdişlərinə yiyələnirlər ki, məktəbi bitirən kimi istehsalat fəaliyyətinə başlaya bilirlər.

Yaponiyanın bu təcrübəsinin Azərbaycanda tətbiqi çox əlverişli olar. Ev təsərrüfatı barədə bilgilərə hər kəsin sahib olması vacibdir. Belə bir fənnin tədrisi çərçivəsində şagirdlərə onların gələcək müstəqil həyatında gərəkli olacaq iqtisadi biliklərin öyrədilməsi gələcəkdə onların səmərəli məşğulluğuna təkan verə bilər. Hansı orta məktəblərin bazası, yerləşdiyi coğrafi mövqeyi və s. imkan verirsə orada yuxarı siniflərdə peşə təmayüllərinin yaradılması əhəmiyyətlidir. Bu məsələ "Peşə təhsili haqqında Qanun"da da öz əksini tapmışdır.

*Cənubi Koreyanın* təcrübəsi də yapon təcrübəsinə oxşardır. Burada orta təhsilin ikinci mərhələsi (15-18 yaş) ixtisaslaşma istiqamətlərinə görə 3 yerə: elmi istiqamət; xarici dillərin dərindən öyrədilməsi istiqaməti; sənət məktəblərinə bölünür. Hər şagird öz maraqlarına uyğun seçdiyi istiqamətə qəbul üçün müsabiqə olmayan, lakin mürəkkəb və hərtərəfli imtahan verir. Tədris planı birinci mərhələdə öyrənilmiş fənlərə müvafiq olmaqla əsasən 11 fənni əhatə edir, buraya həmçinin təbiət elmləri və ixtisaslaşmış istiqamətlər əlavə olunur. Beləliklə də Cənubi Koreyada təhsil almaq çətindir, lakin əsas məsələ odur ki, keyfiyyət yüksəkdir və ondan da bəhrələnmək olar.

Beynəlxalq Əmək Təşkilatının tədqiqatlarına görə, şagirdlik – iş əsasında öyrənmə (*apprenticeships, work-based learning*) bir çox ölkələrdə layiqli işlə təmin olunmaq üçün ən sərfəli yol sayılır.

Müqayisə üçün qeyd edək ki, inkişaf etmiş ölkələrdə əsas təhsildən sonra peşə təhsilinin alınması çox yüksək göstəricilərə malikdir. Çex Respublikasında 74%, Finlandiya və Avstriyada-70%, İtaliyada-56%, Almaniyada-48%, Böyük Britaniya və Fransada-43%, Danimarkada-42% şagird orta məktəbin pe-

şə-texniki yuxarı siniflərində oxumağa üstünlük verir[75].İsveçrə əhalisinin 3/2-si birinci yerdə PTT-ni seçir və 15-16 yaşlarından peşə təhsilinə başlayaraq praktiki olaraq şirkətlərdə sahədən və profildən asılı olaraq 2 ildən 4 ilə qədər təlim keçirlər[76].

Hazırda RF-nın müxtəlif regionlarında əmək bazarının tələblərinə uyğun fəhlə kadrların hazırlanması üçün müxtəlif modellər həyata keçirilir: 1) klaster modeli – müxtəlif səviyyəli və müxtəlif növ təhsil müəssisələrini və digər müəssisələri birləşdirir ki, bu da innovasiyalı təhsil proqramlarının, texnologiyaların və metodikaların tətbiqini asanlaşdırır; 2) korporativ model – işəgötürənin tələblərinin maksimum ödənilməsinə yönəlmiş və öz əmək resurslarının rahatlığı üçün peşə fəaliyyətinə və yerləşmə yerinə yaxınlaşdırılmış firmadaxili təhsili nəzərdə tutur; 3) "sənətkarlıq fəaliyyəti" – hər şeydən əvvəl xidmət sektoruna aid müəssisələr üçün yeni peşələrə olan tələbatın ödənilməsini şərtləndirir, orta səviyyəyə məxsus olan və eyni zamanda istehsal və təşkilati-idarəetmə funksiyalarını yerinə yetirə bilən çoxprofilli, çoxfunksiyalı mütəxəssis hazırlığını nəzərdə tutur[77].

Xarici ölkələrin təcrübəsindən çıxan nəticə odur ki, orada sosial tərəfdaşlıq qlobal iqtisadiyyatın tələblərinə cavab verən

---

[75]The changing nature and role of vocational education and training in Europe. Volume 3: the responsiveness of European VET systems to external change (1995-2015): CEDEFOP research paper, – Luxembourg: Publications Office, – 2018. –No 67, –136 p. https://www.cedefop.europa.eu/files/5567_en.pdf

[76]Vocational skills development: key to employment and income. Insights into the SDC's cooperation in vocational skills development: – Bern, 2016. –24 p. https://www.dcdualvet.org/wp-content/uploads/2016_SDC_VSD-Key-to-employment-and-income_Insights-into-the-SDCs-cooperation-in-VSD.pdf, s. 8

[77]Герганов, Л.Д. Система профессионального обучения работников на производстве и ее роль в обеспечении производства квалифицированными кадрами: сравнительный анализ // Гуманитарные ведомости ТГПУ им. Л. Н. Толстого, – 2012. № 2 (14), июнь, – с. 118-127., s. 123

və beynəlxalq səviyyədə aktual olan peşə ixtisaslarına uyğun kadrların hazırlanması istiqamətində qurulur. Gənclərin peşə təhsili və peşəyönümü işində sosial tərəfdaşlığın təşkil olunmasında həlledici rol işəgötürənlərin üzərinə düşür. İşəgötürənlərin əsas məqsədləri peşə təhsilinə dəstək olmaqla öz rəqabətqabiliyyətli kadr potensialını formalaşdırmaqdır. Bunun üçün onlar bu sahədə dövlət siyasətinin formalaşmasında, peşə standartlarının, təhsil proqramlarının, hazırlanmasında, yaxından iştirak edir, həmçinin kadr hazırlığında mütərəqqi peşə təhsili proqramlarının, müasir şagirdlik, kurslar, stajirovkaların və s. təşkilinə himayədarlıq edirlər.

Hesab edirik ki, Azərbaycanda peşə təhsili müəssisələri və özəl sektor arasında sosial tərəfdaşlığın səmərəli təşkilində hələlik dövlətin rolu və birbaşa nəzarəti mütləqdir. Ancaq peşə təhsilinin inkişafı və nüfuzunun yüksəldilməsi üçün yalnız dövlətin fəaliyyəti kifayət etmir, gənclərin doğru peşə seçimini yönləndirmək üçün təhsil sistemi, biznes və bütün cəmiyyətin səy göstərməsi vacibdir. Bu məqsədlə peşəkar kadrların hazırlanmasında maraqlı olan tərəflərin məhsuldar əməkdaşlıq əlaqələri qurması stimullaşdırılmalı, orta məktəb, peşə təhsili müəssisələri, kollec və universitetlərin və işəgötürənlərin əməkdaşlığının yeni formaları istifadə olunmalıdır. Dövlət sosial tərəfdaşları peşə təhsilinin inkişafına cəlb etmək məqsədilə iş yerlərində təhsilə şərait yaradan, şagirdlik yerləri açan işəgötürənləri vergilərdən azad etmək, yaxud subsidiyalar verməklə onlarda stimul yarada bilər.

Baxdığımız təcrübələrdən belə qənaətə gəlmək olur ki, peşə təhsilinin məşğulluğa ən yaxşı təsiri əsasən Almaniya, İsveçrə, Avstriya və Danimarkada məşhur olan dual təhsil vasitəsilə

mümkündür. Qeyd edək ki, həmin ölkələrdə işsizlik səviyyəsi digər ölkələrlə müqayisədə, eləcə də ali təhsil alanların sayının çoxluq təşkil etdiyi bir çox ölkələrə nisbətən daha aşağıdır. Beləliklə də gənclərin əmək bazarına səmərəli girişini təmin etmək üçün alman dual təhsil sistemi özünü doğrultmuşdur. Almaniyada məzunların 70%-dən çoxu təlim keçdikləri firmalarda qalıb işləməyə başlayırlar. Almaniyada işsizliyin aşağı olmasının əsas səbəbi PTT proqramında iştirak və məzunların firmadaxili iş təminatının mövcudluğu hesab olunur.

Tədqiqatlardan müasir PTS-nin inkişafinda sosial dialoqun əhəmiyyətli rolu olduğunu görürük. Avropa ölkələrində peşə təhsilinin maliyyələşdirilməsi və inkişaf etdirilməsində sosial tərəfdaşlar yaxından iştirak edirlər, peşə təhsili sisteminin təkmilləşdirilməsi və ondan istifadənin yaxşılaşdırılması istiqamətində təkliflərlə çıxış edirlər. Bütün bunlar həmin ölkələrdə əmək bazarının tənzimlənməsini nəzərdə tutan strategiyanın mühüm tərkib elementlərini təşkil edir. Peşə təhsilinin maliyyələşməsinə kömək göstərmək məqsədilə tərəfdaşlar birlikdə müxtəlif fondlar təsis edirlər.

*Azərbaycanda* peşə təhsilinin ictimai statusunun və imicinin qaldırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi, biznes sektoru ilə səmərəli əməkdaşlığın genişləndirilməsi, peşə təhsilinə və gənclərin məşğulluğunun yaxşılaşdırılmasına yardım üçün xüsusi fondların təsis olunması, peşə standartlarının təkmilləşdirilməsi, ömür boyu təhsil, qeyri-formal peşə təhsili sisteminin inkişaf etdirilməsi və digər məsələlər peşə təhsili sisteminin əsas  inkişaf istiqamətlərini təşkil edir.

Qanunvericiliyə uyğun olaraq işəgötürənlər peşə təhsilinin təşkilində, təhsil proqramlarının hazırlanmasında, tədrisin təş-

kilində, qəbul və buraxılış imtahanlarının keçirilməsində bilavasitə iştirak edə, eləcə də peşə təhsili müəssisələri ilə tələbələrin istehsalat təcrübəsi keçməsi və yaxud iş yerində öyrənməni təmin etmək barədə müqavilələr bağlaya bilərlər.

Tədqiqatlardan belə nəticə hasil olur ki, bazar iqtisadiyyatı şəraitində peşə təhsili müəssisələrinin fəaliyyəti mütləq şəkildə biznes strukturları ilə sıx qarşılıqlı əlaqələr əsasında qurulmalıdır. Bu əlaqələr həm çoxtərəfli, həm də uzun müddətli olmalı və əmək bazarında mütəmadi sorğular təşkil etməklə yaranmış ehtiyaclar mütəmadi öyrənilib ödənilməsi istiqamətində fəaliyyətlər göstərilməlidir. Peşə təhsili sahəsində işəgötürənlərin yaxından iştirakını təmin etmək məqsədilə dövlət tərəfindən həm işəgötürənlərin öhdəliklərinin müəyyən olunması, həm də stimullaşdırıcı vasitələrdən istifadə etməklə peşə təhsilinin dəstəklənməsinə cəlb edilməsi vacibdir.

## Azərbaycanda Peşə təhsili sisteminin müasir inkişaf tendensiyası

Peşə Təhsili üzrə Dövlət Agentliyindən götürülmüş sorğuda bildirilmişdi ki, peşə təhsili müəssisələri hazırki vaxtda 40 min nəfər kontingenti əhatə etmək gücünə malikdir. Qəbul planında yerlərin sayı hər il artırılır, ancaq bu plan hələlik tam ödənilməsə də qəbul olunanların sayında son illərdə artım vardır. Aşağıda verilmiş diaqramdan bunları daha aydın görə bilərik.




**Qrafik 4.4.1. Peşə təhsili müəssisələrinə qəbul planının yerinə yetirilməsi göstəriciləri**

*Mənbə: Peşə Təhsili üzrə Dövlət Agentliyinin rəsmi saytı.*

Plan yerləri tam ödənilməsə də qeyd etməliyik ki, buraya müraciət edənlərin sayı tədricən artır. 2024/2025-ci tədris ilində plan yerləri daha da artırılaraq 84 təhsil müəssisəsində 136 ixtisas üzrə 30960-a çatdırılmışdır, 24821 nəfər (əvvəlki illə müqayisədə 21 % çox) qəbul olunmuşdur ki, onlardan 85 faizi dövlət hesabınadır. Qəbul olunanların arasında hətta 74 nəfər ali təhsilli, 244 nəfər orta ixtisas təhsilli şəxslər və 66 nəfər əcnəbi vətəndaş vardır. Dual təhsil proqramı üzrə təhsil alanların sayı da artaraq 1273 nəfərə çatmışdır. Qəbul olunanların 2453 nəfəri yüksək texniki peşə təhsili səviyyəsində təhsil alır. Qeyd edək ki, 2024-cü ildə peşə təhsilinin yüksək texniki peşə təhsili səviyyəsində məzun olmuş 281 nəfərdən 148-i (52,7 %) ali təhsil müəssisələrinə qəbul olunmuşlar.[78]

[78] https://vet.edu.gov.az/news/content/1162/inner

Təsnifata yeni əlavə edilmiş elə ixtisaslar vardır ki, kütləvi peşələrə aid deyil, konkret sahəyə aiddir (metropoliten işçisi, aviasiya avadanlıqları təmirçisi və s.), şagirdlər bu peşə ilə harada işləyə biləcəkləri barədə məlumatsızlıqdan və ya işlə təmin oluna bilməyəcəklərini düşündüklərindən onlara az müraciət edirlər. Bu cür peşələrə uyğun kadrlar hazırlanması tamamilə sifarişə əsaslanmalıdır, iş yeri ilə müqavilə bağlanılmalı, istehsalatda təcrübəyə geniş yer verilməlidir, istehsalatda şagirdlik yerlərinin alınmasına əsaslanan peşə təhsil növü burada tətbiq edilməlidir.

Peşə təhsilinin rolunun daha da yüksəldilməsi və ondan optimal istifadəni təmin etmək üçün ilk növbədə bu sistemin inkişafına və nüfuzunun artmasına mane olan vəyaxud onu ləngidən səbəbləri bilmək lazımdır..

*Apardığımız tədqiqatların nəticələrinə əsasən peşə təhsilinin problemlərini konkret şəkildə təsnifləşdirsək əsasən aşağıdakıları göstərmək olar:*

-maddi-texniki bazanın köhnəliyi;

-40-a qədər peşə təhsil müəssisəsinin tədris binalarında məcburi köçkün ailələrinin məskunlaşması, yataqxana imkanlarının olmaması;

-təhsil proqramları, dərs vəsaitləri, avadanlıqların yenilənməsi zərurəti;

-peadqoji heyətin və istehsalat ustalarının təkmilləşdirilməsi zərurəti;

-idarəedici heyətin innovativ yanaşma, təşəbbüskarlıq baxımından təkmilləşdirilməsi tələbatı;

-maliyyə təminatının zəifliyi, əlavə maliyyə mənbələrinin (investisiyalar, ianələr, istehsaldan əldə edilən gəlir və s.) cəlb edilməsinin çətinliyi;

-məktəblərdə peşəyönümü işinin zəifliyi (formallıq), kifayət səviyyədə aparılmaması;

-peşə təhsilinə marağın kifayət səviyyədə olmaması;

-kadr hazırlığının keyfiyyətcə əmək bazarının tələblərindən geri qalması;

-işəgötürənlərlə səmərəli əməkdaşlığın formalaşmaması;

-məzunların iş təminatına inamın az olması və s.

Sadalanan problemlərin aradan qaldırılması yönündə hazırda müəyyən tədbirlər həyata keçirilir, lakin görülən işlərin daha sürətləndirilməsi və geniş əhatəli xarakter alması təmin edilməlidir. Bu baş verərsə peşə təhsilinin əmək bazarında rolunun yüksəlməsinə və məşğulluğu nəzərəçarpacaq dərəcədə artırmasına nail olmaq olar.

*Peşə-ixtisas təhsilinin inkişafı və məşğulluğa təsirinin yaxşılaşdırılması baxımından əsas prioritetləri aşağıdakı kimi qruplaşdıra bilərik:*

-tam orta məktəblərdə şagirdlərə ilkin peşə vərdişlərinin öyrədilməsi, bir neçə məktəbin birgə istifadə edə biləcəyi emalatxanalar, təcrübə sahəsi və s. yaradılması;

-orta məktəblərdə şagirdlərin doğru peşə seçiminə kömək edə biləcək mütəxəssisin – peşə məsləhətçisinin olması;

-şagirdlərin məlumat ala bilməsi üçün peşə, ixtisaslar və peşə-ixtisas təhsili müəssisələri, onların məzunlarının iş təminatı barədə müfəssəl izahlı elektron bazanın təşkili və əlyetərliyi;

-distant təlim üsullarının tətbiqi ilə gənclərin peşə-ixtisas təhsili ilə əhatəliliyinin genişləndirilməsi;

-əmək bazarının daimi müşahidəsi və monitorinqinin aparılması, strateji məşğulluq sahələri və kadr tələbatı üzrə proqnozlaşdırmanın təşkili;

-işəgötürənlərlə səmərəli əməkdaşlıq üsullarından istifadə (öhdəliklərin qoyulması, vergi güzəştləri, subsidyaların verilməsi, qrantların təşkili və s.);

-əlavə maliyyə mənbələrinin, investisiyaların, sponsorların və s. cəlb olunması;

-tədris istehsalat birliklərinin yaradılması;

-peşə-ixtisas təhsilinin bütün pillələrində tələbələrə əsgərlikdən möhlət hüququnun verilməsi;

-peşəkar kadrların tədrisə və istehsalat təliminə cəlb edilməsi;

-yeni dərslik və metodik vəsaitlərin, eləcə də orta məktəblərdə əmək təlimi dərslərində istifadə ediləcək əyani vəsaitlərin hazırlanması;

-peşə standartlarının tətbiqi (peşə standartları – konkret peşə sahəsi üzrə işçinin yerinə yetirməli olduğu işin məzmununa və əmək şəraitinə qoyulan minimum tələblərin məcmusudur);

-işsizliyin azaldılması üçün kənd yerlərində əhalinin yaşayış yerinə yaxın ərazilərdə peşə-ixtisas təhsilinin, peşə təlimi kurslarının təşkili ilə daha çox insanın cəlb edilməsi;

-beynəlxalq əməkdaşlıqlardan səmərəli istifadə edilməsi;

-idarəetmənin təkmilləşdirilməsi, sosial tərəfdsaşların yaxından iştiraka cəlb olunması və s.

*Məşğulluğun yaxşılaşdırılması baxımından ümumilikdə peşə-ixtisas təhsilinin inkişafı istiqamətində yerinə yetirilməsi vacib olan məsələləri aşağıdakı kimi qruplaşdırmaq olar:*

-təhsilin bütün pillələri və səviyyələri arasında əlaqələrin yaxşılaşdırılması;

-peşəyönümü, peşə və ixtisasların gənclərə tanıdılması işində məhsuldarlığın artırılması;

-orta məktəblərdə “ev təsərrüfatı” tipli fənnin tədrisi (yapon təcrübəsi);

-orta məktəblərdə peşə siniflərin yaradılması;

-bölgələrdə peşə təlimi kurslarının təşkili, xalq sənətkarlığı peşələri ilə məşğul olanların stimullaşdırılması, öz şagirdlərini hazırlamağa sövq olunması;

-peşə təhsili sahəsində sahibkarlıq fəaliyyətinin təşviqi;

-şirkətlərlə işgüzar əməkdaşlıq yaradılması üçün beynəlxalq təcrübədə sınaqdan çıxmış metodların tətbiqi, tənzimləyici qaydaların işlənilməsi;

-əmək bazarının tələbatlarının mütəmadi olaraq öyrənilməsi;

-peşələrə və kadr sayına yaranacaq tələbatların müntəzəm proqnozlaşdırılması və informasiya bankına daxil edilməsi;

-peşə təhsilinin imkanları haqqında, eləcə də tələbatlı peşələr, vakansiyalar barədə informasiya bazasının müntəzəm yenilənməsi və hamı üçün əlçatarlılığının təmini;

-əmək bazarında peşə və ixtisaslara qarşı dəyişən tələblərin qarşılanması üçün çevik proqramların hazırlanması, peşələrin variativliyinin və çoxfunksiyalılığının təmini;

-informal və qeyri-formal yolla öyrənilmiş və həmçinin əmək prosesində qazanılmış peşə bacarıqlarının sertifikatlaşdırılması prosesinin sadələşdirilməsi;

-həm işsizlərin, həm də işləyənlərin ixtisasdəyişmə, yenidənhazırlanma və ixtisasartırma tələbatlarının ödənilməsi;

-əmək ehtiyatları və əmək qabiliyyətli əhalinin daha çox hissəsinin lazımlı peşələrə yiyələnməsi yönündə işlər aparılması;

-təhsil alanların işlə təminatının yaxşılaşdırılması, verilən imtiyazlardan və imkanlardan fiziki sağlamlığı məhdud olan şəxslərin maksimum faydalanmasına və cəmiyyətə adaptasiyasına kömək göstərilməsi;

-peşə-ixtisas təhsilində dual təhsil və şagirdlik yerlərinin alınması, firmada təhsil formalarının tətbiqi imkanlarının araşdırılması yönündə işəgötürənlərlə səmərəli əlaqələrin qurulması, əmək həyatına erkən başlamaq ehtiyacı olan gənclərin bu tip imkanlardan faydalanmasına şərait yaradılması;

-Regional Peşə Tədris Mərkəzlərinin hər iqtisadi rayonda yaradılması;

-bölgələrdə dövlət və bələdiyyə idarəetmə orqanlarının, müəssisələrin, eləcə də özəl bölmənin birgə fəaliyyətini stimullaşdıran Təhsil klasterlərinin təşkili;

-təşəbbüskarlığın artırılması üçün istənilən səviyyədə qabaqcıl işin qiymətləndirilməsi mexanizmlərinin tətbiqi[79].

Qeyd olunan istiqamətlərdə məhsuldar fəaliyyətin təşkili və gözlənilən hədəflərə çatmaq üçün *dövlət-vətəndaş-özəl bölmə* əlbir olub peşə və ixtisas təhsilinin inkişafı, kadr hazırlığının təkmilləşdirilməsi, gənclərin məşğulluğunun yaxşılaşdırılması, ümumilikdə əhalinin məğulluq səviyyəsinin və eləcə də yaşayış səviyyəsinin yüksəldilməsi və ölkəmizdə iqtisadiyyatın da-

[79] Qurbanova, İ.M. Azərbaycanda peşə təhsili sisteminin müasir vəziyyəti və inkişaf perspektivləri // – Bakı: AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, – 2021 (4), – s. 109-117

vamlı inkişafına nail olmaqda hər biri öz tovfəsini verməyə səy göstərməlidir.

Yaşadığımız sürətli inkişaf dövrünün tələblərinə uyğun olaraq istər peşə-ixtisas təhsilinin inkişafında, istərsə də əhalinin sosial müdafiəsi və məşğulluğu sahəsində internetin və rəqəmsal texnologiyaların imkanlarından mümkün qədər səmərəli faydalanmaq lazımdır.

**Peşə təhsilinin məşğulluğa təsirinin yaxşılaşdırılmasının əsas istiqamətləri**

Peşə təhsili alanların sayının artırılması hələ o demək deyil ki, səmərəli məşğulluq artacaq. Bu məsələnin reallaşması üçün iki mühüm məsələ diqqət mərkəzində olmalıdır: işəgötürənlərin yaxın əməkdaşlığı və yeni iş yerlərinin yaradılması. İşəgötürənlər peşə təhsilli kadrların hazırlanmasında bilavasitə iştirak etməsələr keyfiyyət istənilən səviyyədə olmayacaq, ikinci tərəfdən, yeni iş yerləri olmasa bu kadrlar harada işləyəcəklər? Sadəcə olaraq diplomlu işsizlərin sayı artacaq.

Peşə təhsili məzunlarının yaxşı işlə təmin olunması məsələsi reallaşmalıdır ki, peşə təhsilinin məşğulluğa müsbət təsirinin olmasından və bu təsirin daha da yaxşılaşdırılmasından danışa bilək. Əks halda, gənclər əlində peşə təhsili diplomu ilə işsiz qalacaqlarsa onların sayının çox olmasının nə faydası? Deməli öncə keyfiyyət, sonra kəmiyyət. Keyfiyyət isə sadəcə olaraq keyfiyyətli mütəxəssis hazırlığı demək deyil, həm də məzunların *iş və karyera imkanlarının* geniş olmasıdır. Burada isə işəgötürənlərin mühüm rolu vardır ki, bu da bütün inkişaf etmiş ölkələrin təcrübəsindən də bildiyimiz sosial tərəfdaşlıq (peşə

təhsili müəssisələri-məşğulluq xidməti-işəgötürənlər daimi və sıx əlaqələri) vasitəsilə həyata keçirilir.

Ümumiləşdirilmiş halda deyə bilərik ki, peşə təhsilinin keyfiyyət baxımından yaxşılaşdırılması maliyyənin artırılmasına bağlıdır, kəmiyyət artımı isə əhali arasında bu təhsilə marağın yüksəldilməsindən asılıdır. Son illər ali təhsil alma imkanlarının get-gedə genişləndirilməsi və subbakalavrların ali təhsilə güzəştli qəbulunun həyata keçirilməyə başlaması kolleclərin xeyrinə peşə təhsilinə marağı daha da azalda bilər. Buna görə də peşə təhsilinin özünü də ali təhsilə səmərəli keçid pilləsinə çevirmək lazımdır. Bu baxımdan peşə təhsili pilləsinin yüksək texniki peşə təhsili səviyyəsi üzrə hazırlanan kadrlara subbakalavr dərəcəsinin verilməsi əhəmiyyətli addımdır, digər səviyyələri üçün də müəyyən güzəştlərin və üstünlüklərin tətbiqi peşə təhsilinə marağı daha da artıra bilər.

Hətta ən zəif oxuyan şagirdlərin belə öz qabiliyyətlərinə və maraqlarına uyğun peşə, sənət öyrənməsi təmin olunmalıdır. Bəzi ailələr övladlarının təhsilini maddi çatışmazlıqlar üzündən davam etdirə bilmirlər. Peşə təhsilinə sosial təminat nöteyi-nəzərindən yanaşaraq ilk növbədə belə ailələrin övladlarına həm təhsil almaq, həm də işlə təmin olunmaq üçün imkan yaradılmalıdır. Peşə öyrənmək imkanı orta məktəblərin özlərində təşkil olunarsa bu daha əhatəli və əlçatar olar. Peşə təhsilinin inkişafı regionlarımızın da inkişafına zəmanət verə bilər.

2019-cu il yanvarın 11-də Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə başçımız yeni iş yerlərinin yaradılması barədə bildirib: *“Biz bir neçə il bundan əvvəl ənənəvi sahəmiz olan xalçaçılığı*

*sürətlə inkişaf etdirməyə başlamışıq. Həm iş yerləri, gözəl müəssisələr yaradılır, gənclər cəlb olunur, həm də ki, xalçaçılığın böyük iqtisadi tərəfi də var...İslahatlar nəticəsində kənd təsərrüfatı istehsalı böyük dərəcədə artacaq. Artıq iri fermer təsərrüfatlarının və aqroparkların yaradılması istiqamətində yaxşı nəticələr var"*[80].

Bəzi iqtisadçılar əməktutumlu sahələrin texnologiya ilə əvəz olunması tərəfdarıdır. Məsələn, xalçaçılıq barədə qeyd edirlər. Əgər məsələyə yalnız iqtisadi inkişaf, məsrəflərin və maya dəyərinin azaldılması nöqteyi-nəzərindən yanaşsaq, bu belədir. Lakin xalçaçılığın inkişafı, orada yeni iş yerlərinin yaradılması aktiv məşğulluq tədbirlərindəndir. Son illərdə xalçaçılıq sahəsinə diqqətin artırılması, yeni müəssisələrin açılmasında əsas məsələ məhz insanların işlə təmin olunmasıdır. Həm də əl ilə toxunulmuş xalça daha orjinal və daha qiymətli olur. Hər məhsulun öz istehlakçısı var, gəlirlərindən asılı olaraq insanalrın tələbi formalaşır. Əlbəttə ki, əl ilə toxunulmuş xalçaya üstünlük verən istehlakçılar da vardır. Bu cür məhsullar ölkəmizin ixrac potensialının artmasına da xidmət edir. Bütün bunları təkcə xalçaçılığa yox, digər əməktutumlu sahələrə də şamil edə bilərik.

Dövlət başçımızın qeyd etdiyi sahələrin inkişaf etdirilməsi diqqət mərkəzində olduğundan ümidverici haldır ki, orada yeni iş yerləri yaradılacaq. Həmin istiqamətlərə görə də, ixtisaslı kadrlara ehtiyac artacaq. İnkişafı nəzərdə tutulan sahələr üçün tələbatlı peşələr barədə proqnoz apararaq qəbul planını artır-

---

[80] Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı çıxışı:  [Elekrton resurs] / – Bakı, 11 yanvar 2019-cu il.Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi. URL:https://president.az/az/articles/view/31504

maq, peşə və ixtisas təhsilindən kənarda qalan gənclərin təhsillə əhatəliliyini yaxşılaşdırmaq və onların səmərəli məşğulluğunu təmin etmək olar.

*"Heç kəs işsiz qalmasın və yaxud iş hamı üçün" məsələsi artıq şüarımıza çevrilməlidir. Texnologiyanın inkişafı get-gedə işçi qüvvəsini demək olar ki, əmək bazarından sıxışdırıb çıxarır. Əlbəttə ki, iqtisadi artımın və iqtisadi inkişafın olması üçün texnoloji inkişafdan geri qalmamalıyıq. Lakin birinci yerdə insan amili durur, insanlarımızın sağlam və normal yaşaması bizim üçün daha vacibdir. Bu nöqteyi-nəzərdən, bir tərəfdən texnoloji inkişafla ayaqlaşmağa çalışsaq da, digər tərəfdən də bütün işçi qüvvəsinin iş təminatının olması üçün əmək-tutumlu iş yerlərinin artırılmasına böyük ehtiyac vardır. Burada yaradılan əlavə dəyər bəlkə daha az olacaq və yaxud bəlkə məhsul daha baha başa gələcək, lakin ümumxalq qazancımız daha çox olacaq, o şəkildə ki, işsizlərin sayı azalacaq və işsizlikdən törəyən çoxsaylı problemlər də azalmış olacaq. Cəmiyyətdə get-gedə dərinləşən təbəqələşmə də tədricən aradan qalxa bilər.*

*Fikrimizcə, gənclərin işsizlik probleminin yüksək olduğu bu dövrdə istənilən sahə: istər aqrar sahə olsun, istər tikinti, metallurgiya, kənd təsərrüfatı və s. hər birinin inkişafında işsizliyin aradan qaldırılması əldə rəhbər tutulmalıdır. Hətta adambaşına düşən ÜDM artsa və insanlara əməklə qazanmadığı maddi yardımı göstərsək belə onların problemləri aradan qalxmayacaq, çünki insan sosial, bioloji, psixoloji valıqdır, o sosiallaşmalıdır, cəmiyyətdə lazımlı olduğunu hiss etməli, özünə layiqli yer tutmalıdır. Əks təqdirdə məşğuliyyətsizlik onu başqa "məşğuliyyətlərə" sövq edə bilər...*

Əsas ümidverici hal odur ki, artıq torpaqlarımızın böyük hissəsi işğaldan azad olunub və orada təmizlənmə, bərpa, yenidən məskunlaşma yönündə işlər gedir. Torpaqlarımız itirilən zaman 90-cı illərdə 300 mindən artıq iş yeri də itirilmişdi, 12 peşə məktəbinin bazası dağıdılmışdı, deməli, hazırda orada yaşayışın bərpa olunması üçün işçi qüvvəsinə ehtiyac artır, infrastruktur bərpa olunduqdan sonra isə 100 minlərlə yeni, o cümlədən də daimi iş yerləri yaradılacaq. Bütün bunlarla yanaşı peşə təhsili sisteminin şəbəkəsi də genişlənəcək və bu istiqmətdə artıq müəyyən işlər görülmüşdür. Füzulidə, Şuşada peşə təhsili müəssisələri tikilir, orada yeni ixtisasların öyrədilməsi də nəzərdə tutlmuşdur.

Artıq doğma torpaqlarımız işğaldan azaddır, orada gedən quruculuq işləri ilə yanaşı, peşəkar və bacarıqlı kadrlara ehtiyac daha da artacaq. Gələcək illərdə daha çox hansı peşə və ixtisaslara və nə qədər tələbat olacağını dəqiq bilmək və yaxşı proqnoz vermək üçün iqtisadiyyatda yaradılacaq müəssisələr və perspektiv iş yerləri barədə müfəssəl məlumat bazasına malik olmaq lazımdır. Bu cür məlumatları işəgötürənlər, sahibkarlar özləri qabaqcadan Peşə Təhsili üzrə Dövlət Agentliyinə bildirməlidir ki, həmin tələbatlara uyğun iş aparılsın. Hələlik belə bir məlumat bzasına malik olmağımızın mümkün olmadığına görə apardığımız tədqiqatlar, işəgötürənlərdən götürülmüş sorğular, təhlillər, şəxsi müşahidə və mülahizələrimiz əsasında və işğaldan azad olunmuş rayon və şəhərlərimizin potensialını nəzərə alaraq peşələrə yaranacaq tələbat barədə təqribi proqnoz verməyə çalışmışıq.

*Hansı sahələr üçün peşə təhsilli kadrlara ehtiyac artır?*[81]. İşəgötürənlər arasında aparılmış sorğular iqtisadiyyatın prioritet sahələri olan kənd təsərrüfatı, sənaye, turizm, İKT üzrə mütəxəssislərə ehtiyac olduğunu göstərir. Təbii ki, həmin sahələrdəki iqtisadi artım peşə təhsilli kadrlara olan ehtiycı da artırır. Deməli, gələcək illərdə də kənd təsərrüfatı, turizm, İKT, mədəni xidmət sahəsində peşə təhsilli kadrlara tələbat olacaq. İşğaldan azad olunmuş torpaqlarımızda yaşayışın bərpa edilməsilə bu tələbatlar daha da artacaq (xüsusilə də kənd təsərrüfatı, inşaat, təmir-ikinti, turizm, xidmət sahələri üzrə). Ona görə də fikrimizcə, aşağıdakı sahələr üzrə peşə təhsilli kadrların hazırlanması diqqət mərkəzində olmalıdır:

1. İKT və elektronika sahəsində kadrlara ehtiyac var və bundan sonra daha da artacaq. Pandemiya dövrü göstərdi ki, rəqəmsal texnologiyalar üzrə mütəxəssislərə ehtiyac artır və hər kəsin bu texnologiyalardan istifadə bacarıqlarının artırılmasına ehtiyac var.

2. Elə peşələr vardır ki, onlara hər zaman, hər yerdə ehtiyac var. Bunların bir çoxu orta məktəblərdə öyrədilə bilər. Məsələn, dərzi, bərbər, məişət cihazlarının təmirçisi, kompüter operatoru və s.

3. Turizm imkanları geniş olan bölgələrdə profilə uyğun peşə təhsili müəssisələrinin yaradılması və peşəkar kadrların hazırlanması məqsədəuyğundur. Azad olunmuş torpaqlarımızın turizm potensialının genişliyini nəzərə alsaq, həmin bölgələrdə

---

[81] Qurbanova, İ.M. Azərbaycanda peşə təhsili sisteminin müasir vəziyyəti və inkişaf perspektivləri // – Bakı: AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, – 2021 (4), – s. 109-117

bu tipli Peşə Təhsil Mərkəzlərinin tikilməsinə böyük ehtiyac var.

4. Qarabağ, Kəlbəcər-Laçın bölgələrində aqrar-emal, əlvan metallurgiya, yeyinti və yüngül sənaye, tikinti sahələri üçün kadrlar hazırlanmalıdır.

5. Kənd təssərrüfatı texnikası, robototexnika, maşın və avadanlıqlardan istifadə və təmiri, eləcə də nəqliyyat vasitələrinin təmiri üzrə müvafiq sayda yüksək ixtisaslı texniki peşə kadrlarının hazırlanması labüddür. Bir neçə bölgədə aqrosənaye komplekslərinin, parklarının nəzdində texniki-peşə təhsili verən mərkəzlər yaradılmalıdır.

6. Kənd təsərrüfatı üçün heyvandarlıq üzrə mütəxəssislərin hazırlanması rayonların tələbatları hesaba alınaraq davam etdirilməlidir. Bitkiçilik, arıçılıq, ətraf mühitin mühafizəsi üzrə, həmçinin kənd təsərrüfatından əldə edilən meyvə, tərəvəzin və heyvandarlıq məhsullarının emal sahələri üzrə, ümumiyyətlə, qida sənayesi üçün mütəxəssislər hazırlanmalıdır.

Kənd təsərrüfatı üzrə ixtisaslaşmış rayonların ənənəvi sahələri bərpa olunmalıdır. Məsələn, Şəkidə baramaçılığı, ipəkçiliyi inkişaf etdirməklə həm iqtisadiyyatımız, həm də ölkə əhalisi üçün böyük fayda əldə etmək olar. Yəni əldə edilən baramadan ipək hazırlayan müəssisələr, ipəkdən hazır geyim və s. tekstil məhsulları istehsal edən fabriklər yaradılmalı (eynilə də pambıqçılıq sahəsində), bununla da regionlarda çoxlu iş yerləri açmaq, insanları öz yaşadığı bölgədə işlə təmin etmək mümkündür. Təbii ki, bütün bunlar peşə təhsili sisteminin də inkişafına təkan verir. Sonralar iri istehsalat birliklərinin nəzdində texniki peşə məktəblərinin açılması da nəzərdə saxlanılmalıdır. Məhz

bu yollarla məşğulluğu artırmaq və peşə təhsilinin ona təsirini yaxşılaşdırmaq mümkündür.

Ümumiyyətlə, iqtisadiyyatımızın davamlı inkişafı, iqtisadi təhlükəsizliyin qorunması, işçi qüvvəsindən səmərəli istifadə edilməsi, məşğulluğun keyfiyyətinin və səviyyəsinin artırılması, insanlarımızın həyat səviyyəsinin yüksəldilməsi üçün mütləq, respublikada istehsal olunan məhsulların və xammalın son istehsal prosesinə, hazır istehlak malları, əmtəə səviyyəsinə qədər öz ölkəmizdə hazırlanmasına çalışmalı, idxaldan asılılığı azaltmalı və ölkə brendlərini yaradaraq ixrac potensialımızı get-gedə daha da artırmalıyıq.

# NƏTİCƏ

Apardığımız tədqiqatlar, təhlillər, sorğular və müşahidələrimiz əsasında əmək bazarı və kadr hazırlığının ona uyğunluğu barədə yekun bir müddəa səsləndirə bilərik: ***formal təhsilin qeyri-adekvatlığı əmək bazarında qeyri-formal təhsilin rolunu artırır.*** Buradakı uyğunsuzluğu artıran səbəblərdən biri ali təhsilin əmək bazarının tələblərindən geri qalmasıdırsa, digər vacib məsələ işləyən ali təhsilli şəxslərin böyük bir qisminin öz ixtisası üzrə çalışmamasıdır.

Belə nəticəyə gəlirik ki, gənclərin səmərəli məşğulluğunun təmin olunmasında və onların uğurlu karyera qurmasında əsas məsələ düzgün peşə seçimi ilə bağlıdır. Bunun üçün orta məktəblərdə peşə seçimi üzrə peşəkar məsləhətçilərin olmasına ehtiyac vardır. Öz bilik və bacarıqlarına uyğun və tələbatlı peşənin seçilməsi şəxsin gələcəkdə əmək bazarında tutacağı yeri də müəyyənləşdirir, ixtisas aldıqdan sonra isə fəaliyyət göstərəcəyi sahənin düzgün seçilməsi çox önəmlidir.

Tədqiqatlar göstərir ki, orta məktəblərdə peşəyönümü işinin zəif təşkili və dəqiq düşünülmüş peşə seçiminin olmaması nəticəsində əmək bazarında diplomlu işsizlərin sayı artmış olur. İşləyənlərin tərkibində öz peşə və ixtisasına uyğun olmayan sahələrdə və vəzifələrdə çalışanların sayının çoxluğu əmək bazarında tarazlığın pozulmasına, yəni, kadrların öz ixtisaslarına və təhsil səviyyəsinə uyğun iş tapa bilməməsinə gətirib çıxarır. Nəticədə, ali təhsil diplomlu bir çox şəxslərin hətta təhsil tələb olunmayan işlərdə çalışması halları yaranır, belə olduqda isə ixtisassız gənclərin bir qismi əmək bazarına daxil ola bilmir.

Məsələnin həllinə orta məktəblərdən başlamaq lazımdır. Orta məktəblərdə "Ev təsərrüfatı" fənninin tədrisinə ehtiyac vardır (məsələn, Yaponiyada bu təcrübə var). Ev təsərrüfatını səmərəli idarə etməyi bacarmaq hər kəs üçün vacib məsələdir. Şagirdlərin doğru peşəyə yönləndirilməsi və iqtisadçı kimi düşünmə bacarığını onlara aşılamaq məqsədilə "istehlakçı seçimi", "ekonomoksin 10 prinsipi" kimi mövzuların bu fənn çərçivəsidə tədrisi əhəmiyyətli olardı. Nəzərə alsaq ki, yalnız iqtisadçılar deyil, hər kəs istehlakçıdır, bunları hər kəsin bilməsi vacibdir və bu, gəncləri həm iş həyatına, həm də gələcək ailə həyatına hazırlayar, yaxşı karyera quruculuğunun və səmərəli məşğulluğun da möhkəm bünövrəsi beləcə qoyulmuş olar.

Kadr hazırlığı planlamasında Karyera Mərkəzlərinin mühüm köməyi ola bilər. Karyera Mərkəzləri öz məzunları ilə müntəzəm əlaqə saxlayıb onların işədüzəlmə və məşğulluq statistikasını tərtib edərsə, əmək bazarında ixtisaslara tələbi müəyyənləşdirmək baxımından çox əhəmiyyətli olar. Tələbə qəbulu planlarında bunların nəzərə alınması əmək bazarının ehtiyaclarının daha yaxşı ödənilməsinə şərait yaratmaqla yanaşı, gənclərimizin diplom sahib olduqları halda işsiz qalma ehtimalını da əsaslı şəkildə azalda bilər.

Dünyada gedən sürətli texnoloji inkişafı, rəqəmsallaşmanın genişlənməsini, əhali artımını, bu artımın ərzaq təminatının qarşılanması üçün geni dəyişdirilmiş, süni qidaların çoxalmasını, ekoloji vəziyyətin mənfi dəyişikliklərini və s. nəzərə alsaq, aydındır ki, gələcəkdə bu məsələlərə uyğun problemlərlə məşğul olacaq peşəkar kadrlara tələbatın daha da artacağı gözlənilləndir. Texnoloji inkişafın və rəqəmsallaşmanın

iqtisadiyyatdakı müsbət təsirləri öz yerində, insanların normal yaşaması üçün ilk növbədə keyfiyyətli ərzaqlarla təmin olunması lazımdır, hansı ki, müasir dövrümüzdə çox ciddi problemə çevrilmişdir.

Buna görə də kənd təsərrüfatının və qida sənayesinin inkişafı xüsusi diqqət tələb edir. Bu baxımdan indiki dövr üçün ən aktual və lazımlı peşələr kimi bitkiçilik, heyvandarlıq mütəxəssisləri, qida mühəndisləri və ümumiyyətlə, qida sənayesində çalışacaq peşəkar kadrların hazırlanması vacibdir.

Ekoloji vəziyyətin yaxşılaşdırılması və qorunması sahəsində məşğul olacaq kadrlara ehtiyac vardır. Ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərinin mərkəzində yerləşməsi nəqliyyat sahəsi və infrastruktur sahələri üçün kadr hazırlığının artırılmasını daha da aktuallaşdırır.

Azərbaycanda əmək bazarında məşğul əhalinin, eləcə də işaxtaranların peşə-ixtisas tərkibi barədə statistik göstəricilər məhduddur. Müntəzəm olaraq monitorinqlərin, sorğuların keçirilməsi ilə yerli əmək bazarlarından statistik göstəricilərin toplanılaraq əlaqədar orqanlara və ictimaiyyətə təqdim edilməsi vacibdir.

Əvvəlki tədqiqatlarımızda da qeyd etdiyimiz kimi məşğulluq məsələlərinin həllinə regional səviyyədə yanaşılmalıdır. Yəni, hər bir regionun yerli idarəetmə orqanları, məsul şəxsləri, iş adamları öz yaşadıqları regionda məşğulluğun artırılmasına, gənclərin lazımlı peşələrə yiyələnib layiqli işlə təmin olunmalarına yardım göstərməlidirlər. Prezidentimiz İlham Əliyev cənabları regionların inkişafına dair öz çıxışlarında çox doğru qeyd etmişdi ki: *"Azərbaycanın hər bir bölgəsi inkişaf etməlidir... Regionları hərtərəfli inkişaf etdir-*

*mək üçün güclü infrastruktur olmalıdır. Azərbaycanın gücü, bölgələrin gücündədir...”*[82]. Digər tədbirlərlə yanaşı, ali təhsil müəssisələrinin bir neçəsinin bölgələrə köcürülməsi orada həm infrastrukturun inkişafına, həm də məşğulluğun əhəmiyyətli dərəcədə artırılmasına kömək ola bilər.

Xüsusi olaraq qeyd edirik ki, peşə təhsilinin təhsildən əmək bazarına ən asan keçidi təmin etməsini və oradakı dəyişikliklərə daha çevik uyğunlaşa bilməsini, həmçinin peşə-sənət sahiblərinin sahibkarlıq fəaliyyətinə daha yaxın olması kimi üstünlükləri nəzərə alaraq gənclərin daha çox hissəsini bu təhsilə cəlb etmək lazımdır. Ümumiyyətlə, istənilən səviyyədə kadr hazırlığı prosesində gəncləri sahibkarlıq fəaliyyətinə həvəsləndirmək lazımdır ki, onlar gələcəkdə işaxtarana yox, işəgötürənə çevrilməyi daha üstün tutsunlar.

***Əsas problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:***

- Orta məktəblərin təhsil, təlim-tərbiyə, peşəyönümü vəzifələrini kifayət səviyyədə yerinə yetirə bilməməsi.
- Məqsədyönlü ixtisas seçiminin olmaması.
- Əksər gənclərdə öyrənmə həvəsinin olmaması (və yaxud ruh düşkünlüyü).
- Təhsil müəssisələri və sənaye əməkdaşlığının zəifliyi.
- Ali təhsilin əmək bazarının tələblərindən geri qalması, nəzəri dərslərin üstünlük təşkil etməsi, gənclərə lazımi praktiki bacarıqların öyrədilməməsi.

[82]Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı çıxışı: – Bakı, 11 yanvar 2019-cu il.Azərbaycan Respublikasının Prezidentinin rəsmi internet səhifəsi. https://president.az/az/articles/view/31504

- Əmək bazarında öz ixtisası üzrə işləməyənlərin sayının çoxluğu.
- Əmək bazarında perspektivsiz işlərin çoxluğu.
- Qeyri-formal məşğulluq.
- Qanunların, strategiyaların, proqramların icrasında boşluqların olması (yəni, nəticəyönümlü yox, yalnız formallıq xatirinə icra).
- Əmək ehtiyatlarının regional paylanmasının mütənasib olmaması (açılan iş yerlərinin 60%-dən çoxu Bakı şəhərinin payına düşür).
- Gənclərin məşğulluğuna dəstək layihələrinin genişmiqyaslı olmaması və s.

***Təklif və tövsiyələr:***

***Kadr hazırlığının yaxşılaşdırılması baxımından***

● Orta məktəblərdə ev təsərrüfatına aid fənnin tədrisi gənclərdə həm iqtisadi düşüncə bacarığı aşılayar, həm də onları müstəqil həyata hazırlayar.

● Məktəblərdə gənclərin peşə seçiminə dəstək verən təcrübəli peşə məsləhətçisinin olmasına ehtiyac vardır.

● Orta məktəblərdə peşə siniflərinin təşkili, yerli müəssisələrə ekskursiyalar, mütəxəssislərlə görüşlərin təşkili (məqsəd peşələri tanıtmaq, gənclərdə sahibkarlığa həvəs yaratmaq) müntəzəm olmalıdır.

● Ali məktəblərə qəbulda ixtisas seçimini məhdudlaşdırmaqla gənclərin peşə-ixtisas seçimini konkretləşdirmək olar, yəni, müxtəlif ali təhsil müəssisələrində yalnız bir ixtisasın (və yaxud ən yaxın ixtisasların) seçiminə icazə verilsin.

● Kadr hazırlığında ixtisasyönümlü tədris və istehsalat təcrübəsi imkanlarının genişləndirilməsi vacibdir.

● Əmək bazarının peşə və bacarıqlara olan ehtiyacları müntəzəm araşdırılaraq təhsil proqramlarına daxil edilməlidir (o cümlədən də rəqəmsal bacarıqların tədrisi).

● Həm təhsil, həm də peşə təlimləri zamanı gənclərdə ixtisasla yanaşı sahibkarlıq bacarıqlarının formalaşdırılması da əsas götürülməlidir.

● İstedadlı və imkansız gənclərə ödənişsiz ikinci ixtisas alma imkanı yaradılması yaxşı olardı.

***Məşğulluğun yaxşılaşdırılması baxımından***

●Özünüməşğulluq proqramının əhatə dairəsinin genişləndirilməsi və davamlılığı barədə statistikanın hazırlanması vacibdir.

● Gənclər üçün təcrübəçi yerləri açan və işlə təmin edən müəssisələri vergi güzəştləri və əməkhaqqı subsidiyaları ilə stimullaşdırmaq olar.

● Gənclərin sahibkarlığını stimullaşdırmaq istiqamətində tədbirlər: biznes ideyalarının inkişaf etdirilməsi, pulsuz konsaltinq xidmətləri, startap qurmaq üçün təlimlər və maliyyə dəstəyi, güzəştli kreditlər, qrant müsabiqələrinin təşkili və s. genişləndirilməlidir.

● Məşğulluq Agentliyinin Gənclər Fondu ilə birgə təşkil etdiyi layihələrin (“Məşğulluğa dəstək”, “Biznesini Yarat Marafonu”, “İşəgötürənlər üçün Əməkhaqqı Subsidiyası”, “Qarabağ KOB-ları”, “Peşəkar Gənclik” layihələri və s.) əhatə dairəsinin genişləndirilməsi məqsədəuyğundur.

● Avropa İttifaqı ölkələrinin təcrübəsindəki kimi gənclər üçün "İş zəmanəti" proqramının tətbiqi əhəmiyyətli olar.

● Sorğular vasitəsilə məşğulluğun keyfiyyətcə qiymətləndirilməsi (fərdi, mikro və makro səviyyədə) məqsədyönlü olar.

● Qadınlar arasında sahibkarlığı artırmaq yönündə tədbirlər, onlar üçün təlimlərin təşkili, biznes plan hazırlanmasına kömək, aşağı faizli və yaxud faizsiz mikrokreditlərlə dəstək göstərilməsi və s. məqsədəuyğundur.

***Regionlarda məşğulluğun yaxşılaşdırılması baxımından***

● Hər bir regionda Regional Peşə Tədris Mərkəzinin açılması rayon yerlərində yaşayanların, o cümlədən gənclərin öz bölgəsində iş təminatını artıra bilər.

● Regionlarda təhsil klasterlərinin yaradılması həm orada gənclərin peşə-ixtisas təhsili ilə əhatəliliyini artırar, həm də məşğulluğunu yaxşılaşdıra bilər.

● Ali məktəblərdən bəzilərinin regionlara köçürülməsi orada məşğulluğun artmasına da təkan verər.

● Kənd yerlərində yaşayan qadınlara uzaqdan iş imkanlarının öyrədilməsi, kənd məhsullarının satışı üçün dəstək göstərilməsi (ABAD layihəsi kimi), xüsusi əl qabiliyyəti olan sənətkar qadınların əl işlərini tanıtmasına və öz biznesini qurmasına imkanlar yaradılması regionlarda qadın məşğulluğunu əsaslı şəkildə artıra bilər.

● Regionlarda, xüsusilə də işğaldan azad olunmuş bölgələrimizdə sahibkarlıqla məşğul olanlara vergi güzəştləri

və subsidiyalarla dəstək göstərilməsi regionlarda iş yerlərinin yaradılmasını stimullaşdırar.

● Regionların ənənəvi sahələrinin inkişafı və fermer təsərrüfatlarının dəstəklənməsi istiqamətində daha məqsəd-yönlü işlər görülməlidir.

● İşğaldan azad olunmuş ərazilərimizdə bərpa işlərinin sürətləndirilməsi, investisiya qoyuluşunun təşviqi, peşə-ixtisas təhsili müəssisələrinin yaradılması həm orada məşğulluğun artmasına, həm də paytaxtda və Abşeron rayonu ərazisində yaranan sıxlıqla bağlı problemlərin azalmasına kömək edəcək-dir.

*İXTİSARLAR*

AR – Azərbaycan Respublikası
ARDSK - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
ARDNŞ - Azərbaycan Respublikası Dövlət Neft Şirkəti
ABAD – Ailə biznesinə asan dəstək
Aİ – Avropa İttifaqı
BMT – Birləşmiş Millətlər Təşkilatı
BƏT – Beynəlxalq Əmək Təşkilatı
BİF – Beynəlxalq İqtisadi Forum
DMA – Dövlət Məşğulluq Agentliyi
MDB – Müstəqil Dövlətlər Birliyi
RF – Rusiya Federasiyası
PTM – Peşə təhsili müəssisələri
PTS – Peşə təhsili sistemi
PTT– Peşə təhsili və təlimi
NEET – (təhsildə, məşğulluqda və ya təlimdə olmayan gənclərin xüsusi çəkisi)
SOCAR - State Oil Company of the Republic of Azerbaijan
ÜDM – Ümumi Daxili Məhsul

Nəşriyyatın Baş direktoru:
Səməd Eyvazov

Texniki redaktor:
Mail Xəlilov

Kağız formatı:60x84 1 /16
Tiraj: 300 ədəd
Həcmi: 13,75 çap vərəqi

“OPTİMİST” MMC-də  hazır diopozitivlərdən çap olunub